**RƏNA BAYRAMOVA**

# AZƏRBAYCAN RƏHBƏRLİYİNDƏ İXTİLAFLAR VƏ DAXİLİ SİYASİ ÇƏKİŞMƏLƏR

**(1920 – 1925-ci illər)**

Bakı – «Elm» - 2007

KitabYurdu.az

downloaded from KitabYurdu.az

**ELMİ REDAKTOR:** tarix elmləri doktoru, professor,
əməkdar elm xadimi **S.T.QƏNDİLOV**

**RƏYÇİLƏR:** t.e.d , prof. **D.H.Qüdrətov**
t.e.n., dos. **F.F.Əhmədova**

**R.M.Bayramova. «Azərbaycan rəhbərliyində ixtilaflar və daxili siyasi çəkişmələr (1920-1925-ci illər)».**

Bakı, «Elm» nəşriyyatı, 2007; 196 səh.

Müstəqil, demokratik, çoxpartiyalı cəmiyyətin mövcud olduğu bir zamanda totalitar sovet rejimində baş vermiş siyasi proseslərin əsil mahiyyətini açıqlamaq, xüsusən də dövlət rəhbərliyindəki daxili ixtilaflardan, siyasi çəkişmələrdən bəhs etmək asan olduğu qədər də məsuliyyətli, ciddi tədqiqat mövzusu hesab edilə bilər. İdeoloji diqtədən uzaq, obyektiv tədqiqat imkanı olduğu bir şəraitdə 1920-1925-ci illərin ab-havasını, dövlət idarəçiliyi mexanizminin özünəməxsus xüsusiyyətlərini bilmək, siyasi müstəvidə şəxsi keyfiyyətlərdən doğan, müstəqil xarakter daşıyan mübarizənin təhlilini vermək xeyli zəhmət tələb edən vəzifədir.

R.M.Bayramovanın «Azərbaycan rəhbərliyində ixtilaflar və daxili siyasi çəkişmələr (1920-1925-ci illər)» monoqrafiyası bu problemə həsr olunmuş mühüm əhəmiyyətə malik ilk əsərdir. Monoqrafiya həm mütəxəssislər, həm də geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

**İSBN 5-8066-1691-6**

4603000000
655(07) - 2007

© «Elm» nəşriyyatı - 2007

downloaded from KitabYurdu.az

# GİRİŞ

Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduğu dövrdə tarixi düzgün, obyektiv araşdırmağa, hadisələri, onları doğuran səbəbləri hərtərəfli təhlil etməyə geniş imkan və şərait yaranmışdır.

Uzun müddət düzgün şərh və təhlil edilməmiş problemlərdən biri Azərbaycan SSR-də milli siyasətin həyata keçirilməsi və bu prosesdə Azərbaycan rəhbərliyində baş verən ixtilaflar və daxili siyasi çəkişmələr məsələsidir. Bu ixtilaflar və daxili siyasi çəkişmələr 1920-1925-ci illərdə özünü daha bariz şəkildə göstərmişdir. Sovet hakimiyyətinin ilk illərində, vətəndaş müharibəsindən sonrakı dövlət quruculuğu illərində partiya rəhbərliyində, hökumət daxilində demokratik ab-hava hələ mövcud idi. Yeni hakimiyyətin yaradıcıları ümumi, vahid prinsip ətrafında birləşsələr də, fərdiyyəti ilə seçilən, dövlət quruculuğuna münasibətdə öz mövqeyi olan şəxslər idilər. Yeni həyat quruculuğu yollarında Azərbaycan rəhbərliyindəkilərdən bir çoxlarının yerli şəraiti, milli xüsusiyyətləri nəzərə almamaları milli mənafeyə ciddi zərər vurur, ixtilaf və çəkişmələrə səbəb olurdu.

Müsəlman Şərqində ilk olaraq respublika qurmuş Azərbaycan xalqı bu siyasi seçiminə ardıcıl sadiq qaldı. Azərbaycanın XX əsr siyasi tarixini üç respublika nümunəsində təqdim edənlər mahiyyət - siyasi-iqtisadi məzmun prinsipindən çıxış etsələr də, Azərbaycan Respublikasının tarixi 1918-ci ilin mayından günümüzədək davam etməkdədir. Şərti fərqləndirmə forması kimi birinci Respublikadan (Azərbaycan Cümhuriyyəti) ikinciyə (Azərbaycan SSR) keçid prosesini izləmək, tədqiq etmək, nəticə çıxartmaq, müvafiq məzmunda olmasa da, ikinci Respublikadan üçüncüyə keçəndə düzgün inkişaf kursu tutmaq, cəmiyyət həyatında yeni istiqamətləri dəyərləndirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Xüsusi mülkiyyət formasının aparıcı olduğu iqtisadiyyat, hüquqi dövlət quruculuğu yönündə çoxcəhətli fəaliyyət məzmunlu respublikadan ictimai mülkiyyət, birpartiyalı siyasi sistemə keçidin təcrübəsi əks istiqamətdə keçid üçün konstruktiv nəticələr əldə etməyə qadirdir. Bu baxımdan 1991-ci ildə müstəqilliyi bərpa olunmuş Azərbaycan Respublikasının dövlət idarəçiliyi istiqamətlərini müəyyənləşdirmək və reallaşdırmaq prosesində məhz 1920-1925-ci illərdə Azərbaycanda dovlət idarəçiliyində gedən prosesləri dərindən təhlil etmək faydalıdır.

Azərbaycan sovetləşəndən sonra ilk tədbirlərin həyata keçirilməsi, azərbaycanlıların partiya, sovet, ictimai və təsərrüfat təşkilatlarına cəlb edilməsi, bu təşkilatların azərbaycanlılaşdırılması, Azərbaycan dilinin dövlət dili kimi tətbiqi, ixtisaslı milli fəhlə kadrların hazırlanması, kommunist partiyasının Bakıda və kənddə yeritdiyi siyasət, xırda burjuaziyaya, ziyalılara, kəndlilərə və qolçomaqlara, qadın azadlığına, dinə, adət-ənənəyə münasibət, ərazi, neft və s. məsələlər Azərbaycan rəhbərliyində ən çox mübahisə və ciddi münaqişəyə səbəb

downloaded from KitabYurdu.az

olan məsələlərdən olmuşdur. Elmi tədqiqat istiqamətinin məhz bu sahəyə yönəldilməsi çağdaş Azərbaycan cəmiyyətini düşündürən problemlər baxımından da aktualdır.

Aprel çevrilişindən sonra bolşevik üsul-idarəsinin yaradılmasından keçən ilk illər Azərbaycanın dövlətçilik tarixi baxımından çox mühüm mərhələ olmuşdur. Xüsusən də milli mənafe və yerli şəraitin nəzərə alınmaması ətrafında rəhbər dairələrdə ixtilaflar və daxili siyasi çəkişmələr 1920-1925-ci illərdə özünü daha qabarıq büruzə verdiyindən, bu illər, tədqiqatın xronoloji çərçivəsini əhatə edir.

Məhz bu illər Azərbaycanda sovet dövlət idarəçiliyinin əsasının qoyulması və yeni sistemin yaradılması kimi birinci ilk beşillik mürəkkəb sınaq dövrü idi. Azərbaycan rəhbərliyində ixtilafların kəskinləşdiyi 1920-1925-ci illər həm də ixtilafların əsas tərəfdaşı kimi N.Nərimanovun istər Azərbaycan SSR-də, istərsə də SSRİ rəhbərliyində fəaliyyət dövrüdür. N.Nərimanov Azərbaycan SSR-dən uzaqlaşdırıldıqdan sonra belə respublikada gedən proseslərə biganə qalmamışdır. Respublika rəhbərliyində ixtilaflar nərimanovçuluq, xanbudaqovçuluq ideyası altında səciyyələndirildiyindən, xronoloji aidiyyət 1920-1925-ci illərə şamil edilir. Dövlət idarəçiliyi baxımından aktuallığı, mövzu ilə bağlı birbaşa aidiyyəti tədqiqat üçün bəhs edilən xronoloji çərçivəni məqsədə müvafiq etmişdir.

Öyrənilməsi zəruri və mühüm məsələlərdən biri də XX əsrin 20-ci illərində Azərbaycan SSR rəhbərliyində baş vermiş ixtilafların, daxili-siyasi çəkişmələrin səbəbləri və mahiyyətinin tədqiq edilib araşdırılmasıdır. Təəssüf ki, son dövrədək, 20-ci illərə aid tədqiqat əsərlərində son dərəcə vacib və prinsipial olan bu məsələnin üstündən əsasən sükutla keçilmiş, onun tədqiq olunub öyrənilməsinə mövcud ideoloji çərçivə tələblərindən yanaşılmışdır.

Şübhəsiz ki, Kommunist Partiyasının vahid hegemon bir partiya olduğu dövrdə partiyadaxili ixtilafları rəsmi səviyyədə obyektiv təqdid etmək mümkün deyildi.

XX əsrin 20-ci illərilə bağlı onlarla elmi monaqrafiyalar, cild-cild kitablar, əsərlər nəşr edilsə də, elmi axtarışlar aparılsa da onlar əsasən Kommunist Partiyasının və sovet qanunlarının tələblərinə uyğun, sosializmin qələbəsi uğrunda mübarizədə KP-nin rəhbər, təşkilatçılıq rolu, tədqiq edilən problemlər şəraitində yüksək partiyalılıq prinsipini rəhbər tutmaqla aparılırdı. Məsələyə bu prizmadan yanaşmaq alimlərimizin istək və arzularından deyil, hakim ideologiyanın tələblərindən irəli gəlirdi.

XIX-XX əsrlər tariximizin obyektiv yazılmamasından, onun düzgün tədqiq edilməməsindən və bu gün üçün tarixçilərimizin qarşısında duran vəzifələrdən danışan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1993-cü ilin sentyabrında respublika MEA-nın əməkdaşları ilə görüşündə bildirmişdir ki, o vaxtkı ideologiyanın təsiri altında və ya bu ideologiyanın tələbi ilə yazılan tarix, şübhəsiz ki, bizi qane edə bilməz (1. s. 154).

downloaded from KitabYurdu.az

1920-ci illərdə Kommunist Partiyasının və sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsinə, partiya quruculuğunun müxtəlif sahələrinə dair yazılmış əsərlərdən, M. Mirhadiyev (84,85,86), K. Rəhimov (96), X. Əhmədov (27), X. Əliyev (38), Y. Tokarjevski (147), M. Səlimov (101), P. Əzizbəyova (109); C. Quliyev (72,119,120); Z. İbrahimov (52); M. İsgəndərov (53, 54); M. Məmmədov (81), S. Qəndilov (65, 66, 67, 68, 69) və başqalarının elmi monoqrafiyalarını göstərmək olar. İdeoloji səciyyəsinə baxmayaraq, bu əsərlər bir çox məsələlərin və faktların öyrənilməsində elmi dəyərini saxlamışdır.

Mövzu ilə bağlı M. M. Mirhadıyevin «Proletariat diktaturası haqqında Lenin təliminin Azərbaycanda həyata keçirilməsi» əsəri maraq doğurur. Kitabda «kommunist partiyası daxilində antileninçi qrupların darmadağın edilməsi və AK(b)P-nin monolit birliyinin möhkəmlənməsi» bölümü partiyadaxili ixtilaflar haqqındadır. Hakim və yerli millətçilik əhval-ruhiyyəsindən bəhs edən müəllif Zaqfederasiya təşkilinin vaxtı çatmadığını göstərən yerli millətçiləri də ittiham edir. Bəllidir ki, bir sıra obyektiv səbəblərdən N. Nərimanov bu mövqedən çıxış edir, rəsmi yazılarında öz mövqeyini əsaslandırırdı. Müəllif 1924-cü ildə millətçi-təmayülçülərin darmadağın edilməsini mühüm qələbə kimi rəğbətlə anır. Müəllifin mövqeyi partiya sənədlərində təsbit olunmuş qərarlara müvafiq məzmun daşıyır.

Y. A. Tokarjevskinin 1956-cı ildə nəşr edilmiş monoqrafiyası əsasən xalq təsərrüfatının bərpasına həsr olunsa da, bolşevik rəhbərliyində ixtilaflara səbəb olmuş məsələlərin son həlli variantlarını əsaslandırmaq mövqeyindən yazılmış, ixtilaf amili qabardılmamış, yalnız çox qısa tərzdə 1923-1924-cü illər ərzində partiyadaxili diskussiyalarda trotskiçilərin «darmadağın edilməsindən» bəhs olunur. Bu zaman Azərbaycan K(b)P-dakı deyil, ümumən SSRİ miqyasında müxalifətdən söhbət gedir və Azərbaycan kommunistlərinin fəal, yekdil mübarizəsi qeyd edilir. Əsər tədqiqat mövzusunun mahiyyətilə bağlı faktiki və düşündürücü məlumat verir.

C. B. Quliyevin «V. İ. Lenin və Azərbaycanda sovet hakimiyyətinin qələbəsi və möhkəmlənməsi uğrunda mübarizə» əsəri milli məsələdən, bolşeviklər arasında Azərbaycanın müstəqilliyi ilə bağlı fikir ayrılığından bəhs etsə də, əsər əsasən 1920-ci il aprel çevrilişinə qədərki dövrdən bəhs edir.

Azərbaycan rəhbərliyində ixtilafların əsasən milli məsələlərlə bağlılığı C. B. Quliyevin Azərbaycanda milli siyasətin yeridilməsinə dair monoqrafiyasına diqqəti cəlb edir. Əsərin xronoloji çərçivəsi də mövzuya müvafiqdir. Zaqafqaziya respublikalarının müştərək idarəçilik sisteminin təsisatı prosesində fikir müxtəlifliyi, ayrı-ayrı kommunistlərin fərdi baxışları, rəsmi qərarların mahiyyəti, iqtisadi siyasətdə ixtilaflar, fraksiya mübarizəsindən, «Xanbudaqov qrupundan» müəllif ətraflı bəhs etmişdir.

Mövzu ilə bağlı maraq doğuran əsərlərdən biri də M. S. İsgəndərovun «Из истории борьбы Коммунистической партии Азербайджана за победу советской власти» kitabıdır. İrihəcmli bu monoqrafiyada rəsmi qərarların

downloaded from KitabYurdu.az

əsaslandırılması geniş təhlil edilmişdir. Sovet hakimiyyətinin qurulması yönündə tədbirlərə müxalif qüvvələrə trotskiçilər ümumiləşdirilməsi şamil edilsə də, partiyadaxili ixtilafların əsas iştirakçılarından olan Lominadze, Sarkis mövqeyində duranlara müəllif nəinki birmənalı mənfi münasibət göstərir, hətta kəskin ifadələrlə onların əməllərini ifşa edir. Müəllif milli mənafe baxımından deyil, partiya mənafeyi baxımından tənqid mövqeyi tutsa da, ixtilaf doğuran məsələlərin mahiyyətindən də bəhs edir.

1920-1925-ci illərdə «Azərbaycanda Sovetlərin yaradılması və ınöhkəmləndirilməsi» adlı monoqrafiyasında X. Əhmədov konkret göstəricilərlə tarixi kontekstdə sovetlərin funksiyasına təhlil vermiş, əsasən sovetlərin fəaliyyəti ilə bağlı tənqidi münasibət göstərmiş, ixtilaflar məsələsinə isə geniş yer ayırmasa da, mövcud problemlərə toxunmuşdur. Əsərin bilavasitə tədqiqat mövzusu olmadığı və dövrün tələbləri nəzərə alındığından ötəri toxunulan «Xanbudaqov məsələsi» birmənalı qiymətləndirilmişdir (27, s.111-112).

S. Qəndilovun əsərləri tədqiqat üçün təyinedici mahiyyətdədir. Bu baxımdan müəllifin yazdıqlarını zaman etibarı ilə qruplaşdırmaq faydalıdır. Mövzuya professional bağlılıq müəllifi sovet rejimi süquta yetdikdən sonra da yenidən müraciətə sövq edib. Vaxtı ilə ideoloji çərçivədə deyə bilmədiklərini sərbəst, obyektiv tərzdə şərh etmək tələbatı yeni əsərlərin yaranması ilə nəticələndi. Bununla belə hələ sovet dönəmində yazılmış «Azərbaycan Kommunist Partiyası sıralarının təmizliyi uğrunda mübarizə tarixindən» və «Azərbaycanda partiya quruculuğu məsələləri» tədqiqat üçün xüsusi əhəmiyyət daşıyır.

S. Qəndilovun «Azərbaycanda partiya quruculuğu məsələləri» monoqrafiyası 1920-1930-cu illərdə Azərbaycan Kommunist Partiyası daxilində baş verən prosesləri tematik və faktiki material əsasında araşdırmaq baxımından mövzunun tədqiqi üçün xüsusən dəyərlidir. Real hakimiyyət məzmunu daşıyan kommunist partiyası tərkibində geniş diskussiya və mövqe ayrılığına səbəb olmuş əsas məsələlər - həmkarlar ittifaqları məsələsi, partiya sıralarında təmizləmə, kadr hazırlığı, kənddə yeridilən siyasət, xüsusən də fraksiyalararası çəkişmələr, müxalifətçilərin mübarizəsi monoqrafiyada ayrı-ayrı bölmələr səviyyəsində tədqiq edilmişdir. 1971-ci ildə yazılmış bu əsər, dövrün ideoloji məzmunu imkanlarında 20-ci illərdə bolşevik rəhbərlərin Azərbaycanda yerli əhaliyə qarşı qərəzli münasibətini əks etdirməyə cəhddir. Sovet hakimiyyətinin mərkəzi orqanlarında gedən proseslərin Azərbaycan rəhbərliyində hansı reaksiyanı doğurması konkret şəxslərin mövqeyi, rəqəmlər əsasında açıqlanır. İxtilafların mahiyyəti müxtəsər, yığcam işıqlandırılsa da, aid olduğu bütün sahələri əhatə edir. Toxunulmuş məsələləri yazıldığı mühitdə obyektiv işıqlandırmaq mümkün olmadığından, S. Qəndilovun bəhs edilən monoqrafiyası mövzunu faktiki material baxımından tam əhatə edir.

Sovet hakimiyyətinin qurulmasında xidməti olmuş, 20-ci illərin ictimai-siyasi həyatında əsas rol oynamış rəhbər kommunistlər, dövlət xadimləri haqqında,

downloaded from KitabYurdu.az

onların həyat və fəaliyyətindən bəhs edən müxtəlif nəşrlər mövcuddur (26, 45, 46, 57, 58, 60, 70, 78, 103, 104, 110, 129, 130). Bu şəxsiyyətlər bilavasitə Azərbaycan rəhbərliyində təmsil olunmuş və ixtilaflar prosesində iştirakçı olduqlarından onlardan bəhs edən əsərlər də tədqiqat üçün maraqlıdır. M. Katiblinin, L. Polonskinin «Çingiz İldırım» (57, 140) kitabçaları dövrün tələblərinə uyğun məzmunda yazıldığına görə, sovet idarəçiliyi sistemindəki ixtilaflardan bəhs edilməmişdir. Eyni prinsiplə də N. Nərimanov (25, 26, 60, 70), Ruhulla Axundov (78), Mir Bəşir Qasımov (103), Sultan Məcid Əfəndiyev (39), Qəzənfər Musabəyov (58), Aleksandr Serebrovski (110), Həbib Cəbiyev (46), Əliheydər Qarayev (36), Bünyad Sərdarov (129) və başqaları haqqındakı əsərlərdə bəhs edilən şəxsiyyətlərin fəaliyyəti birmənalı müsbət ümumiləşmədə təqdim edilir, onlarla bağlı problemlər üzərindən sükutla keçilir, yaxud hər müəllif «öz qəhrəmanını» müdafiə mövqeyindən çıxış edir, onun xidmətlərini qabartmağa çalışır. Bununla belə həmin əsərlər siyasi hakimiyyətdə baş verən prosesləri düzgün dəyərləndirməyə yardım edir. Baxmayaraq ki, şəxsiyyətin fəaliyyəti sovet ideologiyasının təsbitinə yönəlmiş məzmunda işıqlandırılır, eyni zamanda rəsmi göstəricilərin təhlili düşündürücü informasiya verir.

«Azərbaycan tarixi»nin sovet dövründəki akademik nəşrinin üçüncü hissəsində milli məsələyə qismən toxunulsa da, rəhbərlikdə ixtilaflar mövzusu ayrıca başlığa çıxarılmamış, tematik mətnlərdə fikir ayrılığından cüzi bəhs edilmişdir (17, s.309, 326, 329, 331-332).

Mövzunun sovet tarixşünaslığında məzmunu vahid konsepsiya əsasında verilmiş, yalnız İ. Stalindən sonra ab-havanın dəyişilməsi təsirsiz qalmamışdır. Xüsusən burjua millətçisi kimi uzun müddət damğalanmış N. Nərimanovla bağlı xeyli tədqiqat əsərləri meydana gəlmişdir. Lakin bu dəfə N. Nərimanov milli dəyərlərə önəm verən, yerli xüsusiyyətləri və şəraiti nəzərə alan şəxsiyyət kimi təqdim edilsə də, növbəti ümumiləşdirmədə «əsil beynəlmiləlçi», «alovlu mübariz», «həqiqi leninçi» kimi təqdim olunurdu. Bu şəxsiyyətə münasibətin tarixən qütbləşməsinin səbəbləri, mahiyyəti isə yetərincə açıqlanmırdı.

Nəhayət, XX əsrin 20-ci illər tarixinə 90-cı illərdən etibarən mətbuatda, elmi monoqrafiya və əsərlərdə obyektiv baxış formalaşmağa başladı.

1990-cı ildə S. T. Qəndilovun redaktəsi ilə (68) partiya quruculuğunun bəzi məsələlərinə aid elmi əsərlərin toplusu, 1993-1996-cı illərdə isə 2 hissədən ibarət «Siyasi tarix» (102) dərsliyi 20-ci illər tarixini yeni aspektdə araşdırmaqda ilk təşəbbüs oldu. Yerli şəraitin, milli xüsusiyyətlərin düzgün nəzərə alınmaması ətrafında partiyadaxili mübahisələr, partiyada aparılan təmizlənmənin mahiyyəti və nəticələri sovet sisteminin süqutu ərəfəsində ilk dəfə idi ki, fərqli prizmadan qiymətləndirilirdi.

Partiya quruculuğu, həmçinin 1920-1922-ci illərdə Azərbaycan rəhbərliyində ixtilaflar və daxili siyasi çəkişmələrə dair D. P. Quliyevin «Kommunist» və «Vışka» qəzetlərində çap etdirdiyi məqalələr də ilk maraqlı və

downloaded from KitabYurdu.az

obyektiv tədqiqat işləri idi. D. Quliyevin arxiv materialları əsasında yazdığı elmi məqalələri partiyanın müxtəlif sahələrdə yeritdiyi siyasətə, N. Nərimanovun apardığı mübarizəyə, rəhbərlikdə olan hərc-mərcliyə və s. problemlərə həsr edilmişdir. Xüsusən «Lenin: necə bilirsiniz eləcə edin», «Bakı məsələləri» adlı məqalələri sırf partiyadaxili ixtilaflara toxunur. Bu da çağdaş tarixşünaslıqda Azərbaycan rəhbərliyindəki çəkişmələrə dair ilk tədqiqat işi idi.

Z. Bünyadovun «Qırmızı terror» (21) kitabı aprel çevrilişindən sonra bolşeviklərin siyasətini, qarətlər, kütləvi həbslər və zorakılıqları öyrənmək baxımından gərəkli nəşrdir.

C. Həsənovun 1993-cü ildə çapdan çıxmış «Ağ ləkələrin qara kölgəsi» (43) monoqrafiyası qiymətli tədqiqat işi olmaqla 20-ci illərin əvvəllərində respublikada başlanan sosial-siyasi prosesləri bu günün tələbləri baxımından təhlil edir.

N. Məhərrəmovun şəxsiyyətə pərəstişin qurbanı olmuş bir sıra görkəmli dövlət xadimləri haqqında, o cümlədən, hələ 20-ci illərin əvvəllərindən milli məsələdə öz mövqeyi ilə qeyri azərbaycanlılardan olan rəhbərlərə qarşı mübarizliyi ilə seçilən Ə. Ş. Xanbudaqovun həyatı, faciəli taleyi, milli siyasətlə bağlı apardığı mübarizəyə həsr olunmuş tədqiqat işləri – «Getsin gəlməsin 1937» (80) sənədli-publisist oçerklər toplusu, «Tək əldən də səs çıxar» elmi məqaləsi maraqlıdır. Müəllifin 1995-ci ildə çap olunmuş «Daşnaksütyun və Azərbaycanın taleyi» kitabı (79) aprel çevrilişindən sonra erməni bolşeviklərinin apardıqları məkrli siyasətin iç üzünü açıb göstərir.

B. Rəfiyevin 1991-ci ildə çap olunmuş «Gənc-Azər» və 1995-ci ildə «Aysberqin sualtı hissəsi» (94, 95) kitabları aprel çevrilişindən sonrakı hadisələri araşdırmaqda mühüm rol oynayır. Əsərin əsas məziyyəti sırf rəsmi arxiv sənədlərinə söykənməsidir.

F. İbişov 1996-cı ildə çap olunmuş «Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930)» (49) monoqrafiyasında tariximizin ən ziddiyyətli və mürəkkəb illəri olan 20-ci illərdə Azərbaycan kəndindəki sosial-siyasi prosesləri yeni arxiv sənədləri əsasında təhlil və tədqiq etmiş, ilk dəfə olaraq kənddə yeridilən siyasət ətrafında Azərbaycan rəhbərliyindəki ixtilaflara da yeni baxışla ətraflı toxunmuşdur. Paraqraflardan biri isə «Kənddə yeridilən siyasət ətrafında rəhbər dairələrdə ixtilaflar» adlanır.

A. Hacıyevanın «20-ci illərin siyasi tarixinin bəzi məsələləri» əsəri (42) dünyadakı ictimai-siyasi vəziyyətlə yanaşı sovet cəmiyyətində gedən proseslərdən bəhs edir, Azərbaycanda milli dövlət quruculuğu zamanı milli siyasətdə müxtəlif mövqelərin olması, partiyadaxili mübarizənin ölkənin mənəvi həyatına təsiri kontekstində araşdırılır.

20-ci illərlə bağlı X. İbrahimlinin «Azərbaycan siyasi mühacirəti (1920-1990) monoqrafiyasında (50) 1920-ci il aprel istilası ilə başlanan Azərbaycan mühacirətinin yeni mərhələsi, onu yaradan şərait və səbəblər, aprel işğalından

downloaded from KitabYurdu.az

sonra Azərbaycanda ümumi vəziyyət, müqavimət hərəkatı və s. mühüm hadisələrə obyektiv yanaşılmışdır. İ. Musayevin 1996-cı ildə çap olunan «Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər) (87) kitabı respublikanın ərazi bütövlüyü məsələsinə həsr olunan çox vacib, məqamlara toxunan mühüm elmi monoqrafiyadır. Bəllidir ki, bu problem sovet hakimiyyətinin ilk dövründə kəskin məsələlərdən idi və onun ətrafında da fərqli mövqe tutanlar arasında ixtilaflar mövcud idi.

Yeni nəşrlərdən T. Köçərlinin «Qarabağ: yalan və həqiqət» (62) kitabı da xalqımız üçün ən vacib məsələ olan ərazi bütövlüyü və Nərimanovun mövqeyi məsələsinə aydınlıq gətirən dəyərli tarixi əsərdir.

Azərbaycanda sovetləşmədən sonrakı hadisələrə dair C. B. Quliyevin rus dilində 1997-ci ildə çap olunmuş «К истории оброзавания второй республики Азербайджана» (119, 120) kitabı da xeyli maraq doğurur.

C. Quliyev, V. İ. Leninə göndərilmiş 1920-ci il 2 may tarixli teleqramın sovet dövründə gizli saxlanılan son hissəsini elmi dövriyyəyə daxil etməklə bir çox məqamların, o cümlədən Azərbaycanın sovet rəhbərliyində yaranmış, getdikcə kəskinləşmiş ixtilafların mənşəyini diqqətə çatdırır (119, s.11). Əsərin «İctimai-siyasi təşkilatlar» bölümü, xüsusən də «Azərbaycanda dövlət quruculuğu» fəsli mövzu üçün xeyli maraqlı material verir. F. Əhmədovanın 1998-ci ildə çap olunmuş «Nəriman Nərimanov - ideal və gerçəklik» kitabında (33) 1920-ci il, Azərbaycanda sovet hakimiyyətinin qurulduğu dövrdə, N. Nərimanovun siyasi fəaliyyəti, milli mövqedən mübarizə aparması sənədlər və tarixi faktlar əsasında təhlil edilmişdir. Kitabın «İxtilaflar labüd idimi?» bölümü tədqiqat mövzusunun məzmununa aiddir. Müəllif aprel çevrilişindən dərhal sonra Azərbaycanın milli dövlət mənafeyinin zərbə aldığını tematik və faktiki materiallarla açıqlayır.

Dövlət xadimi və siyasətçi kimi N. Nərimanovun irsi həmişə aktual olduğundan tarixin müxtəlif dövrlərində, bu mövzuda çoxlu yazılara, dövrü mətbuatda çıxan publisist və elmi məqalələrə rast gəlinir. 1987-ci ildə M. P. Gevorkova tərəfindən «N. Nərimanovun dövlət fəaliyyəti (1917-1925-ci illər)» (118) mövzusunda yazılmasına və namizədlik dissertasiyası kimi müdafiə edilməsinə baxmayaraq, N. Nərimanovun siyasi fəaliyyəti dövrünə görə dərin tədqiq edilməmişdir.

T. Köçərlinin (62), F. Əhmədovanın (28, 29, 30, 31, 32, 33, 34, 35), C. Quliyevin (119), F. Köçərlinin (61), E. Fətullayevin (148), R. Xudiyevin (149) əsərlərində N. Nərimanov şəxsiyyətinə tarixilik baxımından obyektiv yanaşılaraq, onun siyasi xadim kimi gərgin fəaliyyəti və mübarizəsi şərh olunur.

1994-cü ildə A. Hacıyevanın nıüdafiə etdiyi «N. Nərimanovun nəzəri fəlsəfəsi irsində dinə münasibət» haqqında namizədlik dissertasiyası Nərimanovun ictimai-siyasi baxışları və dünyagörüşünün elmi araşdırılmasında növbəti bir addım idi. Belə ki, dinə münasibət məsələsi də siyasi ixtilaflar mövzusuna daxil idi. Sovetləşmədən sonra dinə qarşı bolşeviklərin apardığı mübarizə M. Quliyevin (71)

downloaded from KitabYurdu.az

«Azərbaycanda dövlət və din münasibətləri (İslam dini timsalında, 1920-2000-ci illər)» kitabında xüsusi yer tutur. N. Nərimanovun digər kommunistlərdən fərqli olaraq xalqın milli və dini hisslərinə hörmətlə yanaşması, əks mövqedən çıxış edənlərə qarşı mübarizəsi faktlar əsasında təsdiqini tapmışdır.

F. İbişovun «Tarix və onun problemləri» jurnalında «Azərbaycanda 20-ci illərin birinci yarısında kəndə münasibətdə ixtilaflar» (48) adlı elmi məqaləsi tədqiqat mövzusu üçün xüsusi maraq kəsb edir. Aprel çevrilişindən sonrakı hadisələrə Məmməd Cəfərin (83) «Elm və həyat» jurnalında nəşr olunan «Tarixin dərsləri» adlı məqaləsində obyektiv qiymət verilmişdir.

XX əsrin 20-ci illərində «nərimançılıq» düşüncəsinə qarşı mübarizə siyasi ixtilafların əsas tərkib hissəsi olmuşdur. N. Nərimanova «burjua millətçisi» damğası vurulurdu, sovet rejiminin süqutundan sonra isə «millət xaini» kimi ittihamlar işlədilməyə başlandı. Bu zəmində fərqli mövqeli araşdırmalar meydana çıxdı. Onlardan biri də Ş. Qurbanovun «Nəriman Nərimanov dünyası» (74) əsəridir. Müəllifin 1991-ci ildən 2001-ci ilədək mövzu ilə bağlı məqalələr toplusu olan bu kitab tarixə, şəxsiyyətlərə qərəzli münasibətə qarşı yönəlmişdir. Kitabın təkmilləşmiş, əlavələr edilmiş ikinci nəşrinə H. Həsənovun yazdığı irihəcmli sözönü tədqiqat mövzusu üçün çox dəyərlidir. Burada Azərbaycan rəhbərliyində ixtilaflara səbəb olmuş məsələlər kontekstində N. Nərimanovun mövqeyi təhlil edilir. Xüsusən «milli təmayüllü kommunist», yaxud «Nərimançılıq», «N. Nərimanov və milli-mədəni inkişafımız», «N. Nərimanovun Azərbaycandakı inqilabi proseslərə bolşeviklərdən fərqli baxışı» başlıqları siyasi tariximizə yeni baxışın təzahürüdür.

X. Köçərlinin «Azərbaycan 1920-1940-cı illərdə» (63) adlı tədris vəsaiti yeni dövrdə yazılmış dəyərli kitablardandır.

20-ci illərdə aprel çevrilişindən sonrakı hadisələr xarici müəlliflərin tədqiqatlarında da öz əksini tapmışdır. Onlardan F. Kazımzadə (152), O. Alstat (151), T. Svyataçovski (153) və başqalarını göstərmək olar ki, mövzu ilə birbaşa əlaqədar olmasa da, bu əsərlər o dövrün hadisələrini öyrənib nəticə çıxarmaq baxımından qiymətlidir. Sovetləşmədən sonrakı hadisələr qərb müəllifləri ilə yanaşı, mühacirət ədəbiyyatında da xüsusi yer tutur. M. Ə. Rəsulzadənin (98, 99, 100), C. Hacıbəylinin (117), M. B. Məmmədzadənin (82), H. Baykaranın (19) əsərləri Aprel çevrilişindən sonra Azərbaycanda baş verən proseslərə münasibət baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan tarixinin sonuncu ümumiləşdirilmiş akademik nəşri tədqiqat mövzusunu da özündə əhatə edən yeni baxışın məhsuludur. Yeddi cildliyin altıncısında «Azərbaycan partiya təşkilatı daxilində» mübarizəyə yer verilmişdir (18, s.81-200). Hərtərəfli tematik başlıqlarla seçilən əsər yalnız tədqiqat mövzusunun təfsiri üçün deyil, həm də ixtilaflar prosesinin kompleks araşdırılması üçün faydalıdır.

downloaded from KitabYurdu.az

Problemin öyrənilmə səviyyəsi monoqrafiyanın məqsəd və vəzifələrini müəyyən edir. 1920-ci illərdə Azərbaycan rəhbərliyində ixtilaflar və daxili-siyasi çəkişmələr problemi müstəqil mövzu kimi işlənilməmiş və çox vacib bir məsələ olduğuna görə, başlıca məqsəd bu sahədəki boşluğu doldurmaqdan ibarətdir.

Monoqrafiyanın hazırlanmasında müxtəlif mənbələrə müraciət və istinad edilmişdir. Bunların əsasını arxiv sənədləri və materialları, dövri mətbuat təşkil edir. Dövri mətbuatla yanaşı, Azərbaycan Respublikasının siyasi partiyalar və ictimai hərəkatlar arxivinin fondlarından (1, 2, 268, 609, 456) və Azərbaycan Respublikası dövlət arxivinin (410, 27, 28) fondlarından geniş istifadə edilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1920-1925-ci illərdəki qərar və sərəncamları, sənədlər, siyasi mühacirlərin əsərləri, N. Nərimanovun və başqa siyasi xadimlərin şəxsi arxiv fondları, Azərbaycan KP MK-nın o dövrdəki fəaliyyətini əks etdirən partiya qurultayları və plenumlarının, büro iclaslarının protokol və stenoqramları mənbə kimi monoqrafiyanın yazılmasında çox böyük rol oynamışdır.

Bəhs edilən dövrün rəhbər xadimlərinin əsərləri də (l, 76, 89, 90, 91, 92, 98, 99, 100, 104, 134, 135, 136) tədqiqat üçün qiymətli mənbədir.

Bu tarixi sənədlər nəinki Azərbaycanda 1920-1925-ci illərdəki siyasi vəziyyəti daha dərindən öyrənməyə, həm də dövrün ab-havasını, partiyadaxili ixtilaf və çəkişmələrin səbəblərini başa düşməyə imkan yaradır.

1920-ci illər Azərbaycan tarixinin ziddiyyətli dövrü olduğundan, o dövrün hadisələri doğru, düzgün təhlil və tədqiq edilərək ictimaiyyətə çatdırılmalıdır.

# I FƏSİL. AZƏRBAYCANIN BOLŞEVİK RƏHBƏRLİYİNDƏ İXTİLAF VƏ ZİDDİYYƏTLƏRİ YARADAN ŞƏRAİT VƏ SƏBƏBLƏR

## 1.1. Aprel çevrilişindən sonra Azərbaycanda kütləvi zorakılıqlar və ictimai-siyasi həyatın gərginləşməsi

1920-ci ilin əvvəllərindən Sovet Rusiyasının xarici siyasətində Azərbaycanı işğal etmək ön plana çəkilmişdi ki, bu da 1920-ci il aprelin 27-də XI Ordunun gücü hesabına həyata keçirildi. Müvəqqəti İnqilab Komitəsi aprelin 28-də Azərbaycanın yeni ali-siyasi hakimiyyət orqanı elan edildi.

Yeni qurulmuş Azərbaycan Sovet Respublikasının bu dövrdə beynəlxalq vəziyyəti, daxildəki siyasi-iqtisadi durumu son dərəcə ağır olmaqla yanaşı, həm də qeyri-müəyyən idi. Bakı nəinki təkcə Rusiyanın, eləcə də Antanta dövlətlərinin xüsusi marağında idi. Gürcüstanın menşevik hökumətinin Batumu Antantaya verməsindən sonra İngiltərənin Azərbaycanı «bolşevik əsarətindən» azad etməsi kimi plan hazırlandığından Rusiya tezliklə Azərbaycanın müdafiəsinə dair qurudan və dənizdən Bakının ətrafını möhkəmləndirmək sahəsində ciddi tədbirlər gördü.

downloaded from KitabYurdu.az

Aprel çevrilişindən keçən ilk vaxtlarda Ermənistan tərəfindən Azərbaycan ərazisinə edilən təcavüz nəticəsində ölkəyə dəyən böyük iqtisadi dağıntılarla yanaşı, 1918-ci ilin mart faciəsini yaşamış xalqda çaşqınlıq, mənəvi sarsıntı, ruh düşkünlüyü var idi. Xalq hadisələrin nə ilə nəticələnəcəyindən bədgüman idi. Bu dövrdə Azərbaycanda millətlərarası düşmənçilik mühiti yaranmışdı. Yaranmış yeni hökumətə münasibət heç də birmənalı deyildi. Hətta əhalinin bir hissəsində son dərəcə mürəkkəb vəziyyətdən çıxış yolunu «xilaskar» XI Ordunun gəlişində görənlər də var idi. Ən çox XI Ordunun Azərbaycana gəlişindən qeyri millətlərin nümayəndələri, xüsusən milli intiqam hissi ilə yaşayan ermənilər, ruslar işğalçı ordunun timsalında öz müdafiəçilərini görərək yeni yaranmış hökumətə üstünlük verirdilər.

1920-ci ilin aprelin 27-dən avqustun 25-dək Azərbaycanın 16 qəzasında inqilab komitələri təşkil edildi. (12, f.410, s.l, iş 130, s.4). Azərbaycan İnqilab Komitəsinin xalqa ilk müraciətində «Qızıl Orduya qarşı silahlı müqavimət göstəriləcəyi təqdirdə terrora əl atılacağı» (114, s.11) bəyan edilmişdi. Bir sıra səbəblərdən çevrilişin ilk vaxtlarında nə milli orduda, nə də xalqda XI Orduya qarşı ciddi müqavimət göstərilmədi, çünki saysız itkilərlə nəticələnəcək müqavimət, qüvvələr nisbətində mənasız idi.

Aprel çevrilişinin ilk günlərində Azərbaycanın iqtisadiyyatı böhranlı vəziyyətdə idi. Respublikanın, eləcə də əhalinin ağır ərzaq böhranı içərisində qalması, səfalət içərisində yaşaması bir tərəfdən, digər tərəfdən də XI Ordunun uzun müddət Azərbaycanda yerləşdirilərək təmin edilməsi, əlavə olaraq birinci cahan müharibəsindən sonra qaçqın düşən ermənilərin cəbhədən qayıdan zaman Bakıda dayanması, sığınacaq alaraq yaşaması, xüsusən Bakının neft sənayesində işlə təmin edilməsi onsuz da gərgin olan vəziyyəti daha da pisləşdirmişdi.

AK(b)P MK-nın 1920-ci il sentyabrın 15-də keçirilmiş iclasında belə bir qərar qəbul edilmişdir: «Azərbaycan İnqilab Komitəsinə təklif edilsin ki, Mərkəzi köçürmə məntəqəsindən buraxılış vərəqəsi alan qaçqınlar vətənlərinə buraxılsınlar, qalanlarına isə geriyə, Rusiyaya qayıtmağa imkan verilsin. Şimali Qafqaza və Krasnavodska xəbər çatdırılsın ki, ərzaq məsələsi çətin olduğu üçün Bakıya qaçqınlar qəbul edilməyəcək, ona görə də belələrini göndərməsinlər» (94, s.15.).

Azərbaycanda aprel çevrilişindən sonra Sovet hökuməti xalqa zorla qəbul etdirilirdi. Sovetləşmənin əvvəllərində hakimiyyətə gələn bolşevikləri çox ciddi bir məsələ narahat edirdi ki, bu da Zaqafqaziyada sovet hakimiyyətinin süngü gücünə yaşaması idi. Lakin belə məsuliyyətli dövrdə onu süngü gücünə çoxmu saxlamaq olardı? Hadisələrə obyektiv və düzgün münasibət bildirmək hələ çox tez idi.

Bu dövrdə Azərbaycanın sosial-iqtisadi vəziyyəti ağır olaraq qalırdı, kənd təsərrüfatı xüsusilə bərbad halda idi. Sovetləşmənin başlanğıcında Rusiyada olduğu kimi, Azərbaycanda da əsaslı konsepsiyanın olmamasından istər sənaye sahəsində, istərsə də aqrar sahədəki buraxılan səhvlər vəziyyəti daha da ağırlaşdırırdı. Hökumət orqanları gərgin vəziyyətdən çıxmaq üçün fövqəladə üsullara əl atmağa

downloaded from KitabYurdu.az

məcbur oldular: ərzaq diktaturasının elan edilməsi, silahlı dəstələrlə məsələlərin həll edilməsi, yoxsul komitələrin təşkili, ərzaq çatışmazlığı, bəzi problemlərin aradan qaldırılmaması və s. Artıq 1920-ci ilin axırı üçün məlum oldu ki, xalq təsərrüfatını bu cür yollarla bərpa etmək düzgün deyil. Gənc sovet hökumətinin siyasətində Rusiyaya neft ixracının tələsik bərpası və istismarı iqtisadiyyatı xeyli ağırlaşdırmışdı. Ağır vəziyyəti yüngülləşdirmək üçün hökumət 1921-ci ilin yazından Yeni İqtisadi Siyasətə /YİS/ keçmək haqqında göstəriş verir. Bolşeviklərin hakimiyyətini gücləndirmək, xalqın aclığının qarşısını almaq, k/t-nın inkişafı üçün YİS zəruri islahatlar sistemi idi.

Sovetləşmənin ilk vaxtlarında partiya quruculuğunda olan çətinlikləri, xüsusən milli mənafeləri və yerli şəraiti nəzərə alan və bu xüsusiyyətlərə hörmətlə yanaşan rəhbər partiya üzvləri az idi. Yerli kadrlara qarşı inamsızlıq və etimadsızlıq, onların rəhbər vəzifələrə çəkilməməsi vəziyyəti daha da mürəkkəbləşdirirdi.

Çevrilişdən əvvəl əgər əhalinin bəzi hissəsində bolşeviklərə ümidlə baxanlar var idisə, çevrilişin ilk günlərindən bu ümidlər qırıldı.

Sənədlərlə diqqətlə tanış olduqda görürük ki, Azərbaycanda sovet-totalitar rejimi öz ağalığının təməlini başlıca olaraq 3 istiqamətdə quraraq inkişaf etdirmişdi:

l.Dövlət quruculuğu və hakimiyyət uğrunda mübarizə;

2.Ölkə iqtisadiyyatı üzərində totalitar idarə rejimini bərqərar etmək;

3.Siyasi və ideoloji iş sahəsində bütün vasitələri rejimin əlində cəmləşdirmək.

Azərbaycanda sovet hakimiyyəti qurulan kimi hələ 1920-ci ilin fevralında yaradılmış AK(b)P ölkədə siyasi rəhbərlik adı altında bütün yuxarıda göstərilən 3 istiqamətdə rəhbərliyi tamamilə öz əlində cəmləşdirir. Ölkədə hər şey bu partiyaya, onun «demokratik mərkəziyyət prinsipləri əsasında qurulmuş» rəhbər orqanlarına tabe edilir. Bütün hakimiyyət tam şəkildə partiyanın mərkəzi komitəsindən başlayaraq aşağı getdikcə yerli təşkilatların əlində cəmləşdirilir (93, 21-22.07.2001).

Aprel çevrilişindən sonra Azərbaycanda diktatura bərqərar oldu. Bolşeviklər xalqın adından çıxış edərək yaranmış dövləti proletar diktaturası adlandırdılar. Bu isə hakim bolşevik partiyasının hökmranlığına bir növ siyasi pərdə idi.

Danılmaz fakt idi ki, sovet Rusiyası Azərbaycanı işğal etmişdi. Acınacaqlı o idi ki, sözdə «müstəqil» olan Azərbaycana Rusiyanın bolşevik hökumətinin antiazərbaycan siyasəti, bütün münasibətlərdə iki müstəqil dövlətin deyil, imperiya ilə müstəmləkənin qarşılıqlı münasibətləri, milli mədəniyyət və ənənələrə etinasızlıq, yerli dilə nifrət, böyük qardaş rolunu zorla qəbul etdirmək və s. ilə açıq göstərmək idi.

downloaded from KitabYurdu.az

Sözdə Rusiya imperiyasının dağıldığını elan edən bolşeviklər əslində özünün müstəqilliyini elan etmiş dövləti keçmiş sərhədləri hüdudunda qoruyub saxlamağa cəhd göstərirdilər. Bununla da onlar müstəmləkə siyasətinin layiqli davamçıları kimi hərəkət etdilər (94,s.7).

Azərbaycanda sovet hökumətinin ilk günlərindən başlayaraq XI Ordunun xüsusi şöbəsi kommunistlərdən başqa bütün mövcud siyasi qüvvələrə, hətta liberal əhval-ruhiyyəli adamlara, ziyalılara belə amansız divan tutmağa başladı. On nəfərdən çox azərbaycanlı general məhkəməsiz, istintaqsız güllələndi (21, s.39). Azərbaycan ordusu XI Orduya qarşı vuruşmamışdı, əslində generallar təqib olunmamalı idi.

Azərbaycanda təqiblər, kütləvi həbslər və fərdi terrorlar əsasən XI Ordu və ona tabe olan təşkilatlar tərəfindən törədilirdi. Ümumiyyətlə, dövlət səviyyəsində tətbiq edilən terror siyasəti qorxu vahiməsini kütləvi surətdə şüurda möhkəmləndirmək üçün əsas vasitə idi. Belə ki, inqilabi tribunal, FK (Çeka), XI Ordunun Xüsusi Şöbəsi (Osobı otdel) birbaşa ordu komandanlığına və mərkəzə tabe idi. Ona görə də bu təşkilatların fəaliyyətinə Azərbaycan hökuməti demək olar ki, hakimiyyətinin ilk aylarında nəzarət edə bilmirdi. 1920-ci il mayın 16-da Bakıya gələn və Azərbaycanda İnqilab Komitəsinin sədri kimi fəaliyyətə başlayan Nəriman Nərimanov vəziyyətin onun düşündüyündən də çətin olduğunu başa düşdü. O, işlə tanış olduqdan sonra Azərbaycan İnqilab Komitəsinin razılığı olmadan güllələnməni qadağan etmişdi.

1920-ci ilin aprelin 28-dən 1921-ci ilin avqustuna qədər Azərbaycanda 48 min adam qırmızı terrorun qurbanı olmuşdur (48, N3, 1990, s.19).

Bütün bu faciə və dəhşətlər sosializmin mahiyyətindən irəli gəlir, yoxsa bunun digər səbəbləri var idi?

Suala cavab aprel çevrilişindən sonra respublika Xalq Təsərrüfatı Şurasının sədri N. Solovyovun Leninə göndərdiyi «Çevrilişdən sonrakı 3 ay müddətində bizim Azərbaycanda siyasətimiz» adlı hesabat qeydində açıq surətdə verilir. N. Solovyov yazırdı ki, çevrilişə qədər hətta azərbaycanlı ziyalılar içərisində də sovet hakimiyyətinə rəğbət bəsləyənlər var idi.

Məlumdur ki, Azərbaycan hökuməti azərbaycanlılardan təşkil edilmişdir. Heç kimə sirr deyildir ki, Azərbaycan hökumətinin üzərində də bir hakimiyyət mövcuddur. O, Azərbaycan KP-nin hakimiyyətidir. Partiya rəhbərliyi isə əsasən erməni və gürcülərin əlindədir. Bunlar isə sanki Azərbaycanı başsız qoymaq fikrinə düşmüşlər. Ziyalılar soldan-sağa, sağdan-sola güllələnir. Küçələrdən kütləvi surətdə həbs edilən müsəlmanlara qarşı ermənilərin istehzalı gülüşləri müsavatçıların əvvəlcədən söylədikləri belə bir fikri təsdiqləyir ki, Azərbaycanda sovet hakimiyyətinin qurulması ümummilli fəlakətdir (8, s.21).

Azərbaycan Xalq Cümhuriyyəti dövründə dərc edilən bitərəf və siyasi partiya qəzetlərinin əksəriyyəti bağlandı. Rəsmi dövlət orqanı «Azərbaycan»ın da nəşri dayandırıldı, onun yerinə «Kommunist» qəzeti dərc olunmağa başladı.

downloaded from KitabYurdu.az

1920-ci il 27 aprel işğalından sonra Azərbaycan Kommunist Partiyasından başqa heç bir partiyanın leqal fəaliyyətinə imkan qalmadı. Gəncə, Qarabağ, Şəki və Zaqatalada lokal xarakterli hərbi çıxışların, silahlı üsyanların əsas təşkilatçıları kimi «Müsavat» və «İttihad»ı ittiham etmək, siyasi partiyalara qarşı amansız mübarizənin başlayacağını xəbər verirdi (50, s. 56).

M. B. Məmmədzadə aprel çevrilişindən sonra siyasi partiyaların, xüsusən «Əhrar»ın gizli fəaliyyətə keçməsinə dair yazırdı: «Əhrar, nisbətən şimal bölgəsində nüfuzu olan bu partiya yarandığı gündən Müsavatı Türkiyəyə arxa çevirməkdə, şiələri vəzifəyə yerləşdirməkdə ittiham etməklə və sünnilik məzhəbini qabartmaqla populyarlaşmaq taktikası seçmişdir. Sovet hakimiyyətinin ilk günlərində özünü buraxmaq haqqında qərar çıxardı və bir-iki il sonra onun üzvləri rəsmən Müsavat firqəsinə girdi» (82, s.148).

Sosialist fraksiyasına daxil olan «xalqçı sosialist firqəsi» bolşevik platformasını qəbul edərək üzvlərini məsul vəzifələrə yerləşdirə bildi. Lakin, «fəal xalqçılardan» Aslan Səfikürdski, Rza Qaraşarlı, Camo Hacınski, Rza Şabanov, Kərim Feyzullayev, Xankişi Şahverdiyev və digər 26 nəfər 1922-ci ilin sonlarında Azərbaycan SSR Ali İnqilabi Tribunalın «eser partiyasının Zaqafqaziya təşkilatının işi» adlı qondarma ittihamı ilə mühakimə olunub müxtəlif müddətli həbs cəzaları aldılar (50, s.57).

1920-ci ilin yazından «İttihad» gizli fəaliyyətə keçərək özünü güclü antisovet bir partiya kimi göstərə bildi, 1920-ci ilin iyulunda 3 müstəqil qrupa bölündü: «Vətən və ya ölüm», «Mərkəzi İttihad», «Quranın əmin-amanlığı». Göstərilən qruplar ideya və təşkilati cəhətdən müstəqil işləyirdilər, amma hamısı sınanmış siyasətçi Qarabəyovun rəhbərliyi altında «məhv olsun sovet hakimiyyəti», «Bolşevizmə ölüm!», «Başda milli hökumətlər olmaqla Şərqdə müsəlmanlığa eşq olsun!» şüarı ətrafında birləşirdilər (21, s.8).

Həmin dövrdə məram və xarakterinə görə «İttihad»a yaxın olan dini təmayüllü partiyalar fəaliyyətini gücləndirirdilər. Əsasını Türkiyəli zabitlər təşkil edən «İslam» partiyası, adından göründüyü kimi İslamı təbliğ edirdi. «İttihad»la «İslam» birləşərək «İttihadi İslam» («İslam birliyi») Partiyası yarandı.

1921-ci il mayın 5-də «İttihadi İslam» «İslam-əl Quran»la birləşib «Milləti İslam» adını qəbul etdi (50, s.60).

Siyasi partiyalara qarşı repressiya RK(b)P Qafqaz bürosunun qərarı ilə bütün Zaqafqaziyada həyata keçirilirdi. 1921-ci il iyunun 16-da Azərbaycan K(b)P Siyasi Bürosunun məxfi iclasında menşevik və başqa partiyaların ləğv edilməsi ilə bağlı Qafqaz Bürosunun teleqramı oxunarkən N. Nərimanov ona münasibətini belə ifadə etmişdir: «Azərbaycanda bu teleqramı «ittihadçılara qarşı mübarizə aparılmalıdır» kimi başa düşmək olar, çünki bizdə menşeviklər və başqa təşkilatlar çox zəifdir» (50, s.61).

«Günəş-Qafqaz», «Azərbaycan milli müdafiə İslam firqəsi» və s. partiyalar da o dövrdə təqibə, terrora məruz qalmışdı.

downloaded from KitabYurdu.az

Milli müqavimət hərəkatının aparıcı qüvvəsi olan Müsavat Partiyası aprelin 27-də gizli fəaliyyətə keçmələri haqqında qərar verdi. Onun gizli fəaliyyət dövrünü 4 mərhələyə bölmək olar: 1.1920-1923-cü illər, 2.1923-1927-ci illər, 3.1927-1931-ci illər, 4.1931-ci ildən II Dünya müharibəsinə qədərki mərhələ (50, s.66).

Z. Bünyadov aprel çevrilişindən sonra partiya üzvlərinə, ziyalılara qarşı aparılan kütləvi həbsləri çox aydın işıqlandıraraq yazırdı: «1920-ci ilin may ayından Azərbaycan ÇK (FK) təxmini həbslərə başladı. Həbs olunanları 3-4 ay ara vermədən sorğu-suala tutdular. Nəticədə fövqəladə Komissiya həmin dövrdə demək olar ki, fəaliyyət göstərən bütün partiyaların üzvləri barədə özünə lazım olan məlumatı yığa bildi. Toplanmış materiallar FK-ya «Müsavat»ın fəaliyyətindəki zəif və güclü cəhətləri müəyyənləşdirmək, öncülləri, potensial fəalları aşkara çıxarmaq... yaxın gələcəkdə qəti addımlar atmaq imkanı verdi. 1920-ci ilin sonlarından 1923-cü ilin ortalarınadək Fövqaladə Komissiya «Müsavat» partiyası üzvləri arasında seçmə həbslər apardı. Həbs olunanlar içərisində Kərbəlayi Vəli Mikayıl oğlu Mikayılov, Rəhim Vəkilov, Qurban Musayev və b. 30-dan çox müsavatçı var idi» (21, s.40). 1924-cü il aprel ayında 100-dən çox müsavatçı mühakimə olunaraq 2-3 il müddətinə Yaroslavl, Suzdal, Solovetski həbs düşərgələrinə göndərilmişdilər.

Hər dəfə «antisovet ünsürlərin» həbsi ilə əlaqədar keçirilən genişmiqyaslı aksiyalardan sonra Azərbaycan FK rəhbərliyi, AK(b)P liderləri açıq şəkildə bildirirdilər ki, Azərbaycanda «xalq əleyhinə» partiyaların kökü kəsilmişdir. 1923-cü ildə də belə olmuşdu. Yayın əvvəlində növbəti kütləvi həbslər zamanı müsavatçıların gizli təşkilatının bir qrup nümayəndəsi zindana atılmışdı. Çekanın qarşısında dustaqların açıq şəkildə günahlarını etiraf etməsinə və Sovet hakimiyyətinə qarşı mübarizəni dayandıracaqları haqqında təminat vermələrinə nail olmaq vəzifəsi dururdu (94, s.24).

1920-ci il 27 aprel işğalı ilə əlaqədar Azərbaycandan kənara yeni mühacir axını başlandı. Aparılan terror və kütləvi həbslər Azərbaycan Xalq Cümhuriyyətinin liderlərini, görkəmli dövlət və siyasət adamlarını ölkəni tərk etmək məcburiyyəti qarşısında qoydu. Fətəli Xan Xoyski, Mustafa Vəkilov, Şəfi Rüstəmbəyli, Nağı Şeyxzamanlı və b. dövlət xadimləri hələ sovetləşməmiş qonşu Gürcüstana keçə bildilər (50, s.101).

1920-ci il aprelin ortalarında Azərbaycan parlamentinin sabiq sədr müavini Həsən bəy Ağayevin rəhbərliyi ilə Tiflisə, Zaqafqaziya Respublikalarının Konfransına göndərilən nümayəndə heyəti də çevrilişdən sonra vətənə dönmədilər.

1919-cu ildə Azərbaycan parlamenti tərəfindən Ə. M. Topçubaşovun rəhbərliyi ilə Paris sülh konfransına göndərilmiş nümayəndə heyətinin üzvləri 1920-ci il 27 apreldən sonra Avropada qalaraq fəaliyyət gostərdilər (C. Hacıbəyli, M. Məhərrəmov, M. Mehdiyev və b.).

downloaded from KitabYurdu.az

Respublikada inqilabi tədbirlərin həyata keçirilməsi gedişində köhnə dövlət aparatı tamamilə dağıdılmışdı. Nazirliklərin və baş idarələrin əməkdaşlarının, mütəxəssislərin xeyli hissəsi ya vətəni tərk edib getmiş, ya da cəza tədbirlərinə məruz qalmışdılar. Halbuki, onların bir çoxu Rusiyanın və xarici ölkələrin təhsil ocaqlarında oxumuş, dövlət idarələrində lazımi iş təcrübəsi qazanmış adamlar idi. Bu mütəxəssislərin dağıdılması xalq təsərrüfatının bərpa edilməsinə, maarif, elm və mədəniyyətin inkişafına böyük ziyan vurdu.

Bolşeviklər sovetləşmənin əvvəllərində xalqın milli ləyaqətini alçaldan, «müsadirəçilik» - sözün əsl mənasında qarətçilik kompaniyasına başladılar. Bu zaman iri burjuaziya, xırda mülkiyyətçilərlə yanaşı, mütəxəssislər, hətta sovet hökumətinə hörmətlə yanaşan demokratik ziyalılar, fəhlələr müsadirədən yaxa qurtara bilmədilər. 1920-ci ilin dekabrından 27 mindən çox adamın iştirakı ilə həyata keçirilən kütləvi axtarışlara Sarkis rəhbərlik edirdi ki, bu da çox acınacaqlı sonluqla başa çatdı.

RSFSR hökuməti yanında Azərbaycan SSR-in fövqəladə və səlahiyyətli nümayəndəsi B. Şaxtaxtinski 1920-ci ilin sentyabrında V. İ. Leninə yazmışdı: «Müsəlman əhali bitib tükənmək bilməyən müsadirələrdən, ələlxüsus mənzillərin bölünüb bir neçə ailəyə verilməsindən cana doymuşdu, bütün bunlar xalqın məişət tərzinə, şəriətə tamamilə ziddir, dinə və qədim adət-ənənələrə qarşı ağır təhqirdir». Məktubda deyilirdi ki, Azərbaycan Xalq Komissarları Sovetinin sədri N. Nərimanov öz səlahiyyəti gücünə müsadirəni saxlatmağa məcbur olmuş və artıq əmlakı könüllü təhvil verməyə çağırmışdı. Bunun çox böyük nəticəsi olmuş, təhvil müddətinin uzadılmasını əhali özü dəfələrlə xahiş etmişdi. Lakin bu addım inqilabi addım sayılmamışdı. Məsələ Bakı Soveti İcraiyyə Komitəsinin müzakirəsinə verilmiş, nəticədə N. Nərimanovun əmri ləğv olunmuş və müsadirəni davam etdirmək qərara alınmışdır (13, f.268, s.26, iş 32, s.180).

«Müsadirə» adı altında gedən həddini aşmış qarətçiliklə bağlı AK(b)P-nin 1920-ci ilin oktyabrında keçirilən II qurultayında N. Nərimanov öz kəskin etirazını bildirərək deyirdi: «Müsadirə edərkən və müsəlman evinə girərkən onun hansı şəraitdə yaşadığını bilmək lazımdır. Müsəlman qadınının qulağından sırğanı çıxarmaq və bədənində brilyant axtarmaq lazım deyil. Brilyant bizə lazımdır, ancaq onu başqa yerdə axtarmaq lazımdır» (13, f.l, s.l, iş.8, s.201).

İntizamsız, plansız həyata keçirilən müsadirələr acınacaqlı nəticələrə gətirib çıxardığından N. Nərimanov vəziyyəti yüngülləşdirmək üçün konkret təkliflər irəli sürərək «qabaqcadan burjuaziyanın siyahısı və dəqiq ünvanlarını tərtib etmək və bu məlumatlara əsasən müsadirə keçirmək» (90, s.27) lazım olduğunu bildirdiyi halda, onun bu təklifinə ciddi əhəmiyyət verilmədi. Əksinə evlərin nömrələrinə görə müsadirə başlandı ki, bunun da ziyanı əhalinin yoxsul təbəqələrinə dəydi. İri burjuaziyanın evlərində yerləşdirilmiş sovet qulluqçuları, kasıb fəhlələr qarət edilir, öz evlərində deyil, kiçik mənzillərdə yerləşən varlıların əksəriyyəti isə müsadirədən qismən yaxa qurtarırdı.

downloaded from KitabYurdu.az

N. Nərimanov «Ucqarlarda inqilabımızın tarixinə dair» adlı məktubunda yazırdı: «Bu, əsl plansız qarət idi... Nəhayət, təşkilatların özləri böyük səhvə yol verdikləri haqqında danışmağa başladılar. Bu səhvlər bütün Azərbaycan boyu təkrar edilirdi. Nəticədə şeylərin düzgün bölüşdürülməməsi, təşkilatların hər şeydən qabaq özlərini yaddan çıxarmaması əsas ilhamverici yoldaş Sarkisin himayədarlığı altında şeylərin itməsi və i. a. haqqında bir cild iş tərtib edilmiş oldu.» (90, s. 27).

AK(b)P MK Siyasi və Təşkilat Bürosu 1921-ci ilin iyulunda «Partiyanın təmizlənməsi haqqında məsələ» müzakirə edərək, Mərkəzi Komissiyanı təsdiq etdikdən sonra Azərbaycanda 22 yoxlama komissiyası təşkil edildi. Təmizləmə 1921-ci ilin sentyabrında başladı və dekabrında qurtardı. Partiyanın təmizlənməsində bitərəf və kommunistlərin fəal iştirakı nəticəsində bir çox keçmiş ağqvardiyaçı polis məmuru ifşa olunaraq, partiyadan qovuldu... Ümumiyyətlə partiya sıralarının təmizlənməsi dövründə Azərbaycanda partiyadan xaric edilənlər içərisində 417 qolçomaq və polis məmuru olmuşdur (67, s.47).

Qəzalardakı bəzi yoxlama komissiyaları yerli mədəni-məişət şəraitini nəzərə almayaraq, siyasi cəhətdən savadsız və dini mülahizələrə görə də partiyadan xaric etmək kimi hərəkətlərə yol vermişdilər. Bunun nəticəsində bir çox kommunist əsassız olaraq partiyadan xaric edilmişdir ki, bu da partiya təşkilatlarının işində çətinliklər törədirdi (67, s.47).

1921-ci ilin sentyabr-dekabrında Azərbaycanda aparılmış «partiyanın təmizlənməsi» kompaniyasında özbaşınalıqlar artmaqda idi. Yoxlama Komissiyasının sədri K. F. Strua, üzvləri İ. Vatsek və S. D. Yaqubovun rəhbərliyi ilə aparılan təmizləmədən bir alət kimi istifadə edilərək N. Nərimanovu müdafiə edən milli ruhlu kommunistlərə qarşı əsassız ittihamlar irəli sürülür, «millətçi» kimi günahlandırılaraq partiyadan xaric edilirdilər. Onların içərisində tanınmış partiya, dövlət xadimləri, çoxillik staja malik olan kommunistlər də var idi.

Sovet hakimiyyətinin ilk günlərindən «aprelə qədərki» ziyalıların nümayəndələrinə münasibətdə müəyyənləşdirilmiş ümumi rəy yaradılmasına hazırlıq başlandı. Onların yeni həyata qoşulmaq, öz bilikləri ilə Vətənə xidmət etmək arzusu hiyləgərlik, sovet idarələrində işə daxil olmaları isə məkrli niyyət kimi təqdim edilirdi. Əgər AXC-nin mövcud olduğu qısa dövrdə onlar müəyyən bir vəzifədə olublarsa, necə irəliləmələrindən asılı olmayaraq onlara şübhə ilə baxırdılar... məsələn: İsmayıl Rəhimov «keçmiş ağ zabit» olduğu üçün aradan götürülməlidir. Yunis xan Naxçıvanski «ümumiyyətlə, təkcə xan oldu, buna görə deyil, həm də ruhuna və dünyagörüşünə görə proletar hakimiyyəti və sovet idarəsi üçün yad ünsürdür». 1923-cü ilin cəmi bir neçə ayı ərzində Ş. Mahmudbəyovun göstərişi ilə 87 bitərəf, 46 kommunist məsuliyyətə cəlb edilmişdir (94, s.17).

İ. Vatsek Zaqafqaziya Kommunist Təşkilatlarının I qurultayında (fevral 1922) öyünərək demişdi: «Partiyadaxili ixtilafların aradan qaldırılması Qafqaz bürosunun, hər hansı başqa partiya komitələrinin xidməti deyildir, partiyadakı

downloaded from KitabYurdu.az

təmizlənmənin nəticəsidir... Azərbaycanda biz bütün millətçi alçaqları... süpürüb atmışıq... Partiya dəmir süpürgə ilə süpürülüb təmizləndikdən sonra söhbəti daha işgüzar ruhda aparmaq mümkündür». Bakı şəhərində 2164 partiya üzvündən 760 nəfəri (və ya bütün kommunistlərin 35 faizi), o cümlədən şübhəli keçmişinə görə 221 nəfər, səbatsızlığına görə 97 nəfər, partiya intizamını mütəmadi pozmağa və partiya intizamına tabe olmamağa görə 90 nəfər, millətçiliyə və şovinizmə görə 34 nəfər, intriqaçılığa görə 31 nəfər partiyadan xaric edilmişdi (13, f.268, s.26, iş.32, s. 188-189).

Bakı şəhər yoxlama komissiyası Azərbaycan SSR-in Türkiyədəki səlahiyyətli nümayəndəsi İbrahim Əbilovu «şübhəli keçmişinə» görə partiyadan xaric etmişdir. Səbəb bu olmuşdur ki, Azərbaycanda sovet hakimiyyəti qurulanadək İbrahim Əbilov «Hümmət» təşkilatının sağ cinahına mənsub idi. N. Nərimanov Əbilovu müdafiə edərək Mərkəzi yoxlama Komissiyasına ərizəsində yazmışdı: «Mən, Əbilov yoldaşı ən yaxşı və proletar inqilabına ən sədaqətli yoldaş kimi tanıyan bir çox yoldaşlardan biriyəm və hazırda Əbilov yoldaş Bakıda olmadığına görə təşəbbüsü öhdəmə götürüb Mərkəzi Komissiyadan xahiş edirəm ki, Əbilov yoldaşın partiyadan xaric edilməsi haqqında şəhər komissiyasının qərarına yenidən baxsın və AKP üzvü kimi onun hüquqlarını bərpa etsin...

Mərkəzi yoxlama komissiyasının sədri K. F. Sturua Nərimanovun ərizəsinin üzərində yazmışdı: «Nərimanov yoldaşın məsuliyyəti altında Əbilov yoldaş 1920-ci ildən sayılan köhnə partiya stajı ilə AKP üzvlüyünə bərpa edilir». N. Nərimanovun Əbilov üçün «məsuliyyət daşıması» çox çəkmədi. 1923-cü ilin fevralında İ. Əbilov Türkiyənin Smirna (İzmir) şəhərində cərrahiyyə əməliyyatından sonra vəfat etdi.

Azərbaycanda təmizləmə zamanı qadınlar da yoxlama komissiyasının nəzərindən qaçmamışdır. Ceyran Bayramova, Xavər Şabanova, Qızxanım Ələkbər qızı və b. müxtəlif bəhanələrlə partiyadan çıxarılmışlar. Təmizlənmə nəinki tək Bakıda, Azərbaycanın qəzalarında da xalqa ağır ziyan vurmuşdur. Göyçay partiya təşkilatında 650 kommunistdən 440 nəfəri və ya 62,1 faiz, Ağdaş partiya təşkilatında 61,1, Nuxa partiya təşkilatında 52, Şamaxı partiya təşkilatında təqribən 50, Quba partiya təşkilatında 46,2, Qazax partiya təşkilatında 41,9, Şuşa partiya təşkilatında 32, Naxçıvan diyarında 944 kommunistin 25,7 faizi partiyadan çıxarıldı (13, f.268, s.26, iş.32, s.190).

Öz vəzifələrindən istifadə edərək, rüşvətxorluq, intizamsızlıq, sərxoşluq və s. səbəbindən günahlı olub, təmizlənməyə məruz qalan adamlar da var idi. Ancaq onlar azlıq təşkil edirdilər.

1921-ci il dekabrın 21-də N. Nərimanov RK(b)P MK-ya həyəcan və təşviş dolu şifrli teleqram göndərmişdi. Teleqramda deyilirdi: «Azərbaycanda partiyanın təmizlənməsi ən kütləvi hal almışdı. Azərbaycan komissiyalarının bütün qərarlarında fraksiyaçılıq aydın görünür. Təmizlənməni fraksiya mübarizəsi alətinə çevirmişlər. Qəzalarda vaxtilə əksinqilaba qarşı mübarizə aparmış məsul işçilərin

downloaded from KitabYurdu.az

hamısı partiyadan çıxarılmışdır. Partiyanın sıravi üzvlərini də amansızcasına darmadağın etmişdilər. Xalq komissarlarından biri də salamat qalmamışdı. Şaxtaxtinski, Əfəndiyev, Əliyev, Qədirli, Kazımov, Vəzirov, Talıblı xaric edilmişlər. Bizim Ankaradakı diplomatik nümayəndəmiz də xaric olunmuşdur. Elə bir vəziyyət yaranmışdır ki, işləmək əsla mümkün deyildir (13, f.609, s.l, iş 53, s.14).

Qafqaz diyar yoxlama komissiyası və onun sədri Mavrin Azərbaycan kommunistlərinə münasibətdə qeyri obyektiv mövqe tuturdu. Onun fikrincə Azərbaycandakı müsəlmanlar arasında səbatlı kommunistlər yox idi. N. Nərimanov buna öz münasibətini bildirərək yazırdı: «Əgər Azərbaycanın müsəlman kommunistlərinin əksəriyyəti Mavrin düşündüyü kimi millətçilik əhval-ruhiyyəsində olsaydı, inanın ki, Ermənistan Zəngəzuru almazdı. Gürcüstana müftə neft verilməzdi, Azərbaycan kommunistləri partiyanı sağlamlaşdırmaq məsələsində öz müqəddəratlarını Mavrin kimi «beynəlmiləlçilərə» tapşırmazdılar. Nərimanov təmizlənmənin qərəzçiliklə aparıldığını göstərərək diqqəti ona cəlb edirdi ki, bir nəfər də «sol» kommunist partiyasından çıxarılmamışdı, partiyadan kənarda qalanlar əsasən «sağ» kommunist adlananlardır» (13, f.268, s.26, iş.32, s.191).

Arxiv materialları və aparılmış tədqiqatlar göstərir ki, Azərbaycanda sovetləşməyə qarşı yerlərdə ciddi müqavimət göstərilmişdir. Belə ki, çevrilişdən sonra bolşeviklərin apardığı siyasət xalqın ciddi narazılığına səbəb olmuşdur.

Tərəddüd edənlər, ümid gözləyənlər, mübarizə aparmağın yersiz olduğunu güman edənlər, qeyri-leqal fəaliyyətə keçən siyasi partiyalar və rus ordusunun özünü necə aparacağını gözləyən Milli ordu əsgərləri qısa müddətdə məsələnin əsl mahiyyətini başa düşdülər. XI Ordunun özbaşınalığı, qarətçilik, hərcmərclik, xüsusən günahsız adamların güllələnməsi xalqın qəzəbinə səbəb oldu. Qəzəb dalğası üsyanlara gətirib çıxardı (49, s.45).

1920-ci il mayın 26-dan iyunun 20-dək Gəncədə, Tərtərdə, Ağdamda, Şuşada və Zaqatalada silahlı üsyan baş verdi. Üsyanın başlanmasına bilavasitə təkan verəcək hadisə Azərbaycan hərbi hissələrinin «sinfi baxımdan yad ünsürlərdən təmizlənməsi» tədbiri oldu. Yeni hökumət Gəncədəki 3-cü piyada alayına, sovet hakimiyyətinin şərtləri əsasında fəaliyyət göstərməsini əmr etmişdir. Əmrin yerinə yetirilmədiyini gördükdə Azərbaycan ordusunun rəhbərliyini dəyişmək, əsgərlərini tərksilah etmək qərara alındı. Bununla da Gəncə komendantı şahzadə Mirzə Qacar, onun arxasınca piyada diviziyasının rəisi general-mayor Cavad bəy Şıxlinski və Cavanşir Kazımbəy vəzifədən uzaqlaşdırıldı. Mayın 12-də şəhər qubernatoru Xudadat bəy Rəfibəyli həbs edilərək Bakıya gətirildi, mühakimə edilərək məhkəmənin hökmü ilə mayın 20-də güllələndi (50, s.37).

Gəncədəki Azərbaycan milli ordusunun hərbi hissələri özlərinə qarşı yad münasibət görərək, döyüşə hazırlıq vəziyyətinə gətirilib, gizli təlim keçirməyə başladılar. Hadisələrdən duyuq düşən XI Ordu hissələri mayın 25-dən 26-na keçən gecə Azərbaycan ordusunun qərargahına hücuma keçdilər. Milli ordunun əks

downloaded from KitabYurdu.az

hücumu ilə həmlə dəf edilərək şəhərin müsəlmanlar yaşayan məhəlləsi Qırmızı ordu hissələrindən azad edildi. Şəhər əhalisi silahlandırılaraq üsyana qoşuldu. Üsyanın başında general Şıxlinski, polkovnik Xanınbəyov, Xoyski qardaşları, Qəmbər Ələkbərov və şahzadə Məhəmməd Mirzə dururdu. Gəncənin yerli əhalisi ilə birlikdə üsyanda iştirak edən döyüşçülərin sayı 10 min nəfəri ötmüşdü.

Üsyan başlanan zaman şəhərin erməni əhalisi Yelenendorf (Xanlar) istiqamətində XI Ordu tərəfindən çox həvəslə vuruşurdu. Bu səbəbdən üsyançılar erməni məhəllələrini öz nəzarətləri altına ala bilmədilər.

Mayın 27-də XI Ordu hissələri hücuma keçdi, böyük itkilər verərək geri oturduldular (12, f.410, s.l, iş 80, s.60). Vəziyyətin ağırlığını görən bolşeviklər Gəncəyə M. Q. Yefremovun komandanlığı ilə zirehli qatarlar qrupu, P. V. Kurışkonun 18-ci süvari diviziyası, M. D. Velikanovun komandanlıq etdiyi 20-ci atıcı diviziyasından ibarət güclü hərbi birləşmələr göndərdi (57, s.79).

C. Kazımbəy və alman polkovniki Hauzen birlikdə kəşfiyyat edib Şəmkir tərəfdən hücum olacağını bildilər və əsas qüvvələri Qərb istiqamətinə cəmləşdirdilər. Üsyanın gedişində ermənilər Yelenendorf istiqamətində hücumlar edirdilər. Onlar qırğın törədir, evləri qarət edir, müsəlmanları qırır, qız-gəlini girov götürürdülər.

Güclənən XI Ordunun üçüncü diviziyası mayın 28-də şəhəri güclü top atəşinə tutdu. Operativ idarənin rəisi V. Voronkovun ordu qərargahına verdiyi məlumatda deyilirdi: «Şəhərin yarısı artilleriya zərbəmizlə dağıdılmışdı» (126, s.57). Qüvvələr nisbətinin qeyri-bərabər olmasından üsyan XI ordunun xeyrinə qurtardı. Mayın 31-də Qızıl Ordu şəhəri tam nəzarət altına aldı (12, f.410, s.l, iş 180, s.60).

Döyüşlərdə Stankeviç, Hauzen, tabur komandiri Mirizadə qəhrəmancasına həlak oldular. Üsyan yatırıldıqdan sonra başlanan repressiyada 6 general, 6 polkovnik, 3 mayor və 7 kapitan qətlə yetirildi, ümumi sayı 76 nəfərə çatan hərbçi Narginə aparılaraq orada güllələndi (50, s.41).

Görkəmli elm xadimi, Qazax Seminariyasının müəllimi Firudin bəy Köçərli də güllələnmişdi. Onun qətli N. Nərimanovu çox mütəəssir etmişdi. 1920-ci ilin oktyabrında Gəncədə olarkən dərin istintaq keçirməyə göstəriş vermişdi: «F. Köçərli Azərbaycan mədəniyyətinin parlaq fiqurudur, adı bizim ölkəmizdən də kənarlarda geniş tanınıb, biz onun qətli vəziyyəti haqqında dəqiq məlumat almağa borcluyuq» (33, s.43).

Həbslər zamanı İsrafilbəyov, Adilbəy Zülqədərov, Keçmiş Şeyxülislam Axund Pişnamazzadə həbs edildi (12, f.27, s.l, iş 705, s.22). 12 min nəfərdən çox Gəncə əhalisi məhv edildi. XI Ordu isə 8,5 min nəfər itki verdi (102, s.163).

Gəncədə göstərdiyi «şücaətinə» görə M. Q. Yefremov Qırmızı Bayraq ordeni ilə təltif edildi.

İnsan tələfatı ilə nəticələnən silahlı münaqişələrin biri də Tərtərdə hələ mayın ortalarında baş vermişdi. Qarabağda baş verən üsyanlar ərəfəsində əhali

downloaded from KitabYurdu.az

milli orduya inanır və ona arxalanırdı. Bolşeviklər isə Gəncə üsyanından sonra Milli ordunu tamamilə dağıtmaq qərarına gəldilər. XI Ordu onlarla sıx əlaqə yaradan erməni daşnaklarının hərəkətlərinə göz yumurdu. İyunun əvvəllərində Qarabağın müxtəlif tərəflərində yerləşən Azərbaycan ordusunun Şəki, Tərtər, Cavanşir, Ağdam süvari alayları, Bakı piyada alayı və iki topçu diviziyası onların qarşısını almağa cəhd göstərirdi.

Bolşevik hakimiyyəti xalqın təhlükəsizliyini təmin etmirdi, yaxud etmək istəmirdi. Milli münasibətlərin kəskin olduğu bu bölgədə ermənilər XI Ordu əsgərlərindən istifadə edərək öz iyrənc niyyətlərini həyata keçirir, XI Ordu ilə milli ordu arasında nifaq yaradıb onları toqquşdururdular.

Tərtərdə milli orduya qarşı bolşevik ordusunun hərbi əməliyyatı iyunun 10-da başlandı. XI Ordu komandanı Levandovskinin «düşmən mövqelərinin təyyarələrdən iyunun 10-da bombardman edilməsi» barədə verdiyi əmr həlledici rol oynadı (126, s.63). Tərtər və bir neçə kəndi dağıdıldı. Minlərlə insan öz yurdlarını tərk etmək məcburiyyətində qaldı. Müqavimətə türk generalı Nuru paşa və polkovnik Zeynalov başçılıq edirdi.

Hələ iyunun 3-dən 4-nə keçən gecə Nuru paşa öz hərbi birlikləri ilə (onların içərisində polkovniklər Zeynalov, Səfiyev, sabiq pristav K. Qalabəyov da var idi) birlikdə Şuşaya girərək inqilabi komitə üzvlərini həbsə alıb özünü «Qarabağ hakimi» elan etmişdi. İyunun 6-da Şuşa İnqilab Komitəsinin sədri B. Vəlibəyov və b. yeni hakimin sərəncamı ilə güllələndilər (57, s.77).

Bu vaxt Qarabağda xeyli milli ordu birləşmələri var idi ki, bunlar da Bərdədən Zəngəzura qədər geniş bir ərazidə yerləşmişdilər: süvarilər, tatar diviziyası (I Dünya müharibəsində vəhşi diviziya adını almışdı) Şəki süvari alayı, Qarabağ atlılar polku, 5-ci Bakı piyadaları, Ağdam polkları və 2-ci artilleriya briqadası. Nuru paşanın ciddi uğurlar qazanmaq imkanı, onun ümumi komandanlıq etmək bacarığının olmasına baxmayaraq, pərakəndəlik, üsyanın lokal xarakterli olması, qüvvələrin qeyri-bərabərliyi Gəncədə, Şuşada, Tərtərdə, Ağdam və Qaryagində baş verən müqavimət hərəkatının tezliklə yatırılmasına səbəb oldu.

Beləliklə, iyunun 10-da Tərtər, 11-də Ağdam, 14-də Xankəndi və Şuşa XI Ordu tərəfindən tam nəzarətə alındı (12, f.27, s.l, iş 700, s.3). Pərən-pərən düşən Azərbaycan ordusu dağıldı.

Qarabağ üsyanlarının davam etdiyi günlərdə Azərbaycanın şimal qərbində, Zaqatalada da müqavimət hərəkatı başlamışdı. Üsyanın başında bölgənin nüfuzlu şəxslərindən - Molla Hafiz Əfəndiyev və hərbçi Əhmədiyev dururdu. Üsyançılar silaha əl ataraq iyunun 5-də müqavimətə rast gəlmədən Zaqatala qalasını tutdular, qəzanın inqilab komitə sədri və digər kommunistlər həbs edildi (11, f.l, s.14, iş 6139, s.40). Bir növ üsyan dini xarakterli idi. Onlar «rus kafirlərindən» ölkəni təmizləmək üçün əhalini köməyə çağırırdılar.

Üsyançılar iyunun 7-də Qaxa daxil oldular. Milli ordunun süvari alayı da üsyançılara qoşuldu. İyunun 16-da XI Ordu hissələri V. F. Vodopyanovun başçılığı

downloaded from KitabYurdu.az

ilə Zaqatala istiqamətində hərəkət etdi. İyunun 16-da Zaqatala üsyanı yatırıldı (12, f.27, s.l, iş 700, s.3).

1920-ci ilin avqustunda Quba qəzasının Dəvəçi və Qusar rayonlarında üsyan baş verdi (12, f.27, s.l, iş 6139, s.41).

Bu üsyanlar əvvəlki üsyanlar kimi XI Ordu tərəfindən amansızcasına yatırıldı.

1920-ci ilin avqust-sentyabr aylarında Lənkəran qəzasında Sovet hakimiyyətinə qarşı güclü və uzun müddətli üsyan başlandı. Üsyanın başında Qulam Tağıyev, general Səlimov, Nəcəfquluxan, Hüseynəli xan və Əsəd xan Talışinski dururdu. Avqustun 24-də üsyançılar Biləsuvar-Astara arasındakı məsafə boyu irəliləyərək şəhərin 20 km-nə çatmışdılar. XI Ordunun xüsusi şöbəsi tərəfindən törədilən özbaşınalıqlar qəzada sovet hakimiyyətindən narazı qüvvələri birləşdirdi.

1920-ci il dekabrın ortalarında Astarada, Girdənidə, Şahağacıda və Pensəri yaşayış məntəqələrində sovet hakimiyyəti devrildi. 1921-ci ilin yanvarında Lənkəran qəzasında sovet hakimiyyəti üçün yaranmış ağır vəziyyət aradan götürüldü. l921-ci ilin yayında qəzanın Astara hissəsində yenidən üsyan baş verdi. Xəzər dənizi hərbi qüvvələrinin köməyi ilə oktyabrın 5-də bu üsyan da yatırıldı. Lənkəran qəzasında müqavimət hərəkatı uzun müddət davam etdi (49, s.49).

Sovetləşmənin əvvəllərində Azərbaycanda müqavimət hərəkatının bir növü də qaçaqçılıq idi. Torpaqları, var-dövlətləri əllərindən alınmış, siyasi hüquqlardan məhrum edilmiş adamlar qruplar halında birləşərək, yerlərdə sovet hakimiyyətinə qarşı silahlı çıxışlar edirdilər. Onların içərisində ən güclüləri Nuxa qəzasındakı Hüseyn Əfəndinin dəstəsi idi. Göyçayda, Ağdaşda, başqa qəzalarda da onun dəstələri var idi (12, f.410, s.l, iş 103, s.136-137).

Əsədulla bəyin başçılığı altında Şuşa qəzasında, Adil bəyin başçılığı altında Kürdüstanda, Şamxor, Zaqatala, Salyan, Qazax və başqa yerlərdə müqavimət hərəkatı güclü idi.

20-ci illərdə günahsız, öz haqqını tələb edən, haqsızlıqlara göz yuma bilməyənlər «bandit» möhürü ilə damğalanırdı. Onların içərisində «öz mənliyini, şəxsi həyatını bolşevik bəlasından qoruyub saxlamaq üçün müxtəlif yerlərə qaçan, dağlara çəkilən bəylər, varlılar; mövcud hakimiyyətə bel bağlamayan və baş vermiş hadisələrin mahiyyətini dərk etməyən qruplar..; sovet hakimiyyətinə nifrət edən silahlı dəstələr..; hakimiyyət hərc-mərcliyindən istifadə edib varlanmaq məqsədi ilə müxtəlif «dinə-dona» girənlər, ev, mal-heyvan oğruları..; vaxtilə öz mənəviyyatını itirmiş və narazı camaatı bandit adlandıran bir çox kommunistlərin özü də sonradan banditizmə qarşı mübarizənin hədəfinə çevrildi..; sovet hökumətinə sədaqətlə xidmət edən milis dəstələri də.. bolşeviklərdən üz döndərir və beləliklə, «bandit»ə çevrilirdilər.» (49, s.50).

20-ci illərdə bolşeviklərin güclə bərqərar etdiyi totalitar aparat belə, Azərbaycan xalqının milli-azadlıq hərəkatının qarşısını ala bilmədi.

downloaded from KitabYurdu.az

Araşdırmalar göstərir ki, 20-ci illərin ortalarında Azərbaycanda müqavimət hərəkatı zəifləsə də, sonralar müxtəlif yerlərdə ara-sıra çıxışlar olmuşdur.

Müqavimət hərəkatının qəddarlıqla yatırılmasına baxmayaraq, işğalçılara əyani sübut olundu ki, Azərbaycan xalqı öz azadlığı və istiqlaliyyəti uğrunda mübarizə aparmağa qadir xalqdır.

## 1.2. Milli dövlət mexanizminin dağıdılması, müstəqilliyin və ərazi bütövlüyünün itirilməsi

Aprel çevrilişindən sonra Azərbaycanda qurulan yeni hökumət dövlət quruculuğu sahəsində Rusiya nümunəsini rəhbər tutaraq, fövqəladə dəyişikliklərə üstünlük verirdi. EIə ilk günlərdən Azərbaycan Xalq Cümhuriyyətindən miras qalmış dövlət idarəçilik sistemi dağıdılmağa başladı. General qubernatorluq, Bakı şəhər idarəsi, quberniya idarəçiliyi, polis, məhkəmə palatası və s. ləğv edildi. Bu şəraitdə ilk növbədə yeni hakimiyyəti qoruyan, onun möhkəmliyinə təminat verən qurumlar yaradıldı. Polisin əvəzinə siyasi prinsip əsasında təşkil edilən milis yaradıldı. Azərbaycan İnqilab Komitəsi 1920-ci ildə özünün ilk dekretlərində torpaqların (5 may) meşə, su, yeraltı sərvətlərin (15 may), neft sənayesinin (27 may), Xəzər ticarət flotilyasının (6 iyun), bankların (9 iyun) milliləşdirilməsini elan etdi.

Aprel çevrilişindən sonra siyasi, sosial, iqtisadi dəyişikliklər edilməsinə, mütərəqqi addımlar atılmasına baxmayaraq, təəssüf ki, Rusiya Azərbaycana ancaq özünün tərkib hissəsi kimi baxdığından bütünlükdə sistem Rusiyadakının təkrarı idi. Acınacaqlı hal idi ki, milli mənafe, yerli şərait, milli xüsusiyyətlərin nəzərə alınmaması, dövlət və sosial quruculuqda buraxılan səhvlər, əsassız radikallıq Azərbaycanda da təkrarlanırdı. Bu da çox şübhəsiz, ciddi partiyadaxili mübarizəyə gətirib çıxaracaqdı. Çünki Mərkəzdən göndərilən və idarə edilən rəhbərlərə Azərbaycanın spesifik milli xüsusiyyətləri yad idi. Mərkəzin mənafeyi baxımından bunlar nəinki nəzərə alınmır, hətta addımbaşı tapdanılırdı.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra rəhbər partiya orqanlarının yeni təşkilat strukturu yaradıldı. 1920-ci ilin iyulunda AK(b)P Mərkəzi Komitəsində iki büro - Siyasi Büro və Təşkilat Bürosu, habelə MK katibi vəzifəsi təsis edildi.

Çevrilişdən sonra azərbaycanlıların əsas rəhbər vəzifələrə çəkilməsi son dərəcə çətin idi. Belə ki, sovetləşmənin əvvəllərində azərbaycanlılara az çox rast gəlinirdisə, 20-ci illərin ortalarında artıq rəhbərlikdə rus, ermənilər daha çox yer tuturdular. Bu da Mərkəz üçün maraqlı idi: öz maraqlarına münasib kadrlarla işləmək, xüsusən də hər hansı tale yüklü qərarı qəbul etdirmək üçün yalnız öz adamları olmalı idi. Siyasət xatirinə azərbaycanlılar da olmalı, yalnız Mərkəzin diktəsi ilə hərəkət etməli idilər. Çox təəssüf ki, onların bu siyasəti bəzi

downloaded from KitabYurdu.az

«beynəlmiləlçi» azərbaycanlı kommunistləri öz toruna sala bilir və Mərkəzə tabe etdirə bilirdi. Xüsusən məkrli erməni kommunistləri, qanlarında daşnak xofu olan Mirzoyan, Mikoyan və onların asanlıqla tərəflərinə çəkə bildikləri rus, eləcə də azərbaycanlı kommunistlər səhv siyasət yeridərək, Azərbaycanın milli mənafeləri baxımından deyil, mərkəzin, xüsusən də ermənilərin antiazərbaycan siyasətinə bir növ rövnəq verməli olurdular.

MK-nın Siyasi bürosuna N. Nərimanov, V. İ. Naneyşvili, M. D. Hüseynov, A. İ. Mikoyan, V. Lominadze, Təşkilat bürosuna Sarkis (S. A. Danielyan), K. F. Sturua, D. X. Bünyadzadə, Ə. H. Qarayev seçildilər. V. İ. Naneyşvili AK(b)P MK katibi təsdiq olundu.

1920-ci ilin sentyabrında V. İ. Naneyşvilinin Bakıdan getməsilə əlaqədar olaraq MK katibi vəzifəsini müvəqqəti olaraq (sentyabrın 9-dan 15-dək) Yelena Dmitriyevna Stasova, sentyabrın 15-dən oktyabnn 24-dək Vladimir Yelizbaroviç Dumbadze (Lado) icra etdilər. MK katibi vəzifəsində 1920-ci il oktyabrın 24-dən 1921-ci ilin iyulunadək Qriqori Naumoviç Kaminski, sonra 1926-cı ilin yanvarınadək Sergey Mironoviç Kirov işlədi.

1920-ci il mayın 8-də AK(b)P Bakı Komitəsinin bürosu yaradıldı. Büroya Sarkis, A. Mikoyan, V. Naneyşvili, L. Qoqabaridze, V. Lominadze, V. Yeqorov, N. Tyuxtenev, Ə. H. Qarayev və b. daxil oldular. Sarkis AK(b)P Bakı Komitəsinin katibi seçildi. BK-nın aşağıdakı şöbə müdirləri təsdiq olundu: təşviqat şöbəsinin müdiri M. Kaxiani, təşkilat-təlimat şöbəsinin müdiri Sarkis, qadınlar arasında iş aparan şöbənin müdiri M. Kasparova, kənddə iş aparan şöbənin müdiri Müzəffər Nərimanov, iməcliklər bürosunun müdiri Puxoviç (13, f.268, s.26, iş.32, s.105-106).

Sarkisin rəhbərliyi ilə Bakı Komitəsində bir qrup «sol» mövqedə dayanan rəhbər işçilər Bakı Komitəsini Mərkəzi Komitəyə, Azərbaycan İnqilab Komitəsinə qarşı qoyaraq, onların xəttinə zidd qərarlar qəbul edir, N. Nərimanovun sözləri ilə desək «Bakı Komitəsi şəxsində müxalifət» yaradırdı.

«Müstəqil» Azərbaycan dövləti və onun arxasında duran Rusiya üçün keçmiş Azərbaycan Xalq Cümhuriyyətinin ordusunun mövcudluğu narahatlıq yaradırdı. Bununla əlaqədar Azərbaycan İnqilab Komitəsi mayın 7-də ordunun və donanmanın yenidən təşkili haqqında qərar çıxartdı. Qərara əsasən, yeni yaradılacaq Azərbaycan Ordusu və Donanması əslində, Sovet Rusiyası Qızıl ordusunun tərkib hissəsi kimi yaradılırdı. Azərbaycanın hərbi bölmələri, bilavasitə XI Qızıl Ordu komandanının hərbi gəmiləri - Xəzər Donanması Komandanının tabeliyinə keçirdi. Azərbaycan Hərbi Donanma komissarının səlahiyyəti ancaq yeni hissələrin yaradılması və səfərbərlik məsələləri ilə məhdudlaşırdı. Beləliklə, Müstəqil Azərbaycan Sovet Respublikası öz mövcudluğunun ilk aylarından dövlətçiliyin mühüm şərtlərindən biri - ordu saxlanması hüququndan «könüllü» surətdə məhrum edildi.

downloaded from KitabYurdu.az

Azərbaycan ordusunun müstəqilliyinə Ç. İldırım təşəbbüs etmiş, lakin az sonra onu hərbi işlərdən uzaqlaşdıraraq, yerinə bu sahədə heç bir səriştəsi olmayan, Azərbaycanın yeganə gəmiləri «Ərdahan» və «Astrabad»ı qayıq bilib gözüyumulu sənədə imza ataraq Rusiyaya verən Ə. Qarayevi gətirmişdilər (50, s.30).

Aprel çevrilişindən sonra hər ay Azərbaycana yeni-yeni hərbi qüvvələr yeridilməkdə idi. Bu ordu hissələri özlərini əvvəlki ordu hissələrinə nisbətən daha amansız aparır, adamları qarət, kəndləri talan etməkdən çəkinmirdi. Azərbaycan kəndliləri bir şey haqqında xahiş edir və yalvarırdılar: «nə varsa hamısını birdəfəlik alın və ailə ocaqlarımızı gündəlik qeyri-mütəşəkkil və təhqiredici basqınlardan xilas edin» (94, s.14).

İş o yerə çatmışdı ki, ordu quruculuğu məsələsində rəhbər kommunistlər arasında ciddi narazılıqlar yaranmışdı. Ordudakı özbaşınalıqlar, qarətçilik xüsusilə əhalidə yeni hökumətə qarşı inamsızlığa və nifrətə səbəb olmuşdu.

Müstəqil orduya malik olmaq hüququnu itirdikdən sonra Azərbaycan 1920-ci il sentyabrın 30-da Behbud Şaxtaxtinski və G. Çiçerin tərəfindən imzalanan «qardaşlıq ittifaqı» (hərbi-iqtisadi ittifaq) müqaviləsinə görə iqtisadi qaynaq və vasitələrini (yeraltı, yerüstü sərvətlər, sənaye müəssisələri), müstəqil ticarət haqlarını Moskvaya verir, eyni zamanda müstəqil maliyyə və nəqliyyat-rabitə hüquqlarından da imtina edirdi. Bu müqavilədə konkret olaraq göstərilirdi: «1.RSFSR hökuməti və Azərbaycan hökuməti az vaxt ərzində hərbi təşkilatları və hərbi komandanlığı birləşdirir. 2.Müqavilə imzalandığı vaxtdan qüvvədədir və xüsusi ratifikasiya tələb etmir» (12, f.410, s.l,iş. 18, s.25).

Bu müqaviləyə görə, müstəqillik prinsiplərinə əsasən səlahiyyətlərinin bir hissəsi Azərbaycana aid edilmir, hər iki respublika hərbi, iqtisadi, təchizat, nəqliyyat, maliyyə məsələlərində öz səylərini cəmləşdirir, müvafiq təşkilatların fəaliyyətini bir strukturda birləşdirirdi. Rusiyanın müvafiq hərbi təşkilatlarının aliliyi Azərbaycanın təşkilatlarına şamil edilirdi.

Yeni iqtisadi siyasətə keçid, ölkədə iqtisadi sabitliyin bərpa edilməsi siyasi sahədə, dövlət quruculuğu və idarəçiliyində dəyişikliyə gətirib çıxardı. 1920-ci ilin sonu üçün müəyyən iqtisadi və sosial təmələ malik olan kommunist partiyası ilk vaxtlar istifadə olunan sərt, fövqəladə tədbirlərdən tədricən əl çəkməyə başladı. 1921-ci ilin yayında Azərbaycan vilayətlərində inqilabi və yoxsul komitələrdən fəhlə-kəndli deputatları sovetlərinə keçid başlandı.

Azərbaycan SSR-in 1927-ci ilin mayında keçirilən I Sovetlər qurultayında İnqilab Komitəsinin fəaliyyəti dayandırıldı. Onun yerinə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi və Azərbaycan SSR Xalq Komissarları Soveti yarandı. 1921-ci il mayın 19-da Konstitusiya qəbul edildi. Hər şeydə olduğu kimi, Konstitusiya da RSFSR-in Konstitusiyası nümunəsində təkrarlanırdı.

Beləliklə, bolşeviklər tədricən hakimiyyətlərinin ilk dövründə istifadə etdikləri sərt cəza tədbirlərindən əl çəkməyə, fəaliyyətini qanun çərçivəsində

downloaded from KitabYurdu.az

nizamlamağa başladılar. Ali qanunverici orqan olan Sovetlər xalq kütlələri ilə bolşevik partiyası arasında qarşıdurmanı yumşaldırdı.

Artıq 20-ci illərin ortalarında Azərbaycan Kommunist Bolşeviklər Partiyası ardıcıl olaraq həyata keçirdiyi tədbirlər nəticəsində real hakimiyyəti öz əlində cəmləşdirmiş, hakimiyyətinin möhkəmlənməsinə nail olmuşdu.

Aprel çevrilişindən sonra Azərbaycan dövlətinin və xalqının qarşısında son dərəcə ağır bir problem - ərazi bütövlüyü məsələsi dururdu. Belə ki, 1920-ci ilin iyul-avqust aylarında Ermənistan tərəfindən Azərbaycanın əzəli torpağı olan Zəngəzurun böyük bir hissəsinin işğalı, xüsusən də azərbaycanlıların doğma ata-baba yurdlarından vəhşiliklə qovulması və qətlə yetirilməsi əslində formal müstəqilliyin ləğvi demək idi. Xüsusən 1920-ci il noyabrın 29-da Ermənistanda sovet hökuməti elan ediləndən sonra Azərbaycanın ərazi bütövlüyü məsələsi daha artıq təhlükə altında qaldı.

Mərkəz, xüsusilə də mərkəzin respublikada yüksək vəzifə tutan kadrları bütün bu haqsızlıqları görür, bəzən laqeydliklə, biganəliklə qarşılayırdılar. Onların içərisində bu haqsızlıqlarla razılaşmayan, hadisələrə obyektiv qiymət verən Kaminski, Solovyov kimiləri də var idi. Xüsusilə bu ərəfədə azərbaycanlıların ermənilər tərəfindən soyqırıma məruz qalmaları olduğu kimi may-iyun aylarında Solovyovun Leninə verdiyi hesabatında yazılmışdır:» Ermənistan respublikası yarananda onun hüdudlarında 250 müsəlman kəndi olmuşdur, onların hamısı məhv edilmiş, artıq bir müsəlman belə yoxdur. «Ermənistanla sərhəd müsəlman kəndlərində azərbaycanlıların silahlarının əllərindən alınmasını, ermənilərin Qırmızı ordu və dəmiryol mühafizəsi tərkibinə qəbul olunmasını Solovyov, müsəlmanların ermənilər tərəfindən qırğına məhkum edilməsi kimi nəticələndirirdi. İyulun 6-da ingilis kəşfiyyatı bildirirdi ki, Zəngəzur-Qarabağ rayonunda bolşeviklərin erməni əhalisinin tərəfində olmasına baxmayaraq, İrəvan onların işini müdafiə etmir (33, s.110).

Çevrilişdən sonra Azərbaycan rəhbərliyində ixtilaflar, daxili siyasi çəkişmələr məlum səbəblərdən təbii idi. Ancaq ərazi məsələsi ilə bağlı olan ixtilaflar son dərəcə ziddiyyətli olduğu halda, həm də mürəkkəb xarakter daşıyırdı. Azərbaycan hökuməti, o cümlədən N. Nərimanov təkcə öz daxili düşmənlərinə qarşı deyil, Mərkəzlə də qarşı-qarşıya dayanmalı olurdu. Çevrilişdən sonra ərazi məsələsini Azərbaycanın başı üstündən həll etmək istəyənlər Moskvada, həm də Bakıda az deyildilər. Rusiya bir çox hallarda Azərbaycanın milli mənafeləri ilə hesablaşmır, ərazi məsələsi kimi ciddi və mühüm məsələdə Azərbaycanın mövqeyinə əhəmiyyət vermirdi. Nərimanovla Çiçerin arasında olan ixtilaflar dərinləşirdi. Çünki ermənilərin xeyrinə olan Çiçerin-Orconikidze-Leqran (Ermənistanın nümayəndəsi) razılaşmaları Nərimanovu qane edə bilməzdi.

Əslində Rusiya üçün ərazi məsələsinin Azərbaycanın xeyrinə obyektiv həlli heç də maraqlı deyildi. Çünki, M. Ə. Rəsulzadənin sözlərilə desək «...Rusiya üçün bir qəzanın ermənidəmi, yoxsa türkdəmi qaldığının nə əhəmiyyəti ola

downloaded from KitabYurdu.az

bilərdi!... Yetişir ki, bunlar həpsi Rusiyada olsun və ortadakı ixtilaflar həll edilsin» (98, s.73).

Elə buna görə də Rusiyanın xalq xarici işlər komissarı Çiçerin «Qarabağ, Zəngəzur, Naxçıvan və Culfa nə Ermənistana, nə də Azərbaycana birləşdirilməməli, yerli Sovetlərin razılığı ilə Rusiya qoşunlarının işğalı altında olmalıdırlar» (87, s.238) təklifini irəli sürürdü. Azərbaycanın ərazi məsələsinə laqeyd münasibət, xüsusən Mərkəzin siyasi mənafe baxımından yanaşması yeni yaranmış Azərbaycan dövlətinin nüfuzuna çox ciddi zərbə idi.

Rusiya hökumətinin günün reallığına uyğunlaşdırılan qərarları Azərbaycana ardıcıl qətiyyətli mövqe tutmağa imkan vermirdi. Çiçerin iyunun 2-də Orconikidzeyə yazırdı: «Daşnak hökuməti ilə kompromisə nail olmaq bizə vacibdir. Bu arada Azərbaycan hökuməti nəinki Qarabağ və Zəngəzuru, həm də Şərur-Dərələyəz qəzasını mübahisəli elan edir. Sonuncu heç zaman heç kim tərəfindən mübahisəli elan edilməmişdir, ...Bakıda Sizin nüfuzunuzdan istifadə edib Azərbaycan hökumətinin Şərur-Dərələyəz qəzasını deyil, Qarabağ və Zəngəzuru mübahisəli hesab etməyinə nail olmağı xahiş edirik.» (33, s.107)

Mərkəzin mövqeyindən narahat olan N. Nərimanov yeganə ümidini Leninə bağlamışdı: «Mən bilmək istəyərdim ki, mərkəz biz müsəlmanlara necə baxır və belə mühüm məsələləri bizsiz necə həll edə bilir... Mən açığını deyəcəyəm, mərkəz Qarabağ və s. haqqında qərarları ilə bizim silahımızı əlimizdən aldı, hər zaman müsəlman kommunistlərin Azərbaycanı Rusiyaya satdığını söyləyən müsavat provakasiyasını gücləndirdi, əsaslandırdı: Həmin Rusiyaya ki, eyni vaxtda Ermənistanın və Gürcüstanın müstəqilliyini tanıyır və nədənsə Azərbaycanda sovet hakimiyyəti qurulanadək mübahisəsiz vilayətləri indi mübahisəli hesab edir... Mərkəz bizi şirma olmağa məcbur edir. (13, f.609, s.l, iş 32, s.47).

1920-ci il iyulun 10-da N. Nərimanov və başqa məsul şəxslərin imzası ilə Mərkəzə göndərilən məlumatın IV bəndində həyəcanla bildirilirdi ki, «...Zəngəzur və Qarabağın neytrallaşdırılması, yaxud daşnaklara verilməsi... xəyanət sayılacaqdır... Keçmişə gözlənilməz dönüşü və Sovet hakimiyətinin Azərbaycanı əvvəlki sərhədləri hüdudlarında saxlamağa qadir olmamasını müsəlman kütlələri satqınlıq, ermənipərəstlik, yaxud sovet hakimiyyətinin zəifliyi hesab edəcəklər...» (131, s.56).

Təəssüf ki, Azərbaycanın bu ciddi narahatlığına nə o vaxt, nə də ərazimizin 20% işğal edildiyi bir vaxtda fikir verilmədi. Xüsusən 20-ci illərdə erməni kommunistlərinin Rusiya siyasətinə güclü təsirləri olduğundan hər şeyə istədikləri kimi nail oldular.

N. Nərimanov V. İ. Leninə yazdığı məktubda göstərirdi: «Əziz Vladimir İliç! Mənim teleqramlarımdan birində verilmiş məlumatı demək olar ki, təkrar etmək lazım gəlir. Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstan və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin eyni

downloaded from KitabYurdu.az

zamanda Mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir. Əgər bu ərazilər Gürcüstana verilmiş olsaydı, əfkari ümumiyyə ilə birtəhər mübarizə aparmaq olardı, lakin Ermənistana, daşnaklara vermək düzəldilməsi mümkün olmayan, pis nəticələr verə biləcək səhvdir. Bu barədə bizim nümayəndəmiz ətraflı danışacaqdır...» (90, s.62).

Məktubda həmçinin... Məgər müstəqil Azərbaycan sizin dilinizdən çıxmamışdırmı? İndi vəziyyət belə bir şəkil alır: həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanmış və üstəlik də Azərbaycanın ərazilərini almışdır. İndiyənə qədər ikili siyasət aparan Gürcüstan müstəqillik əldə etmişdir. Üç respublikadan birinci olaraq Sovet Rusiyasının qoynuna atılmış Azərbaycan isə həm ərazisini, həm də müstəqilliyini itirir.

Vladimir İliç! Çox millətli əhalinin hüquq və hissləri ilə belə zarafat etmək olmaz. Siz inanmayın ki, Azərbaycan çoxsaylı şüurlu rus fəhlələri yaşayan Bakı deməkdir. Bu kobud səhvdir. İndi Bakıda şüurlu müsəlman fəhlələrinin sayı iki dəfə çoxdur. Bəs bütün Azərbaycanın kəndliləri? Mən qəti surətdə bildirirəm: əgər siz də dəlillərə diqqət yetirməsəniz, məcbur olacağıq ki, bizim geri çağırılmağımız barədə mərkəz qarşısında məsələ qoyaq. Onda qoy tarixən dolaşıq milli məsələləri belə asanlıqla həll edənlər bura gəlsinlər. O, zaman bilərik ki, bizim mənasız - Şərqə doğru çığırtımız nə deməkdir. Belə olan halda Şərqə necə gedəcəyik» (90, s.62-63). Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən AK(b)P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarda öz əksini tapmışdı. İclasda 3-cü məsələ kimi «Ermənistan İnqilab Komitəsinin Ermənistanda Sovet hakimiyyətinin elan olunması haqqında teleqramı» müzakirə edilmiş və geniş bir qərar çıxarılmışdır.

Həmin qərarın «v» bəndində yazılırdı: «...Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir: «İclasın və qərarın demək olar ki, başlıca məqsədi onun mərkəzi bəndində («q») öz əksini tapmışdır. Orada deyilirdi ki, Zəngəzur və Naxçıvan Ermənistana keçir. Digər bəndlərdə isə yazılırdı: d) Qarabağın Dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verilir; e) Sovet Azərbaycanı sovet Ermənistanı ilə qırılmaz hərbi və təsərrüfat ittifaqı bağlayır (o cümlədən neft haqqında göstərilsin) «j» və «i» bəndlərində isə Nərimanova bütün bunlar barədə bəyanat hazırlamaq və onu Bakı Sovetinin plenumunda elan etmək tapşırılırdı (87, s.266).

Q. Orconikidzenin təkidi ilə tarixin qara səhifəsinə düşəcək bu bəyanatı məhz N. Nərimanov elan etməli idi. Bu da düşünülmüş siyasət idi. Sonradan ermənilər tərəfindən («Dağlıq Qarabağın əməkçi kəndlilərinə öz müqəddəratını təyin etmək hüququ verilir» əvəzinə, Yuxarı Qarabağın Ermənistan sosialist respublikasının tərkib hissəsi kimi tanınması) təhrif edilməsinə N. Nərimanov etiraz etmişdir.

Rəsmi dairələrin ziddiyyətli, tərəddüdlü mövqeyi olduğu halda dövrü mətbuatda nikbin əhvallı məlumatlar dərc edilirdi. XI ordu tərəfindən müvəkkil

downloaded from KitabYurdu.az

Bünyadzadə Nərimanova teleqramla elə məlumat verirdi ki, heç bir problemin qalmadığı qənaətinə gəlmək olur: «Erməni-müsəlman məsələsi ləğv olunub. Zəngəzur məsələsi tezliklə həll ediləcək. Dekretlər həyata keçirilir. Naxçıvanda sovet hakimiyyətidir. Tam qayda-qanun hökm sürür» və s. İyulun əvvəllərində «Kommunist» qəzetində Qarabağ bölgəsi üzrə verilən məlumatlar dinc həyat tərzindən, erməni-müsəlman dostluğundan, təsərrüfat quruculuğu, mədəni-kütləvi planlarından bəhs edirdi. Gerçək durum Nərimanovun Mdivani, Mikoyan, Nuricanyanla birgə imzaladığı teleqramda belə ifadə olunmuşdur: «Ermənistan faktiki olaraq Azərbaycanla müharibə vəziyyətindədir.» Daşnak hökumətinin törətdiyi vəhşiliklər ittiham edilir və yalnız «yerli təşkilatlardan və məsuliyyətli yoldaşlardan» daxil olan informasiyaya əsaslanmaq tövsiyə edilirdi. «Öz tərəfimizdən, daşnak hökumətilə hər hansı danışıqları və nəzərdə tutulan şəkildə Türkiyə Ermənistanı məsələsini vaxtsız hesab edirik. Orconikidze ermənilərlə «zakatalaşina»nın təkrarlana biləcəyindən ehtiyat edərək Çiçerinə təklif edirdi ki, Azərbaycan nümayəndəsi Moskvaya çağırılsın, onunla Azərbaycan və Ermənistana aid məsələlər ikinci ilə müqavilə imzalananadək həll edilsin.» (33, s.109).

Rusiya ilə sovet Ermənistanı arasında bağlanan hərbi siyasi sazişə əsasən Rusiya İrəvan quberniyası və Zəngəzur qəzasını birmənalı erməni ərazisi kimi tanıdı.

Ermənilərin genişlənməkdə olan işğalçı fəaliyyətinə ən böyük maneə yerli əhalinin birgə mübarizəsi, gücü olduğundan, Zəngəzur bölgəsini məkrlə parçalayıb «Kürdüstan» yaradılan hissəsində, erməni hücumuna qarşı sipərə çevrilmiş Sultanov qardaşlarını məhv etmək planı da həyata keçirilirdi.

Hələ Cümhuriyyət dövründən qənim hesab etdikləri Sultan və Xosrov Sultanovları erməni fitnəkarları hər vasitə ilə aradan qaldırmağa çalışaraq, nəhayət, istədiklərinə nail oldular. Sentyabrın 18-də AK(b)P MK bürolarının birgə iclasında Qaragözovun məruzəsi əsasında «Qarabağ-Kürdüstan məsələsi» müzakirə edilmiş, «Sultan bəyi bandası ilə birlikdə məhv etmək» qərara alınmışdı (33, s.l 15).

Zəngəzurun inzibati bölgüsü ilə bağlı Azərbaycan rəhbərliyində narazılıqlar özünü göstərməkdə idi. Zəngəzurun Ermənistana verilməsi rəsmən elan olunsa da qəzanın onun idarəçiliyinə keçməsi dərhal baş vermədi. AK(b)P MK Siyasi və Təşkilat bürolarının 1921-ci il 12 yanvar tarixli iclasında «Zəngəzurun müsəlman hissəsinin inzibati cəhətdən təşkili» haqqında qərar çıxarıldı. Azərbaycan SSR-in inzibati bölgü layihəsinə dair izahat vərəqəsindən də göründüyü kimi, bir hissəsi ermənilərin işğalı altında olan Zəngəzur bölgəsini 2 yerə: Qərbi Zəngəzur qəzası və Şərqi - əhalisinin əsasən kürdlərdən ibarət olmasına görə Kürdüstan qəzasına bölmək təklif edilirdi.» (87, s.284).

Bu və ya digər səbəblərə görə Azərbaycan SSR-in yeni inzibati-iqtisadi bölgüsünün hazırlanması üzrə respublika İnqilab Komitəsi idarələrarası komissiyanın (sədri Çikalo) iclaslarında inzibati bölgüdə Zəngəzurun yeri məsələsi ətraflı müzakirə olundu. Onun 1921-ci il 2 aprel tarixli iclasında (pr. №4)

downloaded from KitabYurdu.az

komissiya üzvü Vəkilov keçmiş Zəngəzur qəzasının iki yerə bölünməsinə dair mövcud olan təkliflərlə razılaşmamışdı. O bildirmişdir ki, müəyyən mülahizələr bölgənin iki hissəyə ayrılması üçün heç də əsas vermir, ciddi və tutarlı dəlillər sayıla bilməz, yalnız bəzi siyasi mənafe və maraqlara xidmət edir. Buna görə də komissiya üzvləri Şimanovski, Hacıyev daha tutarlı dəlillər gətirərək qəzanın bölünməsinin əleyhinə çıxmışdır. Komissiyanın sədri isə bölgənin 2 yerə parçalanmasını inzibati cəhətdən də məqsədə müvafiq hesab etmədiyini bildirmiş, yolların olmadığı bir şəraitdə qəzanın idarəçiliyindəki çətinliyin onu bölməklə aradan qaldırılacağının qeyri mümkünlüyünü söyləmişdir. Müəyyən fikir mübadiləsindən sonra komissiya Zəngəzur qəzasını dəyişiksiz köhnə inzibati sərhədlərdə saxlamağı qərara aldı (87, s.284).

Moskva dairələrində aparılan müzakirələrdə, yaxud Ermənistan-Gürcüstan-Böyük Britaniya diplomatik məlumatlarında Azərbaycanın ərazi adları hallandırılırsa da, həmin yerlərin aqibəti həll olunurdusa da, Azərbaycan hökumətinin nə rəyi, münasibəti, nə iştirakı yada düşmür, nə də göstərəcəyi reaksiya nəzərə alınmırdı. Əksinə həmin ərazilərlə bağlı məsələdə Türkiyənin reaksiyası Rusiya üçün mühüm əhəmiyyət kəsb edirdi. Birincinin mövqeyinin qeyri-müəyyənliyindən ehtiyat edən Stalin noyabrın 5-də Leninə göndərdiyi teleqramda yazırdı: «...Türkiyənin mövqeyini dəqiq aydınlaşdırmadan, Ermənistanla, ona, daha doğrusu, Antantaya müsəlman əhalili mühüm strateji rayonu verən və bizi Türkiyə ilə konfliktə sövq edən müqaviləni imzalamaq olmaz. Ermənistanla müqaviləni hələlik ləngitmək, onun üçün sərfəli sülh niyyətində olduğumuzu göstərmək lazımdır, sonrası bəlli olar». Batumun Antantaya keçəcəyi təqdirdə, Gəncədə müsəlman-burjua hökumətinin yaranacağı və Bakının əldən çıxacağı haqqında xəbərdarlıq edirdi (33, s.l 16).

Rusiya, Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistanın 1921-ci ilin oktyabrın 13-də imzaladıqları Qars müqaviləsində Naxçıvanın statusu təsdiqləndi: «Müqavilə bağlayan tərəflər razıdırlar ki, Naxçıvan vilayəti, bu müqavilənin I (c) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın protektoratı altında muxtar ərazidir, bir şərtlə ki, Azərbaycan bu protektoratı üçüncü bir dövlətə güzəştə getməyəcəkdir» (62, s.159).

Naxçıvan haqqında belə prinsipial razılığa gəlinməsinə N. Nərimanovun təsiri çox böyük olmuşdur.

Beləliklə, Ermənistanın Naxçıvana yiyələnmək cəhdi boşa çıxdı.

İyunun 27-də Azərbaycan K(b)P MK-nın Siyasi Bürosu və Təşkilat Bürosunun iclası keçirildi. İclas «Tiflisdə komissiyanın işi ilə əlaqədar Azərbaycanla Ermənistanın sərhədləri haqqında» məsələyə baxıb aşağıdakı qərarı qəbul edir:

1. Siyasi Büro və Təşkilat Bürosu Dağlıq Qarabağın Azərbaycana şəksiz iqtisadi meylini nəzərə alaraq, Dağlıq Qarabağ haqqında məsələnin Bekzadyan

downloaded from KitabYurdu.az

tərəfindən qoyuluşunu qəbuledilməz sayır. Məsələ həmin mənada da həll olunmalıdır.

2. Ona görə də erməni və türk əhalili yerlərin müvafiq olaraq Ermənistana və Azərbaycana ayrılması təklifi inzibati və iqtisadi məqsədəuyğunluq baxımından qəbul edilə bilməz... (62, s.168).

1921-ci ilin iyulun 4-də RK(b)P MK Qafqaz Bürosunun Stalinin iştirakı ilə keçirilən iclasında «Qarabağ məsələsi müzakirə edilərkən, Azərbaycan rəhbərliyi ilə Azərbaycanın taleyüklü məsələsilə oynayan qüvvələr arasında (Kirov, Orconikidze, Myasnikov, Fiqatner) ciddi ixtilaflar yaranır.

a) Qarabağı Azərbaycanın hüdudlarında saxlamaq;

b) bütün erməni və müsəlman əhalisinin iştirakı ilə bütün Qarabağda rəy sorğusu keçirmək;

v) Qarabağın Dağlıq hissəsini Ermənistanın tərkibinə daxil etmək;

q) yalnız Dağlıq Qarabağda, yəni ermənilər içərisində rəy sorğusu keçirmək» (131, s.87);

Qarabağın Azərbaycan hüdudlarında saxlanmasına N. Nərimanov, Maxaradze və Nazeretyan səs verir. Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsinə Orconikidze, Kirov, Myasnikov və Fiqatner səs verir. Beləliklə, Qafqaz Bürosu qərara alır: «Dağlıq Qarabağ Ermənistan SSR-in tərkibinə daxil edilsin, rəy sorğusu yalnız Dağlıq Qarabağda keçirilsin» (131, s.91).

Hələ Qafqaz Bürosunun iclası ərəfəsində N. Nərimanov birmənalı bəyan etmişdir ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibindən çıxarılarsa, Azərbaycan hökuməti istefa verəcəkdir. İclasda qərara alındı: «Qarabağ haqqında məsələ ciddi fikir ayrılığına səbəb olduğundan, RK(b)P MK Qafqaz bürosu həmin məsələni RK(b)P MK-nın qəti həllinə verməyi lazım bilir (131, s.91). Azərbaycanın qədim torpaqları olan istər Qarabağın, istərsə də Naxçıvanın Azərbaycanın tərkibində qalmasında Nərimanovun xüsusi rolu olmuşdur. O hətta Azərbaycan hökumətinin istefasını qoyacağını bildirərək Mərkəzi və erməniləri bu alçaq siyasətdən əl çəkməyə vadar edə bilmişdi. Yəqin ki, Zəngəzurla bağlı belə qəti mövqe tutulsaydı, çevrilişdən sonra Azərbaycanın ərazi bütövlüyünə zərbə vurulmazdı. Ciddi ixtilafları nəzərə alaraq iyulun 5-də Qafqaz Bürosu, «Orconikidze və Nazeretyan əvvəlki plenumun Qarabağ məsələsinə yenidən baxmaq haqqında» təklifi adı altında yenidən bu məsələyə baxır. Əslində isə bu, N. Nərimanovun qəti tələbi ilə edilmişdir.

Məsələ üzrə qərara alınır: Yuxarı və aşağı Qarabağın iqtisadi əlaqələrini, yuxarı Qarabağın Azərbaycanla daimi əlaqələrini və müsəlmanlarla ermənilər arasında milli sülhün zəruriliyini nəzərə alaraq, Dağlıq Qarabağı Azərbaycan SSR hüdudlarında saxlamaq, Dağlıq Qarabağa Şuşa şəhəri inzibati mərkəz olmaqla geniş muxtariyyət vermək (131, s.92).

Azərbaycanın ərazi bütövlüyünə növbəti qəsd Dağlıq Qarabağa Vilayət Muxtariyyətinin verilməsi olmuşdur. 1923-cü ildə Mirzoyanın təsiri,

downloaded from KitabYurdu.az

Orconikidzenin təkidi ilə Zaqafqaziya Ölkə komitəsinin iyunun 27-də keçirilmiş iclası Azərbaycan hökumətinə 1 ay müddətinə Dağlıq Qarabağa Vilayət Muxtariyyəti verilməsini ciddi tapşırdı. Nərimanov yazırdı: «Mənim vaxtımda bu mümkün olmamışdı, ona görə yox ki, mən bu Muxtariyyətin əleyhinə idim, sadəcə olaraq ona görə ki, erməni kəndlilərinin özləri bunu istəmirdilər... Mirzoyan bu müddət ərzində erməni daşnak müəllimlərin köməyi ilə zəmin hazırladı... Daha sonra Gəncənin dağlıq hissəsi haqqında məsələ gəlir və i.a. Azərbaycanda daşnak siyasəti tam gücü ilə həyata keçirilir» (90, s.60).

Azərbaycanın taleyi erməni daşnaklarına həvalə edildiyindən təbiidir ki, bu fəlakətlər Azərbaycan üçün labüd idi, sonralar da ağır nəticələrə gətirib çıxardı.

Aprel çevrilişindən sonra Rusiya-Azərbaycan qarşılıqlı münasibətlərində normal və bərabər hüquqlu müttəfiq kimi münasibət müəyyən müddət qalırdı. 1920-ci il sentyabrın 30-da hər iki dövlət arasında bağlanan hərbi-iqtisadi ittifaq haqqında müqavilədə də bu öz ifadəsini tapmışdı. Ancaq Qafqazda Rusiya hökmranlığını tam bərqərar edəndən sonra, xüsusən Ermənistan (1920-ci il noyabr), Gürcüstan (1921-ci il fevral) işğal edildikdən sonra Rusiya üçün hərbi-iqtisadi ittifaqın əhəmiyyəti azaldı. Demək olar ki, bütün sahələrdə olduğu kimi, bu sahədə də ciddi məsələlər yalnız Rusiyanın mənafeyi baxımından həll edilməyə başladı.

Yerli əhalinin narazılığı 1921-ci il mayın 6-19-da keçirilmiş I Ümumazərbaycan Sovetlər Qurultayının materiallarında öz əksini tapmışdı. Qurultay nümayəndələri, xüsusilə qəzalardan gəlmiş nümayəndələr çoxsaylı suallarla N. Nərimanova müraciət edirlər. Onlar soruşurlar ki, əgər həqiqətən Azərbaycan deyildiyi kimi tam müstəqildirsə, Rusiya federasiyası ilə bərabər hüquqlu respublikadırsa, onda nəyə görə Rusiya Azərbaycanın daxili işlərinə istədiyi kimi müdaxilə edir? Niyə Azərbaycan öz neftinin həqiqi sahibi deyil və ondan istədiyi kimi istifadə edə bilmir? Soruşulurdu ki, nəyə görə yaxın vaxtlarda Azərbaycanda xarici işlər, hərbi komissarlıqların ləğv ediləcəyi və Azərbaycanın xarici ticarətinin RSFSR xarici ticarəti ilə birləşdiriləcəyi haqqında söhbətlər gedir? Zaqafqaziya yollarının respublikamızın yolları ilə birləşdirilməsini necə izah etmək olar?

N. Nərimanov bu suallara cavablarında sovet respublikalarının bəzi məsələlərdə ümumi bir mərkəzdən idarə olunmasına haqq qazandırır və bunun sosializmin təbiətindən irəli gəldiyini sübut etməyə çalışırdı. Öz cavabında o bildirirdi ki, «biz ilk növbədə sovet hakimiyyətinin mahiyyətini başa düşməliyik. Biz deyirik ki, nə qədər düşmənlərimiz məhv edilməyib, sosialist respublikaları vahid bir küll təşkil edəcək, hər yerdə və həmişə vahid cəbhədə çıxış edəcəklər. Belə bir vaxtda hər hansı sovet sosialist respublikası tam suverendir, ya yox söhbəti ola bilməz, əgər onların hər biri öz küncünə çəkilərsə və hərə öz mühasibat hesabını aparарsa, onda biz hamımız məhv olarıq» (93, 21-22.07.2001).

downloaded from KitabYurdu.az

Qafqazda olan hər üç respublikanı tabeçilikdə saxlamaq, onların milli dəyərlərini arxa plana keçirmək üçün daha «sərfəli» ideya öndəmə gətirildi ki, bu da Zaqafqaziya Respublikalarını vahid dövlət qurumu kimi birləşdirmək idi. 1922-ci ilin martın 12-də keçirilən səlahiyyətli konfransda ZSFSR-in yaradılması ilə respublikalarla Mərkəz arasında bir çox rəhbər orqanlar birləşdirilərək, xüsusən xarici siyasət, xarici ticarət, nəqliyyat, rabitə, iqtisadi siyasət və s. Qafqaz Diyar Komitəsinin tabeliyinə keçirdi.

Artıq 1921-ci ilin son aylarında Azərbaycanda federasiya məsələsi ciddi müqavimətə rast gəlmirdi. Partiyadaxili çəkişmələrə, intiriqalara çox aludə olunduğundan əsil məsələlər ciddi müzakirə olunmurdu. Bununla razılaşmayan kommunistləri isə federasiya haqqında məsələnin mahiyyətini başa düşməməkdə və siyasi korluqda təqsirləndirirdilər. Xüsusən N. Nərimanovun nüfuz dairəsi daralmışdı. «Etibarlı» kadrların rəhbərlikdə məsul vəzifələr tutması Mərkəzin bu dəfə də öz planını həyata keçirməsinə yardımçı oldu.

Zaqafqaziya federasiyasının yaradılmasının fəal tərəfdarı M. C. Bağırovun tərcümeyi-halını tərtib edənlər onu inqilabi işin alovlu mübarizi kimi göstərməyə çalışaraq yazırdılar: «...1922-ci ilin martında özünün «Dardüşüncəli adamın fitnəkarlığı və ya ağılsızlığı» adlı məqaləsində yoldaş Bağırov sonralar xalq düşməni kimi ifşa olunmuş Həmid Sultanovun millətçi çıxışına kəskin cavab verdi. 1924-cü ilin mayında AK(b)P-nin XIII Ümumbakı konfransında Bağırov milli təmayülçü Həbib Cəbiyevin və «Xanbudaqovçuluğun» digər nümayəndələrinin partiya əleyhinə fəaliyyətini ifşa etdi» (94, s.31).

Azərbaycanın müstəqilliyinə növbəti zərbə 1922-ci ilin dekabrında SSRİ-nin yaradılması ilə vuruldu. Hətta Stalinin ortaya atdığı «muxtariyyətləşmə» ideyası respublikalarda, xüsusən Gürcüstanda çox narazılıqla qarşılandı. Azərbaycanda da bu fikir birmənalı qarşılanmadı. Yerlərdə zəif də olsa narahatlıqlar özünü büruzə verməkdə idi. V. İ. Lenin vəziyyəti dərhal başa düşərək, daha çevik siyasət yeridərək respublikaların bərabərhüquqlu müttəfiq kimi SSRİ-yə daxil olmasını irəli sürdü.

Beləliklə də, sovetləşmənin əvvəllərində milli dövlət mexanizminin dağıdılması, müstəqilliyin, ərazi bütövlüyünün itirilməsi ilə əyalətin əyalətinə çevrilən Azərbaycan da bu ittifaqa daxil oldu. N. Nərimanovun Azərbaycandan uzaqlaşdırılaraq, MİK-in dörd sədrindən biri kimi Moskvaya çağırılması ilə respublikamızın formal müstəqilliyinə tam son qoyuldu. Sonrakı illərdə Azərbaycanda inqilabi, siyasi və ictimai tərbiyə daha saxta və yanlış istiqamətdə getdi. Yeni yaranmış quruluşun reallığını yaşayan, əsl həqiqətin acısını dərk edən xalq mərkəzdən idarə edilən bolşevik idarəçiliyindən narazı qalmaqdaydı.

downloaded from KitabYurdu.az

## 1.3. Dövlət idarəçiliyində, yerli şərait və milli xüsusiyyətlərin nəzərə alınmaması

Azərbaycanda aprel çevrilişindən sonra aparılan siyasət, Mərkəzin milli mənafe və yerli şəraitin xüsusiyyətlərini nəzərə almaması təbii ki, xalqın, o cümlədən rəhbərlikdə milli ruhlu kommunistlərin böyük narazılığına səbəb olmuşdu. Bir çox məsələlərdə, ərazi bütövlüyünün itirilməsinə Mərkəzin bitərəf yanaşması, xüsusən də Azərbaycanın milli mənafeyinin, tamamilə mübahisəsiz ərazilərinin Ermənistana qurban verilməsi ilə bağlı gizli sövdələşmə ciddi narazılıqlara gətirib çıxarmışdı.

RSFSR xalq xarici işlər komissarı 1920-ci il iyunun 22-də RK(b)P MK-nın Siyasi Bürosuna göndərdiyi məlumat vərəqəsində «bakılı yoldaşların intizamsızlığından və MK-nın yeritdiyi siyasi xətlə onların hərəkətləri arasındakı biabırçı ziddiyyətlərdən şikayətlənir və tələb edirdi ki, «onların cilovlanması üçün tədbirlər görülsün»... «Gürcüstan və Ermənistanın burjua dövlətləri ilə kompromis xətti yeritmək qərarına gələrkən «bakılı yoldaşlar öz hərəkətləri ilə kompromisi pozur..., mübahisəli ərazilərin Azərbaycana birləşdirilməsini tələb edirlər. Eyni zamanda G. Çiçerin təcili olaraq «Azərbaycanlı işçiləri ələ almaq üçün «Qafqaz xadimləri qrupu ilə əlaqəsi olmayan nüfuzlu bir adamın Moskvadan təyin edilməsini təklif edir, ümid edirdi ki, mərkəzin bu nüfuzlu nümayəndəsi daima yerli yoldaşların qarşısını alacaq» (94, s.12).

N. Nərimanovun Azərbaycan İnqilab komitəsinin sədri təyin edilməsindən bir ay sonra V. İ. Lenin Serqo Orconikidzeyə teleqram göndərərək, «Azərbaycanın bütün xarici və daxili siyasətinə rəhbərliyi ona həvalə etmişdi» (13, f.268, s.26, s.51, s.263). Orconikidzeyə göstərilmiş bu «etimad» əslində Nərimanovu respublikaya rəhbərlikdən uzaqlaşdırmaq, yalnız Azərbaycanda deyil, bütün Qafqazda Mərkəzin nümayəndəsi kimi Orconikidzenin mövqeyini möhkəmləndirmək demək idi. N. Nərimanov ona göstərilən münasibəti yetərincə anlayırdı: «Mərkəz ancaq Serqo Orconikidzeyə etibar edib... Ona özünün heç bir xüsusi fikri olmayan, yalnız icraçı adamlar lazım idi».

O, oğlu Nəcəfə bitməmiş məktubunda yazırdı ki, «...hər dəfə dərk edəndə ki, səni hakimiyyətə qabiliyyətin üçün deyil, məcburən təyin etmişlər, onda sən daim vicdan əzabı çəkəcəksən, öz mənliyini təkcə kütlə qarşısında deyil, habelə öz qarşında da itirəcəksən. Sənin dünyagörüşündəki sonrakı pozulma məhz buradan başlayacaqdır» (90, s.66).

Digər tərəfdən rəhbər kadrların seçilməsi sahəsində Azərbaycanın suveren hüquqları kobud şəkildə pozulurdu. Mərkəz Azərbaycana ondan soruşmadan razılaşdırmadan, nəinki təkcə partiya işinə, habelə dövlət və təsərrüfat işlərinə adamlar göndərirdi, Onlar isə əslində Azərbaycan hökumətini saymır, ona tabe olmur, Azərbaycanın mənafeyini qorumurdular. Halbuki respublikada mühüm sosial və siyasi vəzifələr, milli şərait, Azərbaycanın öz spesifik xüsusiyyətləri

downloaded from KitabYurdu.az

nəzərə alınmaqla yerinə yetirilə bilərdi. Bu vəzifələri ancaq yerli şəraitə yaxşı bələd olan, əhalinin əsas kütləsi ilə (ilk növbədə kəndlilərlə) eyni dildə danışan, kütlələrin ənənələrini, ehtiyaclarını, tələblərini, məişət xüsusiyyətlərini başa düşən kadrlara arxalanmaqla yerinə yetirmək olardı. 20-ci illərin əvvəllərində yerli millətdən olmayan və Azərbaycan kəndi ilə zəif əlaqə saxlayan fəhlələr əksəriyyət təşkil edirdilər. Məsələn, Azneftin 46 min nəfər fəhləsindən yalnız 7 min nəfəri azərbaycanlı idi (102, s.168).

N. Nərimanov bu siyasətin əleyhinə çıxaraq «Ucqarlarda inqilabımızın tarixinə dair» (İ. V. Stalinə məktubunda) yazırdı: aşağıda mən bəzi statistik məlumatlar göstərirəm ki, bunlar mərkəzin etimadını qazanmış məsul yoldaşların müstəmləkəçilik siyasətini daha yaxşı əks etdirir.

Azərbaycanın paytaxtında türklər Bakı Sovetinin qulluqçularına istər-istəməz yazılı və şifahi şəkildə müraciət etdikdə bu müraciət rus dilində olmalıdır. Belə ki, ruslar, yəhudilər və ermənilər türk dilində danışmırlar.

Mən bildirirəm ki, Dövlət Dumasında olanda türk əhalisi belə sıxıntıya məruz qalmırdı.

Bəs Bakı qəzasında yerləşən 76 türk kəndinin əhalisi öz işləri üçün şəhərə gəlib və Bakı Sovetinə müraciət etdikdə necə təəssürat yaranır?

Bəs türklər üçün məktəblərin, uşaq evlərinin sayı?

Lakin hər şeydən dəhşətlisi təqaüdçü tələbələrin sayıdır: 30 rus və 5 türk.

Daha dəhşətlisi isə bu məsul fəhlə yoldaşların fəhlə uşaqlarına münasibətidir.

Fabrik-zavod-şagirdlik məktəbləri adlanan təhsil ocaqlarının sayı 17, burada rus uşaqlarının sayı 1192, müsəlman fəhlələr üçün isə 26. Məgər bütün bunlar yoldaş Kirov və Mirzoyana bəlli deyil? Məgər Mirzoyan və başqalarının bu cür cinayətkar siyasətini müdafiə edən R. Axundov və ona bənzər türklər bunu hiss etmirlər? (90, s.49-50).

N. Nərimanovun il boyu təkid etdiyi, partiyadaxili ixtilafa səbəb olacaq mövqeyi-idarəetmə metodlarının yumuşaldılması, psixoloji durumun, yerli şəraitin nəzərə alınması kimi şərtlərindən daha irəli gedən başlıcası keyfiyyət dönüşünü nəzərdə tutan partiya xətti irəli sürüldü. Qonşu respublikalarda yeni hakimiyyətin qurulması sovet məkanında islahata dönüş dövrünə təsadüf etdiyi halda, artıq Azərbaycan «hərbi kommunizm» siyasətinin bəhrəsini görmüşdü.

RSFSR-in siyasətində qarşıda duran ən ümdə vəzifələrdən biri Bakı neftinin konsessiyası məsələsi idi. Azərbaycan rəhbərliyinin iştirakı və rəyi mərkəzi maraqlandırmadığından, Bakı neftinin taleyini Moskva tək həll edirdi. Bu da təbii ki, Bakıda birmənalı qarşılanmayan narazılığa səbəb olmuşdu. Mübahisələrin davam etməsi ilə əlaqədar nəzərdə tutulan sahələr icarəyə verilməmiş qalırdı. 1920-1922-ci illərdə A. Serebrovskiyə RSFSR Ali Xalq Təsərrüfat Şurası tərəfindən verilmiş çoxsaylı mandat və vəkalətnamələrdə ona Azərbaycanın bütün neft sənayesini şəriksiz idarə etmək tapşırılırdı.

downloaded from KitabYurdu.az

«Neft və neft məhsullarını xarici bazara çıxaran Serebrovski çevik və geniş ticarət əməliyyatları həyata keçirmişdi» (143, s.12-15).

Beləliklə, Azərbaycan neftini öz istədiyi kimi «sağa-sola dağıdaraq» Nərimanovun qeyd etdiyi kimi «sovet Azərbaycanını tanımaq istəməyən» Serebrovski həqiqətən də ilk gündən özünü Azərbaycan neft sənayesinin «tacsız kralı» kimi aparır, respublikanın hakimiyyət orqanları ilə əsla hesablaşmırdı. Hətta, öz neftindən ehtiyaclarını ödəmək üçün Azərbaycana icazə verilmirdi. Belə ki, 1923-cü il fevralın 27-də Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Q. Musabəyova göndərdiyi məktubunda A. Serebrovski yazırdı ki, «Sizinlə şəxsən danışmağımıza əlavə olaraq onu da bildirirəm ki, Azərbaycan hökumətindən pul ala bilmədiyimiz üçün fəhlələrin əmək haqqını ödəyə bilmirik. Ona görə də Azərbaycan neft komitəsi Azərbaycan SSR Xalq Komissarları sovetinin göstərişi ilə Azərbaycan üçün neft məhsulları buraxmayacaq». Necə deyərlər, bağ yiyəsi bağına qıydı, bağban bir salxım üzümə qıymadı» (93,21.07.2001).

Neft sənayesində milli kadrlara olan ögey münasibət, onlara etimadsızlıq, inamsızlıq Serebrovskinin işində özünü bariz göstərirdi. Azərbaycanlı fəhlələr, ixtisaslı, təcrübəli neftçilər işdən çıxarılaraq, əvəzinə «mədənlərdə işçi qüvvəsi ehtiyacını təmin etmək üçün Konstantinopoldakı 5 mindən çox vrangelçi əsgərləri Bakıya gətirməyə nail olmuşdu». Odur ki, 1921-ci ildə müxtəlif bəhanələrlə bir neçə dəfə İstanbula uzun müddətli ezamiyyətə gedir, «fəhlələr üçün ləvazimat» gətirmək pərdəsi altında olan bu ezamiyyət nəticəsində «1921-ci ilin iyul-oktyabr aylarında 1500-dən yuxarı vrangelçi və onların ailə üzvləri gətirilərək Azneftkom hesabına Bakıdan Rusiyanın müxtəlif yerlərinə yola salınmışdı... 1923-cü il aprelin 15-nə olan məlumata görə hazırlanmış və mayın 8-də A. Serebrovski tərəfindən imza edilmiş siyahıda həmin sistemdə Vrangel ordusunda, habelə Denikin, Kolçak və erməni daşnak ordularında xidmət etmiş 65 zabitin adı daxil olmuşdu» (93, 22.07.2001).

Azneftkomda gəlib işləyən vrangelçilər artıq 1921-ci ilin axırlarında neft sənayesi sahəsində gizli təxribatlara başlayırlar. Onlar neft sənayesinin bərpasına hər vasitə ilə mane olmaq istəyirlər. Mədənlərdə avadanlıqları xarab edir, yanğınlar törədir, fəhlələr arasında Sovet hökumətinə qarşı təbliğatlar aparır və b. təxribat əməlləri törədirdilər. Buna görə də 1922-1923-cü illərdə vrangelçilər ciddi nəzarətə götürülür (93, 22.07.2001).

Çevrilişdən sonra Azərbaycan öz neftindən demək olar ki, məhrum edildi. Xüsusən Bakıda Neft sənayesinə qeyri millətlərin nümayəndələri - ermənilər, ruslar, yəhudilər daha çox cəlb edildilər. O zaman Azneftin sədri kimi respublikaya göndərilən Serebrovski ilə N. Nərimanov arasında, neft məhsullarının müəyyən faizini Azərbaycanın hesabına verilməsi üstündə narazılıqlar olmuş, hətta Nərimanov Siyasi Büroda respublikanın xeyrinə qərar qəbul etdirməsinə baxmayaraq, Kirov və Mirzoyan, eləcə də Serebrovski bu qərara əhəmiyyət vermir, əksinə sərvətimizi öz bildikləri kimi talan edirdilər.

downloaded from KitabYurdu.az

N. Nərimanov «Ucqarlarda inqilabımızın tarixinə dair» məktubunda yazırdı: «Sovet Azərbaycanı özü könüllü olaraq neftin Sovet Rusiyası zəhmətkeşlərinə mənsub olduğunu elan etmişdir, lakin sovet respublikasında başda «kral» Serebrovski olmaqla «Monarxiya yaratmaq nəyə lazım idi, o indiyənə qədər elə bilir ki, azərbaycanlıları aypara və ulduzlarla aldadır...

Azərbaycan birinci il nəinki neft verir, hətta öz dövlət kassasından fəhlələrin məvacibini də ödəyirdi. Bundan artıq beynəlmiləl nə ola bilər?…

Əgər indi Neftkomun və Baksovetin qulluqçularının tərkibinə nəzər salınarsa, onda qərəzsiz müşahidəçi dəhşətə gələr. Yerli müsəlman mühəndislər və ümumiyyətlə, ziyalılar alver edir, bu müəssisələr isə rus, erməni və yəhudilərlə doldurulmuşdur.

Azərbaycan kəndlisi ağ neft olmadığı üçün talaşa yandıranda, azərbaycanlı vətəndaş Tiflisdə ağ neftin Gəncədəkindən ucuz satıldığını görəndə, istər-istəməz bütün bunları törədənlərin ünvanına tənə, müstəmləkəçilikdə ittiham və s. eşitməyə məcbur olursan.» (90, s. 35-36).

1922-ci il yanvarın 18-21-də keçirilən IX Ümumbakı Partiya Konfransı bir çox məsələləri müzakirə etdi. «Azərbaycan işçilərinə Mərkəzin «Direktivlərindən» irəli gələn vəzifələr IX Ümumbakı Partiya Konfransında da prinsipial müzakirə mövzusu olmadı. Bakı Komitəsi adından hesabat verən L. Mirzoyan işi elə qələmə verməyə çalışırdı ki, guya təşkilatda hər şey yerli-yerindədir. O, Direktivlərin əhəmiyyətini hər vəcdlə kiçiltməyə cəhd göstərirdi, bu sənədin qəbul olunmasını MK-nın pis məlumatlandırılması ilə izah edərək dedi: «RK(b)P MK-nın Direktivləri burada müsəlmanlar arasında aparılan iş haqqında partiyanın Mərkəzi Komitəsində düzgün təsəvvür olmamasının nəticəsi idi. MK-ya çatdırılmışdı ki, burada Bakı təşkilatı türk fəhlələri arasında iş aparılmasına az, çox az fikir verir. Məhz belə birtərəfli məlumatın nəticəsi idi ki, biz RK(b)P MK-dan müvafiq göstərişlər və direktivlər aldıq» (144, s.7).

N. Nərimanov çıxışında qeyd etdi ki, ən əsas ixtilaf işin dərinliyini başa düşməməkdən doğmuşdur. O, mərkəzin yaxşı məlumatlandırılmaması haqqında L. Mirzoyanın iddiasını rədd etdi. «Yox, yoldaş Mirzoyan, Mərkəz pis məlumatlandırılmamışdır. Əgər siz mərkəzdən direktivlər almısınızsa, nə üçün onların haqqında danışmırsınız?» (90, s.22).

Direktivlər elə kağız üzərində də qaldı. Hətta Mərkəzdə həmin sənədin hazırlanmasında iştirak edən Q. Orconikidze də ondan yan keçdi. Bu da ixtilaf və çəkişmələrin aradan qalxmasına heç bir təsir etmədi.

IX Ümumbakı partiya konfransı neft məsələsinə də baxdı. Konfransda A. Serobrovskinin məruzəsi ətrafında geniş müzakirələr başlandı.

Çıxış edənlər - D. Bünyadov, N. Nərimanov, M. Quliyev A. Serebrovskinin məruzəsindən narazı qaldıqlarını bildirdilər. D. Bünyadov qeyd etdi ki, Serebrovski istehsalat haqqında çıxış etdi, ancaq fəhlələr haqqında danışmadı. Burada oturan nümayəndələr yaxşı bilirlər ki, fəhlələrin vəziyyəti necədir, onlar bir

downloaded from KitabYurdu.az

neçə aydır ki, maaş almırlar. Fəhlələr və ixtisasçılar arasında olan fərq fəhlələri çox narahat edir. Buna diqqət etmək lazımdır.

Əgər biz fəhlələrin güzəranını yaxşılaşdırmasaq, keçən ilki hadisə baş verəcək, fəhlələr qaçacaqlar (144, s.47).

Konfransda fəhlələrin istismar olunmasına öz narazılığını bildirən N. Nərimanov onların maddi vəziyyətinə xüsusi diqqət yetirmək lazım olduğunu xüsusilə qeyd edərək göstərirdi ki, «Biz uşaq deyilik, hər şeydən əvvəl fəhlənin orqanizmasını saxlamaq lazımdır ki, o lazım olan işi görsün. Orqanizmi saxlamasaq, iş irəli getməz. Aydındır ki, əgər fəhlənin qan azlığı varsa, qan azlığı da ondan irəli gəlir ki, o, lazımınca qidalanmır, təbiidir ki, işə başlayandan 2-3 saat sonra onun baş hərlənməsi olacaq, beləliklə də o, istehsal edə bilməyəcək. Bunun əsasında demək olmaz ki, fəhlə özbaşınalıq edir, fəhlə işləmir. Bundan başqa fəhlənin yeri dinc olmalıdır, isti yaşayış yeri ilə təmin olunmalı, əgər rütubət varsa onun qarşısı alınmalıdır. Hazırkı şəraitdə fəhlədən çox şeyi tələb etmək olmaz... Nərimanov deyirdi ki, fəhlənin ailəsi haqqında da düşünmək lazımdır. Əgər biz fəhləni lazımi cəhətdən təmin etməsək, o, evə gedəndə onun körpə uşaqları ona iti gözlə baxacaqlar... «Ata mən acam, mənə yemək ver». Belə halda fəhlə işləyə bilərmi? O bütün diqqətini işə verə bilərmi? Yox, bu, fəhləni əsəbiləşdirər, onda narahatlıq yaradar (144, s.49).

Azərbaycan sovetləşəndən az sonra milli mənafelərin nəzərə alınmaması özünü ruslaşdırma siyasətində daha qabarıq göstərdi. M. Ə. Rəsulzadə «Çağdaş Azərbaycan tarixi» əsərində məsələni işıqlandırırdı: «Azərbaycanda rus-bolşevik hakimiyyətinin ruslaşdırma siyasəti iki şəkildə təzahür edir: iqtisadiyyatda mərkəzləşdirmə; mədəniyyət sahəsində ruslaşdırma».

İqtisadi mərkəzçilik, məmləkəti Moskvanın nəzərdə tutduğu iqtisadi planlara tabe etməkdən ibarətdir. Bu məqsədlə Azərbaycanın neft sənayesi bilavasitə Moskvadan idarə olunurdu. Azərbaycan, Sovet İttifaqı sənayesinin ümumi mənafeyi üçün Türküstandan sonra, ikinci, pambıqçılıq regionuna çevrilir. Azərbaycan ərazisində Rusiyadan köçənlər məskunlaşır. Siyasi və iqtisadi müəssisələrdə Rusiyadan gələn yabançı ünsürlər hökm sürür, şəhərlər getdikcə milli özünəməxsusluqlarını itirir, sənaye işçilərinin sayı azərbaycanlıların zərərinə dəyişir. Bir sözlə, «ən demokratik Stalin konstitusiyası» baxımından sözdə müstəqil Azərbaycan respublikası metropoliya tərəfindən qeyri-məhdud bir miqyasda soyulmaqda və istismar edilməkdə idi (99, s.98).

M. Ə. Rəsulzadə «Azərbaycan Cümhuriyyəti» əsərində mədəniyyətin ruslaşdırılmasını Azərbaycanın faciəsi adlandıraraq, göstərirdi ki, sovetləşmənin ilk dövrlərində bu siyasət mədəniyyətin «formaca milli, məzmunca kommunist» olmasından bəhs edən bolşevik formulu ilə maskalanırdı.

Bütün bunlarla yanaşı qısa da olsa, Azərbaycan xalqının sovet rejimi altında nə şəkildə olur olsun, əldə etmiş olduğu bəzi mədəni nailiyyətləri göstərərək yazırdı: «Hər şeydən əvvəl indi Azərbaycanda oxumağı, yazmağı

downloaded from KitabYurdu.az

bilməyənlərin sayı aşağı səviyyəyə enmişdir. Türkcə çap edilən qəzet və kitabçaların tirajı artırılmışdır. Almaniyada rast gəldiyimiz azərbaycanlı hərbi əsirlər arasında oxuyub yazmağı bilməyənlərə rast gəlmədik. Azərbaycanlılar arasında müxtəlif ixtisaslar sahəsində yetişmiş adamların sayı diqqətə layiq bir vəziyyətdədir. Alimlik qadınlara da aiddir. Bir çox orijinal pyeslərdən başqa Azərbaycan teatrının repertuarı Avropa dramaturgiyasının tərcümə edilmiş pyesləri ilə zənginləşdirilmişdir. Əlbəttə ki, rus yazıçılarına üstünlük verilmişdir. Yeni istedad sahibi artist və aktrisalar meydana çıxmışdır. Səhnə sənəti inkişaf etmişdi. Bundan başqa məşhur bəstəkar Üzeyir Hacıbəyli ilə başlanan Azərbaycan musiqili səhnəsi böyük addımlarla irəliləmişdi. Sovet İttifaqına daxil olan millətlər arasında Azərbaycan musiqisi qabaqcıl bir yer tutmuşdur. Musiqi təhsili ümumiləşmişdi. ... Lakin mədəniyyət sahəsində sayılan nailiyyətlər nə kəmiyyət, nə də keyfiyyət baxımından azərbaycanlıları təmin edəcək bir şəkildə deyildir» (99, s.97).

Heydər Əliyev yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində XX əsr tarixinin III mərhələsi kimi qiymətləndirdiyi sovet dövrünü, xüsusilə sovetləşmənin əvvəllərini çox düzgün xarakterizə edərək göstərir: «Bolşeviklər Şərq ölkələrinin yeni inqilabı dəyişikliklərə can atmaq arzusunda olmadıqlarını gördükdən sonra öz siyasi məqsədləri naminə Azərbaycanın müstəqilliyinin qorunub saxlanması ideyasından əl çəkdilər. 1921-ci ildə Zaqafqaziya Federasiyasının yaradılması artıq müstəqilliyin itirilməsi yolunda atılan ilk addım oldu. 1922-ci il dekabrın 30-da SSRİ-nin yaranması isə Azərbaycanın müstəqilliyinə son qoydu. O, bir sıra dövlətçilik atributlarını, o cümlədən bayraq, gerb, himn və konstitusiyasını qoruyub saxlamasına baxmayaraq, bir çox sahələrdə özünün beynəlxalq hüququn subyekti olmaq statusunu itirmişdi» (2, s.14)

Azərbaycan dilinin dövlət dili olması, sovetləşmədən sonra rəhbərlikdə mübahisələrin yaranmasına gətirib çıxartdı. Əvvəlki qurultaylarda da türk dili ətrafında mübahisələr olmuşdur. N. Nərimanovun Genuya konfransında iştirakından istifadə edərək sol qrup türk dili üzərinə hücuma keçmişdi. Məktəblərdə rus dili dərslərinin sayını türk dili dərslərinin azaldılması hesabına artırmaq haqqında mətbuatda açıq çıxışlar edilirdi.

1922-ci il fevralın 2-7-də keçirilən Bakı Kommunistlərinin IV qurultayında geniş mübahisə oldu. Nərimanov çıxışında demişdi: «Yoldaşlar soruşurlar idarənin milliləşdirilməsinə MK necə baxır? Türk dilinin dövlət dili olması qanundur. Bu haqda dekret var. Ona görə idarələrdə yazı və danışıqlar türk dilində olmalıdır. İndi məsul vəzifədə başqa millətlərdən olan kommunistlər durur. Onlar azərbaycanca oxuyub yaza bilmirlər. Gizlətmək lazım deyil, elə yoldaşlar var ki, rusların arasında da yox deyillər. Lənətə gəlsin teoretik türk dili. Onlar Azərbaycanda işləmək istəmirlər. Əgər onlar burada daimi işləməyi qərara alıblarsa, türk dilini mütləq öyrənməlidirlər» (13, f.1, s.74, iş 5, s. 78).

downloaded from KitabYurdu.az

Qurultayda qeyd edildi ki, Mərkəzi Komitə daxilində əsas məsələlərdə bəzən fraksiyaçılıq dərəcəsinə çatan və birliyin tamamilə aradan qalxmasına gətirib çıxaran ixtilaflar olmuşdur. Fraksiya mübarizəsi MK-ya respublika həyatına istiqamət verən və rəhbərlik edən ali orqana çevrilməsinə mane olurdu.

Qurultay, plenum qərarlarında milli məsələ barəsində faydalı, mütərəqqi, inkişaf yönlü mülahizələr, tövsiyyələr təsbit olunsa da, əksəriyyəti kağız üzərində qalaraq həyata keçirilmədi. Üstəlik sol qrup Nərimanova hücumlarını davam etdirirdi. Bu hücumlar, o hətta Azərbaycandan uzaqlaşdırılandan sonra da ara vermirdi.

Aprel çevrilişindən sonra bolşeviklərin kadr siyasətində yol verdikləri nöqsanlar, xüsusən də azərbaycanlılara qarşı ögey münasibət nəinki tək xalqda, eləcə də rəhbərlikdə ciddi narazılıqlara gətirib çıxardığından partiyanın Bakı Komitəsi bir sıra tədbirlər görməli oldu.

1921-ci ilin sonlarında Bakıda Mərkəzi Türk Sovet partiya məktəbi açıldı. Qəzalarda partiya siyasi maarif şəbəkəsi genişləndirildi (13, f.l, s.74, iş 5, s.84).

Azərbaycanda sovet hakimiyyəti qurulanda R. Axundovun, S. Qutinin, Ə. H. Qarayevin, M. Quliyevin, M. D. Hüseynovun, H. Cəbiyevin və AK(b)P Bakı Komitəsinin digər üzvlərinin cəmi bir ilə yaxın partiya stajı vardı. N. Nərimanov R. Axundovun və Ə. H. Qarayevin solçu çıxışlarının səbəblərini birincinin sol eserlər partiyasından, ikincinin isə menşevik «Hümmət» qrupundan olmasında görürdü. Onların «ifrat inqilabçılığı», «ifrat beynəlmiləlçiliyi» də bu baxımdan irəli gəlirdi. R. Axundov və M. D. Hüseynovun geri çağırılması məsələsi AK(b)P-nin IV qurultayında qalxmışdı. Kirov milli xətti nəzərə almadan həmfikirlərini müdafiə edərək belə deyirdi: «Nə üçün cərrahiyyə əməliyyatı özlərini beynəlmiləlçi adlandıran yoldaşlar üzərində aparılmalı idi? Nə üçün bir tərəfə zərbə vurulmuş (sol fraksiyanın üzvlərini nəzərdə tuturdu - red.), o biri tərəfə dəyməmişlər? ...Ehtimal ki, onlar öz mövqelərini yazılı şəkildə şərh etmişdilər. MK-nın siyasi bürosu yoldaşları Moskvada saxlamağı və Azərbaycana qaytarmamağı qərara almışdır. Görünür, Mərkəzi Komitə belə hesab etmişdir ki, bu yoldaşlar Zaqafqaziyada partiya xəttinin daşıyıcıları ola bilməzlər» (13, f. 1, s.74, iş 5, s.66-67).

Sovet hakimiyyətinin ilk illərində milli xüsusiyyət, yerli şərait və milli mənafelərin nəzərə alınmaması dinə və digər adət ənənələrə qarşı mübarizənin güclənməsində özünü daha bariz şəkildə göstərirdi.

Keçmiş SSRİ-yə daxil olan respublikalarda dinə qarşı mübarizə özünəməxsus xüsusiyyətlər daşımışdır. Belə ki, Azərbaycan respublikasında yaranmış hakimiyyətdə qeyri-azərbaycanlı qüvvələrin aparıcı mövqe tutması və milli kommunistlərin «tam beynəlmiləlçiliyi» başqa məsələlərdə olduğu kimi dinə münasibətdə də «öz sözünü» demişdir (49, s. 110).

downloaded from KitabYurdu.az

Respublikada dinə qarşı mübarizədə ilk təşəbbüs 1920-ci ildə «Şaxsey-vaxsey», «Şaxsey-vaxseydə kim iştirak edir» adlı plakatların buraxılması oldu (13, f.1, s.l, iş 32, s.18).

1920-ci il mayın 15-də Az. SSR Xalq Maarif Komissarlığının verdiyi dekretdə vicdan azadlığı elan edildi. Azərbaycan Xalq Cümhuriyyətinin Dini Ayinlər Nazirliyi ləğv olundu. Xalq Maarif Komissarlığının öhdəsində olan bütün dövlət məktəblərində və pullu məktəblərdə şəriət dərslərinin, habelə məktəb daxilində hər cür dini ayinlərin icrası qadağan olundu.

Rusiyada bolşeviklər hakimiyyətə gəldikdən sonra, hələ 1917-ci il noyabrın 22-də «Rusiyanın və Şərqin bütün müsəlman zəhmətkeşlərinə» adlı müraciət qəbul edildi. Bu müraciətdə göstərilirdi ki, «İndi sizin dininiz, milli və mədəni müəssisələriniz azad və toxunulmaz elan edilir...» (141, 24.11.1917)1

1920-ci il mayın 5-də Azərbaycan İnqilab Komitəsi bəy, xan və vəqf (din başçılarının) torpaqlarının müsadirə edilib heç bir ödənc alınmadan kəndlilərin istifadəsinə verilməsi haqqında dekret imzaladı (123, s.16). Bu da həqiqi mənada hücum xarakterli bir siyasət idi. Bolşeviklər yaxşı bilirdilər ki, müsəlmanlar məscid torpağına sahib olmağa razılıq verməz. Ona görə də Sovetlər dekretin yerinə yetirilməsi üçün şərt qoyurdular ki, dekretin həyata keçirilməsinə kim mane olsa, o adamlar zəhmətkeş xalqın açıq düşməni sayılacaq və qanundan kənar ediləcəklər.

Müsəlman dünyasının müqəddəs ayı sayılan məhərrəmliyə qarşı təbliğat İslam dininin başqa ayinlərinə və hətta dinin özünə qarşı aparılan təbliğatdan daha artıq səy tələb edirdi.

Bolşeviklər məhərrəmliyə qarşı 15 maddədən ibarət olan tezislərlə Kərbəla hadisələrinə siyasi və iqtisadi nöqteyi-nəzərdən yanaşır və bu hadisəyə feodal münaqişəsi kimi qiymət verirdilər. Məhərrəmlik əleyhinə yazılmış tezislərdə İslamın əsaslarına da ciddi toxunulurdu (117, s.51-54).

Az K(b)P MK-nın 1920-ci ildə respublikadakı partiya təşkilatlarına, ideoloji və din əleyhinə məsələ ilə əlaqədar təlimat məktubunda yazılmışdı: «Bütün qəza təşkilatlarına, AK(b)P-nin yerli orqanlarına. «Aşura» günü yaxınlaşdıqca qabağımıza çətin, məsuliyyətli iş çıxır. «Aşura» günü, onunla bağlı zəncirlərlə özünüdöymə, küçələrdə səs-küylü yürüşlər və s. bizim üçün silinməz bir ləkədir. Azad Azərbaycanda belə hallara yol vermək olmaz. Sizlərə tapşırılır ki, Şaxseyə-vaxseyə qarşı ağıllı təbliğat aparasınız.» (13, f.l, s.l, iş 32, s.34).

Bolşeviklər düşünülmüş təbliğat seçmişdilər. Onlar bu cür qabaqgörən siyasətlə çox nüfuzlu din xadimlərini öz ətraflarına çəkir və öz istədikləri kimi din əleyhinə iş görə bilirdilər. Təəssüf ki, çox hallarda ifrata vararaq hədlərini aşırdılar da. Bunu Orconikidze, Mirzoyan da sonralar öz çıxışlarında etiraf edirdilər.

Azərbaycan sovetləşəndən sonra şəriətin başqa adətləri kimi, orucluğa qarşı da barışmaz mübarizə aparılmağa başlandı. Bolşevik təbliğatında orucluq da məhərrəmlik, novruz və qurban bayramı kimi mövhumatçıların uydurması sayılırdı.

downloaded from KitabYurdu.az

Sovet mətbuatı məsələyə tamam əks mövqedən yanaşaraq yazırdı: Orucluq orqanizmi əldən salır və sağlamlığı məhv edir.

Məhərrəmliyə və orucluğa qarşı geniş mübarizə kampaniyası partiyanın Bakı Komitəsinin protokollarında öz əksini tapmışdı. Dini mərasimlərə qarşı mübarizə aparmaq məqsədilə tənqid-təbliğ teatrlarından istifadə edərək yeni pyeslərin baxımını və təsdiq edilməsini təmin etmək üçün Komissiya yaradılması, xüsusi plakatlar, şüarlar hazırlamaq, qəzetlərdə məhərrəmliklə əlaqədar kompaniyaya başlamaq nəzərdə tutulurdu (13, f.l, s.l, iş 130, s.42).

Əsrlər boyu xalqın öz arzusunun, istəyinin baş tutması üçün Allaha rəğbət və minnətdarlıq rəmzi kimi qurban kəsməsi bolşevik təbliğat və mətbuatında hədəfə çevrilmişdi. Qəzet və jurnalların səhifələrini mollalara qarşı karikaturalar, anonim müəlliflərin məqalələri və klassik poeziyaya bələd olan, dini məsələlərdən başı çıxan şəxslərin məktubları verilirdi.

Din xadimləri və dindarlara qarşı aparılan bolşevik kompaniyası dinə qarşı aparılan təbliğatla demək olar ki, eyni vaxtda başlanmışdı. Bolşeviklərin fikrincə, din xadimləri kütlələrin mədəni inkişafı və tərəqqisində əngəl törədirdilər, deməli, onlara qarşı cəmiyyət barışmaz olmalıdır. Din xadimlərinin torpaqları, varidatları əllərindən alındı, dövlət mədrəsələri bağlandı. Həmçinin mollaların ailə-nigah məsələlərinə qarışması qadağan edildi. Bütün bunlara baxmayaraq, müsəlman dindarları xristian dindarlarına nisbətən daha təmkinli davrandılar. Xristian dindarları sovet hakimiyyətinə qarşı açıq çıxışlar etmiş, antisovet bəyanatlar qəbul etmişlər. Uzun illər Rusiyada və b. yerlərdə dindarlar müxtəlif üsullarla müqavimət göstərirdilər ki, bu da hakimiyyət tərəfindən kütləvi repressiyalarla qarşılandı.

Müsəlman dindarları isə əksinə, məcburiyyət üzündən heç bir şeylə öz narazılıqlarını bildirmədilər. Hətta bəzi din xadimləri Məhəmməd peyğəmbərin təlimi ilə marksizm nəzəriyyəsi arasında bəzi paralellər aparmağa başladılar. Müsəlman din xadimlərinin bu təşəbbüsü əvvəlcə bolşeviklər tərəfindən bəyənildi, sonra isə bu hərəkətə ayrı məna verildi (71, s.38-39)

Dinə qarşı təbliğat 1923-1924-cü illərdə daha da fəallaşmışdı. 1924-cü il yanvarın 8-də AK(b)P Siyasi Bürosunun iclasında «Din əleyhinə təbliğatın aparılmasına dair» məsələ müzakirə edildi və din əleyhinə mübarizəni təşkil etmək məqsədilə komissiya yaradıldı (13, f.l, s.2, iş 18, s.144).

1924-cü ildə Bakıda «Allahsızlar cəmiyyəti»nin yaradılması ilə dinə qarşı mübarizə daha da gücləndirilirdi. Bolşevik mətbuatı «Allahsızlar cəmiyyəti»nin qarşısında duran vəzifə ilə bağlı yazırdı ki, cəmiyyətin qarşısında duran əsas vəzifə bütün şüurlu fəhlə və kəndliləri mübariz ateizm bayrağı altında birləşdirmək, zəhmətkeşləri dini xurafatdan uzaqlaşdırmaq və onlarda materialist dünyagörüşü formalaşdırmaqdan ibarətdir (112, 14.04.1925).

Azərbaycanda sovetləşmə prosesi başlayan kimi «şaxsey-vaxsey» qadağan olunmuşdur. Lakin fəhlə və kəndlilərin inamına qarşı yönəlmiş bu

downloaded from KitabYurdu.az

tədbirlərdən tez imtina edildi. Hökumət manevr edərək 1923-cü il avqustun 1-də xüsusi dekretlə «Şaxsey-vaxsey» mərasimini qadağan edən qərarı ləğv etdi. Dekretdə deyilirdi ki, Azərbaycan şiələrinin «Şaxsey-vaxsey» mərasiminə qarşı heç bir inzibati tədbir görülməsin (117, s. 50).

Azərbaycanda bolşeviklərin yeritdiyi antiislam siyasəti N. Nərimanovu çox düşündürürdü. O, buna dəfələrlə öz kəskin etirazını bildirirdi. Dinə münasibət başqa məsələlərdə olduğu kimi Azərbaycandakı rəhbər dairələrdə də ciddi fikir ayrılığına, ixtilaflara gətirib çıxarırdı. Bu fikir ayrılığı hələ aprel çevrilişindən çox keçməmiş 1920-ci ilin oktyabrında keçirilən AK(b)P-nin II qurultayında özünü bürüzə verdi. Qurultayda Lominadze qeyd edirdi ki, «Azərbaycanda dini fanatizm mühüm qüvvədir, onunla biz mübarizə aparmalıyıq. Kəndlərdə vəziyyət daha ağırdı. Burada zəhmətkeş qüvvələr bütünlüklə dini adətlərlə xəstələnib və bundan burjuaziya istifadə edir. İcazə verin kəndlərdə inqilab edək. Feodal qalıqlara qarşı biz ciddi mübarizəyə qalxmalıyıq, amma çox ehtiyatla.» (13, f.l, s.l, iş 8, s. 92). Sarkisin dinə münasibəti də mənfi idi. «Mollalar və dindarlar keçmişin qalıqları kimi indiki zamanda kasıblara siyasi iqtisadi təsir edirlər, çünki onların əlində hələ çoxlu mülk var. Dindarlara qarşı mübarizə bizim qurultayın qarşısında duran əsas vəzifədir» (13, f.l, s.l,iş 8, s. 92).

Qurultayda N. Nərimanov bildirdi ki, «Şərqdə din məsələsi olduqca çox vacib məsələdir. Bu məsələ ilə son dərəcə ehtiyatlı olmaq lazımdır, çünki burada bütün həyat bu məsələdən asılıdır».

Nərimanov İslam dininə hörmətlə yanaşaraq göstərirdi ki, İslam dini ilə xristianlığı eyniləşdirmək olmaz. Xristianlıq ehkamdırsa, müsəlmanlıq həyatdır (13, f.l, s.l, iş 8, s. 194).

Xalqın milli adət-ənənələrinə, xüsusilə dinə qarşı mübarizə o qədər kəskin şəkil almışdı ki, artıq rəhbərlikdə oturan qeyri-azərbaycanlı kommunistlər də bunu deyirdilər. Orconikidze etiraf edirdi ki, «din ilə mübarizədə biz çox səhvlərə yol veririk. Götürək Qubadakı qiyamı. Bu qiyamı kasıblar başlamışdılar. Ona görə ki, orada bizim gənclər Quranı ayaq altına atıb tapdalayırdılar. Bu isə insanların qəzəbinə səbəb olub. Quranı cırıb atmaq heç də sosial inqilab deyil. Mən hesab edirəm ki, biz kəndlilərin başından Quranın təsirini çıxarmalıyıq» (13, f.l, s.l, iş 8, s. 144).

Xalq Xarici İşlər Komissarlığına göndərdiyi məktublarında N. Nərimanov İslamın müxtəlif cərəyanlarını ətraflı səciyyələndirir, müasir dil ilə desək, «İslam amilindən» yaxın və orta Şərqdə azadlıq hərakatının, dünyanın sosial tərəqqisinin xeyrinə istifadə etmək imkanını nəzərə çatdırırdı. O, möhkəm inanırdı ki, İslamdan sosializm məqsədləri üçün ancaq bacarıqla istifadə etmək olar. Misal gətirərək izah edirdi ki, hələ 1918-ci ildə Həştərxanda ruhanilərin yığıncağında o, mollaların özünün razılığı ilə əmək məktəbinin tədris prosesinden şəriətin çıxarılmasına nail olmuşdur (59, 4. XI. 1990).

downloaded from KitabYurdu.az

N. Nərimanov Çiçerinə məktubunda yazırdı: «1920-ci ildə mən Azərbaycanda izdihamlı yığıncaqda çox arvadlılığa qarşı nitq söylədikdən sonra yüksək nüfuzlu bir molla söz alıb Quranın surələrinə əsasən çox arvadlılığın əleyhinə çıxdı. Məsələ burasındadır ki, Quranda çox arvadlılığa icazə verən qanun da var, onu qadağan edən qanun da. Sosializm ideyasını da məhz İslamın qanunları əsasında eyni ilə bu cür bərqərar etmək olar. Hər şey ondan asılıdır ki, bu qanun kimlərin əlindədir, onu kim və necə yozur». (13, f.609, s.1, iş 71, s.47-48). O inanırdı ki, İslama – mədəniyyətə, tərəqqiyə mane olmaq məqsədi güdən nəzəriyyə kimi baxmaq böyük səhv olardı.

N. Nərimanov İslamda dünya sivilizasiyası tarixində xüsusi yer tutan qüdrətli, misilsiz dərəcədə zəngin, dünya mədəniyyətinə həqiqətən böyük təsir göstərmiş mədəniyyət görür və təbliğ edirdi.

Çevrilişdən sonra Azərbaycanda dinə və dindarlara qarşı aparılan mübarizə, xüsusən vicdan azadlığının demokratik prinsipinə məhəl qoyulmaması xalqda, eləcə də böyük nüfuza malik olan ruhanilər arasında qəti etiraza səbəb olmuşdu. N. Nərimanov bütün haqsızlıqların əleyhinə çıxır, matəm günlərində məscidə gedərək xalqla bir yerdə olurdu. Ona böyük hörmət və inam bəsləyirdilər.

1922-ci ilin avqustunda (N. Nərimanov Tiflisə getdikdən sonra) respublika orqanları «şaxsey-vaxsey» mərasimi zamanı camaatın şəhərin küçələrindən keçib getməsini qadağan edən qərar çıxardı. Mərasim başlanan kimi hakimiyyət orqanlarının göstərişi ilə hərbi qüvvələr hərəkətə gəldilər. Baş vermiş toqquşmalar zamanı fəhlələr arasında ölənlər oldu (59, 4. XI. 1990).

N. Nərimanov 1923-cü ilin yayında RK(b)P MK-ya göndərdiyi məktubunda bu kədərli hadisələrdən ətraflı bəhs edib, matəm mərasimi zamanı hərbi güc işlədən hakimiyyət orqanlarının əməllərini qəti pislədi, mərasimin qadağan olunması haqqında qərarı inzibatçılığın, əhalinin dini xüsusiyyətlərinin, yerli adət-ənənələrin qulaqardına vurulmasının əyani təzahürlərindən biri kimi səciyyələndirdi. O, yazırdı: «Bir materialist kimi dinə qarşı çıxmaq bir şeydir, bu mərasimlərin yerinə yetirilməsini qadağan etmək məqsədilə silahlı qüvvə çıxarmaq başqa şey» (59, 4. XI. 1920).

Mirzoyan AK(b)P-nin XII konfransında (6-12 iyun 1923) din əleyhinə təbliğatın aparılmasında yol verilmiş səhvləri etiraf edirdi: «Dinə qarşı mübarizə əsas məsələ kimi qalmaqdadır. Amma işi apararkən biz bir çox səhvlərə yol vermişik. Biz çalışmışıq ki, mövcud olan faktı 3 gün ərzində aradan götürək. Düzdür, biz marksistlər Allaha inanmırıq, ancaq öz işimizi elə qurmalıyıq ki, dindarların heysiyyatına toxunmayaq. Təzyiqlərə yol vermək olmaz. Görün, biz bu işi hara gətirib çıxarmışıq.» (145, s.22). Ancaq bu, öz cinayətkar əməllərini sığortalamaq üçün qeyri-səmimi etiraf idi...

1923-cü ilin iyulunda XII Ümumbakı partiya konfransında din əleyhinə iş aparılmasında ciddi əyintilərdən təşvişlə danışıldı. Konfrans məscidə və kilsəyə

downloaded from KitabYurdu.az

qarşı «süvari qoşunların hücum» etməsi faktını pislədi, «basqınlardan və kustarçılıqdan» düşünülmüş işə keçirilməsinin labüd olduğunu göstərdi.

1923-cü il avqustun 22-də AK(b)P Bakı Komitəsinin Rəyasət Heyəti qərara aldı: «Rayonlarda «şaxsey-vaxsey» mərasiminin iştirakçılarına nümayiş düzəltməkdə maneçilik törədilməsin. Rayon komitələrinə və «şaxsey-vaxsey» mərasiminə qarşı kompaniya keçirilməsi üçün təhkim edilmiş məsul işçilərin hamısına tapşırılsın ki, onlar istər məscidlərdə, istərsə də küçələrdə heç bir məcburi tədbirlər görməsinlər.» (59, 4. XI. 90).

N. Nərimanov məscidlərin və digər ziyarət yerlərinin təhqir olunmasına qarşı bütün qüvvəsi ilə mübarizə aparırdı və eyni zamanda digər dinlərə də çox hörmətlə yanaşırdı. 1924-cü ilin fevralında Bakıda Rojdestvenski provoslav kilsəsini uçurmaq məsələsi qaldırıldıqda, dini icmanın nümayəndələri bu qərara gəldilər ki, SSRİ MİK sədri N. Nərimanova teleqram vurub, ondan məbədin saxlanmasını xahiş etsinlər. O, dindarların teleqramına dərhal münasibətini bildirmişdi: «Smidoviç yoldaşa, xahiş edirəm bu məsələ barəsində mənimlə danışasınız.» Bütün Rusiyanın patriarxı Tixinovun əfv edilməsi haqqında SSRİ MİK-nin dekretini də məhz N. Nərimanov imzalamışdı (59, 04.XI.1990). Bu keşiş əksinqilabi fəaliyyətdə təqsirləndirilərək mühakimə olunmuşdur.

Artıq 20-ci illərin sonunda «Allahsızlar cəmiyyəti»nin adı Moskvada olduğu kimi «mübariz allahsızlar ittifaqına» çevrildi.

Beləliklə, Azərbaycanda sovet hakimiyyətinin bərqərar olunmasından sonra cəmiyyət həyatının müxtəlif sahələrində istər kadr siyasətində, istər neft sənayesində, dinə münasibətdə, ərazi, dil məsələlərində, ümumiyyətlə, cəmiyyət həyatının bütün sahələrində yerli şərait və milli xüsusiyyətlər nəzərə alınmırdı. Faktlar, arxiv materialları göstərir ki, sovet hakimiyyəti möhkəmləndikcə, onların xalqlara vəd etdikləri azadlıqlar unudulur, əsrlər boyu saxlanılan, nəsildən-nəslə ötürülən mənəvi etnik dəyərlər üstündən xətt çəkilir, amirlik, totalitar tədbirlər həyata keçirilirdi.

20-ci illərdə İslam dininə qarşı başlanmış hücum xalq kütlələrində sovet hakimiyyətinə qarşı nifrət əhval ruhiyyəsini formalaşdırdı və sübut olundu ki, Azərbaycan xalqını öz əqidəsindən döndərmək, «Allahsızlaşdırmaq» mümkün deyil və xalqda inam, dinə etiqad əbədi yaşayacaqdır.

downloaded from KitabYurdu.az

# II FƏSİL. MİLLİ SİYASƏT ƏTRAFINDA RƏHBƏR DAİRƏLƏRDƏ İXTİLAFLAR VƏ SİYASİ ÇƏKİŞMƏLƏR

## 2.1. Partiya rəhbərliyində ixtilafların parçalanmaya səbəb olması

Sovet hakimiyyəti qurulduqdan az sonra Azərbaycanın partiya təşkilatlarında milli siyasətin məzmunu və həyata keçirilməsi ilə bağlı ciddi ixtilaflar meydana gəldi. Respublikada hakim Mərkəzin siyasətini yeritmək prinsiplərinə münasibətdə məsul vəzifəli işçilər arasında bir-birini izləmək, təqib etmək və intriqa sistemi yaranır, bu da açıq və kəskin çəkişmələrə gətirib çıxarırdı. Çevrilişin ilk günlərindən Bakıda idarəçilik əsasən Bakı partiya təşkilatlarının və Bakı Soveti İcraiyyə Komitəsinin erməni-bolşevik rəhbərlərinin əlinə keçmişdi. Onlar AK(b)P Mərkəzi Komitəsini, Azərbaycan SSR Xalq Komissarları Sovetini əslində saymırdılar.

Bakı partiya təşkilatının rəhbər işçilərinin bir qrupu - Ruhulla Axundov, Sarkis Danielyan, Anastas Mikoyan, Mirzə Davud Hüseynov, Levon Mirzoyan, Həbib Cəbiyev, Semyon Qutin, Mixail Kaxiani, Vasili Yeqorov, Rəhim Hüseynov, Mustafa Quliyev və başqaları mövcud qərarlara əsaslanaraq, Azərbaycanda milli siyasətin həyata keçirilməsi uğrunda ardıcıl mübarizə aparan N. Nərimanovun əleyhinə çıxdılar. Onlar Nərimanovu müdafiə edən Azərbaycan KP MK katibi Qriqori Naumoviç Kaminskiyə, Azərbaycan partiya təşkilatının görkəmli xadimlərindən Sultan Məcid Əfəndiyevə, Muxtar Hacıyevə, Mirbəşir Qasımova, Həmid Sultanova, Dadaş Bünyadzadəyə, Möhsün İsrafilbəyova (Qədirliyə), Teymur Əliyevə və başqalarına da hücumlar etməyə başladılar (13, f.268, s.26, iş 32, s.107). İxtilaflar sovet partiya quruculuğu, mədəniyyət, təsərrüfat siyasəti məsələlərinin geniş bir dairəsini əhatə edirdi.

Aparılmış tədqiqatlar sübut edir ki, aprel çevrilişindən sonra Azərbaycanda hakimiyyətə gəlmiş siyasi qüvvələri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. Azərbaycanda sosializm ideyalarını həyata keçirən və Moskvanın mənafeyini müdafiə edən qüvvələr. Bura müxtəlif millətlərdən olan kommunistlər daxil idi.
2. Siyasi çevrilişdən istifadə edib respublikada hakimiyyətə gəlmiş və milli intiqam hissi ilə fəaliyyət göstərən erməni kommunistlərindən ibarət qüvvələr.
3. «Beynəlmiləlçi» azərbaycanlı bolşeviklərdən ibarət qüvvələr.
4. Xalqın azadlıq yolunu sosializmdə görən milli hisli, milli baxışlı kommunistlərdən olan qüvvələr (49, s.83).

Belə ki, sovetləşmənin əvvəllərində Azərbaycanda olan mürəkkəb siyasi şəraitdə hakimiyyətə gəlmiş siyasi qüvvələrin və rəhbərlikdə məsul vəzifələr tutan

downloaded from KitabYurdu.az

şəxslərin milli tərkibi müxtəlif idi. Onlar nəinki milli tərkibə görə, eləcə də siyasi məqsədlərinə və manevrlərinə, ölkədə aparılan siyasətdə «sərt» və yumşaq» mövqelərinə görə bir-birlərindən fərqlənirdilər. Rəhbərlikdə yüksək vəzifələr tutan birinci qrup - Mərkəzin mənafeyini müdafiə edərək, Moskvanın partiya xəttini «beynəlmiləlçilik prinsiplərindən» istifadə etməklə Azərbaycanda tətbiq etməyə çalışırdılar. Hələ çevrilişin ilk günlərindən Moskvadan Bakıya «partiya xəttini» yeritmək üçün yüksək vəzifələrə «təcrübəli bolşeviklər» göndərilməsi azərbaycanlı kommunistlərə inamsızlıq və etimadsızlıqdan irəli gəlirdi. Q. K. Orconikidze, S. M. Kirov, N. N. Kolesnikov, İ. M. Qubkin, A. P. Serebrovski, Lominadze və başqaları Azərbaycanda partiya xəttini respublikanın milli mənafeyi baxımından deyil, Mərkəzin mənafeyi baxımından həyata keçirirdilər.

Düzdür, onların içərisində Mərkəzi Komitə katibi Q. K. Kaminski, Azərbaycan SSR Xalq Təsərrüfat Şurasının sədri N. İ. Solovyov kimi öz vəzifəsini vicdanla yerinə yetirən bolşeviklər də var idi ki, Azərbaycanın milli mənafeyinə, yerli xüsüsiyyətlərinə hörmətlə yanaşırdılar.

Aprel çevrilişindən istifadə edərək hakimiyyətə gələn zahirən bolşevik, daxilən isə ürəklərində daşnak qisası gəzdirən, milli intiqam hissi ilə yaşayan erməni bolşeviklərindən ibarət qüvvələr idi ki, tez bir zamanda Bakı Komitəsini öz əllərinə alaraq, Azərbaycanın müstəqilliyi və inkişafına, milli mənafeyinə xidmət edən rəhbərlərə, xüsusən Nərimanov və onun tərəfdarlarına qarşı müxalifətdə duraraq, hər vəchlə xalqın və respublikanın xeyrinə olan qərarlara mane olmağa çalışırdılar. Mirzoyan, Mikoyan, Sarkis və başqa erməni kommunistlərinin hiyləgər, planlı siyasəti nəticəsində rəhbərləri, o cümlədən istər rus, istərsə də «beynəlmiləlçi» azərbaycanlı rəhbərləri tərəflərinə çəkərək, öz niyyətlərini həyata keçirirdilər. Erməni kommunistlərinin bu cür siyasəti və niyyəti təsadüfi deyildir. Onların bir çoxları əvvəlcə «Daşnaksütun» partiyasının üzvü olmuş, sonra bu partiyadan çıxıb bolşeviklər partiyasına gəlmiş və təbiidir ki, öz millətçi baxışlarını da gətirmişdilər.

Qeyd etdiyimiz birinci və ikinci qruplaşmaların strateji və taktiki məqsədləri eyni olduğundan müəyyən mənada hər hansı bir məsələnin həllində razılığa gəlinə bilirdi. Bu qrupların hər ikisi üçün yeganə məqsəd Azərbaycanın sərvətlərini talamaq, müstəqilliyinə son qoymaq idi.

Üçüncü qrup - «beynəlmiləlçi» azərbaycanlı bolşeviklərdən ibarət qüvvələr - R. Axundov, Ə. H. Qarayev, M. D. Hüseynov, H. Cəbiyev və başqaları idi ki, onlar da müəyyən səbəblərdən, xüsusən də gənc və təcrübəsiz olduqlarından, siyasi yetkinliyin olmamasından, sosializm quruculuğunun mürəkkəb məsələlərindən baş aça bilmədiklərindən, respublikada yüksək partiya və dövlət vəzifələrində naşı olduqlarından mürəkkəb hadisələrin axarını düzgün qiymətləndirə bilmirdilər. Onlar özləri də hiss etmədən mirzoyanların, orconikidzelərin təsiri altına düşür, Azərbaycanın müstəqilliyi, yerli spesifik şəraiti ilə əlaqədar məsələlərə lazımi əhəmiyyət verməyərək, yanlış mövqeləri ilə

downloaded from KitabYurdu.az

Zaqafqaziya və eləcə də Azərbaycanda milli təmayülün olması barədə fikir yaradaraq, N. Nərimanova və onun tərəfdarlarına qarşı əks mövqedən çıxış edirdilər.

Dördüncü qrup - xalqın müstəqilliyini düşünən, milli hisli, vətənpərvər azərbaycanlı qüvvələr var idi ki, nicat yolunu yaranmış quruluşda görür, sosializm ideyalarına həddindən artıq inanırdılar. Onlar sonradan yanıldıqlarını başa düşsələr də, artıq gec idi.

Son dərəcə çətin şəraitin olmasına və rəhbərlikdə azlıq təşkil etməsinə baxmayaraq, bu qüvvələr Azərbaycanın mənafeyinə uyğun olmayan, anti-azərbaycan siyasət yeridən rəhbərlərə qarşı ciddi mübarizə aparırdılar.

Aprel çevrilişindən sonra hakimiyyətə gəlmiş qüvvələr arasında ixtilaf və fikir ayrılıqlarını doğuran səbəblər aşağıdakılar idi: Azərbaycan dilinə, dinə, respublikanın ərazi bütövlüyünə, kəndlilərə və ziyalılara, iqtisadiyyatla bağlı məsələlərə münasibətdə, yanaşmada laqeydlik və hörmətsizlik. Belə ki, Azərbaycanın başlıca olaraq qeyri millətlərdən ibarət olan rəhbərləri respublikanın özünəməxsus spesifik yerli şəraitini, milli xüsusiyyətlərini və milli mənafelərini nəzərə almır, almaq da istəmir, xalqın adət-ənənələrinə biganəlik göstərirdilər. Kommunistlər arasında ixtilaflar özünü plenum, konfrans, qurultaylarda daha aydın göstərirdi.

O, zaman milli məsələlərdəki dolaşıqlıqların başlıca təqsirkarı, türkdilli xalqlara, o cümlədən Azərbaycan xalqına qarşı kin və ədavət bəsləyən İ. Stalin idi. O, Azərbaycanda partiya təşkilatlarında işləyən ermənilərdən ibarət bəzi rəhbər işçilər ilə əlaqəyə girərək öz məkrli siyasətini həyata keçirirdi. Milli münasibətlərin kəskinləşməsində mürəkkəb siyasi vəziyyətin, dedi-qodu və təqib şəraitinin yaranmasında Stalin başlıca rol oynayırdı. Ən başlıcası isə istər ərazi bütövlüyü, istərsə də müstəqillik məsələlərində onun antiazərbaycan mövqe tutması danılmaz idi. Əzəli torpaqlarımız olan «Zəngəzur və Naxçıvan Ermənistanda sovet hökuməti qurularsa vermək olar», eləcə də «Mən Azərbaycanın müstəqilliyinə tərəfdar deyiləm, kommunistlərin biri digərindən müstəqil ola bilməz» fikirləri artıq öz yerini tapmışdı. Rəhbərlikdə olan ixtilaflara gəldikdə isə o, demək olar ki, bu məsələnin dərinliyinə varmayaraq, ancaq solların mövqeyindən çıxış edərək N. Nərimanovu təqsirli bilir, onu heç bir əsası olmadan, burjuaziyanın mülkiyyətdən məhrum edilməsi məsələlərini həll etməkdən boyun qaçırmaqda günahlandıraraq deyirdi: «qocanı (N. Nərimanovu nəzərdə tuturdu) danlamaq lazımdır. O bu qərarların yerinə yetirilməsini istəmir, buna görə də kömək etmir». Əslində bütün bunlar Nərimanovun rolunun hər vəcdlə kiçildilməsi demək idi. İ. V. Stalin 1920-ci il noyabrın əvvəllərində Bakıya gəldi. Onun iştirakı ilə noyabrın 8-də RK(b)P MK Qafqaz bürosu və AK(b)P Bakı komitəsi ilə birlikdə AK(b)P MK plenumu Azərbaycan partiya təşkilatında ixtilaflar məsələsini müzakirə etdi (13, f.l, s.l, iş 14, s.9). Plenumun işində İ. Stalin, Orconikidze, Y. Stasova, N. Nərimanov, Q. Kaminski, H. Sultanov, Ə. H. Qarayev, Sarkis, M. B. Qasımov, R. Axundov, D.

downloaded from KitabYurdu.az

Bünyadzadə, B. Mdivani, O. Şatunovskaya, V. Yeqorov, S. Qutin və b. iştirak edirdilər. Müzakirələr zamanı yol verilən nöqsanların təqsirini bütünlüklə Azərbaycan İnqilab Komitəsinin və onun sədri N. Nərimanovun boynuna atmaq meyli qatmaqarışıq, qeyri mütəşəkkil keçən iclasda lap əvvəldən özünü büruzə verdi. Eyni zamanda əsas məsələlərin müzakirəsi zamanı Azərbaycan İnqilab Komitəsinin öz daxilində, Ə. H. Qarayev və M. D. Hüseynov ilə N. Nərimanov arasında ciddi ixtilaflar olduğu da aşkara çıxdı.

Ə. Qarayev öz çıxışında bildirirdi ki, müsəlman kommunistləri arasında iki qrup yaranıb, onlardan biri Nərimanov qrupu, digəri isə Qarayev-Hüseynov qrupudur. Birinci qrup Azərbaycanın müstəqilliyinin tərəfində durur, bizi-ikinci qrupu isə ittiham edirlər ki, Azərbaycanı Rusiyaya satmısınız (13, f.l, s.l, iş 14,8.9).

Rusiyaya «satıldıqlarını» təkzib edənlər həddən artıq «beynəlmiləlçiliyə» qapılıb, hər hansı bir məsələdə Nərimanov və onun tərəfdarlarına qarşı mübarizə apararaq, qeyri-azərbaycanlılardan olan şovinist ruhlu rəhbərlərin demək olar ki, əlaltısına çevrilmiş olurdular.

İxtilafları törədən səbəblərdən biri də əmlakın müsadirəsi və burjuaziyanın mülkiyyətdən məhrum edilməsi ilə bağlı idi. Müzakirələrin gedişində V. Yeqorovun çıxışında bu səbəb bir az da açıqlandı: «Bizim ixtilaflarımızın mahiyyəti ondan ibarətdir ki, sol qrup deyilən qrup iri burjuaziyanı mülkiyyətdən məhrum etməyə tərəfdar çıxır, sağ qrup isə milli şüarlar altında burjuaziyanı müdafiə edir və ona himayədarlıq göstərir» (13, f.l, s.l, iş 14, s.10).

Azərbaycanda sovet hakimiyyətinin ilk aylarında əmlak müsadirəsində ciddi nöqsanlara yol verilmişdi. O vaxtlar Stasova öz xatirələrində yazırdı:... Moskvada və Petroqradda heç vaxt hər hansı bir tacirin və ya burjuanın evində axtarışı necə aparmaq məsələsi ortaya çıxmırdı, Bakıda isə bu və ya başqa evdə axtarışı necə aparmaq məsələsi nəinki şəhər partiya komitəsində, hətta Azərbaycan KP MK-də tez-tez müzakirəyə qoyulurdu. Çünki yerli müsəlman türklər tez-tez Azərbaycan Xalq Komissarları sovetinin sədri Nərimanov yoldaşın yanına gəlib şikayətlənirlər ki, çekistlər evin qadınlara məxsus hissəsində axtarış aparmışlar, bu isə şəriətin bütün qanunlarına ziddir. Bu münasibətlə Azərbaycan KP MK-nın iclasında A. Mikoyan, Sarkis, V. Lominadze və Nərimanov arasında qızğın, prinsipial mübahisələr olurdu (13, f.268, s.26, iş32, s.179).

İxtilaflar Azərbaycan K(b)P-nin II qurultayında (1920-ci il 16-23 oktyabr) müxtəlif məsələlərdə özünü daha kəskin göstərdi. Azərbaycan rəhbərliyində parçalanma haqqında danışan N. Nərimanov çıxışında deyirdi: ... Belə güman edilir ki, sağ və sol tərəflər var. Əgər istəyirsiniz sağ tərəf adlandırasınız, adlandırın. Sağ tərəf deyir ehtiyatla müsadirə etmək lazımdır, sol tərəf deyir belə lazım deyil, ehtiyatla, ya ehtiyatsız, ümumiyyətlə, talan etmək lazımdır (13, f.l, s.l, iş. 8, s.201).

Hakim partiya olan Kommunist Partiyasının tərkibinin qeyri qənaətbəxş olması AK(b)P-nin II qurultayında açıq etiraf edilir, belə bir fikir də səslənirdi ki, sağ və sol tərəflər Rusiyada da mövcuddur. Lenin sağ, Trotski isə sol tərəfdir.

downloaded from KitabYurdu.az

Azərbaycanda isə Nərimanov və onun əleyhdarları arasında olan ixtilaflar. Bu da özünəməxsus səbəblərlə bağlı idi. Rusiyada həmkarlar ittifaqına münasibət məsələsi, kəndə münasibət, yeni iqtisadi siyasət, milli məsələ, xüsusən Zaqfederasiya, SSRİ-nin təşkili, sosializm konsepsiyasına münasibət və s. məsələlərdə fikir ayrılığı yaranmışdı ki, bu da özünü Trotski-Lenin və onun tərəfdarları olan Radek, Ryazanov və b., Zinovyev-Kamenev, Buxarin, Stalin və digərlərinin arasında mövcud idi. Leninin vəfatından sonra bu ixtilaflar Trotski və Stalin arasında daha da dərinləşdi. Trotskiçilər siyasi səhnədən uzaqlaşdırıldıqdan sonra «Yeni Müxalifət», vaxtilə trotskizmə qarşı fəal mübarizə aparan Zinovyev və Kamenev əsas mübarizə hədəfi oldu.

Rusiyada ilk əvvəllər yeni hökumətin siyasəti ilə razılaşmayan kommunistlərlə Lenin və əleyhdarları - trotskiçilər, «fəhlə müxalifəti», «sol kommunistlər», «demokratik mərkəziyyət» və başqaları arasında olan fikir ayrılıqları mövcud idi. Mübahisələr həmkarlar ittifaqlarından başlandı və dərhal da kənara çıxdı. Trotski Mərkəzi Komitənin xətti ilə razı olmadığını bildirərək, həmin ixtilafları ictimaiyyət arasında yaydı.

Trotski həmkarlar ittifaqlarında fəhlə demokratiyasının əleyhinə çıxır və həmkarlar ittifaqlarında komandanlıq və inzibatçılıq metodlarının tətbiq edilməsini irəli sürürdü. Trotskiçilər həmkarlar ittifaqlarını dövlətləşdirməyə çalışır və istehsalı idarə etmək vəzifələrini həmkarlar ittifaqlarına tapşırmağı tələb edirdilər. «Fəhlə müxalifəti» isə həmkarlar ittifaqlarını sovet dövlətinə və partiyaya qarşı qoyur və trotskiçilərin əksinə olaraq dövləti həmkarlar ittifaqlarına tabe etməyi irəli sürürdülər.

«Demokratik mərkəziyyətçilər» qrupu isə partiyada fraksiya və qruplara azadlıq verilməsini tələb edir, idarələrdə təkbaşçılıq və möhkəm intizam əleyhinə çıxırdılar (67, s.29).

Buxarinçilər mübahisələrdə əvvəllər barışdırıcı mövqe tutsalar da, sonralar trotskiçilərin tərəfinə keçdilər.

Əslində trotskizm və yeni müxalifətin ideyalarında bir həqiqət var idi. Onlar qeyd edirdilər ki, iqtisadi və texniki cəhətdən geri qalan Rusiyada sosializmin qələbəsi mümkün deyil, sonradan tarixi təcrübə də bunu sübut etdi.

Partiyanın daxilində olan fikir ayrılıqları ölkənin Mərkəzində olduğu kimi, müxtəlif ssenarilər əsasında milli ucqarlara da sirayət edirdi.

Aparılmış tədqiqatlar sübut edir ki, bu ixtilaflar Azərbaycanda özünəməxsus xüsusiyyətləri ilə fərqlənirdi. Rusiyadan fərqli olaraq, Azərbaycanda fikir müxtəlifliyi şəxsi intriqalara çevrilərək, ümumi işin xeyrinə deyil, şəxsi mənafeni üstün tutmaqla dərinləşirdi; partiyanın və rəhbərliyin Mərkəzdən fərqli olaraq ifrat dərəcədə qeyri-yerli millətlərin nümayəndələri ilə doldurulması idi. Yerli xalqın nə dilini, nə də tarixini bilməyənlər, adət-ənənəsinə biganə qalanlar ilə yerli vətənpərvər rəhbərlər arasında olan narazılıq və s.

downloaded from KitabYurdu.az

Sovetləşmənin başlanğıcında hakimiyyətə gəlmiş siyasi qüvvələr arasında yumşaq xətt tərəfdarları – Nərimanov və onu müdafiə edənlər aparılan siyasətdə milli xüsusiyyətləri, yerli şəraiti nəzərə almağı irəli sürürdülər. Onların fikrincə, milliləşdirmə ilk vaxtlar ancaq iri və orta müəssisələr və ticarət sahəsinin bir qismini əhatə etməlidir. Şəxsi əmlak və əşyaların müsadirəsi zamanı insan ləyaqətinə, milli heysiyyətinə toxunulmasının əleyhinə çıxırdılar.

Respublika rəhbərliyində mübahisələrə səbəb olan məsələlərdən biri də kəndə münasibət, fəhlələrlə kəndlilərin yaxınlaşması məsələsi idi ki, ətrafında kəskin fikir ayrılığı vardı. Başlıca olaraq torpaq haqqında verilmiş dekretin yerinə yetirilməsi ətrafında mübahisə gedirdi. Bu məsələdə əsasən Nərimanovu nəzərdə tutan Lominadze göstərirdi ki: «Müsəlman ziyalıları bizə qarşı dinlə, fanatizmlə, eləcə də şovinizmlə zəhərlənib (13, f. 1, s.l, iş 8, s. 82).

Lominadze və onun kimi dardüşüncəli kommunistlər vaxtilə Müsavat Partiyasının üzvü olmuş, indi isə kommunist partiyasına gələn müsəlman kəndlilərinə, həmçinin tacirlərə ögey münasibət bəsləyirdilər, hətta bu cür insanları «barışmaz düşmən» adlandırırdılar. Belə münasibətlə müsəlman kəndli və fəhləsi partiyada öz yerini tapa bilməyərək, Şura hökumətindən əksər halda narazı qalırdılar.

Aqrar məsələ və kəndə münasibət son dərəcə aktual olduğundan, rəhbərlikdəki ciddi fikir ayrılığı daha da dərinləşirdi. Azərbaycanın milli mənafeyinə xor baxan Lominadze, Sarkis və onun kimi qeyri azərbaycanlı kommunistlər yerli şəraiti nəzərə almır, kəndlə şəhərə münasibətdə vahid siyasət yeritməyi müdafiə edirdilər. Lominadze deyirdi: Azərbaycanda bir siyasət olmalıdır, biz iki siyasət apara bilmərik, şəhər üçün ayrı, kənd üçün ayrı (13, f.l, s.l, iş.8, s. 88).

Halbuki, bu məsələyə çox incəliklə yanaşmaq lazım idi, çünki kəndlinin öz psixologiyası var idi. Yanlış atılmış addım, düzgün olmayan siyasət vəziyyəti daha da ağırlaşdırırdı.

Sol fraksiyanın nümayəndələri, o cümlədən Lominadze kəndə münasibətdə çox kəskin mövqe tutaraq partiyanın 2-ci qurultayında qeyd edirdi ki, «biz əsl inqilaba, feodalizmin məhvinə o vaxt nail ola bilərik ki, bəylərin malikanələrini yandıraq, kəndli oradan çıxan alovun içərisində inqilabın işığını görəcəkdir» (13, f.l, s.l, iş 8, s. 107).

Sol qrupun fikrincə, Azərbaycanda bu siyasətin həyata keçirilməsi Rusiyadakından 20 dəfə artıq sərt formada aparılmalıydı. Lominadze və Zemlyanskinin fikirləri sağ təmayülçüləri razı sala bilmirdi, hətta qurultayda belə fikir səslənirdi ki, «Lominadze ilə Nərimanovun çıxışlarına qulaq asanda elə bil ki, iki müxtəlif siniflərin nümayəndələri danışırlar» (13, f.l, s.l, iş8, s.107).

Yerli şərait, adət-ənənədən, psixologiyadan çox-çox uzaq olan kommunistlər kənddə aparılan siyasəti Sovet Rusiyasında olduğu kimi davam etdirmək istəyirdilər. Beləlləri nəinki varlıları, bütün kənd əhalisini əksinqilabçı

downloaded from KitabYurdu.az

adlandırır və göstərirdilər ki, əgər hərbi hissələr olmasa, sovet hakimiyyətinə qarşı yerlərdə üsyanlar baş verə bilər.

Belə mülahizələri əsas tutanlar kənddə öz zəhmətilə yaxşı yaşayan çoxsaylı ailələri qolçomaq adlandırır, onlara qarşı zor işlədilir, mallarını əllərindən alırdılar. Bu üzdəniraq «beynəlmiləlçilər» kənddə öz əsas vəzifələrini az-çox varlı adamları talan etməkdə, rüsvay edib qovmaqda görürdülər.

N. Nərimanov və onun tərəfdarları belələrinə və onların yeritdikləri siyasətə qarşı mübarizə aparırdılar. N. Nərimanov dəfələrlə Moskvaya, Leninə yazdığı məktublarında, məruzə və çıxışlarında belə siyasətin yanlış və zərərli olduğunu əsaslandırır, Azərbaycanda yerli şəraiti və milli xüsusiyyətləri nəzərə almağı tövsiyə və tələb edirdi. Moskva rəhbərliyi kənddə yaranmış acınacaqlı vəziyyətdən çıxmaq üçün kəndlərdə inqilab komitələrindən yoxsul komitələrə keçməyi və Azərbaycanda partiya rəhbərliyinə yeni adamın göndərilməsini qərara aldı.

1920-ci ilin avqustunda Q. N. Kaminski Azərbaycana rəhbər partiya işinə göndərildi. Kaminski MK katibi kimi məsələyə obyektiv yanaşır, Nərimanovun apardığı siyasətin, mübarizənin düzgün olduğunu başa düşür, qəlbən ona hörmət edir və onu müdafiə edirdi. Odur ki, o, Azərbaycanda işə başlayan gündən Sarkis, R. Axundov, L. Mirzoyan, S. Qutin, V. Yeqorov, H. Cəbiyev, M. Kaxiani, M. Quliyev və Bakı Komitəsinin digər üzvləri onun əleyhinə çıxdılar.

Kaminski Nərimanovun apardığı siyasətin hakim partiyanın tutduğu mövqe ilə uyğun gəldiyini, şərq siyasətində onun mövqeyini dəstəklədiyini bildirirdi. Kaminski qeyd edirdi ki, «milli və dini məsələ ilə bir qədər ehtiyatlı olmaq lazımdır. Biz Rusiyada bu işə çox ehtiyatla yanaşırıqsa, burada Azərbaycanda, haradakı kəndli daha dindardır, orada dini məsələyə daha ehtiyatla yanaşmaq lazımdır» (13, f.1, s.l, iş 4, s.4).

Kəndliyə qarşı belə münasibətə görə, müsəlman əhali hakim partiya sıralarını tərk edir, yeniləri isə daxil olmaqda tərəddüd edirdilər. Məhz bu səbəbdən idi ki, Ümumbakı partiya konfransı və Kaminski müsəlmanlarla işin gedişindən razı qalmadığını bildirir, partiya işinin müsəlmanlar arasında gücləndirilməsini lazım bilirdilər.

Azərbaycan rəhbərliyində ixtilaflar 1921-ci il fevralın 11-18-də keçirilən AK(b)P-nin III qurultayında özünü bir çox məsələlərdə daha qabarıq büruzə verdi. Qurultayda yoxlama komissiyalarının işi ilə əlaqədar çıxış edənlərin bir çoxu qeyd edirdilər ki, «Partiyada xəstəlik var, intriqaçılıq, şöhrətpərəstlik, siyasətbazlıq... Çox hərcmərclik yaranıb. Yoxlayıcı komissiya qərara alıb ki, xüsusi komissiya yaratsın və qəzalara getsin, öyrənsin, vəziyyətlə tanış olsun» (13, f.1, s.2, iş 1, s.112-115).

Partiyanın daxilində gedən intriqalarla, çəkişmələrlə əlaqədar qəzalardan çoxlu şikayətlər gəlir və bunun da əsasında yerlərdə bir çox hallarda günahsız adamları incidirdilər (13, f.l, s.2, iş 2, s.97).

downloaded from KitabYurdu.az

Kənddəki qarmaqarışıqlığın bir səbəbi də çoxlu səlahiyyətli qurumların məsələlərə müdaxilə etməsi ilə bağlı idi. Məsələn, «Siyasi büro, Partiya komitəsi, Xüsusi şöbə, Ərzaq komissarlığı və s. Bu da ayrı-ayrı orqanların işini qarışdırır, onların arasında narazılıq yaradırdı. Xüsusi şöbələr hər işə, həm vətəndaşların, həm də hərbi idarələrin işlərinə qarışırdı. Onlar özlərinə aid olmayan işləri görür və nəticədə də işdə ciddi dolaşıqlıq yaranırdı» (13, f.l, s.l, iş 2, s.112-113). M. D. Hüseynov Daxili işlər komissarlığını tənqid edərək «onu ölü orqan adlandırır, bir-birləri ilə yola getməyən müxtəlif orqanların rəhbərləri o biri orqanı, o biri də digərini ləğv etməyi tələb edirdi.» (13, f.1, s.2, iş 2, s.117).

Xalq Daxili İşlər komissarı H. Sultanov isə Siyasi büronu yerlərdə sovet aparatını dağıdan 1 nömrəli orqan hesab edir, günahsız adamların həbs olunmalarına yol verildiyini deyirdi (13, f.1, s.2, iş 2, s.132).

20-ci illərdə milli məsələ ətrafında həmişə qızğın mübahisələr, ixtilaflar olmuşdur. Sovetləşmədən sonra bu məsələ rəhbər dairələrdə heç də birmənalı qarşılanmamış, daim ixtilaflara gətirib çıxarmışdır. Təsadüfi deyildir ki, bu məsələ tez-tez yüksək dairələrdə müzakirə olunurdu, müzakirələrdə başlıca olaraq dil, ordu quruculuğu, həmçinin şərq məsələsi əsas yer tuturdu. Məsələn, Azərbaycan dilinin sıxışdırılmasına qarşı çıxan Böyükağa Talıblının milli ruhda olan çıxışları diqqəti daha çox cəlb edir. O, bu məsələdən bəhs edərək bildirirdi ki: «...əgər desək ki, Azərbaycanda rus imperializmi yoxdur, onda deyirlər ki, yox. Gəlin gedək yoxsul komitələrinə, inqilab komitəsinə, hamısında yazılar rus dilində gedir. Ərizələr rus dilində, məhkəmə rus dilində, poçta rus dilində. Əgər hər addımda biz rus dili ilə rastlaşırıqsa, rus imperializmini inkar etmək olmur. Bax elə, biz, bu kinayəni kənar etməliyik və təklif edirəm ki, dövlət dili həmin dövlətin, həmin xalqın dili elan edilsin» (13, f.l, s.2, iş 2, s.275-276).

N. Nərimanov türk dilinin dövlət dili səviyyəsində inkişafına xüsusi əhəmiyyət verirdi. Onun bu barədə Cümhuriyyət hökumətinə iradı yanlışlıqdan irəli gəlirdi. O, sovet idarələrində idarəetmə işinin rus dili ilə yanaşı, türk dilində aparılması haqqında əmr vermişdi. Nərimanov üçün milli dilin cəmiyyətdə rolu mühüm amil idi: «öz dilini lazımi səviyyədə bilməyən ziyalı millətinin həyatında gərəksiz bir heçə çevrilir». Ana dili məsələsini, Nərimanov, milli məsələnin bir hissəsi kimi həll etməyə, siyasi əhəmiyyəti baxımından da səy göstərirdi (33, 157).

B. Talıblı ordu məsələsini ikinci xəstəlik adlandırır və qeyd edirdi: «Müstəqillik, muxtariyyət yaranan yerlərdə rus ordusu durur. Biz rus ordusunu yerli xalqın ordusu ilə əvəz etməliyik, hər bir müstəqil respublikada yerli ordunun yaradılması lazımdır» (13, f.l, s.2, iş.2, s.276).

Ordu quruculuğu çox aktual problem olduğundan bu məsələ ətrafındakı fikir ayrılıqları xüsusi yer tuturdu. Azərbaycan Xalq Cümhuriyyəti vaxtında yaradılmış ordunun tərkibində yüksək rütbəli, təcrübəli zabitlər, hərbçilər olduğu halda, onlardan yeni sovet hökumətinin ordusunun tərkibində istifadə edilməməsi,

downloaded from KitabYurdu.az

onlara qarşı ədalətsiz mövqe tutulması, etimadsızlıq xalqda da narahatlıq yaradırdı (13, f.1, s.2, iş 2, s.276).

Xalq Cümhuriyyəti illərində çətinliklə də olsa formalaşan Azərbaycan ordusu milli mahiyyət səbəbindən yeni sovet hakimiyyətinin mübarizə hədəfinə çevrildi. 266 hərbçi, o cümlədən 12 general, 27 polkovnik, 6 podpolkovnik, 48 kapitan güllələndi (98, s.17). Üstəlik Azərbaycan hərbi hissələrini Cənubi Azərbaycan ərazisində süni siyasi aksiyalara sövq edirdilər. Bu aksiyaya münasibətini M. Ə. Rəsulzadə, belə ifadə etmişdir: «Az-çox bağlı qalan Azərbaycan əsgəri dəxi dağıdılıyordu. Bir qisim qitəati müqabil inqilabçı deyə dağıtmış, geridə qalan mövcudiyyəni də Azərbaycan ixtilalının mütəaqib bolşeviklər tərəfindən İran üzərinə yapılan təcavüz səfərinə göndərmişlərdi. Bu surətlə bolşeviklər həm Azərbaycan ordusunun itlaf ediyor, həm də Rəşt ilə Ənzəlidən yapdıqları vəqayei Azərbaycanlı əliylə icra etmək surətilə bu iki dindaş millət arasında əbədi bir nifaq və uçurum açmaq istiyorlardı.» (98, s.74).

Sovetləşmənin ilk vaxtlarından Azərbaycana nəzərdə tutulduğundan xeyli artıq hərbi hissələrin gətirilməsi və ordunun ərzağa, geyimə, ayaqqabıya olan ehtiyacını ödəmək üçün kəndlərdə ərzaq tədarükünün keçirilməsi, «XI Ordunun ayaqqabı sarıdan təhlükəli vəziyyəti və təcili qaydada burjuaziyaya məcburi vergi qoyulması» və s. respublikada narazılığa gətirib çıxarırdı. İş o yerə gəlib çatmışdı ki, artıq rəhbər qeyri azərbaycanlı kommunistlər də bunu etiraf etməli olmuşdular. Kaminski etiraf edirdi ki, «İndi biz kasıbları tamamilə soyuruq, ümumi siyasi vəziyyət bizi kəndlərdə həyəcan doğuran tədarüklərdən əl çəkməyə məcbur edir» (94, s.16).

Azərbaycanda hərbi hissələrin toplanması istər kənd təsərrüfatına, istərsə də iqtisadiyyata böyük ziyan vurur, kəndli təsərrüfatını tamamilə dağıdırdı. 1921-ci ildə XI Ordunun hissələri Azərbaycandan Gürcüstana göndərildi. Lakin qısa müddətdən sonra ordunu yenidən respublikamıza qaytarmaq planlaşdırıldı. Bundan xəbər tutan N. Nərimanov, D. Bünyadzadə və A. Serebrovski V. İ. Leninin adına təcili teleqram göndərdilər: «Azərbaycan kəndli və fəhlələri on ay ərzində XI Ordunun yerləşdirilməsinin bütün ağırlığını çəkmişlər. Kəndli və fəhlələr pis qidalanır, pis geyinir və ümidsiz vəziyyətdədirlər, çünki ərzaq və geyimi biz balaca Azərbaycan üçün çox böyük olan XI Orduya verirdik... Teleqramda daha sonra göstərilirdi ki, fəhlələrin təminatının pisləşməsi ilə əlaqədar neft sənayesində vəziyyət daha da ağırlaşır, bu da öz növbəsində neft istehsalına və onun Azərbaycandan ixrac olunmasına təsir edir...» (94, s.20). Bu cür teleqramdan sonra mərkəz Azərbaycana ordu yeritməyi dayandırdı. Ancaq respublikaya vurulan ziyan artıq əhalini həm maddi, həm də mənəvi cəhətdən sarsıtmışdı. Təbii ki, xalqın səbr kasasının dolmasına, daha təhlükəli vəziyyətə - üsyanlara gətirib çıxartmışdı.

Aprel çevrilişindən sonra məlum oldu ki, respublikada milli siyasətin həyata keçirilməsi əsla rəvan getmirdi. Bu siyasətin həyata keçirilməsinə yönəldilmiş tədbirlərin zəruriliyi ümumən başa düşülsə də, Bakı partiya təşkilatının

downloaded from KitabYurdu.az

başlıca olaraq qeyri millətlərdən olan rəhbərləri bu işin mahiyyətini lazımınca başa düşmür və onun düzgün həyata keçirilməsinə mane olur, ciddi müqavimət göstərirdilər.

Bakı partiya komitəsinin, Bakı Soveti İcraiyyə Komitəsinin, rayon partiya komitələrinin və rayon icraiyyə komitələrinin, AHİŞ-in, mədən fəhlələri ittifaqının və digər həmkarlar ittifaqı orqanlarının, komsomol orqanlarının, təsərrüfat və kooperativ təşkilatlarının rəhbərləri arasında və aparatlarında yerli əhalinin nümayəndələri son dərəcə az idi. Azərbaycanlı partiya və sovet kadrlarının, ali və orta ixtisaslı mütəxəssislərin hazırlanması, onların məsul vəzifələrə irəli çəkilməsi yarıtmaz təşkil edilmişdi. Planlı, məqsədyönlü təşkilatçılıq işi, siyasi iş və mədəni tərbiyə işi sistemi yox idi.

Baxmayaraq ki, Bakı Komitəsi və Bakı Sovetinin İcraiyyə Komitəsi müsəlmanlar arasında iş aparmaq məsələləri barəsində bir çox qərarlar qəbul etmişdilər, lakin bu qərarlar yayğın, dayaz və gurultulu xarakter daşıyır, başdansovdu hazırlanır, dərin problemlərə toxunmurdu. Bu isə milli baxışlı, xalqını həmişə xoşbəxt görmək istəyən kommunistlərlə qeyri millətlərdən olan, yerli şərait və milli xüsusiyyətləri nəzərə almayan, öz vəzifələrindən sui-istifadə edən kommunist rəhbərlər arasında ciddi narazılıqlar yaradırdı.

Təsadüfi deyildir ki, V Ümumbakı Partiya Konfransındakı (1921-ci il 25-27 yanvar) çıxışında H. Cəbiyev Bakı Komitəsini müsəlmanlara qarşı laqeydlikdə günahlandıraraq deyirdi: «Bakı Komitəsində yararsız ünsürlər əyləşib, BK Rusiyada olan şablonla gedir. Şərqin, Azərbaycanın şəraitini nəzərə almır» (13, f.l, s.l, iş 5, s.127-128).

1921-ci il aprelin 8-də keçirilən VI Ümumbakı Partiya Konfransında milli məsələyə aid çıxışlarda ixtilaflar özünü daha açıq göstərdi. Konfransda Talıblı müstəmləkə, ruslaşdırma siyasətinə, dil, ordu quruculuğu, nomenklatura və s. məsələlərə dair öz təkliflərini irəli sürdükdə bu, heç də birtərəfli qarşılanmadı. Talıblı öz çıxışında göstərdi: «Azərbaycan və digər respublikalar əslində nə vaxtsa çirkin Rusiya müstəmləkəsi olub. Müstəmləkə çevrilişdən əvvəl də olub, indi də var... Əgər lazım gələrsə mən sizə sübut edərəm ki, bu köhnə ruslaşdırma siyasətinin qalıqları hələ də var. Ancaq hamısı gizli formada köhnə məmurların əli ilə gedir. Biz ruslaşdırma siyasətini o vaxt aradan qaldırarıq ki, birinci növbədə öz ana dilimizi dövlət dili hesab edək. Misal üçün bir yerdə 5% rus əhalisi yaşayır, qalanı yerli əhalidir. Orada rus dili dövlət dili kimi qəbul oluna bilməz. Dövlət dili yalnız ana dili olmalıdır. Bu heç də şovinizm deyil» (13, f.l, s.l, iş 6, s.22-23).

III qurultayda olduğu kimi 6-cı Ümumbakı Konfransında da heç nədən çəkinməyən Talıblı ordu quruculuğuna xüsusi əhəmiyyət verərək, qeyd edirdi ki, mütləq milli ordumuz olmalıdır. O, nomenklatura məsələsində də öz mövqeyində dururdu. Dağıstan məsələsini misal gətirərək göstərirdi ki, əgər respublikanın adında RSFSR sözləri ifadə olunacaqsa, onda bu avtonomiya yalnız formal şəkildə veriləcək. Başqa söhbət ola bilməz (13, f.2, s.226, iş 6, s.24).

downloaded from KitabYurdu.az

Azərbaycanda Kommunist partiyasının qeyri sağlamlığı, onun daxilində birlik və mütəşəkkilliyin olmaması vəziyyəti daha da pisləşdirdi. Partiyanın daxilində, məsul sovet işçiləri içərisində ayrı-ayrı qruplaşmaların ixtilafları ifrat dərəcəyə çatmışdı. Burada Bakı Partiya Komitəsi başlıca rol oynayırdı. BK Mərkəzi Komitənin işinin gedişinə güclü təsir göstərirdi, məsələlər BK üzvlərinin təsiri altında keçirilirdi. Bakı Komitəsində həmişə qeyri azərbaycanlılardan olanlar çoxluq təşkil edirdilər. BK-nın ilk katibi Mikoyan, sonra Sarkis, sonra isə Mirzoyan olmuşdur.

N. Nərimanov «Ucqarlarda inqilabımızın tarixinə dair» məktubunda göstərirdi: «Mən bildirirəm ki, bu, ağıllı düşünülmüş və düzgün hesablanmış bütöv bir plandır. Hələlik bunu mötərizədə saxlayıram, çünki əminəm ki, bu mötərizələr nəticədə özləri açılacaqlar. Lakin işimin elə ilk günlərindən mən açıq deyirəm: bir çox mülahizələrə görə hələlik erməni yoldaşların görkəmli, məsul vəzifələrə təyin edilməsini dayandırmaq vacibdir» (90, s.31).

Kommunist partiyasında parçalanma 1921-ci ildə kəskin həddə çatdı. «Bu parçalanmanı Sarkis başlamış, Mirzoyan isə davam etdirməkdə idi...»

1921-ci ilin martında Mərkəzin RK(b)P Təşkilat Bürosunun qərarı ilə Sarkis Petroqrad Təşkilatının sərəncamına göndərilmək üçün Bakıdan geri çağırıldı. MK qarşısında bu məsələni N. Nərimanov və Q. Kaminski qoymuşdular. N. Nərimanov RK(b)P MK katibi N. N. Krestinskiyə məktubunda yazmışdı: «Kaminski yoldaş qurultaya gedir (partiyanın X qurultayı nəzərdə tutulur) və Azərbaycanda partiya işinin gedişi haqqında ətraflı məlumat verəcəkdir. Bu müddət ərzində Kaminski yoldaş çox iş görmüşdü, lakin təəssüf ki, Mikoyanın «varisləri» yenə mane olurlar. Suyu bulandıran Sarkisi ...buradan götürmək lazımdır. Xahiş edirəm Kaminski yoldaşın ərizəsinə ciddi fikir verəsiniz. Kommunist salamı ilə N. Nərimanov» (13, f.268, s.26, iş.32, s.126-127).

MK-nın Qafqaz Bürosu da Sarkis barəsində müvafiq qərar qəbul etdi.

Sarkisin geri çağırılması solların çıxışı üçün yeni bəhanə oldu. BK-nın iclasında 1921-ci il martın 30-da S. Qutin RK(b)P MK təşkilat bürosunun qərarı haqqında məlumat verərək belə bir təklif irəli sürdü: «Sarkis yoldaş Bakı təşkilatı üçün lazımlı və əvəzsiz işçi olduğuna görə BK Sarkis yoldaşın Bakı təşkilatının sərəncamında saxlanılması haqqında RK(b)P MK qarşısında vəsadət qaldırsın. Həmin qərar Bakı Partiya Konfransından, habelə MK plenumundan keçirilsin, birbaşa rabitə xətti vasitəsilə bu məsələ barəsində Mərkəzlə danışılsın» (13, f.268, s.26, iş32, s.127).

Plenum S. Qutinin təkliflərini yekdilliklə qəbul etdi, onları həyata keçirməyi BK-nın rəyasət heyətinə tapşırdı. 1921-ci il iyunun 14-də Ümumbakı Partiya Konfransı Moskvaya MK katibi V. M. Molotovun adına teleqram (surəti Leninə ünvanlanmış) göndərdi. «Sarkis yoldaşın Bakıda saxlanılması haqqında Stalin yoldaşın 22 aprel tarixli teleqraf məlumatından sonra Qafqaz bürosunun onu geri çağırmağı qərara aldığını» bildirdi və Sarkis yoldaşın Bakı Komitəsinin katibi

downloaded from KitabYurdu.az

vəzifəsində saxlanılmasını xahiş etdi. Teleqramda gostərilirdi ki, konfransın qərarına MK üzvləri R. Axundov, M. D. Hüseynov, R. Hüseynov, L. Mirzoyan, M. Quliyev, V. Paruşin, Ə. Xanbudaqov, H. Cəbiyev və b. tərəfdardılar (13, f.2, s.22, iş 17, s.265).

Stalinin havadarlığı sayəsində Sarkis 1921-ci il iyunun ortalarınadək BK katibi vəzifəsində qaldı. AzK(b)P Ümumbakı VII Konfransında (1921-ci il 14-18 iyul) Orconikidze son dərəcə riyakarlıqla bildirirdi: «Mən demişəm və deyəcəyəm də Sarkisi Nərimanov ilə vuruşdurursunuz. Kəndlilər bunu başqa cür başa düşür ki, ermənilərlə müsəlman kəndliləri arasında dava-dalaş gedir. Belə qalmaqalı xəbərdarlıq etmək lazımdır.» (13, f.2, s.22, iş 17, s.260). N. Nərimanov ilə erməni kommunistləri arasında gedən fikir ayrılıqları, ixtilafları yerlərdə azərbaycanlılar arasında birmənalı qarşılanmırdı. Erməni düşmənçiliyinin yaxın tarixi yaddaşlarda qalmaqda idi. Yüksək vəzifələr tutmuş, üzdə bolşevik, daxilən isə daşnak olan kommunistlər yeritdikləri siyasətdə pərdələnsələr də, xislətlərini büruzə verirdilər.

Bu zaman hakim partiya daxilində nəinki rəhbər dairələrdə mübarizə, dedi-qodu baş alıb gedirdi, sənədlərin araşdırılması göstərir və təsdiq edir ki, bu yerli aşağı təşkilatlara, özəklərə də sirayət etmiş və geniş yayılmışdı. Təsadüfi deyildir ki, VII Ümumbakı Konfransında həmçinin partiyada olan bürokratizm, demaqogiya ətrafında geniş fikir mübadiləsi olmuş və yerlərdə narazılıqlar olduğu bildirilmişdi. Çıxış edənlər bildirirdilər ki, «bəzi özəklərdə demaqogiya, eserçilik, menşevizmçilik baş alıb gedir. Bəzi özək üzvləri təkliflər irəli sürür, bunun da nəticəsi dava-dalaşla sona yetirdi: «Bəzi yoldaşlar bizim partiya sıralarından, partiya idarələrindən çıxıb gedir. Bu idarələrdə bürokratizm özünə dərin yuva salıbdır. BK və MK bu bürokratizmi aradan qaldırmaq üçün ciddi ölçülər götürməlidir». O, qeyd etdi ki: «Axundovun qəbuluna düşmək üçün 2-3 saat gözləməli olursan ki, o səni qəbul etsin. Bunu ona görə demək istəyirəm ki, bu xəstəlik bizdə güclü hiss olunur. Fəhlələr bu xəstəlikdən şikayətlənirlər» (13, f.2 s.22, iş 17, s.61).

Bütün bunlar göstərirdi ki, qəzalarda tam pərakəndəlik və özbaşınalıq hökm sürürdü.

AK(b)P MK-nin 1921-ci il avqustun 19-23-də keçirilən V plenumu partiyadaxili ixtilafların zirvəsi oldu.

Bu ərəfədə RK(b)P MK Qafqaz Bürosu Azərbaycan partiya təşkilatındakı vəziyyətlə bağlı məsələyə baxmış və qeyd etmişdir ki, Azərbaycan partiya təşkilatında bir-biri ilə mübarizə aparan iki fraksiya mövcuddur ki, bu da rəhbər dairələr çərçivəsini aşaraq kütləvi təşkilatlara da keçmiş, bütün işi iflic etmiş, Bakı və bütün Azərbaycan partiya təşkilatına pozğunluq salmışdır.

Qafqaz Bürosu fraksiyaları buraxmağı, Semyon Qutini, Suren Ağamirovu və Olqa Şatunovskayanı (sol fraksiyanın nümayəndələrini) və Həmid Sultanovu (sağ fraksiyanın nümayəndəsini) fəal fraksiyaçılar kimi Azərbaycanda işdən götürüb RK(b)P MK-nın sərəncamına göndərməyi qərara aldı. Fraksiya

downloaded from KitabYurdu.az

çəkişmələri nəticəsində Q. Kaminskinin sıxışdırılması ilə əlaqədar olaraq Qafqaz Bürosu onun Azərbaycanda işləməsini mümkün hesab etməyib öz sərəncamına çağırdı (13, f.268, s.26, iş32, s.129).

Plenumda R. Axundov, V. Yeqorov, S. Qutin, M. Quliyev, H. Cəbiyev, Mirzoyan, M. D. Hüseynov Qafqaz bürosunun qərarının əleyhinə çıxdılar, yuxarıda adları çəkilənlərin fraksiyada iştirak etmədiklərini, buna görə də Qafqaz bürosunun qərarının düzgün olmadığını sübut etməyə çalışdılar.

Qafqaz Bürosu AK(b)P MK plenumunun qərarı ilə razılaşmayıb S. Qutinə, O. Şatunovskayaya və S. Ağamirova göstəriş verdi ki, dərhal RK(b)P MK-nın sərəncamı ilə yola düşsünlər.

Lakin həmişə olduğu kimi partiya intizamından bəhs edən BK rəhbərliyi Qafqaz Bürosunun qərarını yerinə yetirmədi və rayon partiya komitələri katiblərinin komsomol və mətbuat nümayəndələrinin iştirakı ilə avqustun 22-də şəhər partiya komitəsinin geniş plenumunu çağırdı. S. M. Kirov da plenumda idi. Plenum aydın göstərdi ki, BK-nın rəhbərliyi prinsipsiz fraksiya mübarizəsinin dərin bataqlığına yuvarlanmışdır. Çıxış edən kommunistlər MK-nın Qafqaz Bürosunu tənqid atəşinə tutdular, öz qərarını dəyişdirməyi tələb etdilər.

Əsassız tənqidin digər hədəfi isə AK(b)P MK-nın keçmiş birinci katibi, Bakı Soveti İcraiyyə Komitəsinin sədri Q. N. Kaminski oldu (13, f.268, s.26, iş 132, s.131). Kaminski məsələlərə obyektiv yanaşır, Nərimanovu düzgün başa düşür və qiymətləndirirdi. Təbii ki, bu, Mirzoyan, Sarkis kimi öz vəzifəsindən sui istifadə edib, partiyaya zidd olan, əqidəsiz düşmənçilik ruhunda tərbiyələnmiş adamların ürəyincə deyildi, onlar necə olursa-olsun, Kaminskinin vəzifədən, hətta Bakıdan uzaqlaşdırılmasına hər vəcdlə çalışırdılar və buna nail oldular.

S. M. Kirov Kaminskinin əleyhinə çıxış etdi. Kirovun və Mirzoyanın öz çıxışlarında hansı məqsədi güddükləri aydın idi. Kirovun Azərbaycanda işə başlamasından heç bir ay keçməmişdi. Təəcüblüdür bir ay ərzində o vəziyyəti necə tələsik və düzgün qiymətləndirə bilərdi? Belə qısa müddətdə partiya təşkilatında işlərin vəziyyətini, partiyadaxili mübarizənin keşməkeşliyini hərtərəfli obyektiv aydınlaşdırmaq, kadrları öyrənmək mümkün deyildi. MK-nın yeni katibinin müəyyən məsələlərdə qətiyyətsizlik göstərməsi, ardıcıl mövqe tutmaması bununla izah edilirdi. Belə ki, AK(b)P MK plenumunun gedişində və yekunlarında da bu cəhət özünü müəyyən dərəcədə göstərdi.

S. M. Kirov qeyd etdi ki, Qafqaz Bürosu indi başqa çıxış yolu görmür, heç bir cərəyanı ləğv edə bilməz və geri çağırmaq kimi müvəqqəti tədbirlərə əl atmalıdır. Qafqaz Bürosunun qərarları qüvvədə qalır və həyata keçirilməlidir. MK-nın 22 avqust tarixli plenumunda «sollar» Mir Bəşir Qasımovun MK siyasi Bürosunun tərkibindən çıxarılmasına və onun yerinə V. Q. Yeqorovun seçilməsinə nail oldular (13, f.268, s.26, iş.32, s.132). Bu da Nərimanovun tərəfdarları S. M. Əfəndiyev, D. Bünyadzadə və b. ilə M. D. Hüseynov, R. Axundov və b. arasında ciddi toqquşmaya səbəb oldu. Nərimanov öz çıxışında qeyd edir: «Siyasi bürodan

downloaded from KitabYurdu.az

Qasımovun çıxarılması məni bir qədər təəccübləndirdi, MK-da mən onu ən səliqəli, işgüzar adam hesab edirdim. Həmişə siyasi büroda işləyib. Bir dəfə də olsun yığıncaqları tərk etməyib. Protokolla bunu siz özünüz də aydınlaşdıra bilərsiniz. Ağıllı, dərrakəli, özünü işdə çox intizamlı göstərib. Necə ola bilər ki, Qasımovu fəhlələrin MK-dakı nümayəndəsini, srağa gün heç bir səbəb olmadan işdən çıxardırlar. Yeqorov, M.D.Hüseynov mənim əleyhimədir. Belə olduqda Siyasi Büroda məni dəstəkləyən olmayacaq (13, f. 609, s. l, iş. 85, s. 4).

N. Nərimanov Siyasi Büronun bu tərkibdə onun üçün qəbulolunmazlığını qeyd edir, ərizə ilə müraciət və xahiş edirdi ki, onu tutduğu vəzifədən azad eləsinlər.

1921-ci il avqustun 22-də Nərimanov MK-nın katibi Kirovun adına ərizə yazıb plenumun iclasında oxunmasını xahiş etdi. Ərizənin surəti MK-nın Qafqaz Bürosuna ünvanlanmışdı. N. Nərimanov yazırdı: «Siyasi Büroya dünənki seçkilərdə MK-nın üzvləri R. Axundovun və H. Cəbiyevin çıxışları və seçkilərin nəticələri məni bir daha inandırdı ki, Qafqaz Bürosunun qəti xəbərdarlığına baxmayaraq, partiyamızda fraksiyaçılıq davam edir. Məlum qrup müəyyən vaxtadək hər yerdə fəhlə sinfinin nümayəndəsi kimi Qasımov yoldaşın namizədliyini irəli sürdü... Dünən isə bu qrup keçmiş siyasi büronun ən fəal intizamlı üzvünün seçilməsinə maneəçilik törətdi, heç bir səbəb olmadan onu seçilməyə qoymadı.

Seçkilər nəticəsində məlum qrupun 3 üzvü Siyasi büroya daxil oldu və çoxluq təşkil etdi. Xalq Komissarları sovetinin başçısı kimi indidən deyə bilərəm ki, Siyasi büroda belə bir çoxluq şəraitində mən ali partiya orqanlarından kömək görməyəcəm, buna görə də Xalq Komissarlar Sovetinin sədri vəzifəsindən azad olunmağımı plenumdan xahiş edirəm. Bu mənim qəti qərarımdır. Xalq Komissarları Sovetinin sədri N. Nərimanov» (13, f.609, s.l, iş 71, s.76)

Həmin gün Mərkəzi Komitə N. Nərimanovun ərizəsinə baxdı və ərizəni geri götürüb, ondan respublika Xalq Komissarları Sovetinin sədri vəzifəsində qalmasını xahiş etdi. Lakin N. Nərimanov qəti etirazını bildirdi. Avqustun 23-də plenumda Nərimanov AK(b)P MK-ya ərizə ilə müraciət etməsinin səbəblərini daha ətraflı şərh edərək dedi: «Mərkəzdəki bəzi məruzələrimdən sonra mən buraya müəyyən tapşırıqlarla göndərilmişdim». Məruzələrdə yeni sovet Azərbaycanında necə siyasət yeritmək haqqında onun baxışları şərh olunmuş, Bakı Kommunasının ibrət dərsləri nəzərə alınaraq belə bir fikir söylənmişdir ki, əgər biz istəyiriksə, Bakını əlimizdə saxlayaq və sovet Rusiyası azad yaşayıb neftdən və neft məhsullarından faydalansın, onda Azərbaycanla Bakını vəhdət halında birləşdirməliyik. «Mən yola düşməzdən əvvəl düz bir saat Lenin yoldaşla danışdım. O mənə dedi: necə lazım bilirsinizsə, necə istəyirsinizsə, eləcə edin». Nərimanov dedi: «Gərgin zəhmət nəticəsində biz Azərbaycanın vəhdət təşkil etməsinə, fəhlələr və kəndlilər arasında sıx əlaqə yaranmasına nail olmuşuq. İndi başlıca vəzifə bu vəziyyəti qoruyub saxlamaq və dərinləşdirməkdir. Lakin bizim

downloaded from KitabYurdu.az

MK üzvləri arasında bu vəzifəni yerinə yetirməyə imkan verən qarşılıqlı münasibətlər yaranmamışdı» (13, f.609, s.l, iş 85, s. 1).

S. M. Əfəndiyev, N. Nərimanov və H. Sultanov öz çıxışlarında Siyasi Büronun tərkibində fəhlələrin çox az olduğunu, M. B. Qasımovun büro üzvlüyündən qərəzliliklə çıxarılmasını və onun büroda saxlanılmasının vacib olduğunu bildirdilər (13, f.609, s.l, iş 85, s.8)

Plenumda R. Axundov belə bir təklif irəli sürdü ki, Siyasi Büro köhnə tərkibdə saxlanılsın, lakin əlavə olaraq onun tərkibinə V. Yeqorov da daxil edilsin. Çıxış edənlərin bir çoxları Nərimanovu müdafiə edərək qeyd etdilər ki, onun yeritdiyi siyasət düzgün siyasətdir, onun istiqaməti fəhlələrlə kəndlilərin mənafeyi arasında ahəngdarlıq yaratmaqdır. Nərimanovun gətirdiyi dəlillər tutarlı dəlillər hesab edildi. O, Siyasi Büronu əvvəlki tərkibdə saxlamaq təklifini irəli sürdü. Plenumda 2 təklif: Siyasi Büronun əvvəlki tərkibdə saxlanması və bir nəfərin əlavə olunması qərara alındı. Plenumda S. M. Kirov AK(b)P MK-nın birinci katibi vəzifəsinə seçildi.

AK(b)P MK plenumunun iclasında Q. Kaminski çıxış edərək Mirzoyanın, S. Qutinin, R. Axundovun, H. Cəbiyevin və b. böhtanlarını qətiyyətlə təkzib etdi: onların hücumlarını dedi-qodu və intriqa adlandırdı, bıı hücumların yolverilməz, kobud üslubunu «küçə savaşı» kimi qiymətləndirdi. Bakı partiya təşkilatı tərəfindən aparılan intriqa kompaniyasının Bakıda və respublikada partiya və sovet işini ləngitdiyini, prinsipsiz dəstəbazlıq üçün şərait yaratdığını bildirdi. O, bir daha qeyd etdi ki, Bakı Komitəsinin möhkəm siyasi mövqeyi yoxdur və olmamışdır. BK tərəfindən yeridilən və öz ifadəsini dedi-qoduda tapan «xəttin» davam etdirilməsi bizdə bütün partiya, sovet və həmkarlar işini pozmuşdur» (13, f.268, s.26, iş.32, s.133-134).

MK plenumu qurtardıqdan sonra (23 avqust 1921-ci il) Nərimanov Orconikidzeyə həyəcanlı bir məktub göndərdi. O yazırdı: «...Mən cəsarətlə deyə bilərəm ki, mən sovet Rusiyasının, partiyamızın bütün tapşırıqlarını yerinə yetirmişəm!

Həmişə dediyim kimi indi də deyirəm: Biz Azərbaycanı bütünlüklə əlimizdə saxlamasaq, Bakını əlimizdə saxlaya bilmərik, buna görə də bizə vəhdət lazımdır. Böyük zəhmət bahasına vəhdət yaradılmışdı... Bu isə Sovet Rusiyasına imkan verir ki, heç olmasa Azərbaycandan xətircəm olsun. İndi ancaq vəziyyəti qoruyub saxlamaq və dərinləşdirmək gərəkdir.

Çox təəssüf ki, bunların hamısını nə sən nəzərə alırsan, nə də ümumən Qafqaz bürosu. Tərəflərin birində və ya digərində işçiləri işdən götürmək, yəqin ki, fayda verməz. Partiya təşkilatı parçalanır, buna görə də sovet işi də parçalanıb pozulur. Qafqaz bürosunun işçiləri geri çağırmaq qərarına və plenumda siyasi büro üzvləri seçilməsinə dair tanıdığın qrupun çox çıxışları barədə Kaminski yoldaş sənə danışacaqdır.

downloaded from KitabYurdu.az

Belə xəbərdarlıqan sonra sən Bakı Komitəsini sağlamlaşdırmaq üçün tədbir görməsən, hər cür məsuliyyəti üzərimdən atacağam, çünki bütün qeyri-normallıqlar haqqında mərkəzə xəbərdarlıq etmişəm» (13, f.268, s.26, iş 32, s.134).

Plenumun ertəsi günü, 1921-ci il avqustun 24-də Q. Kmainski Bakıdan yola düşdü. O, getməzdən əvvəl AK(b)P Nəzarət Komissiyasına ərizə ilə müraciət etdi: «Mən dinmir, dözürdüm. İndi görürəm ki, Mirzoyan yoldaş küçə söyüşləri sistemini partiya məsələlərinin həllində tamamilə münasib və vacib bir üsul sayır.... AK(b)P MK Siyasi Bürosunun 02.08.1921-ci il tarixli iclasında AHİŞ Rəyasət heyətinin tərkibi haqqında Mirzoyan yoldaşın təklifi keçmədikdə o, yerindən sıçrayıb: «Kaminski kimi iyrənc tiplə» bizimki tutmaz... – deyə bağırdı. Bunun ardınca mənim ünvanıma başqa söyüşlər də yağdırıldı. Azərbaycan həmkarlar ittifaqlarının II qurultayı fraksiyanın iclasında Mirzoyan yoldaş (rəsmi iclasda) məni yaramaz, alçaq, namərd, əclaf... adlandırdı və b. təhqiramiz ifadələr işlətdi. Mənə bu cür müraciət fasiləsiz olaraq iyirmi-otuz dəqiqə çəkdi və mən fraksiyanın özünə bəyanat verənədək arası kəsilmədi (13, f.268, s.26, iş 32, s.134-135) Q. Kaminski, L. Mirzoyan və Qutini AK(b)P Nəzarət Komissiyasının şərəf məhkəməsi qarşısında partiya məsuliyyətinə cəlb etdi.

Kaminskiyə qarşı belə münasibət təsadüfi deyildi, həm də o, işə başladığı lap ilk günlərdən belə idi. Çünki o, yerli şəraiti – respublikanın milli xüsusiyyətlərini nəzərə almağı lazım bilir və bu işdə Mirzoyan və onun ətrafının yanlış mövqeyini tənqid edir, N. Nərimanovun mövqeyini, onun siyasətini düzgün hesab edir və müdafiə edirdi.

Azərbaycan Kommunist bolşeviklər Partiyası təşkilatlarında yaranmış ağır vəziyyət davam edirdi, hətta 1921-ci ilin payızına yaxın daha da kəskinləşmişdi. Bu isə vəzifə borcuna vicdanla yanaşan bir çoxlarını narahat edirdi. Odur ki, bütün bu müzakirələrdən sonra rəhbər sovet işçilərinin bir qrupu – T. Əliyev, D. Bünyadzadə, M. İsrafilbəyov (Qədirli), M. B. Qasımov, Q. Musabəyov və b. AK(b)P MK-ya ərizə ilə müraciət edərək partiya rəhbərliyinin möhkəmləndirilməsi, Mirzoyan və ətrafındakılardan bəzilərinin həmkarlar ittifaqı orqanlarına və digər sahələrdə işə keçirilməsi təklifini irəli sürdülər.

Lakin AK(b)P MK Siyasi Bürosu vəziyyətin dəyişilməsi üçün lazımi tədbirlər görmədi, sadəcə olaraq sovet işçilərinə asudə vaxtlarında təcrübə toplamaq üçün partiya işi ilə də məşğul olmağı bir vəzifə olaraq tapşırmaqla kifayətləndi.

N. Nərimanov ilə onun əleyhdarları arasında «mübarizə» qızışaraq elə kəskin şəkil aldı ki, V. İ. Lenin münaqişəni aradan qaldırmaq üçün işə qarışmağa məcbur oldu. N. Nərimanovun RK(b)P Siyasi Bürosunda məruzəsindən sonra AK(b)P-nin xüsusi direktivləri tərtib olundu. Nərimanov «Ucqarlarda inqilabımızın tarixinə dair» məktubunda yazırdı: «Yeri gəlmişkən deməliyəm ki, Siyasi Büronun iclasında yoldaş Lenin mənim fikrimi soruşduqda mən dedim: «Ya mənə bu qrupla açıq döyüşə girməyə icazə verin, onda mən onu tez məhv edərəm, ya da RK(b)P

downloaded from KitabYurdu.az

MK onlara solluq oyunu oynamağı qadağan etsin». Birincini o qəti rədd etdi, ikinci təklif üzərində məsələni məhşur direktivlərin tərtib edildiyi komissiyaya verməyi təklif etdi (90, s.23).

Nərimanov yazırdı: «Məni zəif fəaliyyət göstərməkdə ittiham etmək düzgün deyil. Bəzi gənc yoldaşların fitnəkarlıqlarına uymamaq üçün mən öz vəzifəmi çox yaxşı başa düşürdüm, sonralar bu yoldaşlar vəzifələrini itirmək qorxusu üzündən, məndən uzaqlaşmışdılar, mən onları alverçi kommunistlər adlandırırdım...

Lakin «sol» qrupa haqq qazandırmaq lazımdır, bu qrup gözdən pərdə asmaq üçün həmişə deyirdi: «Bizim yoldaş Nərimanova qarşı heç bir pis niyyətimiz yoxdu, lakin onun ətrafındakılar dözülməzdilər».

Qəribə burasıdır ki, bu bəzi «ətrafdakılar» gedəndən sonra onlar birbaşa sol qrupun qolları arasına düşdülər» (90, s.24).

1921-ci il oktyabrın 15-də RK(b)P MK Siyasi bürosu V. İ. Leninin yazdığı layihə əsasında «Bakı məsələləri» adlı qərar qəbul etdi. Qərarda nəzərdə tutulurdu:

a) Təşkilat bürosuna tapşırılsın ki, Azərbaycanda düzgün kommunist siyasətini Hüseynov və Axundov yoldaşlara izah etmək üçün onları dərhal teleqrafla Moskvaya çağırsın. (O zaman M. D. Hüseynov Azərbaycan SSR xalq xarici işlər komissarı, R. Ə. Axundov AK(b)P Bakı Komitəsinin katibi idi).

b) Bakıda və Azərbaycanda hər cür fraksiya mübarizəsini tamamilə dayandırmaq yerli kommunistlərdən ən ciddi şəkildə tələb edilsin.

v) Fraksiya mübarizəsinə yenidən başlamaq cəhdlərinə görə MK-nın onları hökmən partiyadan xaric edəcəkləri təsdiq olunsun.

q) RSFSR-dən Azərbaycana və Bakıya partiya işinə göndərilən yoldaşlara bir vəzifə olaraq tapşırılsın ki, fraksiya mübarizəsinin dayandırılmasına və milli məsələdə MK siyasətinin düzgün yeridilməsinə hər vasitə ilə kömək etsinlər.

d) Stalin yoldaşa tapşırılsın ki, yuxarıda adı çəkilən qərarı redaktə etsin və Azərbaycanda milli siyasətin həyata keçirilməsi haqqında ətraflı direktiv layihəsini bazar ertəsinədək siyasi büroya təqdim etsin...» (13, f.268, s.26, iş 32, s. 140-141)

Layihənin ilkin müzakirəsi İ. Stalin, Q. Orconikidze, P. Mdivani, N. Nərimanov, M. Hacıyev (Azərbaycan MİK sədri) və M. B. Qasımovdan (Azərbaycan MİK sədrinin müavini) ibarət komissiyaya tapşırılmışdı. Bundan başqa Çiçerinə tapşırılırdı ki, elə həmin gecə Hüseynova teleqram vuraraq ən ciddi şəkildə təsdiq etsin ki, bakılı yoldaşların İranda siyasətin pozulmasına yol verməməsi haqqında Siyasi Büronun bu il 3 oktyabr tarixli qərarı (protokol №64 bənd 6) tamamilə qüvvədə qalır. Teleqramın surəti Azərbaycan MK-ya göndərilmişdi.

Direktivdə Azərbaycanın daxili-siyasi vəziyyəti səciyyələndirilərək göstərilirdi ki, Bakı proletariatının milli tərkibinin rəngarəngliyi Azərbaycanda fəhlə sinfinin birliyinin zəifləməsi təhlükəsini yaradır: Bakı fəhlə sinfinin

downloaded from KitabYurdu.az

əksəriyyəti ilə Azərbaycanın mövhumat və cəhalət qalıqlarından xilas olmamış kəndliləri arasında əlaqənin kifayət qədər olmaması isə Azərbaycanda Sovet hakimiyyətinin dayağı olan fəhlə-kəndli ittifaqının möhkəmlənməsini çətinləşdirir. Bu cəhət partiya təşkilatlarında öz sıralarını sıx birləşdirməyi, zəhmətkeş kütlələrin məişət və mədəniyyət xüsusiyyətlərini, milli tərkibini ciddi surətdə nəzərə almağı əməkçi kəndlilərin mənafeyinə, onların milli və dini ənənələrinə xüsusi diqqət yetirməyi tələb edirdi... həmçinin direktivdə göstərilirdi: Partiya təşkilatındakı ədavətin fəhlə sinfi içərisində ədavətə gətirib çıxara biləcəyini və bunun çoxmillətli, xüsusilə təhlükəli olan milli mübarizəyə çevrilə biləcəyini nəzərə alaraq, Azərbaycan partiya təşkilatlarının qeyd-şərtsiz birliyini təmin etsinlər. MK fraksiyalar yaradılmasını və fraksiya mübarizəsini qadağan etdi. Direktivin dəqiq icrasına nəzarət RK(b)P MK Qafqaz Bürosuna həvalə edildi. Onu Azərbaycanın bütün partiya özəklərində oxuyub izah etmək təklif olundu (13, f.268, s.26, iş 32, s.105-106).

Lakin, bunlar təkcə Şərq xalqları üçün yox, eyni zamanda Azərbaycan xalqı, onun milli ruhlu rəhbər işçilərinə psixoloji təsir üçün nəzərdə tutulmuşdu. Bu, ancaq sözdə idi, işdə isə heç nə dəyişmirdi. Təsadüfi deyildir ki, Bakı komitəsinin dedi-qodu ilə məşğul olan şovinist rəhbərliyinin də siyasəti dəyişmədi.

Bakı Komitəsinin rəhbərliyi MK-nın göstərişlərinə məhəl qoymayaraq pozuculuq fəaliyyətini davam etdirir, direktivin həyata keçirilməsi haqqında nəinki düşünmür, buna hətta ciddi müqavimət göstərirdi.

N. Nərimanovun mövqeyinə V. İ. Leninin, RK(b)P MK-nın tərəfdar olması direktivlərdə, MK Siyasi bürosunun 1921-ci il 15 və 17 oktyabr tarixli qərarında açıq ifadə olunmuşdu.

1921-ci il noyabrın əvvəllərində RK(b)P MK-nın Azərbaycana dair qərarlarını izah etmək üçün MK-nın katibi V. M. Molotov Bakıya gəldi. O, respublikanın məsul işçilərinin yığıncağında nitq söylədi, noyabrın 5-də AK(b)P BK Rəyasət Heyətinin iclasında iştirak etdi.

RK(b)P MK «Bakı məsələlərinin» müzakirəsinə yenidən qayıtmalı oldu. 1921-ci il noyabrın 8-də Siyasi Büro Stalinə tapşırdı ki, daha ətraflı məlumat toplasın, Hüseynova və Axundova Xalq Milli İşlər Komissarlığında iş versin. 1921-ci ilin noyabrın 18-də MK Siyasi Bürosu «Hüseynov və Axundov yoldaşlar haqqında» qərar qəbul etdi. Qərarda deyilirdi:

a) məsələ növbəti cümə axşamı günü Siyasi Büroda müzakirəyə qoyulsun, Zinovyev yoldaşın hökmən gəlməsi şərtilə.

b) Hüseynov və Axundov yoldaşlara 2 gün vaxt verilsin ki, yazılı şəkildə: 1. öz fikirlərini şərh etsinlər, 2. millətçilik təmayülünü nədə gördüklərini dəqiq əsaslandırsınlar və 3. Ümumiyyətlə, Qafqaz Bürosunun siyasətini, xüsusilə onun Zaqafqaziya Respublikaları Federasiyası barəsində siyasətini nə üçün saymadıqlarını izah etsinlər (13, f.268, s.26, iş 32, s.145-146).

downloaded from KitabYurdu.az

M. D. Hüseynov və R.Axundov tərəfindən 1921-ci il noyabrın 22-də MK-nın Siyasi Bürosuna təqdim olunmuş yazılı məruzə əslində BK rəhbərliyinin rəyini əks etdirirdi, dolaşıq müddəalarla dolu idi, müəlliflərin siyasi naşılığına, onların nəzəri bilik səviyyəsinin aşağı olduğuna dəlalət edirdi. Nərimanov əsassız olaraq millətçilik təmayülündə təqsirləndirilir, iddia edilirdi ki, guya Nərimanov və «fraksiyası» Qafqazda yeganə nümunəvi olan Bakı təşkilatını darmadağın etmək məqsədində olmuşlar və bunun üçün RK(b)P MK Qafqaz Bürosunun əlilə Bakı təşkilatının ən fəal işçilərinin hamısını sıradan çıxarmağa çalışırlar. Azərbaycanda milli siyasətin həyata keçirilməsində, müsadirələr aparılmasında, partiyanın təmizlənməsində və i. a. yol verilən əyintilərə haqq qazandırılırdı. Deyilirdi ki, Qafqazın, o cümlədən Azərbaycanın partiya təşkilatlarında millətçilik təmayülü vardı və ona qarşı amansız mübarizə aparılmalıdır. Diyarın partiya təşkilatlarına Qafqaz Bürosunun siyasi və təşkilati rəhbərliyinin düzgünlüyü, Qafqaz Bürosunun aşağı təşkilatlar barəsində kadr siyasəti yeritmək hüququ şübhə altına alınırdı.

M. D. Hüseynov və R. Axundovun məktubu tanışlıq üçün MK Siyasi Bürosunun üzvlərinə göndərildi (13, f.268, s.26, iş 32, s.146).

1921-ci il dekabrın 1-də RK(b)P MK Siyasi Bürosu «Azərbaycanda kommunistlər arasında ixtilaflar haqqında» məsələni müzakirə edərək qərara aldı:

a) MK-nın 1921-ci il 15 və 17 oktyabr tarixli qərarı təsdiq olunsun.

b) Belə hesab edilsin ki, RK(b)P MK-nın xüsusi icazəsi olmadan Azərbaycan MK-nın və hökumətinin tərkibində heç bir dəyişikliyə yol verilə bilməz.

v) Stalin yoldaşa tapşırılsın: Moskvada Xalq Milli İşlər Komissarlığında Axundov və Hüseynov yoldaşlara elə bir iş versin ki, bu iş onları müxtəlif millətlər barəsində RSFSR-in ümumi siyasəti ilə ən yaxından və tam həcmdə tanış etsin» (13, f.268, s.26, iş 32, s.147).

RK(b)P MK-nın fraksiyaçılığı qətiyyətlə pisləyib, Azərbaycan kommunistlərinin fəaliyyət proqramını müəyyənləşdirən qərarların ziddinə olaraq sol qrup pozuculuq işini davam etdirirdi.

1921-ci il dekabrın əvvəllərində Bakı Komitəsinin Rəyasət Heyəti R. Axundovun məruzəsini dinləmək üçün Bakı Partiya Konfransı çağırmaq haqqında qərar qəbul etdi (59, 8.04.1990).

Vəziyyətin daha da kəskinləşməsinə yol verməmək məqsədilə MK-nın Qafqaz Bürosu konfransı təxirə salmağı, dedi-qodu və intriqa şəraiti yaranmasına bais olan Bakı Komitəsi təşkilat şöbəsinin müdiri Kraykovu geri çağırmağı qərara aldı.

Bu, solların demaqoqcasına çıxışlarının yeni kükrəyişinə səbəb oldu. Dekabrın 12-də onlar şəhər partiya komitəsinin plenumunu çağırdılar. Plenum Qafqaz Bürosunun qərarı ilə razılaşmadı, onu «heç bir səbəb olmadan qəbul edilən, Bakı təşkilatının işini ləngidən yanlış və lüzumsuz qərar» hesab etdi, konfransın çağırılması məsələsini AK(b)P MK Siyasi Bürosunda müzakirəyə qoymaq və

downloaded from KitabYurdu.az

Qafqaz Bürosunun qərarının ləğv edilməsini partiyanın MK-dan xahiş etmək təklifini irəli sürdü (13, f.l, s.2, iş 18, s.159).

RK(b) P MK-nın Təşkilat Bürosu bu məsələyə baxaraq, konfransın təxirə salınması haqqında Qafqaz Bürosunun qərarını təsdiq etdi. Plenum Moskvaya səfəri və MK Siyasi Bürosunun iclaslarında iştirakı haqqında R. Axundovun məlumatını dinlədi. Məlumat birtərəfli idi, MK-nın Siyasi Bürosunun rəyini əks etdirmirdi. Axundov dedi ki, M. D. Hüseynov və o, Azərbaycanın gerçəkliyinin, xüsusən Bakı gerçəkliyinin bütün vacib məsələlərini işıqlandırmağa ümumən nail olmuşlar. Onun qeyd etdiyinə görə, RK(b)P MK-da o qədər də düzgün işıqlandırılmayan məsələlərə görə - müsəlmanlar arasında iş, partiyada təmizlənmə, Zaqafqaziya respublikalarının Federasiyası, Azərbaycanda və Zaqafqaziyada millətçilik təmayülü məsələlərinə toxunulmuşdur. Lakin Axundov «solların» fraksiyaçılıq fəaliyyətini MK Siyasi Bürosunun pislədiyindən, partiyanın Mərkəzi Komitəsi tərəfindən Azərbaycan partiya təşkilatının qarşısında qoyulan vəzifələrdən bir kəlmə də danışmadı. R. Axundov 1921-ci ilin iyununda AK(b)P BK katibi seçilməsinə baxmayaraq, partiyadaxili mübarizəyə başı qarışdığına, Moskva və Tiflisə səfər etdiyinə, məzuniyyətdə olduğuna görə, o əslində şəhər partiya komitəsinin katibi vəzifəsində işləməmişdir. Katibin vəzifəsini S. Qutin, M. Kaxiani və M. Pleşakov müvəqqəti yerinə yetirmişdilər (13, f.268, s.26, iş 32, s.148).

R. Axundov Moskvaya geri çağırıldığı üçün Bakı Komitəsi katibi məsələsi ortaya çıxdı. Partiya təşkilatında qeyri sağlam mənəvi-siyasi iqlim yaranması ilə əlaqədar olaraq bu məsul vəzifəyə elə təcrübəli siyasi xadim irəli çəkilməliydi ki, Moskvada hazırlanmış siyasi xəttin düzgün yeridilməsini təmin etməyə qadir olsun.

Məntiqə görə, ən yaxşı namizəd xeyli təcrübəli, o zaman nəzəriyyəçi və publisist kimi tanınan Sultan Məcid Əfəndiyev idi. Partiya dairələrində və fəhlə mühitində S. M. Əfəndiyevin namizədliyi irəli sürülürdü. Başqa namizədlər də vardı.

Lakin yenə də «solların» mənsəbpərəstlik iddiaları üstün gəldi. 1921-ci il oktyabrın 24-də Bakı Komitəsinin Rəyasət Heyəti «Bakı Komitəsinin katibi haqqında» məsələyə baxaraq qərara aldı: R. Axundov Moskvaya getdiyinə görə M. Kaxiani Bakı Komitəsinin katibi təyin olunsun, onu Bakıya ezam etmək haqqında Qafqaz Bürosunun qarşısında məsələ qoyulsun. Kaxiani gələnədək katib vəzifəsinə müvəqqəti olaraq Pleşakov təsdiq edildi. AHİŞ sədri vəzifəsində işləyən L. İ. Mirzoyanı Bakı Komitəsinin katibi vəzifəsinə irəli çəkməyə geniş hazırlıq başlandı. 1921-ci il dekabrın 27 də keçirilən şəhər partiya plenumu qərara aldı: «Mirzoyan yoldaş Bakı Komitəsinin daimi katibi təsdiq edilsin» (13, f.268, s.26, iş 32, s. 150-151). Daimi katib ifadəsinin özü R. Axundovun şəhər partiya komitəsinin katibi vəzifəsindən açıq aşkar azad edilməsi demək idi. Yaranmış mürəkkəb şəraitdə, RK(b)P MK Siyasi Bürosunun Bakı və bütün Azərbaycan

downloaded from KitabYurdu.az

partiya təşkilatında işlərin vəziyyətinə verdiyi siyasi qiymətdən, bütün bu biabırçı vəziyyətdən, qarışıqlıqdan sonra L. Mirzoyanı Bakı Komitəsinin katibi təsdiq etmək nəinki düzgün və məqsədəuyğun deyildi, həm də son dərəcə təəccüblü bir addım idi. Mirzoyan Bakı partiya təşkilatında yaranmış vəziyyətin səbəbkarlarından biri idi. Lakin paytaxt şəhər partiya komitəsinə katib tövsiyə etmək məsələsi kimi olduqca mühüm bir məsələnin həllində AK(b)P MK və Qafqaz Bürosu lazımi prinsipiallıq göstərmədilər.

1922-ci ilin aprelində R. Axundov Bakıya qayıtdı. Moskvada qısa müddət qalsa da, az təcrübə qazanmamışdı. R. Axundov X Ümumbakı partiya konfransında (aprel 1922-ci il) dedi ki, Moskvada milli siyasət məsələlərini öyrənməyə çalışmışdır:... «türk mətbuatı ilə, ümumən müsəlmanlar arasında işlə bağlı məsələlərdə çox vərdiş qazanmağa müvəffəq oldum» (13, f.268, s.26, iş 32, s.151).

Belə qənaətə gəlmək olar ki, Azərbaycanın bolşevik rəhbərliyində baş verən ixtilaflar və daxili-siyasi çəkişmələr yeni yaranmış dövləti möhkəmlətmək, yeni iqtisadi siyasətin vəzifələrini həyata keçirmək əvəzinə cılız siyasətbazlıqla, demaqogiya ilə partiya və dövlət orqanları arasında münasibətlərin pisləşməsinə, partiyanın nüfuzunu və rəhbər rolunu zəiflətməsinə gətirib çıxardı.

Respublika rəhbərliyində ixtilaflar dövlət idarəçiliyinin bütün sahələrinə təsir etdiyindən Azərbaycan SSR-nin iqtisadi-siyasi vəziyyəti ilə yanaşı, cəmiyyətin mənəvi durumu da potensial inkişaf səviyyəsindən geri qalırdı.

## 2.2 Mübarizə aparan tərəflərə münasibətdə mərkəzin antiazərbaycan mövqeyi, N. Nərimanovun Azərbaycandan uzaqlaşdırılması

1922-ci ildə Azərbaycan rəhbərliyində vəziyyət gərginləşmişdi. N. Nərimanovun əleyhdarları (sol qrup) BK-nın himayəsi altında daha da fəallaşmışdı. Onlara Nərimanov kimi xalqını düşünən bir rəhbərin olması heç cürə sərf etmirdi. 1921-ci il noyabrın 2-də Q. Orconikidze Bakıdan Leninə və Stalinə teleqram vurmuşdu: «Nərimanov hələ yoxdur, lakin buradakı yoldaşları MK-nın qərarı ilə tanış etmişəm, burada olmadığım müddətdə iş yoğunlamışdır, indi Nərimanovun götürülməsini açıq-aşkar tələb edirlər. MK direktivlərinin yekdilliklə, hətta müzakirəsiz qəbul edilməsi hiyləgər manevrdən başqa bir şey deyildir. Bir neçə başqa işçi də götürülməsə, qalmaqal davam edəcəkdir. Nərimanovun məsələsində Axundova və Hüseynova inanmaq olmaz. Qarşıya Nərimanovu devirmək vəzifəsi qoyulmuşdu... Partiyada aparılan təmizləmə ilə əlaqədar olaraq Nərimanovun qrupu mühasirəyə alınmışdır... Hüseynovu, Axundovu Moskvada uzun müddət saxlamaq lazımdır...» V. İ. Lenin teleqramın üstünə yazmışdı: «Məxfi Molotov yoldaşa. Siyasi Büronun bütün üzvlərinə oxutdurmalı 19.XI Lenin» (13, f.268, s.26, iş 32, s.144).

downloaded from KitabYurdu.az

N. Nərimanov Stalinə məktubunda yazırdı: «Özünün «Qafqaz» siyasətinin inkişafına mane olan hər şeyi məhv etmək üçün Serqoya məni Azərbaycandan uzaqlaşdırmaq lazım idi. O, məsləhət üçün Mirzoyana müraciət etdi, Mirzoyan dedi: «Bizə ancaq sənin razılığın lazımdır və Nərimanov burada olmayacaq». Serqo dedi: işində ol» (90, s.56).

L. Mirzoyan Ə. Qarayev və M. D. Hüseynovla birlikdə bütün qüvvələrini, N. Nərimanovun uzaqlaşdırılmasına yönəldirlər. Onu Moskvada yüksək vəzifəyə keçməsi adı ilə çıxarırlar. Nərimanov yazırdı: Mirzoyan və Serqo şadlıq edirlər: məni çıxartdılar və heç bir şey olmadı, Azərbaycanda nəinki üsyan yoxdu, hətta heç kim Nərimanovun adını çəkməyə cəsarət etmir (90, s.58).

1922-ci il martın 12-də N. Nərimanov Zaqafqaziya Sovet Sosialist Respublikaları Federativ İttifaqı Sovetinin üzvü seçildi. Martın 2-də Sovetin birinci iclasında Rəyasət Heyətinin tərkibinə daxil oldu.

N. Nərimanov İttifaq sovetinə daimi işə keçməsi ilə əlaqədar olaraq, həmin ilin mayında Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri vəzifəsinə Q. M. Musabəyov təsdiq olundu. Nərimanov yazırdı: «Partiya qaydası ilə XKS sədri yoldaş Musabəyovu seçmək təklifi elan edildikdə yerlərdən səslər eşidildi: «Bəs Nərimanov? Onlara cavab verdilər ki, Nərimanov İttifaq Sovetinin sədri seçilmişdir, o dəqiqə onların agentləri bu qərarla razı olmayanları dilə tutub sakitləşdirməyə başladılar ki, indi Nərimanov hər üç respublikanın başçısı sayılır. Məgər bu yalan deyil?» (90, s.42).

N. Nərimanov 1922-ci il martın ortalarında Moskvada olmuş, 1922-ci il mayın 28-də Genuya konfransından Zaqafqaziyaya qayıtmışdır. İyulun 6-dan dekabrın 5-dək beş ay ərzində Nərimanov İttifaq Sovetinin sədrlərindən biri kimi Zaqafqaziya dövləti hakimiyyətinin ali icra və sərəncam orqanının fəaliyyətinə rəhbərlik etmişdir. O, RK(b)P MK-ya, İ. V. Stalinə göndərdiyi məktubda yazmışdı: «Tiflisdə yaşayarkən, guya ali hakimiyyət kimi çox tez-tez mənə ASSR Xalq Komissarları Sovetindən və onun ayrı-ayrı üzvlərindən şikayətlə müraciət edirdilər, lakin mən hər dəfə izah etməli olurdum ki, bəzi məsələlərə toxunmağa mənim hüququm yoxdu və i. a.

Bu halda mən ya gərək özümü dartıb üç respublikanın başçısı kimi göstərməli və amansız yalan danışmalı, yəni vəd verib lakin heç bir iş görməməli, ya da olduğunu deməməliyəm». (90, s. 42).

N. Nərimanovun xalq kütlələri arasında olan nüfuzu ilə idarəetmədəki səlahiyyətləri arasında tərs mütənasiblik vardı. Birinci nə qədər yüksəkdə dayanırdısa, digəri o qədər məhdud idi. Mərkəzin planında o, təlimatlandırılmış icraçı kimi qiymətli sayılırdı (33, s. 34).

1923-cü il martın 19-23-də Zaqafqaziya Kommunist təşkilatlarının II qurultayı keçirildi. Partiya quruculuğu haqqında məruzəçi L. Mirzoyan idi. O, məruzəsində əsas yeri partiyanın sosial tərkibi, ziyalılar, kommunistlərin tərbiyəsi məsələlərinə vermişdi. Kəndlilərə xor baxmaq meyli də aydın görünürdü. L.

downloaded from KitabYurdu.az

Mirzoyan diyarın partiya təşkilatlarına dedi-qodu, dəstəbazlıq, şəxsi çəkişmələr, intriqaçılıq və digər mənfi halların mövcud olmasından danışarkən bildirdi ki, guya bunun başlıca səbəbi kəndlilərin geniş axınla partiyaya gəlməsi ilə əlaqədar olaraq partiyanın sosial tərkibinin pisləşməsidir.

Bu fikri qətiyyətlə pisləyən İ. B. Yujak açıq danışdı: «Dedi-qodu hər şeydən əvvəl yuxarı dairələrin boğuq ab-havasından doğur, mən bunu bürokratizm ab-havası adlandırardım. Son 2-3 ildə quruculuğun müxtəlif sahələrində bizim yuxarı dairələrin tərkibini yoxlayanda, ancaq vaxtaşırı aparılan yerdəyişmələrin şahidi olursan, təzə işçilərə rast gəlmirsən». N. Nərimanov da dedi-qodunun pozucu təsiri məsələsinə toxunaraq qeyd etdi ki, bunun başlıca səbəbi mərkəzin direktivlərini və ideyalarını başa düşməməkdən, partiyanın Mərkəzi Komitəsinin qərarına müxtəlif tərzdə yanaşmaqdan ibarətdir (13, f.268, s.26, iş 32, s.157-158).

Zaqafqaziya kommunist təşkilatlarının II qurultayında İ. V. Struanın və R. A. Axundovun çıxışları yenə də Nərimanova qarşı idi. Nərimanovu necə olursa olsun, təqsirləndirməyə çalışan Strua keçmişin hadisələrinə qayıdaraq bildirdi ki, «Bakı çəkişməsində» Nərimanov yox, o biri yoldaşlar haqlı idilər.

R. Axundov öz çıxışını əsasən N. Nərimanovun və F. Maxaradzenin dediklərinin tənqidinə həsr etdi. Mərkəzin direktivinin başqa birisinin yox, məhz Nərimanovun başa düşmədiyini istehzalı ifadələrlə sübuta yetirməyə çalışdı. Yoldaşların geri çağırılması məsələsini yenidən qaldıraraq bildirdi ki, bu iş Nərimanovun «şəxsi diktaturasını» möhkəmləndirmək üçün görülmüşdür. Mirzoyanın və onun digər tərəfdarlarının nöqteyi-nəzərini ifadə edən Axundovun çıxışı yeni iqtisadi siyasətin siyasi məzmunu ətrafında idi. Yeni iqtisadi siyasətin mahiyyəti fəhlə sinfinin kəndlilərlə ittifaqı və bu ittifaqı möhkəm iqtisadi təməl üzərinə qoymaqdan ibarət idi. YİS-in Lenin konsepsiyasına zidd olaraq çıxışda kəndlilərə etimadsızlıq ifadə edilirdi. Əhalisinin əsas qismi kəndlilərdən ibarət olan Qafqazda bu xətt xüsusilə təhlükəli idi (13, f.268, s.26, iş 32, s.160).

R. Axundov gənc kommunistləri partiya veteranlarına qarşı qoyurdu: «qocalara bizim hörmətimiz var, lakin onlar xırda burjua millətçiliyinə meyl eləyəndə, icazə verin, biz tabe olmayaq, nəinki tabe olmayaq, hətta onların özlərini partiyanın ümumi iradəsinə tabe olmağa vadar edək. Əks təqdirdə biz partiyanı dağıdar, bir ovuc ötkəm diktatorlar yaradarıq».

N. Nərimanov qurultaydan sonra RK(b)P MK-ya göndərdiyi məktubda yazırdı: «...Partiyada yuxarıdan və aşağıdan parçalanma gedir. Yuxarıda gedən parçalanma mərkəzin direktivlərini hərəsi bir cür başa düşən məsul işçilər arasında gedir, aşağıdan parçalanma ona görədir ki, sollar adlananların diktaturası gənc kommunistlər arasında casusluğu, bəzən biabırçılıq dərəcəsinə çatan intriqanı qızışdırır. Biz canının qorxusundan deyil, vicdanının hökmü ilə işləyə bilən cəsur, dürüst və vicdanlı qəhrəmanlar tərbiyə etməkdənsə, qorxaqlar, yalançılar və satqınlar yetişdiririk» (13, f.268, s.26, iş 32, s.160).

downloaded from KitabYurdu.az

V. Lenin milli siyasətini ən ciddi şəkildə, RK(b)P X və XII qurultaylarının göstərişlərini ardıcıl surətdə yerinə yetirməyə çalışan N. Nərimanov V. İ. Lenini çox təşvişə salmış «Gürcüstan münaqişəsi» məsələsindən də yan keçə bilməzdi.

N. Nərimanov Gürcüstan partiya təşkilatının görkəmli rəhbərlərinin rüsvay edilməsini, «millətçilik təmayülündə» ittiham olunmasını, vəzifədən götürülməsini İ. Stalinin və onun xəttini müdafiə edən Q. K. Orconikidzenin özbaşınalığının və böyük dövlətçilik siyasətinin təzahürü kimi qiymətləndirir, Q. K. Orconikidzeni «Stalinin yanında «general-qubernator» adlandırırdı.

V. İ. Lenin məxfi məktubunda L. D. Trotskiyə belə müraciət etmişdir: «Sizdən çox xahiş edirəm ki, gürcü işinin partiya MK-sında müdafiəsini öz üzərinizə götürəsiniz. Hazırda bu iş Stalin və Dzerjinskinin «təqibi» altındadır və mən onlann qərəzsizliyinə bel bağlaya bilmərəm. Hətta tamamilə əksinə». P. Q. Mdivaniyə, F. İ. Maxaradzeyə və digər gürcü yoldaşlara məxfi müraciətində isə (bu V. İ. Leninin diktə etdiyi son sənəd idi) göstərilmişdi: «Bütün qəlbimlə sizin işinizi izləyirəm. Orconikidzenin kobudluğu və Stalinlə Dzerjinskinin buna göz yummaları məni hiddətləndirmişdi». Bu məsələdə N. Nərimanovun fikri V. İ. Leninin rəyinə uyğun gəlirdi. «Gürcüstan münaqişəsi» SSR İttifaqının təşkili ərəfəsində xüsusilə şiddətlənib son dərəcə kəskin şəkil aldı. Qafqazın görkəmli partiya xadimləri münaqişəni söndürmək üçün var qüvvələri ilə çalışırdılar, tərəflərin hamısını qane edib ehtirasları yatıra bilən təkliflər hazırlamışdılar. Bu öz ifadəsini 1922-ci il 24 iyul tarixli «Zaqafqaziya Federativ İttifaqının əsasları»nın on bir bəndində tapmışdı. Sənədi A. F. Myasnikov, N. Nərimanov, P. Q. Mdivani və S. M. Kirov imzalamışdılar (13, f.268, s.26, iş 32, s.162).

O zaman Azərbaycanda da Gürcüstandakına bənzər vəziyyət yaranmışdı.

Azərbaycanda da sovet hakimiyyəti qurulandan az sonra Q. K. Orconikidze İ. V. Stalinin ortaya atdığı və zorla qəbul etdirməyə çalışdığı «muxtariyyətləşmə» ideyasını - yeni meydana gələn müstəqil sovet respublikalarını muxtar qurumlar kimi RSFSR-in tərkibinə daxil etmək təklifini irəli sürdü.

Bu təklifə Azərbaycan, Ermənistan KP MK-ləri qeyd şərtsiz razı oldular. Belarusiya KP MK-sı müqavilə münasibətlərinin saxlanmasına tərəfdar çıxmışdır. Gürcüstan KP MK isə sentyabrın 15-də Stalinin layihəsini tamam rədd etmişdir. Ukrayna K(b)P MK isə layihəni müzakirə etməyə macal tapmamış və ona yenidən baxılması məsləhət görülmüşdü.

V. İ. Lenin 1922-ci ilin sentyabrın 26-da Siyasi Büro üzvləri üçün Kamenevə yazdığı məktubda bildirirdi ki, «...məsələ son dərəcə mühümdür. Stalində bir qədər tələsməklik meyli vardır. Siz gərək yaxşı düşünəsiniz»... O həmçinin məktubda «muxtariyyətləşməni» millətlərin hüquqlarını tapdalayan səhv ideya kimi tənqid etmişdir. O, layihənin RSFSR-ə «daxil olmaq» sözünün əvəzinə «RSFSR ilə birlikdə rəsmən sovet Respublikaları ittifaqında birləşmək» sözlərini yazmağı təklif etmişdi. Onun fikrincə, respublikalar elə formada birləşməlidirlər ki, orada birləşən xalqların suveren hüquqlarına xələl toxunmasın, onların bərabər

downloaded from KitabYurdu.az

hüquqluluğu təmin edilmiş olsun. Bu məqsədlə o, bərabər hüquqlu müstəqil respublikaların könüllü birləşməsi formasını irəli sürmüşdü. O, ittifaq müqaviləsində ittifaqdan təkbaşına çıxmaq hüququnu və tərəflərin səlahiyyətinin müəyyən edilməsini göstərməyi çox vacib saymışdı (42, s.82)

Bu da əslində deklarativ xarakter daşıyırdı. ZSFSR-in yaranması 1922-ci il dekabrın 10-da çağırılmış I Zaqafqaziya sovetlər qurultayı ilə başa çatdırıldı. Qurultayda ZSFSR-in yaranması rəsmiləşdirildi. Zaqafqaziya MİK seçildi. ZSFSR-in yaranması süni surətdə Qafqazı parçalamaq, RK(b)P MK Qafqaz bürosunun iş üslubunu Zaqafqaziya respublikalarına köçürmək, birləşmək adı altında onların suveren hüquqlarını tapdalamaq idi.

ZSFSR-in yaranması ilə Azərbaycanın zəngin ehtiyatları hesabına Gürcüstan və Ermənistan iqtisadiyyatı bərpa edilib dirçəlmişdi. 1936-cı ildə ZSFSR ləğv edilənə qədər bu, davam etmişdi.

1922-ci il yanvarın, 9-da N. Nərimanov V. Leninə yazdığı məktubda birləşməyə öz münasibətini bildirmişdi: «Mən Kavbüronun iclaslarında həmişə deyirdim: Birləşmək lazımdır, ancaq tələsmək lazım deyildir.

Azərbaycan ta qədimdən indiyənə qədər bütün sovet respublikalarına münasibətdə beynəlmiləlçiliyi sübut etdi və edir. Öz varlığını bütün respublikaların varlığı hesab edir, o bunu sözlə yox, işlə sübut etdi. Ermənistanın xeyrinə o ərazisindən imtina etdi. O vaxt ki, bunu siyasi cəhətdən etmək olmazdı. Buna baxmayaraq, heç bir sovet respublikası bizə heç nədə güzəşt etmək istəmir. Kav.Büro bir qərar verir, bunu yalnız Ermənistan ya Gürcüstan pozur. Bu respublikaların heç biri bunu etmək istəmir. Azərbaycan ümumi işin xətrinə qurbanlar verir. Başlıca anlaşılmazlıqlar bunlardı. Sözsüz, partiya qayda-qanunları ilə biz hər şeyi etdik. Mərkəzdə əgər yoldaş Serqonun səyinə rəğmən birləşmə məsələsi həll olunubsa, ədalətlə düşünmək lazımdır, İttifaq Sovetinin mərkəzi Bakı olmalıdır, Tiflis yox. Bu, məsələni bir qədər yüngülləşdirər» (13, f.609, s.l, iş 71, s.67-68).

N. Nərimanov RK(b)P MK-ya göndərdiyi məktubda Zaqafqaziya partiya təşkilatlarında milli siyasətin həyata keçirilməsində əyintiləri aradan qaldırmaq, siyasi ab-havanı sağlamlaşdırmaq üçün bir sıra tədbirlər görməyi təklif etdi. Bunun üçün o, hər şeydən əvvəl «Serqo Orconikidzeni dəstəsi ilə birlikdə Zaqafqaziyada işdən götürməyi, partiyaya 1917-ci ildən əvvəl daxil olan qocaman partiyalı yoldaşların əksəriyyətini Azərbaycan və Gürcüstan mərkəzi komitələri üzvlüyünə qəbul etməyi» zəruri sayırdı. O, Bakı Partiya Komitəsinə seçkilərdə də eyni tədbirlər görməyi, onun tərkibini fəhlələr hesabına artırmağı təklif edirdi. Yazırdı ki, Orconikidzeni Zaqafqaziyada saxlamaq köhnə siyasəti davam etdirmək demək olar, beləliklə, partiyanın XII qurultayının milli məsələyə dair qərarı Zaqafqaziya respublikalarında lazımi təsir bağışlamaz (13, f.268, s.26, iş 32, s.162).

N. Nərimanovun «milli təmayüllü» siyasəti «Nərimançılıq» adlanırdı. «1920-ci illərdən başlayaraq doktor Nəriman Nərimanovun Komissarlar Şurasının

downloaded from KitabYurdu.az

sədri olduğu zamanlarda «Nərimançılıq» adı altında millətçi bir qrupun meydana çıxdığını eşitməyən az idi.» M. S. Ordubadi bu ideyanın nədən ibarət olduğunu belə müəyyənləşdirirdi: «Onun bütün bəhsləri özünün təzə bir əqidə müəssisi olduğunu göstərirdi.» O, bu əqidəni belə açırdı: «Nərimançılıq deyirdi ki, xalqların irq və adətləri müxtəlif olduğu kimi düşüncə və zehniyyətləri də bir-birindən ayrıdır.» N. Nərimanovun sinfi mübarizəyə öz baxışının olduğu qeyd olunurdu: «Nərimançılıq» eyni zamanda siniflərin tövsiyyə etmək məsələsini kommunizm ilə burjuaziyanı barışdırmaqla həll etmək istəyirdi. «Nərimançılıq» sosializm və kommunizmə sinfi mübarizə yolları ilə deyil, barışdırıcılıq yolları ilə getməyi tövsiyə edirdi. Nəriman öz nəzəriyyəsi ilə sovet üsul-idarəsindən razı qalmayanları da öz tərəfinə çəkirdi».

N. Nərimanov Azərbaycandan uzaqlaşdırılandan sonra «sol» qrup tamamilə qol-qanad açdı. Nərimanovun məsləkdaşlarına divan tutuldu. Bir qismi siyasi cəhətdən «öldürüldü», partiyadan çıxarmaq hədəsi ilə büsbütün simasızlaşdırıldı, digər qismi isə gizli fəaliyyətə keçməyə məcbur edildi.

L. Mirzoyan AK(b)P Bakı Komitəsinin katibi seçildikdən sonra sollar öz mövqelərini möhkəmləndirdilər. N. Nərimanov və onun tərəfdarlarına qarşı mübarizəni gücləndirdilər. Onlar Stalinin hədsiz mərkəzləşdirmək, inzibati-amirlik metodlarını geniş yaymaq xəttini canfəşanlıqla yeridirdilər.

Nəriman Nərimanov Azərbaycandan uzaqlaşdırıldı. Nərimanov kimi tarixi şəxsiyyətlərin ətrafında mübahisələrin olması təbiidir. O, kommunizm ideyalarına inanaraq azəri türklərinin, Şərq xalqlarının azadlığını bu ideyalarda görür və bu işin həyata keçirilməsində milli, dini, etnik, ümumən yerli xüsusiyyətləri ciddi şəkildə nəzərə almaqla var qüvvəsi ilə çalışır, azad və xoşbəxt cəmiyyət quruculuğu yolunda milli-mənəvi dəyərlərin qorunub daha da inkişaf etdirilməsi uğrunda daima mübarizə aparırdı. Bu da onun düşmənlərini - daşnakları və onların havadarlarını razı sala bilməzdi. Odur ki, müxtəlif bəhanə, böhtan, hiylə ilə Nərimanovu Azərbaycandan qismən uzaqlaşdırmağa, onun doğma xalqla mənəvi əlaqələrini kəsməyə çalışır, məqsədlərinə müəyyən məqamlarda nail olsalar da, onu xalqdan tamamilə ayıra bilmirdilər.

N. Nərimanovun milli təmayüllü kommunist ideologiyasının platforması təxmini doqquz maddədən ibarət idi.

1.Azərbaycan bütün qəzalarla müstəqil olmalı və SSRİ-yə müstəqil dövlət kimi daxil olmalıdır.

2.Orta sinfə, yəni orta burjua sinfinə maksimum güzəştə getmək lazımdır.

3.Dövlət idarələri tam milliləşdirilməlidir, yəni məsul vəzifələrdə çalışan dövlət məmurlarının əksəriyyəti milliyətcə azərbaycanlı olmalıdır.

4.Azərbaycan dili dövlət dili elan olunmalı və tam hüquqla fəaliyyət göstərməlidir.

5.Hərbi qulluq əhalinin tam imkanları əsasında keçirilməlidir.

downloaded from KitabYurdu.az

6.Bütün partiya və dövlət siyasəti Azərbaycanın milli adət-ənənələri ilə uzlaşmalıdır.

7.Din məsələlərində maksimum ehtiyatlı rəftar edilməlidir.

8.Azərbaycanın iqtisadi imkanlarına və milli sərvətlərinə tam və müstəqil şəkildə sərancam verilməli, lazım bilindikdə başqa «qardaş respublikalara» yardım göstərilməlidir.

9.Şərq xalqlarının milli-azadlıq hərəkatına kömək edilməlidir. (13, f.12, s.l, iş 452, s.11-26).

N. Nərimanova yaxından bələd olan «Müsavat» partiyasının ideoloqlarından M. B. Məmmədzadənin 1923-cü ildə «Yeni Qafqaziya» mühacir jurnalında dərc etdirdiyi «Azərbaycanda vəziyyət» məqaləsi N. Nərimanovla onun rəqibləri arasında gedən ideya, siyasi və mənəvi, psixoloji mübarizə barədə müəyyən təsəvvür yaradır. Məqalədən məlum olur ki, M. B. Məmmədzadə mayın 15-də Bakıdan Ənzəliyə gəlmiş olan səlahiyyətli bir nəfərlə görüşür. Azərbaycandakı vəziyyətlə tanış olduqda o, xəbər verir ki, doktor Nərimanov, sabiq Azərbaycan Komissarlar Şurasının rəisi hal-hazırda Müttəhid Şura Cümhuriyyətləri Mərkəzi İcraiyyə Komitəsi divani rəyasət əzası, xəstə olduğundan 3 aylıq bir məzuniyyətlə Bakıya gəlmişdir və qəribədir ki, Moskvanın bir sadə uşağını təntənə ilə qarşılayan Bakı bolşevikləri Nərimanovun gəldiyini qəzetdə belə qeyd etməmişdilər. Nərimanovla kimsə görüşmür, görüşmək istəmir... Nərimanov pək yorğun və cismən olmasa da, ruhən xəstədir. O, bütün işlərdən naümüd və hər şeyə laqeyddir (29, 3.07.1996).

Araşdırmalar göstərir ki, N. Nərimanov xalqdan uzaqlaşdırılsa da, xalq onu unutmamış, ona ən böyük dərdini, sirrini belə deməyə cəsarət etmişdi. Nərimanova göndərilmiş məktubların biri bunu daha aydın sübut edir ki, təqiblər, repressiyalar 25-ci ilə qədər və sonralar da davam edir. Məktub 1925-ci il fevralın 15-də yazılmışdır: «...Daim qorxu halında yaşamaqdansa, birdəfəlik ölmək yaxşıdır. Mənim heç bir günahım yoxdur və heç kimin işinə qarışmamışam. Mən siyasi bitərəfəm, sovet hakimiyyətinə qarşı özümü sadəlövh aparmışam. Ölümün qarşısında bunu deyirəm. Əxlaqi cəhətdən mən təmizəm. Hər kəsin üzünə cəsarətlə baxa bilərəm...

Nə qədər ki, Baqdasarovlar və Roxlinlər bizimkilərə rəhbərlik edəcək... Azərbaycanda necə ki, ikiüzlü maskalar var, hələ çox əziyyət çəkiləcək və gizli olaraq milli düşmənçilik ömür sürəcək. Püşk atıb mən ölümü seçmişəm. Zeyvər. 16 fevral 1925» (13, f .609, s.l, iş 89, s.188).

N. Nərimanov yorulmuşdu: mövqeyini, prinsiplərini anlatmaq, təsdiqləmək, səylərinin nəticəsizliyindən, siyasi dartışmaların mənəvi zərbələrindən və nəhayət, məhrumiyyətlərə dözərək həyatını sərf etdiyi, bir çox dəyərlər bahasına üstünlük verdiyi amalının gerçəkləşmək şansının itirildiyi və bu prosesin qarşısını almaq iqtidarında olmadığını dərk etməkdən (47, 13.04.1990).

downloaded from KitabYurdu.az

N. Nərimanov səhhəti ilə bağlı Bakıya dönmək, vəzifəsindən azad olunmaq, ailəsini saxlamaq üçün Bakıda ədəbi işlə məşğul olmağa icazə istədi. Məktub Stalinə yazılmışdı.

N. Nərimanovun qəfil ölümü bütün vicdanlı, əqidəli insanlara çox böyük təsir etdi. O dövrün mətbuatını izlədikdə çox təəssüf ki, onun ölümünün Azərbaycan mətbuatında soyuqqanlı qarşılandığı görünür. Myasnikovun vəfatı barədə bir neçə nömrədə («Bak. Raboçi» qəzetində - R.B), Nərimanovun vəfatı haqqında isə 1 nömrədə material verilmişdi. Onun rəqibləri Orconikidze, Kirov öz maskalarını gizlədərək, alovlu nitqlər söyləyirdilər. Orconikidzenin çıxışı buna misaldır. «Yoldaş Nərimanov bizim partiyanın Şərqdə olan ən böyük şəxsiyyətidir... Bizlər üçün sözsüz ki, yoldaş Nərimanov Zaqafqaziyada yorulmaz mübariz kimi tanınmışdır. Azərbaycanda Nərimanov yoldaş bizim partiyanın ən yaxşı bayraqdarı olmuşdur. Müsavat dövrünün ağalığı vaxtı Nərimanov Şərqin simvolu idi» (112, 22.03.1925).

20-ci illərdə Azərbaycan rəhbərliyində daxili-siyasi çəkişmələrdə mübarizə aparan tərəflərə mərkəz birtərəfli yanaşırdı.

N. Nərimanov Stalinə yazmış olduğu tarixi məktubunda göstərirdi ki: «Ucqarlarda milli təmayül mərkəzin özü və ya onun işçiləri tərəfindən yaradılır.» Bu, çox ciddi və yerində vurğulanmış irad idi. Moskvadan göndərilmiş vəzifəli kommunistlər yerli şəraiti və milli xüsusiyyətləri nəzərə almayaraq, idarəçilikdə hazırlıqları və təcrübələri olmadıqları üçün «ya işi korlayır, ya da həmin respublikada öz vəziyyətlərini möhkəmləndirmək üçün «milli təmayül» uydururlar və işlə deyil, xəbər gəzdirməklə məşğul olurlar. «Solların» mənşəyi də bundan başlayır.

Çox təəssüflər olsun ki, bu, mərkəz tərəfindən təsdiq edilir.

Beləliklə, işimiz üçün fəlakətli olan yerli işçilərlə mərkəzçilər arasında süni surətdə mübarizə yaradılır. İkinci hadisə göstərir ki, Mərkəz müəyyən sahəni özünə tabe edərək, nəinki heç bir şey vermir, hətta həmin Respublikanın axırıncı tikəsini belə əlindən alır» (90, s.37-38).

Nəriman Nərimanov 1924-cü il mayın 27-də «Ucqarlarda inqilabımızın tarixinə dair (İ. V. Stalinə məktub)» adlı tarixi məktubuna əlavəsində daha bir çox vacib məsələlərə də toxunur: erməni «yoldaşlar» və rus şovinistləri Bakı təşkilatının rəhbərləri cinayətkar siyasət həyata keçirir, keçmişlərindən qorxan müsəlman işçilərin qüvvəsindən istifadə edərək öz məqsədlərinə - partiyanı parçalamağa nail olmaq üçün solluq oyunu oynayırlar.

Bir il keçdikdən sonra, son dərəcə dəqiqliklə qabaqcadan dediklərimiz həyata keçdi.

Biz öz məruzələrimizdə həmişə deyirdik ki, türk fəhlələri arasında iş aparılmadığı üçün və onlara yanlış münasibət üzündən türk və rus fəhlələri arasında antoqanizm genişlənir. Onların ölkənin idarə edilməsində və s. rus

downloaded from KitabYurdu.az

fəhlələri ilə birlikdə şüurlu surətdə iştirak etmələri üçün türk fəhlələrinin inkişaf səviyyəsini yüksəltmək zəruridir.

Məruzədə mən birbaşa göstərirəm ki, bu məlum proqram üzrə məlum şəxslər tərəfindən həyata keçirilir ki, onlar nəyin bahasına olursa olsun, Azərbaycanı simasızlaşdırmaq, öz miskin məqsədləri üçün onu gücdən salmaq istəyirlər. Bu məqsədə nail olmaq üçün onlar özləri çıxış etməyib, Azərbaycandan olan türkləri Azərbaycanın mənafeyini müdafiə edənlərə qarşı çıxış etməyə məcbur edirlər. İş «parçala və hökm et» şüarı altında getmiş və gedir» (90, s.55-56).

N. Nərimanovu narahat edən bütün məsələlərə mərkəz birtərəfli yanaşır, bəzi məsələlərdə açıq-aşkar qeyri-obyektiv mövqe tuturdu. Mərkəzin mübarizə aparan tərəflərə etinasız mövqe tutması 1923-cü ildə Azərbaycana Y. Yaroslavskinin başçılığı altında göndərilmiş komissiyanın mövqeyində də öz əksini tapmışdı. N. Nərimanovun milli məsələ haqqında məruzəsinin ətrafında Mərkəzi Partiya Yoxlama Komissiyasının materialları, Bakı özək partiya təşkilatlarının qəbul etdikləri protokolları, onların milli məsələ haqqında qətnamələri, Mərkəzi Yoxlama Komissiyasının gəlməsinin məqsədi və səbəbləri ilə tanış olduqda bunu bir daha aydın görmək olur

Yoxlama Komissiyası 1923-cü ilin iyulunda Bakı partiya, komsomol özəklərində, zavodlarda, fəhlə yığıncaqlarında olmuş və N. Nərimanovun Mərkəzə məktubu ilə əlaqədar araşdırma aparmış və yeni təşkilatlarda yoxlamalar keçirmişdir.

Komissiyanın sədri Y. Yaroslavski bildirir ki, gəlişimizin məqsədi yerli təşkilatların yoxlanılmasıdır. O, qeyd edirdi ki, N. Nərimanov yerli təşkilatları təqsirləndirməkdən başqa, partiyanın Mərkəzi Komitəsini də ittiham edir. Xalq Xarici İşlər Komissarının mövqeyini pisləyir və göstərir ki, Kominternin də mövqeyi düzgün deyil. O, Şərq məsələsində yalnız özünü haqlı sayır. Onun ərizəsinin bu tərəfinə biz burada toxunmayacağıq. N. Nərimanov öz məktubunda yerli rəhbər işçiləri milli məsələdə səhvlərə və əyintilərə yol verməkdə günahlandırır ki, onlar milli məsələyə əks-partiya, şovinist mövqeyilə yanaşırlar, türklər ruslar, ermənilər, yəhudilər tərəfindən hər cürə sıxışdırılırlar. O, iddia edir ki, türkləri ona görə sıxışdırırlar ki, onlar N. Nərimanovun tərəfdarıdırlar. Bütün bunların da nəticəsində bir çox türk kommunistlər partiya sıralarından çıxmışlar. Onlar öz partiya biletlərini özləri gətirib təhvil veriblər (13, f.609, s.l, iş 117, s.l).

Y. Yaroslavski Komissiyanın qarşısında qoyduğu məqsədlərdən danışaraq bildirdi ki, biz çalışacağıq ki, bir neçə iri istehsalat özəklərinin işlərini yoxlayaraq, müəyyən edək ki, onların milli məsələ ətrafında müzakirələri, milli məsələ barəsində ixtilafları, milli cəhətləri bəhanə edərək partiya sıralarından qanunsuz çıxarma hadisələri, millətçilik kəmiyyətinə görə sıxışdırmalar olubmu? Hal-hazırda Bakı Komitəsinin özəklərə münasibəti necədir? Özəklərlə BK arasında ixtilaflar varmı və hansı məsələlər üzərindədir? BK-nın köhnə tərkibə münasibəti, L. Mirzoyanla N. Nərimanov arasında ixtilaflar necə olub? Özəklərin say hesabı,

downloaded from KitabYurdu.az

artımı və ya əskilməsi hiss olunurmu? Özəklərdə dini məsələyə necə baxırlar, bitərəflərin kommunist partiyasına münasibəti necədir kimi suallara obyektiv qiymət vermək (13, f.609, s.l, iş 117, s.2).

Əslində Mərkəzdən gələn Yoxlama Komissiyası özəklərin işlərinə baxandan sonra, raykomların istehsalat özəklərinin məsul işçiləri və nümayəndələri ilə görüşüb yığıncaqlar keçirməli, sonra şəhər partiya komitəsinin işinə obyektiv baxmalı və daha sonra ümumşəhər partiya komitəsinin iclasını çağırmalı, orada Mərkəzi Yoxlama Komissiyasının işinin nəticələrini və eyni zamanda bu sahədə komissiyanın gələcək işinin əsas istiqamətlərini bəyan etməliydi. Ancaq hadisələrin gedişi göstərdi ki, Mərkəzin və yerli qeyri azərbaycanlı rəhbərlərin marağı və mənafeyi baxımından hadisələrə qeyri-obyektiv yanaşılır. N. Nərimanovun məktubunda göstərilən reallıqdan bacardıqca uzaqlaşmağa çalışılırdı.

Hadisələrə qeyri obyektiv yanaşılması hər şeyin kağız üzərində qalmasına gətirib çıxartdı. Protokolların materillarından məlum oldu ki, çıxış edən müsəlmanlar öz vəzifələrindən, partbiletlərindən qorxaraq həqiqəti gizlətməyə çalışmış, Nərimanovun, Sultan Qaliyevin və b. əleyhinə böhtanlar yağdırmaqdan belə çəkinməmişlər.

1923-cü il iyulun 10-da Lenin adına toxuculuq fabrikində keçirdiyi iclasda Y. Yaroslavski sanki yığıncaq iştirakçılarının diqqətini Nərimanova və onun məktubunun əleyhinə yönəltmək məqsədilə Sultan Qaliyevin işi haqqında uzun-uzadı geniş məlumat verərək göstərir ki, o, milli xalq komissarlığının üzvü idi, ona böyük etimad göstərilmişdi. O, isə gizli təşkilat düzəltdi və gizli məktublarla basmaçı rəhbərliklərlə əlaqə yaratdı. Bizim partiyanın üzvü ola-ola partiya işini eşələməyə başladı. Biz onu cəzalandırdıq, partiya sıralarından çıxardıq. O, özünü onunla təmizə çıxarmaq istəyir ki, guya o partiyada olan siyasətdən razı deyil. Bəzi yoldaşlar guya milli məsələyə düzgün baxmırlar. Türk fəhlələrinə lazımi nəzər diqqət yetirilmir, onlar partiya işinə cəlb olunmurlar və s. (13, f.609, s.l, iş 117, s.7).

Əvvəlcədən öyrədilmiş bir çox adamlar, mənsəbpərəstlər Nərimanova qarşı çıxış etdilər. Məsələn, həmin iclasda çıxış edən fabrik komitəsinin sədri Əsəd Əliyev deyirdi: «Mən Aşumov Molla Babadan başlamaq istəyirəm. Bizdə elə hallar olmayıb ki, fəhlələr öz partiya biletlərini cırıb tullasınlar. Əgər ki, türk partiyaya qəbul olubsa, o, məqsədlə, şüurla girib, heç bir şöhrətpərəstlik naminə yox, ona görə o, partbiletini asanlıqla tullaya bilməz. Molla Baba partiyadan çıxarılanda mənim yanıma gəlib dedi ki, Nərimanovu Azərbaycandan çıxarırlar. Bütün Azərbaycan məğlub olacaq. Nərimanovun getməsinə yol verilməməlidir. Mən düşündüm ki, əgər çıxarırlar belə də olmalıdır. Burada bizim etirazımızın nə faydası var. «Şaxsey-vaxsey olanda Molla Baba yolundan çıxdı və «şaxsey-vaxseyin» rəhbəri oldu (13, f.609, s.l, iş 117, s.8).

Toxucular ittifaqının sədri Piriverdiyev də qərəzli və yaltaq çıxışında Nərimanovun əleyhinə deyirdi: «Nərimanovun vaxtında heç bir iş görülmürdü,

downloaded from KitabYurdu.az

yalnız intriqalar, ixtilaflar mövcud idi. İntriqalar bütün vaxtları alırdı. Nərimanov ona qarşı duranlara amansız olurdu, qəzalara göndərərək öz nöqteyi nəzərindən uzaqlaşdırırdı. Nərimanov deyir ki, fabrik, zavodda türklər yoxdu. Bu, düz deyil. Bizim fabrik zavod komitələrində 95% türk var. Biz Axundovu, Orconikidzeni, Qarayevi tanıyırıq. Onlar sovet hakimiyyətini təşkil etdilər. Nərimanov gedəndən az sonra nəfəs almaq asanlaşdı. Biz normal işə başlayırıq, partiya sağlamlaşdı» (13, f.609, s.l, iş 117, s.9).

Əlbəttə, N. Nərimanovun yoxluğundan istifadə edən mirzoyanlar, «sol» qrupunun nümayəndələri hakimiyyəti öz əllərində necə cəmləşdirmişdilərsə, artıq onların qarşısında duracaq qüvvə yox idi, ixtilaflar da olmayacaqdı.

Qara şəhərin 10-cu zavod qruplarının 1923-cü il 11 iyul tarixindəki iclasında Nərimanovun ərizəsi ilə əlaqədar milli məsələyə dair aşağıdakı qətnamə qəbul edilmişdi: iclas Bakı Komitəsinin işini bəyənir, N. Nərimanovun ərizəsini pisləyir, türklərin sıxışdırılması haqqında sözlər düz deyil, türklər, ermənilər, ruslar və ayrı-ayrı fəhlələrin arasında qardaşlıq həmrəyliyi yaranıb, partiya indi xalq təsərrüfatının bərpa olunması, dirçəldilməsi ilə məşğul olmalıdır, partiya imperializmlə mübarizə aparanlara mane olanları pisləyir. Molla Babanın və Ələkbərin partiyadan çıxarılmasını, onların əks hərəkətlərinin zərərliliyinin yoxlanmasını partiya təşkilatlarına tapşırır (13, f.609, s.l, iş 117, s.16).

Burdan da aydın görünür ki, N. Nərimanovu müdafiə edən fəhlələrin aqibəti bu cür olurdu.

N. Nərimanovun məktubu ilə əlaqədar Mərkəzdən gələn Yoxlama Komissiyası komsomol özəklərinin birgə iclasında da bu məsələyə baxdı. Digər iclas protokollarından göründüyü kimi, burada da çıxış edənlər Abdinov, Ağacan, Kaminski və b. o cümlədən, rayon istehlak özəklərinin Balaxanı, Sabunçu və Ramanadakı birgə iclaslarında Ağa İbrahimov (ərzaq komitəsinin sədri), Əmənulla (zavkomun sədri), Mehbalı Novruz (Az.MİK rəyasət heyətinin üzvü), Muxtar Fətəli, Mahmudov, Zemlyanski və b. çıxışlarında günahı Nərimanov, Molla Baba, Şirvani və b. üzərinə yıxdılar və BK-nın mövqeyini bəyəndiklərini, türklərə qarşı heç bir diqqətsizliyin olmamasını, bütün qazanılmış uğurların Orconikidze, R. Axundov, M. D. Hüseynovun zəhməti bahasına başa gəldiyini və onların tanınmış, etibarlı rəhbər işçilər olduğunu vurğuladılar.

N. Nərimanovun məktubunda yazılanların hamısı böhtan hesab edilir, Mikoyan, Mirzoyan, Sarkis və onların icraçıları kimi fəaliyyət göstərən R. Axundovun, M. D. Hüseynovun və b. rolu şişirdilir, təriflənirdi.

Ümumbakı özəklərinin konfransı RK(b)P MK və MY Komissiyasının məruzələrini dinlədi, Bakı təşkilatlarının, MK-nın milli məsələyə dair gördükləri iş haqqında belə bir nəticəyə gəldi: «Komissiya tərəfindən, verilən özəklərin işini yoxlayaraq yerli şəraitin nəzərə alınması barədə işləri tamamilə qənaətbəxş hesab edirik.

downloaded from KitabYurdu.az

Konfrans təsdiq edir ki, türk fəhlələrinin partiya, sovet işlərinə irəli çəkilməsi güclənib. Əvvəlkilərdən fərqli olaraq türk fəhlələri, erməni, yəhudi, rus fəhlələri ilə birləşib çiyin-çiyinə çalışır. N. Nərimanovun məktubunda göstərilən, Bakı Komitəsinə və onun fəal işçilərinə qarşı olan yersiz ittihamlar tamamilə əsassızdır, uydurmadır. Konfrans N. Nərimanovun çıxışını partiya sıralarında dağınıqlıq və qatma-qarışıqlıq yaradan, partiyaya zidd bir akt hesab edir, N. Nərimanovun yazdığı məktub düzgün deyil, yalnız inqilabın düşmənlərinin xeyrini güdən və sovet hökumətinə zidd, əksinqilabi bir silahdır. Konfrans Nərimanovun ərizəsini həqiqətə uyğun hesab etmir, Nərimanovun mövqeyini kütlələrdən uzaqlaşma kimi qiymətləndirir. Konfrans belə çıxışı pisləyir və onu partiyanı dağılmağa çağıran bir çıxış hesab edir. RK(b)P və MK-dan xahiş olunsun ki, Nərimanovu cəzalandırsınlar, həmişəlik olaraq bu zidd hərəkətə son qoyulsun» (13, f.609, s.l, iş 117, s.29).

AzK(b)P-nın məsul işçilərinin iclası və Yoxlama Komissiyası da Nərimanovun məktubu ilə əlaqədar təxminən elə bu cür qərar qəbul edərək bildirdi:

«Nərimanovun çıxışı əslində partiyaya ziddir, partiyanın dağılması üçün bir əsasdır. AK(b)P məsul işçilərinin bir çoxlarının onun tərəfində çıxış etməsi açığı millətçilik, öz marağını partiyanın marağından yüksək tutmaq və eləcə də fəhlə sinfindən yüksək tutmaqdır. İşin həqiqi olub-olmamasını yoxlayan komissiya bir daha aydınlaşdırmışdı ki, məsul işçilərin ünvanına yağdırılan böhtanlar yalandır və komissiya qərara gəlir ki, belə yaramaz hərəkətlərə həmişəlik son qoymaq lazımdır. N. Nərimanovun nitqi başdan-ayağa səhvdir, antimarksist xarakter daşıyır və savadsız bir sənəddir. Nərimanov tərəfindən yağdırılan bütün böhtanlar əsassızdır, bu, obyektiv olaraq düşmənlərin əlinə imkan verməkdir. Biz partiya üzvlərini kominternin ətrafında sıx birləşməyə çağırırıq» (13, f.609, s.l, iş 117, s.31).

Əvvəlcədən düşünülmüş və hazırlanmış bu yığıncaqların qərarlarını və təşkilatlarda keçirilən yoxlamaların nəticələrini ümumiləşdirərək, Yoxlama Komissiyası Mərkəzin, xüsusilə də Stalinin və Orconikidzenin tapşırığı ilə Nərimanovun mövqeyini qərəzliliklə pisləyib təhrif edən və onu gözdən salan bir fikir, qərar ümumiləşdirdi.

Komissiyanın qərarında deyilirdi: «Komissiya ümumiyyətlə və tamamilə N. Nərimanovun RK(b)P MK-nə yazdığı məktubunu əsassız hesab edir. O, məktubu ilə bütün, AK(b)P MK və BK məsul işçilərinə, eləcə də bütün kommunist təşkilatının üzvlərinə böhtan atır və təhqir edir. Komissiya rəqəmlərlə və başqa materiallarla tanış olandan, bəzi məsul işçiləri və eləcə də sıravi partiya üzvlərini sorğu-sual edəndən sonra, Bakı təşkilatlarında olan istehsalat özəklərinin ərizələrini və çağırışlarını dinləyəndən sonra, Bakıda olan rəhbər orqanları, partiya orqanları və eləcə də Azərbaycanla bağlı Nərimanovun bütün böhtanlarını rədd edir. Komissiya eyni zamanda türk fəhlələrinin və kəndlisinin sayılmaması,

downloaded from KitabYurdu.az

sıxışdırılması fikrini rədd edir. Azərbaycanda milli-siyasət qurultayların qərarları əsasında qurulub və işgüzarlıqla həyata keçirilir. Komissiya xüsusilə Bakı təşkilatlarının işinə müsbət qiymət verir…» (13, f.609, s.l, iş 117, s.33).

Y. Yaroslavskinin başçılığı ilə Mərkəzi Yoxlama Komissiyasının mövqeyi, apardığı siyasət qeyri obyektiv idi. Təbiidir ki, qısa bir müddətdə bu cür ciddi məsələyə tam aydınlıq gətirmək olmazdı.

Komissiyanın heç belə bir fikri də yox idi. Odur ki, Nərimanovun tərəfdarlarından heç kimlə söhbət aparılmadı. Əsas məqsəd Nərimanovun haqsız olduğunu göstərməklə, onun Azərbaycandan uzaqlaşdırılmasına nail olduqdan sonra, Mirzoyan, Sarkis, Orconikidze, Kirov kimilərinə Azərbaycanda sərbəst hərəkət etmək üçün yol açmaq idi. Komissiya da, onu təşkil edənlər də, onlara xidmət edənlər də öz məqsədlərinə nail oldular.

N. Nərimanovun İ. Stalinə yazdığı tarixi məktubu çox qiymətli bir sənəd olmaqla yanaşı, həm də 1920-1923-cü illərdə siyasi vəziyyəti daha dərindən və yaxşı başa düşməyə, həm də dövrün ruhunu, ab-havasını hiss etməyə imkan verir. Nərimanovun mövqeyinin, onun Mərkəzə yazdığı xəbərdarlıq məktublarının, bu məktublarla əlaqədar olan çoxlu digər sənədlərin, arxivlərdə uzun illər tədqiqatçılardan gizli saxlanılaraq və yalnız indi, son 10-15 ildə aşkara çıxarılması mümkün olmuş, bu materialların öyrənilməsi tədqiq olunan illərdə Azərbaycan rəhbərliyində gedən mübarizənin mahiyyətini, Nərimanov üçün yaradılan çıxılmaz vəziyyəti, Mərkəzin anti-azərbaycan, şovinist siyasətini başa düşməyə və sənədlərin dili ilə açıb göstərməyə, yeridilən açıq-aşkar hakim millətçilik, şovinist siyasətin bünövrəsinin məhz o illərdə qoyulduğunu başa düşməyə, tariximizi olduğu kimi obyektiv öyrənməyə kömək edir. Həmin sənəd sovet cəmiyyətinin həyatında stalinizmin sonralar əmələ gətirdiyi fəlakətlərin səbəblərini aydınlaşdırmağa bilavasitə kömək edir. Nərimanov istəyirdi ki, (bu məktubu yazmaqla) Azərbaycanda partiya quruculuğu və milli siyasət sahəsində buraxılan səhvlərə diqqəti cəlb etsin və həmin səhvlər gələcəkdə təkrarlanmasın. Sonrakı hadisələr göstərdi ki, N. Nərimanov yanılmamış, hələ 1920-ci illərdə hiss edilən əyintilər getdikcə dərinləşmiş, dövlət siyasətinə çevrilmiş və cəmiyyətə böyük fəlakətlər gətirməklə yanaşı, nəticə etibarı ilə sovet cəmiyyətinin özünün məhvinə səbəb olmuşdu.

## 2.3. Milli siyasət ətrafında mübarizənin kəskinləşməsi, antiazərbaycan qüvvələrin qələbəsi

Azərbaycanda sovet dövlət quruculuğunda geniş dəyişikliklər edilməsinə, yeni iqtisadi siyasətin həyata keçirilməsinə baxmayaraq bu dövrdə siyasi-iqtisadi vəziyyət hələ də normal ahənginə düşə bilmirdi. Bakıda neft hasilatı 1922-1923-cü illərdə əvvəlki illə müqayisədə artmış, mərkəzdə və qəzalarda bəzi sənaye müəssisələri yenidən işə salınmış, dənli bitkilərin, pambıq və başqa bitkilərin əkin

downloaded from KitabYurdu.az

sahələri xeyli genişləndirilmişdir. Lakin bütün bunlarla yanaşı, xalq təsərrüfatının bərpası işində ciddi çətinliklər qalmaqdaydı. Sənayenin ləng inkişafı, tələbatla ayaqlaşa bilməməsi, işsizlik kimi ağır problemi hələ də gündəmdə saxlayırdı. 1923-cü ilin sentyabrında 16.700 işsiz var idi. Xüsusi kapitalın ticarətdə hələ də müəyyən rol oynaması istər-istəməz sovet və kooperativ ticarəti sıxışdırırdı. Sənaye malları ilə kənd təsərrüfatı mallarının qiymətləri arasında böyük uyğunsuzluq olması sənaye mallarının çox baha, kənd təsərrüfatı mallarının ucuz satılmasından zəhmətkeş kütlə və milli hissli rəhbər işçilər, eləcə də müxalifətçilər çox narazı qalırdı. Bu cür qeyri-stabillikdə Rusiyada Trotskinin ətrafına toplaşan «fəhlə müxalifəti», «demokratik mərkəziyyətçilər», «sol kommunistlər»lə ciddi diskussiyalara başlanılmışdırsa da, Azərbaycanda belə mübarizəyə mərkəzdən xeyli gec başlanılsa da, geniş və şiddətli aparılırdı. Müxalifətçilərə hər yerdə ciddi zərbə endirirdilər. Bakı təşkilatında partiyadaxili demokratiyaya aid 160 yığıncaq keçirilmişdir. Fəhlə özəklərində müxalifət özünə ciddi tərəfdar tapa bilmirdi. Təsadüfi deyildir ki, müxalifətə səs verən, dəstəkləyən qüvvələr qulluqçu və ziyalılar idi (67, s.l 19).

Bu dövrdə milli məsələ aktuallığı ilə seçilir, xalqının xoşbəxtliyini düşünən bir çox azərbaycanlı kommunistləri narahat edir, düşündürür, rəhbər dairələrdə qarşıdurmaya gətirib çıxarırdı. Nəriman Nərimanovun Azərbaycandan uzaqlaşdırılmasından sonra bu məsələ heç də səngimədi, əksinə daha da dərinləşdi.

Mövcud dövlət idarəçiliyində aparılan siyasətdən narazı qalan, çevrilişin əleyhinə olan partiyaların üzvləri sovet-dövlət, təsərrüfat və mədəni tərbiyə müəssisələrində işləyən ziyalıların köməyi ilə kütlələr arasında milli-vətənpərvərlik, özünə hörmət, zəhmətinə qiymət hissini aşılayırdılar. Sinfi mübarizənin artdığı bir dövrdə müsavatçılar, ittihadçılar mübarizəyə qoşuldular. Onların taktikasında başlıca məqsəd kənddə həyata keçirilən tədbirlərə təsir göstərmək, kolxoz və sovxoz quruculuğunda baş verən haqsızlıqlara mane olmaq, məktəb və ali təhsil ocaqlarında, ədəbiyyat və incəsənətdə, mətbuat və nəşriyyatda milli idealoji təsiri artırmaq, sağ təmayülə meyl edən bəzi kommunistləri və komsomolçuları öz tərəflərinə çəkmək idi. Müsavatçılar və ittihadçılar bu işdə çox azlıq təşkil edən antisovet əhval-ruhiyyəli kadrlara, müəllimlərə böyük ümidlər bağlayırdılar.

1924-cü ilin əvvəllərində Mirzə bəy Xanlarov və başqa milli ruhlu adamlar tərəfindən təşkil edilən millətçi və dini xarakter daşıyan «Azadis» partiyası da sovet hökuməti əleyhinə xeyli iş aparmışdı.

Hakim milli siyasət əhval-ruhiyyəsi dövlət, təsərrüfat və mədəni-maarif işçiləri arasında, hətta partiya təşkilatlarında özünü büruzə verirdi. Bəzi idarə və müəssisələrdə milli kadrlara düzgün münasibət bəslənmir, onların inkişaf edib irəli getməsinə etinasız yanaşılır, mane olunurdu. Buna «Qırmızı Oktyabr» tütün fabrikində, Binəqədi avtomobil təmiri zavodunda, Gəncə dəmir yol stansiyasında

downloaded from KitabYurdu.az

və başqa 100-lərlə yerlərdə baş verən hadisələri misal göstərmək olardı. Hətta bu cür haqsızlıqlar dövri mətbuat səhifələrində də özünə geniş yer tapmışdı.

Rəhbərlikdə, eləcə də ayrı-ayrı rayon partiya təşkilatlarında olan hərc-mərclik, qarşıdurmalar 1923-cü ildə keçirilən XII Ümumbakı konfransında (6-12 iyun 1923) daha geniş müzakirə və söz-söhbətə səbəb oldu. Konfransa sədrlik edən Mirzoyan qeyd etdi ki, artıq bizim təşkilatlarda ixtilaflar, fraksiyaçılıq, sərxoşluq yox həddindədir. Lakin BK-nın məruzələrinə aid müzakirələrdə ciddi fikir ayrılığı yarandı. Kommunistlərdən Amas Səfərov, Əyyub Xanbudaqov çıxış edərək partiyadakı hərc-mərclikdən, türklərlə işin zəif olmasından, sərxoşluqdan geniş danışdılar (146, s.16).

Konfransda türklərlə iş haqqında da məsələ müzakirə olundu.

Respublikanın iqtisadi və mədəni geriliyi, milli kadrların hazırlanması işinə ögey münasibət, sənaye müəssisələrində, dəmiryol və su nəqliyyatında ixtisaslı rus fəhlələri ilə yanaşı ixtisaslı azərbaycanlı fəhlələrin zəif hazırlanması, Azərbaycan dilinin təəssübkeşliyi və b. məsələlər ətrafında mübahisələr milli məsələnin əsas özəyini təşkil edirdi.

Əyyub Xanbudaqov* Azərbaycanda milli məsələnin düzgün həyata keçirilməsilə razı olmadığını, respublikadakı mədəni quruculuğun inkişafına, yerli əhalinin savadlandırılması, vergi işindəki nöqsanlara və s. məsələlərə görə çox narahat olduğunu bildirdi.

O, eyni zamanda 1923-cü ilin iyun ayında «Bakinski raboçi» qəzetində dərc olunmuş «Quba qəzasında xalq maarifi», «Azərbaycanda bizim başlıca vəzifələrimiz» və s. adlı məqalələrində kommunist təbliğatının yalanına qarşı tez-tez çıxış edirdi. Onu milli kadr məsələsi, gənclərin təhsili, təhsil ocaqlarının acınacaqlı vəziyyəti, dini və bir çox məsələlər ciddi düşündürürdü. Mətbuatda haqlı olaraq çıxış edərək göstərirdi ki, «Bizim bütün nailiyyətlərimiz xalqın ehtiyac dənizində bir damladır».

---

*Ə. Xanbudaqov - 1893-cü ildə Gəncədə (Yelizavetpol quberniyasında) anadan olub. Müstəqil həyata 1909-cu ildən başlayaraq Kaspi donanması gəmilərinin birində matros, 1913-cü ildə Bakı dənizçilik məktəbini bitirərək kapitan köməkçisi vəzifəsində çalışır. 1915-ci ildən Xanbudaqov inqilabi hərəkatda fəal iştirak etməyə başlayır. 1918-ci ildə Kommunist partiyası sıralarına qəbul edilir. O, hümmətçi bolşevik idi. Azərbaycan sovetləşəndən sonra Ə. Xanbudaqov Azərbaycan Fövqəladə Komissiyasının sədri təyin edilir. 1921-ci ilin mart ayında Ə. Xanbudaqov RK(b)P X qurultayında iştirak edir. Elə qurultayda onu Kronştatda başlamış «əks-inqilabi» qiyamın ləğv edilməsi üçün göndərirlər. 1921-ci ilin may ayında Azərbaycanda ərzaqla təchizat məsələsi ağır olduğundan Xalq Komissarlar Şurası nəzdində üç nəfərdən ibarət yaranmış səlahiyətli komissiyanın tərkibinə daxil olur. 1921-ci ildə ÜİMİK üzvü seçilir. Sonralar o, Azərbaycan İstehlak Cəmiyyətləri İttifaqının sədri, 1922-ci ilin əvvəlindən AHİŞ sədr müavini, 1922-ci il martında isə AK(b)P MK katibi seçilir (N. Nərimanovun köməkliyi ilə) (14, s.47).

20-ci illərdə Ə. Xanbudaqov bir sıra maraqlı məqalələr yazır: «Təxirə salınmaz vəzifə (respublikada statistik hesabat işinin quruluşuna dair)», «Azərbaycanda bizim ən yaxın vəzifələrimiz», «Beş il ərzində», «Təxirəsalınmaz məsələ», «Milli məsələyə dair» və s.

downloaded from KitabYurdu.az

Milli məsələ ətrafında ixtilafların kəskinləşməsi 1924-cü ildə geniş vüsət aldı. Bu, xüsusilə Ə. Xanbudaqovun «Milli məsələyə dair» məqaləsinin 1924-cü il 27 aprel tarixli «Bakinski raboçi» qəzetində dərc olunması ilə daha da kəskinləşdi (13, f. 1, s.8, iş 5596, s.20).

Ə. Xanbudaqov «Milli məsələyə dair» məqaləsində yazırdı: «XII partiya qurultayının qərarlarını düzgün həyata keçirmək üçün sözün əsl mənasında onlara hörmət etmək lazımdır. Əks halda biz rus millətinin ayrı millətlərin üzərində ağalıq etməsinə yol veririk. Bu hal Stalinin tezislərində qeyd olunub. «Bəzi milli respublikalarda fəhlə sinfinin çox hissəsi sovet hakimiyyətinin əsas dayağı olan böyük rus xalqına mənsubdur. Köhnə rus şovinizmi hələ aradan qalxmayıb... Burada böyük rus xalqının mədəniyyətinə böyük yer verilir, beləliklə də qalan millətlərin mədəniyyəti aşağı səviyyədə göstərilir (112, 27.04.1924).

Ə. Xanbudaqov «Milli məsələyə dair» məqaləsində yazırdı ki, «baxmayaraq ki, XII partiya qurultayından bir il keçir, Azərbaycanda milli məsələyə dair qurultayda qeyd olunan məsələlərin 1/10-i yerinə yetirilməyib. Makinaçı məqaləni yazanda «onda biri» əvəzinə səhvən yüzdə bir yazmışdı. Məqalə o cür də qəzetdə dərc olunur. Elə həmin gün Xanbudaqov Kirova səhv barədə məlumat verir. Lakin Kirov məsələni görünür qəsdən XIII Ümumbakı partiya konfransına çıxarır.

1924-cü il 26 aprel - 4 may tarixində keçirilən AK(b)P XIII Ümumbakı konfransı milli məsələni çox ciddi müzakirə edir.*

Ə. Xanbudaqov, Mirbəşir Qasımov, H. Cəbiyev və b. kimi milli ruhlu kommunistlərin üzərinə əsl hücuma keçilir. Ə. Xanbudaqov və onun tərəfdarlarına qarşı hazırlanmış ssenarinin aparıcıları əsasən azərbaycanlı kommunistlər oldu. Pleşakovun sədrliyi ilə Konfransın 2 may 1924-cü il tarixli iclası xüsusilə milli məsələyə həsr olundu. Konfransda R. Axundov çıxışında qeyd edir: «Cəbiyev, siz ağzınız köpüklənərək qışqırırsınız ki, qurtarın cavanları şovinizmdən. Hansı şovinizmdən? Kim yaradıb bu şovinizmi? Cəbiyev kimiləri və ona bənzərlər.» (147, s.52).

Həmçinin R. Axundov Ə. Xanbudaqovun üzərinə hücuma keçir: «Siz yoldaş Xanbudaqov və sizin kimi bir neçələri, o cümlədən M. B. Qasımov kimiləri sizin şüurunuzu, fikirlərinizi müdafiə edirlər. Yoldaş Mirbəşir qalsın, o bizim üçün təhlükəli deyildir, o sabah üçün lazımdır. Biz onu yenə də Azərbaycan MK dəmir yol işinə yollayarıq. Beləliklə, biz Qasımovu xilas edə bilərik. Çünki onun daxili hissiyatı var. Lakin qorxulu Xanbudaqovdur. Çünki o, canı ilə, kökü ilə fəhlə təbəqəsindən deyil (147, s.53).

---

*Qeyd: 1926-30-cu illərdə Ə. Xanbudaqov Azərbaycan Kənd Təsərrüfatı bankının sədri, sonralar isə ZSFSR xalq komissarlığında məsul işlərdə çalışır. Onun axırıncı vəzifəsi Azərbaycan İstehlak cəmiyyəti ittifaqı idarə heyətinin sədr müavini olur (146, s.69).

downloaded from KitabYurdu.az

XIII Ümumbakı partiya konfransında fikir ayrılığına gətirib çıxaran əsas məsələ Xanbudaqov və onun tərəfdarlarının türkləşdirmə, əlifba siyasəti, kadr siyasəti və s. məsələlər idi.

Azərbaycanda hazırlıqlı türk kadrlarının işlə təmin olunması çox çətin idi. Azərbaycan Cümhuriyyətinin kadrlarından istifadə etməkdən söhbət gedəndə Ə. Qarayev cavab verirdi ki, biz bu ikinci dərəcəli ziyalılardan geniş istifadə edə bilmərik. Çünki onların tərkibi 10-15% keçmiş pristavlardan, nəzarətçilərdən, cəza polis rəislərindən, tərcüməçilərdən, müstəntiqlərdən, xalq məhkəmələri katiblərindən, bir sözlə, keçmişləri ləkəli olan adamlardan ibarətdir. Bunları biz idarələrdə qulluq etməyə buraxa bilmərik. Onların içərisində türkcə əla yazıb oxuyan, dili yaxşı bilən ünsürlər var. Lakin onların biliyindən bizim fəhlə kütləsinin ürəyi bulanır.

Milli məsələ ətrafında ixtilaflar respublika partiya təşkilatının VI qurultayında (5-9 may 1924) kəskin xarakter aldı. Xanbudaqova qarşı hücum gücləndi. Kadr siyasəti, türkləşdirmə, Azərbaycan dili və s. yenə də məsələnin əsasını təşkil edirdi.

M. Ə. Rəsulzadə «Çağdaş Azərbaycan tarixi» əsərində milli məsələ ilə əlaqədar yaranmış vəziyyəti çox düzgün qiymətləndirirdi: «...Kommunizmin əsas əqidələri ilə razılaşmayanlara və partiya intizamına riayət etməyənlərə «uklonist», «sapıntçı» adı verilirdi. 1924-cü ildə Ə. Xanbudaqov Azərbaycan «sapıntçılarına» başçılıq etdi və bu cərəyanın istəklərini bu şəkildə formalaşdırdı:

1. Bundan sonra Moskva Azərbaycanın daxili işlərinə qarışmayacaq.
2. Yerli kommunistləri sadəcə yuxarıdan təqib olunan katiblərlə rəhbərlərin idarəsində və yalnız onların müşavirləri rolunda görmək fikri və adətindən vaz keçiləcək.
3. Azərbaycan milləti öz-özünü idarə etmək çağına çatmış ikən, moskvalı idarəçilər, yerlilərin müstəqil olaraq çalışmalarına əngəl olur və bu çalışmaya «yerli millətçilik» damğası vurur. Buna qəti olaraq son qoyulacaq.
4. İşçi birlikləri, kooperativləri və digər dövlət müəssisələri, sözdə deyil gerçəkdən türkləşdiriləcək.
5. Azərbaycanı Rusiyadan gətirilmiş köçkünlərlə məskun etmək istəyən sovet hakimiyyətinin məskunlaşdırma siyasətinə son qoyulacaq.
6. Cənubi Qafqaz respublikalarında milli mədəniyyətlərin inkişafını saxlamaq üçün Cənubi Qafqaz Sovet Sosialist Respublikaları Federasiyasının təşkilati əsası işdə qanunu dəyişəcək (həmin tarixdə adı çəkilən federasiya var idi. Bu federasiya sonradan dağıldı) (99, s.95).

VI qurultayda Xanbudaqova qarşı Mirzoyan, Kirov və b. çıxış edib, onun türkləşmə, milliləşmə siyasətinin əleyhinə çıxdılar. Arxiv materialları içərisində «Xanbudaqovçuluq» adlı sənəddə K. Nikbinin imzası ilə yazılmış işdə Xanbudaqov bir millətçi kimi verilib. O, Xanbudaqovun hazırladığı tezisləri, «Milli məsələyə dair» məqaləsini XIII partiya konfransı və Azərbaycan K(b)P-nın

downloaded from KitabYurdu.az

VI qurultayının gedişindəki məsələləri «Xanbudaqovçuluq» adlı sənəddə təhlil edir və bütün bu hadisələri millətçilik kimi qiymətləndirir (13, f.456, s.10, iş 141, s.1-8).

Xanbudaqov türk dilini Azərbaycanda yaşayan bütün millətlərin öyrənməsini vacib sayırdı, türk dilini öyrənməyənləri vəzifədən, istehsalatdan uzaqlaşdırmaq lazımdır deyirdi. Bu qətiyyət isə başqa millətlərdən olan rəhbər işçiləri qane etmirdi və onlar müqavimət göstərirdilər. Kirov VI qurultayda öz məruzəsində Xanbudaqovun milli məsələ ilə əlaqədar tərtib etdiyi tezislərə istehza ilə yanaşır, «türk fəhləsinin işə qəbulunu yüngülləşdirmək» bəndini müzakirəyə qoyaraq deyir: Bax mən rusam, oxuyuram, yazıram. Mən nə edim? Xanbudaqov səhvdir. Axı bunun millətçiliyə nə dəxli var? (13, f. 1, s.74, iş 8, s.51).

Xanbudaqov azərbaycanlı fəhlələrin işlə təmin edilməsi üçün hər cür tədbirlərə əl atırdı. O, Azərbaycana qonşu respublikalardan gətirilən, hansısa tikinti üçün işləyən işçi qüvvəsinin əleyhinə idi. Partiyanın VI qurultayındakı çıxışında bu məsələyə toxunaraq qeyd edirdi ki, Zaqafqaziya ölkə komitəsinin iclasında Orconikidzeyə dedim: yoldaş Eliavi dəmiryolunun inşasına Tiflisdən 15 dəmiryol gözətçisi və 32 başqa işçilər göndərib. Qeyd etdim ki, bizim özümüzdə də işsizlər çoxdu. Onları buradan geri çağırmaq lazımdır. Buna yerli fəhlələr öz etirazlarını bildirirlər (13,  f.l, s.74, iş 8, s.257).

Azərbaycan dilinin öyrənilməsinin vacibliyi həmişə milli məsələnin ana xəttini təşkil edirdi. Sovetləşmənin əvvəlində B. Talıblı, N. Nərimanov və başqa vətənpərvərlər çıxış edirdilərsə, sonralar bu ideyanı Ə. Xanbudaqov davam etdirirdi. Çox təbiidir ki, bu da qeyri millətlərdən olan vəzifəli şəxslərlə fikir ayrılığına səbəb olurdu. Acınacaqlı hal idi ki, milli məsələdə öz səhv nöqteyi nəzəri ilə hələ əvvəldən tanınmış Ə. Qarayev, M. D. Hüseynov və başqalarının çıxışı VI qurultayda ixtilafa gətirib çıxartdı.

Ə. Qarayev çıxışında Ə. Xanbudaqovu şovinistlikdə günahlandırır, bütün günahların L. Mirzoyanda deyil, Ə. Xanbudaqovda olduğunu isbat etməyə çalışırdı: «Yoldaş Xanbudaqov, əgər siz burada Müsavatçı rolunu oynamaq istəyirsinizsə ən qatı şovinistsiz, ayrılın bizdən. O deyir, türk fəhlələrini irəli çəkmirik. Mən başa düşmürəm, o görmür, ya kardır, ya da sarsaqdır. Burada Əmənulla Əzizov, Muxtar Fətəli və b. çıxış etdilər, hansılar ki, marksist fəhlələrdir. Xanbudaqov Zaqafqaziya ölkə komitəsinin plenumunda çıxış edirdi ki, əgər rus fəhləsi Azərbaycanda yaşayırsa, o mütləq türk dilini öyrənməlidir. O vaxt M. Ə. Rəsulzadə hətta, məsələni belə qoymurdu. Hətta quduz menşevik Noy Jordaniya Gürcüstanı milliləşdirəndə belə məsələ qoymamışdı. Yalnız Xanbudaqov belə məsələ qoyur (13, f.l, s.74, iş 8, s.302).

Ə. Qarayev çıxışının sonunda qeyd edirdi ki, «mən əminəm ki, partiyadaxili xəstəliyə dair keçirilən Azərbaycan qurultayı Bakı təşkilatı ilə birlikdə bir nəticə qəbul edib, bu məsələnin qəti həllinə qərar çıxaracaqlar. Əgər

downloaded from KitabYurdu.az

Xanbudaqov bundan sonra bu işə qarşı çıxsa onu nəinki biz işdən çıxarar, hətta başını bədənindən ayırarıq» (13, f.1, s.74, iş 8, s.303).

Ə. Xanbudaqovu millətçilikdə, şovinizmdə günahlandırırdılar. O, bütün bunlara VI qurultaydakı çıxışında cavab verirdi ki, «Azərbaycanda milli məsələ olub, indi də var. Ancaq heç bir zaman onun indiki kimi (XIII Ümumbakı partiya konfransını və VI qurultayı nəzərdə tuturdu - R.B.) rəngi yox idi. Xanbudaqov qeyd edirdi ki, mənim tərəfimdən heç zaman rus, fars və b. millətlər haqda məsələ qoyulmayıb, sadəcə türkləşmə haqqında olub. Türkləşmə Azərbaycanda tam aparılmayıb. O, fakt gətirir: «Mədən ittifaqı və BK qərar qəbul ediblər. Mən oxuyum görün, orada türklərə necə münasibət var: «Aşağıdakı əsas qrupu təşkil etmək: Təklif olunsun Nikitinə, Ağaverdiyevə, Qutinə, idarə heyətinə aşağıdakı qrup əsasında: Nikitin, Ağaverdiyev, Qutin, Yaroslavski, Aparin, Leyman, İvanov və b. bir rus yoldaş. Qərarda dərhal gözə çarpır. Bəs hanı türk fəhlələri? Niyə onlar cəlb olunmur?» (13, f.l, s.74, iş 8, s.256).

Xanbudaqov öz çıxışında türk dilinə qarşı ögey münasibətə toxunaraq göstərirdi ki, 3 dekret verilməsinə baxmayaraq, indiyənə kimi, ancaq bunlar kağız üzərində qalıb, heç bir iş görülməyib. Türk dili istifadə olunmur, öyrənilmir. Həmçinin Xanbudaqov kitablar haqqında qeyd edirdi ki, bizim ədəbiyyat çox yoxsuldur. Bakı nəşriyyatı minlərlə kitab satır, belə etmək olar ki, türk nəşriyyatına müəyyən məbləğdə pul ayrılsın, kitablar türk dilinə tərcümə olunsun. Lazımi kitablar olsun. Beləliklə də kitabxanalarımız zənginləşsin. Bundan başqa Xanbudaqov Azərbaycanın ucqar rayonları ilə əlaqə saxlayır, onların geriliyi, savadsızlığı onu daim narahat edir və bu barədə daim ciddi məsələ qaldırırdı. Məsələn, Lənkəranda 230.000 əhali yaşadığı halda, 45 yoxsul məktəb vardı. «Tədris işlərinə fikir verilmir. Bəs nə üçün bu haqda danışmırsınız? Siz yalnız mərkəzi götürürsünüz». Həmçinin o çıxış edən yoldaşların yerli şovinizmi tənqid etməsinin əleyhinə çıxır və göstərirdi ki, «Diqqətin 9/10-nu rus şovinizminə yetirmək lazımdır. Yerli şovinizm o qədər əhəmiyyət kəsb etmir» (13, f.l, s.74, iş 8, s.257-258).

Ə. Xanbudaqov qonşu Gürcüstanla müqayisədə göstərirdi ki, «şəhər icra hakimiyyətində 36 nəfərdən 27-si gürcüdür. Bundan başqa o göstərirdi ki, Tiflis sovetində 43% gürcü, 17% erməni, 27% rus və 2% yəhudi. Biz bunu heç vaxt deyə bilmərik ki, hamısı türk olsun. Bu yalandı, hansı ki, siz yayırsınız» (13, f.l, s.74, iş 8, s.258).

VI qurultayda L. Mirzoyan Ə. Xanbudaqovun haqlı narazılığına və tələblərinə qarşı çıxır, öz mənfur niyyətlərini ört-basdır etməyə çalışır: «Xanbudaqov deyir ki, qəzalar inciyir, onların hər şeyini əllərindən alırıq. Lakin Xanbudaqov bunu deməyə də bilər. O bunu deməklə qərəzçilik toxumu səpir, fəhlə sinfi ilə Azərbaycan kəndliləri arasında narazılıq yaradır» (13, f.l, s.74, iş 8, s.285)

Təbiidir ki, Ə. Xanbudaqova xalq rəğbət bəsləyirdi: Həmişə o, xalqın içərisindəydi. Onu yerlərdə də çox hörmətlə qarşılayırdılar. Bütün fikirlərinə

downloaded from KitabYurdu.az

tərəfdar çıxırdılar. Lakin bu onu istəməyənlərə xoş gəlmirdi. Belə söhbət yayılmışdı ki, Azərbaycanda Xanbudaqovun başçılıq etdiyi millətçi qrup fəaliyyət göstərir. Xanbudaqov isə bunu VI qurultayda qəti təkzib edib deyirdi: «Burada mənim əleyhimə çıxış edənlərin bir çoxunu oğurluq üstündə işdən çıxarmışam. Nə üçün mənim yanıma gələnləri təmayülçülər adlandırırlar.

Əgər rus yoldaşlar kiminsə yanına yığılırsa, onları kef yoldaşı adlandırmaq lazımdır» (13, f.l, s.74, iş 8, s.63).

Partiyada yaranmış ixtilaflar, daxili intriqa nə qədər ört-basdır edilsə, xalqdan gizlədilsə də, yenə də geniş kütləyə gedib çatırdı. İstər-istəməz hamı qurultaydakı, konfrans, plenumlardakı çəkişmələrlə maraqlanırdı. VI qurultayda L. Mirzoyan kinayə ilə bu məsələyə toxunurdu: «İndi kəndin və qəzanın harasına gedirsənsə, hər yerdə söhbət yalnız Ə. Xanbudaqovdan gedir. Afərin Xanbudaqov, vəssalam. Bu kimin nəyinə lazımdır, kimdir Xanbudaqovu tərifləyənlər? dükanbazlar, alverçilər, dəllallar. Bunlar bizim sinfi düşmənlərimizdir. Belə həqiqət var, deyərlər düşmən səni tərifləyirsə deməli sən heç nəyə layiq deyilsən. Nə vaxta qədər ki, burjuaziya, dükanbazlar, daim Xanbudaqovu tərifləyirlər, onda Xanbudaqova demək lazımdır ki, «Yoldaş Xanbudaqov sizin mövqeyiniz səhvdir» (13, f.l, s.74, iş 8, s.285).

Nərimanov, Xanbudaqov kimi azərbaycanlı kommunistlər çox təəssüf ki, bir-birlərini vaxtında başa düşmədilər, bir-birlərinə vaxtında arxalanmadılar. Sovetləşmənin əvvəllərinə nəzər salsaq, o illərdə N. Nərimanov köməksiz idi. Onu nə yolla olur olsun təkləməyə çalışırdılar. Müəyyən mənada buna nail də olunurdu. Vaxtilə N. Nərimanovun üzünə ağ olanlar sonralar vaxt gələcəkdir ki, öz səhvlərini başa düşəcəkdilər, Nərimanov kimi tək qalmaq, unudulmaq onların da qismətinə düşəcəkdir. M. Ə. Rəsulzadə yazırdı: «Azərbaycanın sovetləşdirildiyi ilk gündən başlayaraq müsavatçılıq və pantürkizmə qarşı amansız mübarizə aparan Ruhulla Axundov «pantürkizmin zəhərli bir nümayəndəsi və «müsavat» partiyasının zavallı bir agenti kimi günahlandırıldı. Sovet dərsliklərinə panturanist və panislamist fikirlərini soxuşduran «Türkiyə agentləri»ni ciddi-cəhdlə üzə çıxarmağı özü üçün böyük bir hünər sayan Əliheydər Qarayev «Müsavat» partiyası ilə beynəlxalq faşizmin «soysuz bir uşağı» kimi ifşa edildi. Milli Azərbaycan hökumətinə qarşı konspirasiyası ilə məşhur olan Azərbaycan İnqilab Komitəsinin keçmiş üzvü, 1920-ci ildə Gəncə üsyanının yatırılması tapşırılmış baş komisar Həmid Sultanov inqilabi məhkəmənin qərarı ilə Azərbaycanı Sovetlər birliyindən ayırmaq istəyən silahlı üsyan qüvvələrinin başçısı olduğu üçün ölüm cəzasına məhkum edildi: eyni zamanda o yabançı bir dövlətə casusluq etməkdə də günahlandırıldı. Onunla birlikdə «sapıntçı» kommunistlərin bir çoxu da cəzalandırıldılar» (99, s.101-102).

N. Nərimanov «Ucqarlarda inqilabımızın tarixinə dair» İ. V. Stalinə məktubunda Xanbudaqovu fırıldaqçı adlandırır, onun apardığı mübarizəni təhlil edərək yazırdı: «Bu və başqa nitqlərində artıq yoxlanılmış mənbələrdən görünür ki, Mirzoyanın son vaxtlar vəzifədən atdığı agent qohumlarının mənafeyini müdafiə

downloaded from KitabYurdu.az

etmək məqsədilə Xanbudaqov birdən-birə milli məsələnin belə bir qoyuluşunu irəli sürdü: xristian və yəhudiləri qovmaq və onların yerinə müsəlman fəhlələri qoymaq zəruridir. O, AKP MK katibi olanda deyirdi ki, Azərbaycanda milli məsələ üzrə 12-ci qurultay tərəfindən qoyulan işin yüzdə biri həyata keçirilməyib. Və maraqlı burasıdır ki, onun qohumları və agentləri işdən qovulmağa başlayanda o, həmin andan bütün bunlar haqqında kəskin danışmağa və məsələ qaldırmağa başlayır. O, nəinki bu barədə yazır, hətta rayonunda məsul türk işçiləri və fəhlələri arasında gizli iş aparır. Qəzalara göndərilmiş məsul işçilər AKP MK katibi Ə. Xanbudaqovun göstərişləri üzrə fəaliyyət göstərirlər; onlar yerli işçilərə deyirlər: biz mərkəzdə birləşmişik, Mirzoyan və Kirovu yıxmalıyıq və i.a. Yerli işçilərin bir hissəsi razı olur, digər hissəsi yox. Və bu axırıncı hissə gizli iş aparanların adlarını konfransda açıb bildirir. Və bu işə kim cəlb edildi. Xanbudaqov, Cəbiyev, M. Quliyev, Rəhim Hüseynov, Cahangir Nağıyev (eserlər) M. D. Hüseynov (müsavatçı) və bir də Ağayev qardaşları qrupu, bunlar çoxdan fırıldaqçılar kimi məlumdur, lakin onlar hər yerdə mənə qarşı çıxış etdikləri üçün Mirzoyan tərəfindən partiyada saxlanılmışdılar. Bu o adamlardır ki, onlar haqqında konfransda və partiya qurultayında açıq danışılmışdır. Lakin bu gizli işin qalan iştirakçıları (Qarayev, Musabəyov, Dadaş və b.) təhlükəni hiss edib, məharətlə vəziyyətdən çıxmış və beləliklə, hələlik Mirzoyanın cəzasından qaça bilmişlər» (90, s.58).

N. Nərimanov ilə Xanbudaqov arasında ziddiyyətləri təbiidir ki, yaradanlar var idi. Azərbaycan xalqının milli ruhda olan kommunistlərini mütləq bir-birindən uzaqlaşdırmaq mirzoyanların, stalinlərin düşünülmüş planı idi. Sonrakı peşmançılıq fayda verməz deyərlər. Belə sonradan peşman olanlardan biri də Ə. Xanbudaqov idi. (hansı ki, o vaxtilə Nərimanova deyil, Mirzoyana arxalanır, qurultayda təəssüflə etiraf etdiyi kimi Mirzoyanı özünə «ata» sayırdı - R.B.). Xanbudaqov kimi Mirzoyanın hiyləsinə aldanan, sonradan bunu başa düşənlər çox idi. H. Cəbiyevin L. Mirzoyana 1926-cı ildə yazdığı məktubu buna misaldır: «...Açıq danışdığımız üçün heç birimiz inciməməliyik. Sən Ruhullanı aldatdın. Vaxtilə sən məni də aldatmışdın. Ruhulla sənə etibar edib inanmışdı. O, möhkəm əqidəli inqilabçıdır. Biz heç kimə imkan verməməliyik ki, bizim ümumi işimizi ləkələsin, bunu ancaq sən edə bilərdin. 1920-22-ci illərdə vaxtilə sənə yaxın olan adamları özündən uzaqlaşdırdın (Napaleon kimi) …Sənin qeyri səmimi olan mövqeyin 1924-25-ci illərdə məni fiziki cəhətdən sındırdı və məni xəstəliyə düçar etdi» (13, f.l, s.122, iş 152, s.75).

Ə. Xanbudaqov artıq başa düşmüşdü ki, Azərbaycanı düşdüyü bu çətin vəziyyətdən yalnız N. Nərimanov xilas edə bilər və Nərimanov kimi vətənpərvər şəxslərin ətrafında birləşmək lazımdır. Ancaq N. Nərimanov ona inanmırdı. Bunu onun vaxtı ilə Stalinə yazdığı məktubdan da aydın görmək olar. O, Stalinə məktubuna əlavədə yazırdı: «yeri gəlmişkən həmin bu Xanbudaqov son vaxtlar dəfələrlə başqa yoldaşların vasitəsilə mənə çatdırdı ki, guya mən həddən artıq açıq

downloaded from KitabYurdu.az

fəaliyyət göstərirəm və onların (eserlərin) uğrunda mübarizə apardıqları işi korlayıram. Mən cavab verdim: Mənim partiyadan gizli heç bir sirrim yoxdu və gələcəkdə də belə hərəkət edəcəyəm. Keçən yaz Xanbudaqov Moskvada olarkən, S. M. Əfəndiyev vasitəsilə məndən xahiş etmişdir ki, hansısa bir söhbət üçün onu qəbul edim. Mən Əfəndiyevə rədd cavabı verib dedim: O, fırıldaqçıdır, mənim onunla heç bir işim ola bilməz. Üçüncü dəfə S. M. Əfəndiyev məni razı sala bildi və dedi: Ona qulaq asmaq lazımdır, bəlkə öz səhvlərindən peşman olub, mən yoldaş Əfəndiyevə güzəştə getdim. Onu qəbul etməyə razılıq verdim. Əfəndiyevin yanındaca onu qəbul etdim. O, hələ oturmamış mən onu bu sözlərlə qabaqladım. Mənim partiyadan gizli sirrim yoxdu və sənin bütün bunları Serqo Orconikidzeyə çatdıracağını bilməyimə baxmayaraq, mən açıq danışmağa öyrənmişəm. O, bu sözdən incidi və heç bir şey demədən çıxıb getdi» (90, s.57).

Belə vəziyyət, bir-birlərinə bu cür inamsızlıq sonralar onların hər ikisi üçün çox faciəli oldu, həm də bu inamsızlığı yaradırdılar da.

Bununla belə Ə. Xanbudaqov öz mübarizəsini davam etdirirdi. Bir neçə il keçdi. 20-ci illərin axırlarında Xanbudaqov 1923-cü ildəkindən daha çətin mübarizəyə, stalinizmə, totalitar dövlət quruluşuna, ölkədə baş alıb gedən haqsızlıqlara və əyintilərə qarşı kəskin mübarizəyə girişməli oldu.

1927-ci ildə İosif Stalini açıq-açığına tənqid etmək, bu azmış kimi, hələ üstəlik də Stalinin başçılıq etdiyi Mərkəzi Komitənin həm siyasi, həm də təşkilati xəttini və işini yarıtmaz qiymətləndirmək çox cəsarətli və həm də riskli bir iş idi. Ə. Xanbudaqov bununla özünü təqiblərə məruz qoydu. Çəkinməyərək, Stalinin «atəşi sola» cəmləşdirmək şüarının əsas məqsədini dərindən duymuş, onun ölkənin həm xarici, həm də daxili siyasətinə, partiyanın özünə, xalqa böyük ziyan vuracağını görmüş və məhz bunlara görə də Stalini haqlı olaraq tənqid etmişdi. Doğrudur, bu mübarizədə əksəriyyət onu müdafiə etmədi. Ancaq bu böyük əksəriyyət az sonra Xanbudaqovun haqlı olduğunu öz acı həyat təcrübələrində, həyatlarında gördülər.

Ə. Xanbudaqov isə öz mübarizəsini təklikdə davam etdirirdi. Ona «trotskiçi» damğası vurdular, sonralar müxtəlif vəzifələrdə işləyəndə də, Azərittifaqın sədr müavini vəzifəsində çalışanda da daim nəzarət altında oldu. Ancaq haradasa bilirdi ki, repressiyalar ondan da yan keçməyəcəkdir (Xanbudaqov SSRİ Ali məhkəməsi hərbi kollegiyasının 1938-ci il 12 oktyabr tarixli hökmü ilə və 23 iyul tarixli qərarı ilə güllələnməyə məhkum edilir. 1958-ci ildə iş cinayət tərkibli olmadığından ona bəraət verilir.) (13, f.12, s.l, iş 523, s.1). Bütün bunlara baxmayaraq, çox vaxt öz mübarizəsində tək qalsa da, apardığı mübarizə təsirsiz qalmadı, Ə. Xanbudaqovun çıxışları Azərbaycan kommunistləri arasında müəyyən bir hərəkata səbəb oldu. Bu hərəkat Moskvanın zorakı tədbirləri ilə nəticələndi. Xanbudaqov repressiyanın qurbanı olduqdan sonra Azərbaycanda partiya rəhbərliyinə Moskvadan təyin olunan yabançı adamlar göndərildilər. Onlar partiyanı Ə. Xanbudaqov tərəfdarlarından təmizlədilər (99, s.95).

downloaded from KitabYurdu.az

M. Ə. Rəsulzadə yazırdı: «Siyasət adamlarından sonra ədəbiyyata, incəsənətə, elmə mənsub olan bütün görkəmli şəxsiyyətləri eyni şiddət və töhmətlərlə təmizlədilər... Yeni sovet konstitusiyasının qəbulundan və rus hərflərinin tətbiqindən sonra Azərbaycan bolşevik terrorunun yeni bir mərhələsi başlandı. Məmləkətin həyatında az çox rolu olan adamlar aradan götürüldü. Sovet «Azərbaycanının yubileyi qeyd olunduğu gün, məsələn, «tarixi günün qəhrəmanı» kimi öyüləcək yerli bir ad tapılmadı. İlk Azərbaycan İnqilab Komitəsinin sədri doktor N. Nərimanovun adı belə çoxdan ölüb getməsinə baxmayaraq, «milli sapıntçı xainlərin hamisi kimi» ifşa edildi (99, s.102).

Sənədlərin araşdırılması belə fikir söyləməyə əsas verir ki, artıq 20-ci illərin ortalarından etibarən bolşevik üsul-idarəsindən nəinki təkcə xalq, hətta bu rejimin qurulmasında yaxından iştirak edən, vaxtilə sosializm ideyalarına son dərəcə aludə olmuş, illiuziyalara qapılmış çox rəhbər azərbaycanlı kommunistlər də narazı qalaraq, aldandıqlarını başa düşmüşdülər. Bunu N. Nərimanovun silahdaşlarından Əhməd Əhmədovun*, B. Talıblının, M. Qədirlinin, T. Şahbazinin və b. arxivdə toplanmış yazılı ifadə və məktublarından aydın görmək olar. Onlar, N. Nərimanovun ölümündən az qabaq siyasi baxışlarının dəyişməsi haqqında çox maraqlı fikirlər söyləyirlər. Məsələn, Ə. Əhmədov N. Nərimanovun 1925-ci ilin martında ölümündən az qabaq Bakıya gəlişi haqqında yazır: «Həmişə olduğu kimi təmayülçü rəhbərlər Qədirli, Şahbazi, Abdulbaği Məmmədzadə, Əhmədov, Mahmudbəyov, Muxtar Hacıyev və b. onun başına yığışıb hazırki siyasi vəziyyət və gələcək planlar haqqında söhbət aparırlar. Belə qəti fikrə gəlirlər ki, Moskvanın Azərbaycanda yeritdiyi siyasət Azərbaycan xalqının mənafeyinə ziddir. Onlar hesab edirdi ki, Rusiyanın siyasəti nəinki Azərbaycanda, bütün Şərqdə iflasa uğrayır. Əhmədov deyirdi ki, indi bizə heç kim inanmır, elə başa düşürlər ki, «qırmızı imperializm» siyasəti yeridirik. N. Nərimanov və Qədirlinin fikrincə vəziyyətdən çıxmaq üçün hakimiyyət «təmayülçü»lərin əlinə keçməlidir. Ancaq bu çox çətindir. Çünki, mərkəz ancaq vahid böyük rus siyasəti tutur. Onlar bizim hakimiyyətə gəlməyimizi heç eşitmək istəmirlər. N. Nərimanovun təkcə ümidi ona idi ki, Mərkəzdə əgər xarici-daxili çətinliklər əmələ gələrsə, böhran yaranarsa,

---

*Qeyd: Azərbaycan Respublikası Mərkəzi Dövlət Siyasi Par. və İct. Hər. arxivinin sənədlərinə əsasən 1900-cü ildə anadan olmuş Əhmədov Əhməd Baxış oğlu haqqında aşağıdakılar müəyyən edildi: 1918-19-cu ildə mətbəədə korrektor; 1920-21-ci il hərbi məktəbdə hərbi komissarın köməkçisi; 1921-22-ci ildə 26-lar adına 1-ci atıcı alayı hərbi komissarı; 1922-23-cü ildə Qaubitsa (top) batereyası; 1923-24-cü ildə Azərbaycan diviziyası; 1924-25-ci ildə AKb/P MK-sı təlimatçı; 1925-27-ci ildə Partiya tarixi institutunda elmi işçi; Ə. B. Əhmədov 1916-17-ci ildə sosioloq-inqilabçı (eser), 1917-19-cu illər sol sosial inq., 1919-cu ildən əvvəl Hümmət, sonra isə Kommunist partiyasının üzvü oldu. 1927-ci ildə Ə. B. Əhmədov Az.BSİ (AzQPU) tərəfindən həbs edilməsi ilə əlaqədar işdən çıxarılır və onun elmi işinin nəşri dayandırılır. AK/b/P təftiş komissiyası Par. Kom-sının 1928-ci il 21 mart tarixli iclasının qərarına əsasən həbsdə olan Əhmədov Əhməd Baxış oğlu 1925-ci ildən qeyri-leqal Müsavat Partiyasının xeyrinə fəaliyyət göstərdiyi, Balaxanı kəndində müsavat özəyi yaratdığına görə AK/b/P sıralarından xaric edildi. 1928-ci ildə güllələnmişdi. (13, f.l, s.122, iş 153,v.3-7).

downloaded from KitabYurdu.az

yalnız bu yolla əsl hakimiyyəti biz öz əlimizə ala bilərik. Əhmədovun dediyinə görə, Nərimanov özü etiraf edirdi ki, bu millətlər əldə olunmuş nailiyyətlərə, diktaturanın yaratdığı çətin rejimdən qorunmaq üçün, məhv olmamaq naminə, bu inkişafa çatıblar. Əhmədov qeyd edirdi ki, siz (yəni N. Nərimanov) hesab edirsiniz ki, SSRİ-də heç bir sosializmdən söhbət gedə bilməz. Ona görə ki, Rusiyada sosializm qurmaq üçün heç bir şərait yaranmayıb. Siz dünya inqilabı ideyasına artıq inanmırsınız. Onda daha sizin kommunizmdən nə qalır? Əgər siz özünüzü kommunist hesab edirsinizsə, onda siz özünüz-özünüzü aldadırsınız.» (13, f.12, s.l, iş 152, s.29-30).

Əhmədov onlara sübut etməyə çalışırdı ki, «mənim Rusiyadakı kommunizm ideyalarına inamım itib. Əvvəl-axır bu quruluş dağılacaqdır. Marksizmlə leninizm arasında ümumi bir şey yoxdur. Rusiyanın təcrübəsindən məlum oldu ki, sosializmə keçid birinci növbədə möhkəm iqtisadi-mədəni bazanın möhkəmliyində mümkün ola bilər. Amma Rusiyada bu hələ görsənmir. İkinci, sosializmə demokratiya yolu ilə gəlmək olar. Diktatura və vətəndaş müharibəsi yolu ilə yox. Biz gördüyümüz diktatura deyil, tarixdə analoqu olmayan bir irticadır.» (13, f.12, s.l, iş 152, s.33).

Əhmədovun yazdığına görə onlar bir çox vacib məsələlər ətrafında - bolşevik rejiminin hansı tərəfdən dağılmasının mümkünlüyü, diktatura rejimindən demokratiya rejiminə keçməyin yolları, kominternin rolu və s. məsələlər barəsində diskussiyalar aparmışlar.

N. Nərimanov Moskvaya qayıdandan az sonra onun acı və müəmmalı ölüm xəbəri bütün vətənpərvər azərbaycanlıları, o cümlədən onun silahdaşlarını çox sarsıtdı, onlara böyük zərbə vurdu, beləliklə də «təmayülçülərin» bazası dağıldı (N. Nərimanovun bu fikirlərini mərkəz artıq hiss etmişdi, ona görə də Nərimanov kimi bir rəhbərin həyatda qalması onlara sərf etmirdi - R.B.).

«Təmayülçü» hakimiyyətin tərkibi haqqında Ə. Əhmədov bildirirdi ki, xarici və daxili çətinliklər yarandıqda, Moskva əgər Azərbaycanın taleyini, hakimiyyətini təmayülçülərə verərsə, onlar aşağıdakı tərkibdə hakimiyyəti təşkil etmək, «İctimai-etimad» adlı hökumət qurmaq istəyirdilər. Qədirli, T. Şahbazi, Kazımov, Teymur Əliyev, Talıblı, D. Bünyadzadə, Abdulbaqi Məmmədzadə, Ə. Əhmədov, Cəmil Vəzirov, Əyyub və Mahmud Xanbudaqovlar və b. (N. Nərimanovun ölümündən sonra)...

Xalq Komissarlar Sovetinin sədri M. Qədirli, partiya aparatına gəldikdə isə AK(b)P MK-nın baş katibi S. M. Əfəndiyev, AK(b)P-nın katibi Həbib Cəbiyev (əgər o tam təmayülçü platformasını qəbul etsə), əks təqdirdə AKP BK katibi D. Bünyadzadə ya da T. Şahbazi olmalı idi. (O rəhbər işçilər ki, özlərinə ləkə salmamışdılar, təmayülçülərə qarşı mübarizə aparmamışdılar - R.B). Vacib vəzifələri təmayülçülər tutmalı idilər. Milli baxışlı kommunistlərin düşmənlərini Moskvaya qovmaq nəzərdə tutulurdu. Onların planlarında sonralar Moskva ilə yeni əlaqələr yaratmaq, Zaqafqaziya Federasiyasının ləğvi, milli ordu yaratmaq və s.

downloaded from KitabYurdu.az

kimi mühüm işlər öz əksini tapmışdı. Təmayülçülərin planları demək olar ki, kortəbii idi. Hətta onlar ermənilərlə qardaşlıq münasibəti haqqında da öz planlarında qeyd edirdilər (13, f.12, s.l, iş 152, s.49-50).

N. Nərimanovun oğluna bitməmiş məktubunda yazdığı kimi: «Bəlkə də sən bu sətirləri oxuyan vaxt bolşevizm olmayacaq. Ancaq bu o demək deyil ki, bolşevizm lazım deyil. Bu ona dəlalət edəcək ki, biz onu qoruya bilməmiş, ona lazımi qiymət verməmiş, işimizə pis yanaşmışıq... Açıq demək lazımdır: biz əldə etdiyimiz hakimiyyətdən o qədər təkəbbürlü olmuşuq ki, boş işlərlə və çəkişmələrlə məşğul olaraq, əsl işi əldən buraxmışıq» (99, s.65).

Partiyadaxili ixtilafların dövlət idarəçiliyinə və quruculuğuna mənfi təsirləri çox idi. Bu sağlam rəqabətdən çox, şəxsi intriqalara, çəkişmələrə daha çox sirayət edirdi. Lakin bu quruluşun özünəməxsus müsbət dəyərləri də var idi. Obyektivlik baxımından onlara da diqqət yetirilməlidir. Ancaq bir faktla tam razılaşmaq lazımdır ki, iqtisadiyyatı zəif olan bir ölkədə yeni quruluşun müsbət nəticələrindən danışmaq çətin idi.

Azərbaycanda, milli baxışlarına və mübarizliyinə görə seçilən Böyükağa Talıblının Ruhulla Axundova yazdığı məktubda, rəhbərlikdə olan siyasi ab-hava çox aydın əks olunmuşdu. Həmin məktubun qısaca məzmunu belə idi: «…çox güman ki, mənim ilk məktubumdan narazı olmağımı anlamısan. Bir dəfə Myasnikov mənə dedi: «Nə olub sənə, niyə hay-küy salırsan? İndi ki, Nərimanov bütün Sovet İttifaqında rəhbərlik edir. Nədən narazısan?» Mən dedim: «Bəli düz buyurursunuz. Onun «rəhbərliyi» Hüseynovun Tiflisdə, Musabəyovun Azərbaycanda «rəhbərliyinə» bənzəyir. Məni narahat edən ayrı sualdır - indiki zamanda türk kommunistlərinə qeyriləri nə cür baxırlar? Heç olmasa onlardan bir nəfər hörmətlə qarşılananı varmı?...

Məhz bu laqeydliyin nəticəsində mövcud olan acınacaqlı vəziyyət mümkün olub, yerli inqilabçılar öz simalarını dəyişərək, insan ləyaqətini ləkələyən bir mövqe tutublar. Vəzifə və rəhbərlik mənbələri milli mənafelərdən uzaq olan manqurtların əlində olduğuna görə, yerli yoxsul, türk kommunistləri vəzifə əldə etmək üçün yaltaqlanıb hər cür xidmətlər göstərib «xozeynin» xoşuna gəlməyə çalışırlar.

Belə vəziyyəti görərək mən düşünürəm: heyif hədər keçən günlərdən cəhalətə sərf edilib, yerdə qalanı isə peşmançılığa. Vəzifə pillələri ilə qalxaraq, mən Qafqazda keçirilən siyasətə cavabdeh olan şəxslərin əsl qatı millətçi olduqlarının şahidiyəm. O şəxslər ki, Azərbaycanda özlərini millətpərvər kimi qələmə veriblər. Tiflisdə və İrəvanda ən qatı millətçi olduqlarını aşkar etdilər və bu yolla irəliləyirlər. Bizimkilər isə siyasətlərini onların tələbatlarına uyğunlaşdırırlar. Sərhəd komissiyalarında, ticarət komissiyalarında, maliyyə idarələrində və hamısında azərbaycanlı nümayəndələr yalnız «pərdə» rolunu oynayırlar. Bütün Zaqafqaziyada vəziyyət o yerə gəlib çıxıb ki, türk kommunistlərinin vəzifəsi yalnız

downloaded from KitabYurdu.az

hazırlanmış qanun layihələrinə və qərarlarına imza qoymaqdan ibarətdir, o da ki, ona görə ki, siyasi tələblərə uyğun olaraq «müsəlman imzası» lazımdır...

Bu günkü məktubumu onunla tamamlayıram ki, Azərbaycanda inqilabi, siyasi və ictimai tərbiyə düzgün yoldan ayrılaraq, cəsarətli qəhrəmanlar yetişdirmək əvəzinə, yaltaqlar, riyakarlar, manqurtlar və s. nalayiq kadrlar yetişdirmək yolu ilə gedir. Hörmətlə B. Talıblı. 27.01.24» (13, f.1, s.122, iş 571, s. 58.).

Türk diplomatının qısa müddətli müşahidə nəticəsi, - «...faktiki olaraq Azərbaycanın bütün siyasətinə onu qətiyyən tanımayan və onunla heç bir yaxınlığı olmayan Orconikidze rəhbərlik edir», - M. Ə. Rəsulzadənin qənaəti, - «məmləkəti, guya ki, Azərbaycanın Kommunist partiyası idarə edirdi... İmzanı nərimanovlar, əliheydərlər atırdısa da, hökmləri mikoyanlar, çorayevlər və solovyovlar yazırdı» (33, s.121).

20-ci illərdə Azərbaycanda sovet üsul-idarəsinin dövlətçilik siyasətindən nəinki rəhbərlikdə milli ruhlu kommunistlər, eyni zamanda zəhmətkeş fəhlələr arasında xüsusi ilə seçilən Bakı müxalifətçiləri də narazılığa və mübarizəyə başlamışdılar. Bakı müxalifətçilərinin sovet hökuməti və hegemon partiya olan kommunist partiyasının apardığı özbaşınalığa qarşı fəaliyyəti genişlənmişdi. Belə ki, Mərkəzdən Trotski və Zinovyevin bilavasitə rəhbərliyi ilə Zaqafqaziyada müxalifətçi mərkəz yaradılmışdı. Bu mərkəzə Gürcüstan müxalifətçilərinin başçısı Mişa Okuçava rəhbərlik edirdi. Həmin mərkəzə Bakı müxalifətçilərindən Qrişik, Məmmədlinski, Şebarşov daxil idi.

Mübarizənin kəskinləşdiyi bir vaxtda Azərbaycanda müsavatçılar, ittihatçılar, qolçomaqlar da mübarizəyə qoşuldular.

«...1924-cü ilin əvvəllərində Mirzəbəy Xanlarov və başqaları tərəfindən təşkil edilən burjua - millətçi və dini xarakter daşıyan «Azadis» partiyası da əksinqilabı iş aparırdı. Lakin 1929-cu ilin axırlarında həmin partiya onun fəal üzvlərinin həbs edilməsi yolu ilə ləğv edildi. Beləliklə, sinfi mübarizənin kəskinləşdiyi bir zamanda müsavatçılar, ittihatçılar, qolçomaqlar, ruhanilər bir sözlə, bütün əksinqilabçılar birləşib sovet hakimiyyətinə qarşı vahid cəbhə təşkil etmişdilər» (67, s.138).

Bakı müxalifətçilərinin ilk fəaliyyəti 1926-cı ilin axırları və 1927-ci ilin əvvəllərindən başlanır. Zinovyev Bakı müxalifətçilərinin başçısı Məmmədlinski ilə söhbət edərkən Bakı müxalifətçilərinə Əyyub Xanbudaqovun millətçi qrupu ilə birləşməsini ona məsləhət görmüşdü... Zinovyev Məmmədlinskiyə göstəriş vermişdi ki, plenum və qurultaydakı diskussiyaya ciddi hazırlaşsınlar və mümkün qədər rəhbər işçilərdən bir neçəsini öz tərəflərinə çəksinlər. Azərbaycan müxalifətçiləri tərəfində rəhbər işçi yox idi. Əyyub, Mahmud və Nəbi Xanbudaqovlar müxalifətçilərlə birləşərək Bakı təşkilatında, xüsusilə Bayıl-Bibiheybət rayonunda böyük fraksiyaçı iş aparmış, Bayıl - Bibiheybətdə,

downloaded from KitabYurdu.az

Balaxanıda müxalifətçi dərnəklər təşkil etmiş və diskussiya zamanı xüsusi canfəşanlıq göstərmişdilər (67, s. 111).

Bakı müxalifətçiləri Moskvadan gətirilən sovet hökuməti əleyhinə ədəbiyyatı geniş yayır, gizli yığıncaqlar keçirir, mübahisəyə hazırlaşır, partiyaya yad olan, dövlət siyasətindən narazı olan adamlardan istifadə edirdilər. 1927-ci il dekabrın 1-də AK(b)P BK-da keçirilən müşavirədə Bakıda mübahisəyə yekun vuruldu. Mübahisə noyabrın 12-dən ayın axırınadək davam etmişdi (67, s.116). AK(b)P-nin VIII qurultayında (noyabr 1927-ci il) Azərbaycan partiya təşkilatı müxalifətə qarşı güclü hücuma keçdi. Bakı müxalifətçiləri ideya və təşkilatca darmadağın edildi.

Beləliklə də, hələ 20-ci illərdə Azərbaycanın dövlətçilik siyasətində aparılan birmənalı siyasət, xalqın və bir çox azərbaycanlı rəhbər işçilərin mübarizəsinə səbəb olmasına baxmayaraq, antiazərbaycan qüvvələrin qələbəsi ilə başa çatdı. N. Nərimanov, Ə. Xanbudaqov və b. milli ruhlu, xalqını düşünən kommunistlərin aqibəti təbii idi, lakin vaxtilə onlara qarşı mirzoyanlar tərəfindən ələ alınmış R. Axundovun, Ə. Qarayevin, H. Sultanovun və b. «beynəlmiləlçi» kommunistlərin taleyi də son dərəcə acınacaqlı oldu. «Pantürkist», «panislamist», «xarici dövlətə işləyən casus» və sair kimi ağır ittihamlarla damğalanaraq ya güllələndilər, ya da «millətçi» damğası vurularaq sürgün edildilər.

## NƏTİCƏ

Azərbaycan xalqının dövlətçilik tarixində mühüm mərhələ təşkil edən XX yüzillik ictimai-siyasi məzmunu, dövlətçilik mahiyyəti və üç fərqli respublikaların mövcudluğu baxımından da əlamətdardır. Monoqrafiyanın tədqiqat obyekti üçün seçilmiş dövr birinci və ikinci Azərbaycan respublikaları (AXC və ASSR) arasında keçid mərhələsini təşkil edir. İkinci və üçüncü respublikaların keçid mərhələsi, çağdaş Azərbaycan Respublikasının beynəlxalq aləmin tam hüquqlu subyekti olduğu bir zamanda yaşanır, göstərilən iki keçid mərhələsi arasında paralellər axtarmaq mümkün olduğu qədər də təzadlı xarakter daşıyır. Müstəqil (de-fakto tanınan), sərbəst iqtisadiyyatlı, çoxpartiyalı, parlament quruluşlu, ərazi problemli, xarici təhlükə qarşısında qalan yeni yaranmış və müsəlman Şərqində ilk dəfə qurulan respublikadan birpartiyalı, ictimai mülkiyyətə əsaslanan (dövlət mülkiyyəti aparıcı olan), bəşəriyyət tarixində analoqu olmayan, vətəndaş müharibəsi, inqilabi dəyişiklikləri yaşayan yeni bir dövlətə keçidin spesifik xüsusiyyətləri, demək olar ki, bu prosesi iqtisadi-siyasi məzmunda əksinə yaşayan keçidin özünəməxsusluğundan olduqca fərqli məna kəsb etsə də, tarixi-siyasi təhlil üçün kifayət qədər paralel məqamlar vardır. Tədqiqatın məqsədi bu paralelləri aşkara çıxarmaq deyil. Məqsəd birinci keçid dövründə Azərbaycan rəhbərliyindəki mövcud problemlərə aydınlıq gətirməklə, ikinci - bu günümüzlə gələcəyimiz üçün olduqca aktual səciyyə daşıyan keçid mərhələsində dövlətçiliyimizin

downloaded from KitabYurdu.az

möhkəmlənməsi, dövlət idarəçiliyi mexanizminin kamilləşməsi və artıq yaşanmış problemlərin yenidən yaranmaması üçün tarixi təcrübi istiqaməti elmi cəhətdən əsaslandırmaqdır. Bu baxımdan 1920-1925-ci illərdə Azərbaycan rəhbərliyindəki ixtilaflardan, daxili siyasi çəkişmələrdən bəhs etmək yalnız münaqişə tərəflərini aşkara çıxarmaq, onların mövqe və motivlərini təhlil edib münasibət bildirməklə bitmir. Diqqət çəkən əsas məsələ münaqişəyə, ixtilaflara səbəb olan problemlərdir. Belə ki, bu problemlər iqtisadi, sosial, siyasi, mənəvi və s. məzmun daşımasından asılı olmayaraq, Azərbaycan cəmiyyətinin, xalqının problemləri olmuşdur və həmin məsələlər zaman etibarı ilə fərqli səciyyə daşısa da bu günümüz üçün də öz aktuallığını saxlamaqdadır. Tədqiqat işinin ümdə məqsədlərindən biri məhz bu cəhətə istiqamətlənmək olmuşdur. Problemlərin mövcudluğu, onlar ətrafında ixtilafların yaranması səbəbsiz olmadığından, ilk növbədə ixtilaf və ziddiyyətləri yaradan şəraitə, zəminə müraciət edilmişdir.

1920-ci illərin əvvəllərində bolşevik üsul-idarəsinin yaradılmasından sonra milli mənafe və yerli şəraitin nəzərə alınmaması ətrafında Azərbaycanın bolşevik rəhbərliyində gedən ixtilaf və daxili-siyasi çəkişmələr son dərəcə ziddiyyətli olan dövrün ağrılı problemlərindən idi. Bu ixtilafları yaradan şərait və doğuran səbəblər çox ciddi, labüd və o zamankı inkişafın obyektiv nəticəsi idi.

Bu dövrə aid sənədlərin araşdırılması, rəhbərlikdəki ixtilaf və çəkişmələrin elmi təhlili aşağıdakı nəticələrə gəlməyə əsas verir:

Aprel çevrilişindən sonra diktaturanın bərqərar olması, XI Ordunun özbaşınalığı, qarətçilik, hərc-mərclik, günahsız adamların güllələnməsi, ümumiyyətlə, Azərbaycanda yol verilmiş kütləvi zorakılıqlar və ictimai-siyasi həyatın gərginləşməsi yeni yaradılmış hökumətin iç üzünü tezliklə xalqa açıb göstərdi.

Keçmiş aparat işçilərinə, həmçinin azərbaycanlı kommunistlərə birmənalı mənfi münasibətin, onlara qarşı etimadsızlığın olması, Rusiyada və Avropada təhsil alan, təcrübəli işçilərin vətəni tərk etməsi və cəzalandırılması, bu və digər tədbirlərin həyata keçirilməsi nəticəsində köhnə dövlət aparatı tamamilə dağıdılmışdı.

Sovetləşmədən sonra həyata keçirilən siyasətin özbaşınalığı bolşeviklərin müsadirəçilik siyasətində və partiyanın təmizlənməsində öz əksini tapmışdı. Müsadirələr zamanı milli ləyaqətin alçaldılması, təmiz, namuslu adamlara heç bir fərq qoyulmadan partiya sıralarından xaric edilərək, gözdən salınması, bütün bu özbaşınalıqlar xalqın qəzəbinə gətirib çıxardı. 10 minlərlə insan tələfatı ilə nəticələnən müqavimət hərəkatına səbəb oldu. Bu da yaranan dövlətin bünövrəsini möhkəm silkələdi.

20-ci illərdə rəhbər dairələrdə ixtilafları yaradan başlıca səbəblər əmlak müsadirəsi, kəndə münasibət, Azərbaycan dilinə, dinə, ərazi bütövlüyünə, qolçomaq adlandırılanlara münasibət kimi məsələlər idi. Xüsusən milli məsələ rəhbərlikdə heç zaman birmənalı qarşılanmamış, daim dərin ixtilaflara gətirib

downloaded from KitabYurdu.az

çıxarmışdır. Mərkəzdən yalnız onun mənafeyini müdafiə edən kadrların respublikaya göndərilməsi, qeyri millətlərin, eləcə də daim intiqam hissi ilə yaşayan erməni kommunistlərinin yüksək vəzifə tutaraq, Bakı Komitəsində yerləşdirilməsi Mərkəzi Komitə, İnqilab Komitəsi ilə BK arasında dərin uçurumun yaranmasına qətirib çıxarmışdı. Qeyri millətlərdən olan bolşeviklərin yerli xalqın dilinə, dininə və başqa adət-ənənələrinə qarşı laqeydliyi, hörmətsizliyi, hər şeyin Rusiyadakı kimi aparılması, milli mənafe və yerli xüsusiyyətlərin nəzərə alınmaması ilə nəticələnirdi.

Hakim partiya daxilində birlik və yekdilliyin olmaması, qeyri sağlam şərait, xüsusən də rəhbər işçilər arasında qruplaşmalar və çəkişmələrin baş alıb getməsi ölkəni və əhalini çox ağır vəziyyətə salırdı. Fikir müxtəlifliyi işin xeyrinə deyil, daha da cılızlaşaraq şəxsi intriqalara çevrilmişdi.

N. Nərimanov və onun əleyhdarları arasında mübarizə elə kəskin xarakter almışdı ki, hətta V. Lenin özü işə qarışmış, «Bakı məsələsi» adlı məlum qərar və direktivlər məhz bundan sonra qəbul edilmişdi. «Azərbaycan kommunistləri arasında ixtilaflar» haqqında ayrıca məsələ müzakirə edilmişdi.

Lakin o zaman heç kim, heç nə ilə hesablaşmayan və bilavasitə Stalin və Orconikidzeyə arxalanan Bakı Komitəsinin rəhbərliyi qəbul edilən qərarlara və direktivlərə çox məsuliyyətsizliklə yanaşdı və məhəl qoymadı. Bunu görən bəzi gənc partiya üzvləri tutduqları vəzifələri itirmək qorxusundan N. Nərimanovdan uzaqlaşdılar. N. Nərimanov belələrini «alverçi kommunistlər» adlandırırdı.

N. Nərimanovun böyük səyi və təkidi ilə respublikanın xeyrinə mühüm qərarlar qəbul edilməsinə baxmayaraq, Mirzoyan-Kirov kompaniyası bu qərarların yerinə yetirilməsinə nəzarət əvəzinə maneçilik törədirdilər. A. Serebrovski Azərbaycan nefti məsələsində tam sərbəst, özü istədiyi kimi hərəkət edirdi. Çevrilişdən sonrakı hadisələr aydın göstərirdi ki, sovetlərin hakimiyyəti möhkəmləndikcə, bolşeviklərin xalqlara vəd etdikləri azadlıqlar unudulur, əsrlər boyu saxlanılan və nəsildən-nəslə ötürülən milli-mənəvi dəyərlərin üstündən xətt çəkilir, amirlik, avtoritar tədbirlər həyata keçirilirdi. Müsəlmanlığın müqəddəs ayı sayılan məhərrəmliyə, orucluğa, qurban və novruz bayramlarına, din xadimlərinə qarşı başlanan mübarizə kompaniyasında xalqın milli adət-ənənələri çox kobud şəkildə pozulurdu. Bu o qədər kəskin xarakter almışdı ki, bunu artıq rəhbərlikdə oturan qeyri millətlərin nümayəndələri belə, özləri etiraf etməli olurdular.

- Ərazi məsələsi də tədqiq olunan illərdə rəhbər dairələrdə çox ciddi mübahisələr doğuran problem olmuşdur. Mərkəz bir çox hallarda Azərbaycanın milli mənafeyi ilə hesablaşmırdı. Bu zəmində N. Nərimanovla G. Çiçerin, erməni kommunistləri arasında ciddi ixtilaflar yaranırdı. Sovet hökuməti qurulduqdan sonra Ermənistanın torpaq iddiaları, Azərbaycanın ərazi bütövlüyünə qəsd, Zəngəzur qəzasının böyük bir hissəsinin Ermənistana verilməsi ilə xalqımız üçün sonrakı faciələrin əsası qoyuldu. Beləliklə də, Ermənistanın sonrakı ərazi iddialarına şərait yaradıldı.

downloaded from KitabYurdu.az

1922-ci il martın 12-də ZSFSR-in yaradılması, bununla da Azərbaycanın formal müstəqilliyinin itirilməsi, dekabrda SSRİ-nin təşkili ilə Azərbaycanın əyalətə çevrilməsi, 1923-cü ildə Qarabağa vilayət muxtariyyətinin verilməsi, Azərbaycanın siyasi-iqtisadi müstəqilliyinin itirilməsi, Azərbaycan xalqına qarşı sonrakı bədbəxtliklərin əsasının qoyulması ilə nəticələndi.

- 1922-ci ilin martında N. Nərimanov Azərbaycandan uzaqlaşdırıldıqdan sonra, onun əleyhdarları tam arxayın bir şəraitdə Azərbaycana və azərbaycanlılara qarşı öz fəaliyyətlərini daha da genişləndirdilər. N. Nərimanov tərəfdarlarına ciddi divan tutuldu. Bəziləri partiya sıralarından çıxarıldı, digərləri isə öz mövqelərini gizlətməyə məcbur oldular.

- Azərbaycan rəhbərliyində olan ixtilaflara, çəkişmələrə və mübarizə aparan tərəflərə münasibətdə mərkəz antiazərbaycan mövqeyi ilə birtərəfli yanaşırdı. N. Nərimanov və başqa milli ruhlu kommunistlərin ədalətli mübarizəsi partiyaya zidd, millətçilik və ziddiyyətləri törədən çəkişmə kimi qəbul edilirdi.

- Artıq 20-ci illərin ortalarında milli məsələ ətrafında antiazərbaycan qüvvələrə qarşı mübarizədə özünəməxsus milli baxışları olan Əyyub Xanbudaqov tək qalmışdı. Ə. Xanbudaqov əvvəllər N. Nərimanova deyil, Mırzoyana arxalanırdı, çünki milli ruhlu cavanları N. Nərimanova qarşı qoyurdular. Ə. Xanbudaqova, R. Axundova və b. kommunistlərə də bu cür yanaşılmış, sonra da gözdən salınmışdılar. Digər tərəfdən gənc kommunistlər arasında da ziddiyyət salınaraq siyasi səhnədən uzaqlaşdırıldılar. Vaxtilə kommunizm ideyalarına inanaraq, xalqın xoşbəxtliyini də görən və bu yolda vicdanla mübarizə aparanların taleyi son dərəcə acınacaqlı qurtardı.

- 1920 - 1925-ci illərdəki sənədlərin araşdırılması, rəhbərlikdəki ixtilaf və çəkişmələrin təhlili, həm də belə bir nəticəyə gəlməyə əsas verir ki, aprel çevrilişindən sonra hakimiyyətə gələn, xalqın xoşbəxtlik və azadlıqlarını sosializm ideyalarında görən milli ruhlu kommunistlərin, eləcə də xalqın xeyli hissəsi artıq mövcud üsul-idarədən çox narazı və bədgüman olmuş və aldadılmış olduqlarını başa düşmüşdülər.

N. Nənmanovun, M. Qədirlinin, Ə. Əhmədovun, B. Talıblının 20-ci illərin ortalarında siyasi baxışlarının dəyişməsi, Mərkəzin Azərbaycanda, eləcə də Şərqdə siyasətinin iflasa uğraması və bu siyasətin Azərbaycan xalqının mənafeyinə zidd olması artıq şəksiz idi. Onlar artıq bu siyasət haqqında deyil, bu siyasətdən xilas olmaq haqqında düşünürdülər.

Beləliklə də, 20-ci illərdə rəhbər dairələrdə baş verən ixtilaflar və daxili-siyasi çəkişmələr Azərbaycanın siyasi tarixində öz mənfi nəticələrini vermiş, inzibati-amirlik sisteminin və totalitar rejimin formalaşmasına zəmin yaratmışdı.

downloaded from KitabYurdu.az

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1.Əliyev H. Ə. Müstəqilliyimiz əbədidir. 14 cilddə. Bakı, Azərnəşr, 1997-1998, I c. s.570.
2. Əliyev H. Ə. Minilliklərin qovşağında (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti). XXI Yeni Nəşrlər Evi. Bakı, 2001, s.183.
3.«Ağ ləkələr» silinir (tərtibçi - Osman Mirzəyev). Bakı, 1991, s. 67.
4.«Azadlıq» qəz., 1991, 1992, 1998.
5.Azərbaycan Kommunist Partiyasının 20-30-cu illər tarixinin bəzi məsələləri. Bakı, Bakı Dövlət Universiteti, 1990, s. 93.
6.Azərbaycan Kommunist Partiyasının qurultayları, konfransları və MK plenumlarının qətnamə və qərarları, I c, Bakı, Azərnəşr, 1987, s. 712.
7.Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. Bakı, Azərnəşr 1986, s. 502.
8.«Azərbaycan ordusu» qəz., 19.04.1996.
9.«Azərbaycan» qəz., 1997, 1998, 2000.
10. Azərbaycan arxivi jur., № l-2, 1988.
11. Azərbaycan Respublikası Elmlər Akademiyasının Tarix İnstitutunun Elmi Arxivi.
12. Azərbaycan Respublikası Dövlət Arxivi.
13. Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi.
14. Azərbaycan Sovet Ensiklopediyası, VII c, Bakı, Azərb. Sovet Ensiklopediyasının Baş redaksiyası, 1983, s. 624, Xc, 1987, s. 608.
15. Azərbaycan Sovet hakimiyyəti uğrunda fəal mübarizələr (Biblioqrafik oçerklər). Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1958, s. 411.
16. Azərbaycan SSR-nin 40 illiyi. Məqalələr məcmuəsi. Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1960, s.391.
17. Azərbaycan tarixi, III c, Bakı, Elm, 1973, s. 548.
18. Azərbaycan tarixi, IV c, Bakı, 2000, s. 568.
19. Baykara H. İstiqlal mübarizəsi tariximizdən Bakı, Azərnəşr, 1992, s. 276.
20. Bakı Üniversitetinin xəbərləri (sosial-siyasi elmlər seriyası), 1995,1996.
21. Bünyadov Z. Qırmızı terror. Bakı, Azərnəşr, 1992, s.329.
22. Dirçəliş XX əsr jur., 1998, 1999
23. Elmlər Akademiyasının xəbərleri jur., 1990, №1.
24. «Elm və həyat» jur., 1991, №11-12, 1992, №4-6, 7-9, 1996, №4-6.
25. Elçin. Nəriman Nərimanov: şəxsiyyəti və fəaliyyəti. Bakı, Azərnəşr, 1997, s.28.
26. Əhmədov T. Nəriman Nərimanov. Bakı, Yazıçı, 1982, s. 299.
27. Əhmədov X. Azərbaycanda sovetlərin yaranması və möhkəmləndirilməsi (1920-1925-ci illər). Bakı, Azər.SSR EA nəşr, 1966, s. 186.


downloaded from KitabYurdu.az

28. Əhmədova F. Şəxsiyyətlərarası münasibətlər tarixindən: N.Nərimanov və V.İ.Lenin. «Azərbaycan müəllimi» qəz., 23.01.96.
29. Əhmədova F. Onu xalqdan təcrid edirdilər... «Xalq» qəz., 13.04.97.
30. Əhmədova F. N. Nərimanov şəxsiyyəti əsr ayrıcında. «Azərbaycan» qəz., 15.04.97.
31. Əhmədova F. Bolşevizmin Şərq siyasətində N. Nərimanovun mövqeyi. Ekologiya, fəlsəfə, mədəniyyət. 12-ci buraxılış, Bakı, 1997.
32. Əhmədova F. Siyasi portret: Nəriman Nərimanov. Elm, 1997, №3.
33. Əhmədova F. Nəriman Nərimanov - ideal və gerçəklik. Bakı, «Elm və həyat» nəşriyyatı, 1998, s. 170.
34. Əhmədov H. N. Nərimanovun həyatı, fəaliyyəti, pedaqoji fikirləri və tibbi baxışları. Bakı, 2004, s.282.
35. Əhmədova F. Nəriman Nərimanov və müasir ictimai fikir. «Elm və həyat», 2000, № 1-2.
36. Əhməd bəy Ağayevin N. Nərimanova məktubu. «Kommunist» qəzeti.
37. Əliheydər Qarayev. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1961, s.96.
38. Əliyev X. Azərbaycan Kommunist Partiyasının fəhlə-kəndli ittifaqının möhkəmləndirilməsi uğrunda mübarizə tarixindən. Bakı (Azərb. SSR NS-nin Ali və Orta İxtisas təhsili komitəsi S.M.Kirov adına ADU), 1961, s. 414.
39. Əfəndiyev S.M. Seçilmiş əsərləri, II c, Bakı, Azərnəşr, 1990, s. 397.
40. Əzizbəyova P. Azərbaycanda sovet hakimiyyətinin qurulmasında böyük rus xalqının qardaşlıq köməyi. Bakı, Azərnəşr, 1954, s. 45.
41. Hacıyev A. 20-ci illərin siyasi tarixinin bəzi məsələləri. Bakı, Bakı Üniversitetinin nəşriyyatı, 1997, s.144.
42. Həsənov C. «Ağ ləkələrin qara kölgəsi». Bakı, «Gənclik», 1991, s. 200.
43. Həsənov C. Nəriman Nərimanov - milli təmayüllü kommunist. Bakı, 2004.
44. Həsənov H. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti, Bakı, 2005, s.347.
45. Hüseynov A.Ə. Həbib Cəbiyev (Bioqrafik oçerk). Bakı, Azərnəşr, 1975, s.72.
46. Hüseynov A.Ə. Əliheydər Qarayev. (Bioqrafik oçerk). Bakı, Azərnəşr, 1961, s.96.
47. «Xalq qəzeti» qəz., 1997, 1998, 2000.
48. İbişov F. Azərbaycanda 20-ci illərin birinci yarısında kəndə münasibətdə ixtilaflar. Tarix və onun problemləri, 1997, № 1, s.77-81.
49. İbişov F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-30). Bakı, «Mütərcim», 1996, s.168.
50. İbrahimli X. Azərbaycan siyasi mühacirəti. Bakı, Elm, 1996, s. 308.
51. İbrahimli F. Aprel işğalı: Azərbaycanda siyasi və milli təqiblər. Azərbaycan Xalq Cümhuriyyəti tarixinin problemləri (Beynəlxalq elmi sessiyası, mart-may 2003). s. 19-26.

downloaded from KitabYurdu.az

52. İbrahimov Z. Sosialist inqilabı uğrunda Azərbaycan zəhmetkeşlərinin mübarizəsi. Bakı, Azərnəşr, 1957, s.588.
53. İsgəndərov M. S. Kirov Azərbaycanda. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1965, s.239.
54. İsgəndərov M. Sovet hakimiyyətinin möhkəmləndirilməsi uğrunda Azərbaycan Kommunist Partiyasının mübarizəsi. (1920-ci ilin mayı - 1921-ci ilin fevralı) Kommunist Partiyası Azərbaycanda sovet hakimiyyətinin qələbəsinin və sosializm quruculuğunun təşkilatçısıdır. Bakı, Azərnəşr, 1958, s. 540.
55. İsmayılov E., Nəsənov C, Qaffarov T.L. Azərbaycan tarixi. Bakı, 1995, s. 353.
56. İstila qurbanları. Bakı, Azərnəşr, 1993, s. 35.
57. Katibli M. Çingiz İldırım. Bakı, Azərnəşr, 1964, s. 118.
58. Katibli M. Qəzənfər Musabəyov. Bakı, Azərnəşr, 1958, s. 36.
59. «Kommunist» qəz., Bakı (Azərb. dilində), 1989, 1990.
60. Köçərli F. Nəriman Nərimanov. Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1965, s. 340.
61. Köçərli F. Nəriman Nərimanov yeni təfəkkür işığında. AEA-nın «Xəbərləri», Tarix, fəlsəfə, hüqüq seriyası, Bakı, 1991.
62. Köçərli T. Qarabağ yalan və həqiqət. «Əbilov, Zeynalov və oğulları» İTK-nın mətbəəsi. Bakı, 1998, s. 244.
63. Köçərli X. Azərbaycan 1920-1940-cı illərdə. Tədris vəsaiti. Bakı, 2003, s. 230.
64. Qaffarov T.V. Azərbaycan tarixi (1920-1991). Bakı, Mütərcim, 1999, s. 279.
65. Qəndilov S. Partiyanın gücü onun birliyindədir. Bakı, Azərnəşr, 1964, s. 44.
66. Qəndilov S. Azərbaycan Kommunist Partiyası sıralarının təmizliyi uğrunda mübarizə tarixindən (ADU-nun elmi əsərləri), Bakı, 1964. № 2.
67. Qəndilov S. Azərbaycan partiya quruculuğu məsələləri. Bakı, Azərnəşr, 1971, s. 292.
68. Qəndilov S. 20-ci illərdə sovet Azərbaycanında partiya həyatının bəzi məsələləri. Azərbaycan Kommunist Partiyasının 20-30-cu illər tarixinin bəzi məsələləri. Bakı, Bakı Dövlət Universiteti, 1990, s.3-7.
69. Qəndilov S.T., Osmanova R.M. Sovetləşmənin başlanğıcında müstəqillik, yerli şərait və milli mənafe məsələlərində Azərbaycan rəhbərliyində ixtilaflar (1920-1922-ci illər), Bakı Universitetinin Xəbərləri (sosial-siyasi elmlər seriyası), № 1, 1995 s.115-126.
70. Qəhrəmanov B. Doktor Nərimanov. Bakı, Azərnəşr, 1990, s. 55.
71. Quliyev M. Azərbaycanda dövlət və din münasibətləri (İslam dini timsalında 1920-2000-ci illər). Bakı, Açıq dünya, 2002, s. 302.
72. Quliyev C.B. V.İ.Lenin və Azərbaycanda sovet hakimiyyətinin qələbəsi və möhkəmləndirilməsi uğrunda mübarizə. Bakı, Azərnəşr, 1957, s. 57.
73. Qurbanov B.S. Bakı fəhlələrinin Azərbaycan kəndinə hamilik köməyi (1923-1934 illər). Bakı, (Azərb. SSR EA tarix institutu), 1960, s.176.
74. Qurbanov Ş. Nəriman Nərimanov dünyası. Bakı, Azərnəşr, 2001, 90 s.

downloaded from KitabYurdu.az

75. Qurbanov Ş. Nəriman Nərimanov ömrünün son illəri. Bakı, Azərbaycan, 2003, s. 376.
76. Lenin V.İ. Əsərlərinin tam külliyatı, I-XXXXXV c, Bakı, Azərnəşr, 1973-1985.
77. Mədətov Q. Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. Bakı, Azərnəşr, 1958, s.164.
78. Mədətov Q. Ruhulla Axundov. Bioqrafik oçerk. Bakı, Arəznəşr, 1983, s.59.
79. Məhərrəmov N. Daşnaksütyun və Azərbaycanın taleyi. Bakı, Azərbaycan nəşriyyatı, 1995, s.95.
80. Məhərrəmov N. Getsin gəlməsin... Bakı, Azərnəşr, 1992, s.144.
81. Məmmədov V. Nəriman Nərimanov. Bakı, Uşaqgəncnəşr, 1957, s. 136.
82. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı, Nicat, 1992, s. 346.
83. Məmməd Cəfər. Tarixin dərsləri. «Elm və həyat», 1991, №11-12, 1992, №1-3, 4-6, 7-9.
84. Mirhadiyev M. Azərbaycanda Sovet hakimiyyətinin birinci illəri. «Təbliğatçı», Bakı, 1945, №2.
85. Mirhadiyev M. Kapitalizmdən sosializmə keçid dövründə Azərbaycanda proletariat diktaturası dövlətinin təşkili və inkişafı (1917-1937-ci illər). Dərs vəsaiti. Bakı, Maarif, 1973, s. 106.
86. Mirhadiyev M. Proletariat diktaturası haqqında Lenin təliminin Azərbaycanda həyata keçirilməsi. Bakı, Azərnəşr, 1963, s. 220.
87. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, Bakı Universitetinin nəşriyyatı. 1996, s. 329.
88. Nəcəfov X.S. Ağamalı oğlunun ictimai-siyasi və ateist görüşləri. Bakı, Azərb. Dövlət Nəşriyyatı, 1968, s. 142.
89. Nərimanov N. Məqalələr və nitqlər. Bakı, Azərnəşr, 1971, s. 265.
90. Nərimanov N. «Ucqarlarda inqilabımızın tarixinə dair». (İ.V.Stalinə məktub). Bakı, Azərnəşr, 1992, s. 80.
91. Nərimanov N. Seçilmiş əsərləri. Bakı, Azərbaycan Milli Ensiklopediyası, 2001, s. 470.
92. Nərimanov N. Məktublar və Qarabağ məsələsinə dair sənədlər. Bakı, «Nurlan», 2002, s. 104.
93. Paşayev A. Azərbaycanda sovet totalitar rejimi necə yarandı. «Azərbaycan» qəz., 21-22.07. 2001.
94. Rəfiyev B. Aysberqin sualtı hissəsi. Bakı, Azərnəşr, 1995, s. 56.
95. Rəfiyev B. Gənc Azər. (İstintaq materialları üzrə). Azərnəşr, Bakı, 1991, s. 41.
96. Ordubadi M.S. Nərimançılıq. Xatirələr, «Azərbaycan» qəzeti.
97. «Respublika» qəz., 1999, 2000, 2001.
98. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, Elm, 1990, s. 116.
99. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı, çağdaş Azərbaycan tarixi. Bakı, Azərnəşr, 1990. s. 111.

downloaded from KitabYurdu.az

100. Rəsulzadə M.Ə. Stalinlə ixtilal xatirələri. Bakı, Elm, 1994. s.84
101. Səlimov M. Azərbaycan Kommunist Partiyası yeni iqtisadi siyasətə keçid dövründə (1920-1922-ci illər). Bakı, Azərnəşr 1959. s. 123.
102. Siyasi tarix, I c, Bakı, Şur, 1995, s.180.
103. Stelnik B.Y. Mir Bəşir Qasımov. Azərb. Dövlət nəşriyyatı, Bakı, 1960, s. 91.
104. V.İ.Lenin Azərbaycan haqqında. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1958, s. 228.
105. Ахмедов А.Б. Национальное движение партии и общественные деятели Азербайджана в 1918-1925 годах. Глазами очевидца. Баку. Нурлан, 2006. с. 111.
106. Агамалиева Н., Худиев Р. Азербайджанская Республика. Страницы политической истории 1918-1920 гг. Баку, Сабах, 1994, 112 с.
107. Ахундов Р.А. Доклад по национальному вопросу на XII Общебакинской конфренции АКП. Стенографический отчет. Баку, 1923, 17 с.
108. Алиев Г.А. Личная позиция. Баку, Издательство «Азербайджан», 1994, 28 с.
109. Алиев Г.А. Доклад на торжественном собрании посвященном 100 летию со дня рождения Н.Нариманова; Речь на открытии памятника Н.Нариманову. В кн. Нариман Нариманов (материалы юбилейных торжеств, посвященных 100 летию со дня рождения). Баку, 1974. Речь на открытии памятника Н.Нариманову в г. Ульяновске. См..Памятник Н.Нариманову на родине В.И.Ленина. Баку, 1978.
110. Асланов С. Александр Серебровский. Азербайджанское государственное издательство. Баку, Азернешр, 1974, 93 с.
111. Байрамов К.М. Н.Нариманов и борьба за советскую власть в Азербайджане. Известия АН Азерб. ССР, 1972, № 3.
112. «Бакинский рабочий» газ.,1920-1925.
113. «Бакинские известия» газ.,1923-1925.
114. Борьба за победу Советской власти в Азербайджане. 1918-1920 гг. Документы и материалы. Баку, Издательство АН Азербайджанской ССР, 1967, 569 с.
115. «Вышка» газ., 1990-1992.
116. Воспоминания азербайджанских коммунистов о В.И.Ленине. Баку, Азернешр, 1958, 86 с.
117. Гаджибейли Дж. Избранное. Баку, Азернешр, 1993, 127 с.
118. Геворкова М.П. Государственная деятельность Наримана Нариманова (1917-1925 гг). Автореферат дисс..., к.и.н, 1987, Баку.
119. Гулиев Дж.Б. К истории образования второй Республики Азербайджана. Баку, Элм, 1997, 164 с.
120. Гулиев Дж. Б. Под знаменем Ленинской национальной политики. Баку, Азербайджанское государственное издательство, 1972, 458 с.

downloaded from KitabYurdu.az

121. Гусейнов И. А. Историческое значение большевисткого лозунга «Независимый Советский Азербайджан». Ученые записки АГУ, 1957, №10.
122. Декреты Азревкома. Баку, Азернешр, 1988, 520 с.
123. Зейналов Р.Э. Военное строительство в Азербайджанской ССР 1920-1941. Баку, Элм, 1990, 208 с.
124. История КПСС в 6 томах, т.IV, М., Политиздат, 1970, 663 с.
125. История национально-государственного строительства в СССР (1917-1936 гг.). Москва, Мысль, 1972, 510 с.
126. Интернациональная помощь XI армии в борьбе за победу советской власти в Азербайджане. Баку, Азернешр, 1989, 195 с.
127. «Известия временного революционного комитете Азербайджанской Советской Республики», жур., 1920, № 3, 1921, № 1.
128. Караев А. Из недавнего прошлого. Баку, Азернешр, 1923, 83 с.
129. Казиев М.А. Буняд Сардаров. Баку, Азернешр, 1964, 64 с.
130. Казиев М.А. Нариман Нариманов Баку, Азгосиздат, 1970, 187 с.
131. К истории образования Карабахской автономной области Азербайджанской ССР. 1918-1925. Документы и материалы. Баку, Азернешр, 1989, 33 с.
132. «Коммунист» газ. (на русском языке), Баку, 1920-1922.
133. Конфликт в Нагорном Карабахе. Сборник статей. Баку, Азернешр, 1990.
134. Нариманов Н. Избранные произведения, т.1, Баку, Азернешр, 1988, 376 с; т.II, Баку, Азернешр, 1989, 766 с.
135. Нариман Нариманов. Избранные статьи, речи и письма. Баку, Язычы, 1987, 103 с.
136. Нариманов Н. Письма и некоторые документы по Карабахскому вопросу. Баку, Нурлан, 2002, 120 с.
137. Очерки истории КП Азербайджана, т.1, Баку, Азернешр, 1985, 478 с.
138. Орджоникидзе Г.К. Статьи и речи, т.1, Москва, Госполитиздат, 1956, 516 с.
139. Первый Всеазербайджанский съезд Советов рабочих, крестьянких, красноармейских и матросских депутатов. Стенографический отчёт, Баку, Издательство Аз ЦИК, 1922, 150 с.
140. Полонский Л. Чингиз Ильдрым. Баку, 1985, 32 с.
141. «Правда» газ., Москва, 1920-1925.
142. Сталин И.В. Марксизм и нацианально-колониальний вопрос. Сборник статей и речей. Ленинград, Госполитиздат, 1939, 295 с.
143. Серебровский А. Руководство В. И. Ленина востановлением нефтяной промышленности. Москва, Госполитиздат, 1958, 16 с.
144. Стенографический отчет IX обще бакинской конференции АК(б)П (18-21 января 1922 года).

downloaded from KitabYurdu.az

145. Стенографический отчет XII обще бакинской конференции АК(б)П (6-12 июня 1923).
146. Стенографический отчет XIII обще бакинской конференции АК(б)П (26 апреля - 4 мая 1924 года).
147. Токаржевский Е. Очерки истории Советского Азербайджана в период перехода на мирную работу по восстановлению народного хозяйства (1921-1925). Баку, издательство АН Азербайджанской ССР, 1956, 210 с.
148. Фатуллайев Э. Нариман Нариманов. Баку, Ганун, 1996, 48 с.
149. Худиев Р.Н. Нариман Нариманов и территориальная целостность Азербайджана. Возрождение: XXI век, 1999, № 15, с. 132-137.
150. Мусабеков Г. Избранные статьи и речи в двух томах, т.1, 1920-1927 гг., Баку, Издательство Академии Наук Азербайджанской ССР, 1960, 196 с.
151. Altstadt A. The Azerbaijani Turks. Power and identity under Russian Rule. Studies of nationalities. Stanford, California, Hoover institution press Stanford University, 1992, p.331.
152. Kazemzadeh F. The struggle for Transcaucasia (1917-1921), New-York: Philosophical library, Oxford: George Ronald, USA, 1951, p.356.
153. Svietochovki T. Russian Azerbaijan, 1905-1920. Cambridge, UK, 1985, p.373.

## İnternet materialları

154. Архив ЦККП(б) Грузии, протокол Пленума ЦККП(б) Грузии №13, 15 сент. 1922 г. IV. К истории борьбы с национал-уклонизмам в рядах коммунист, партии / большевиков Грузии (1913-1924 гг.)
http: //kohet. narod.ru/beria 4. htm.
155. Дело Мдивани - Окуджавы (1922-1937).
http: //www. 1917 com/Marxism/ Trotsy/ VO/VO-No-56-57.
156. Шафиев Абдулла. С клеймом мусаватист. Мемуары солдата мусаватской армии Абдуллы Шафиева. Опубликованы в журнале «Наше время», №3 за 1999 г. №1 за 2000 г. Мемуары перевел и предоставел в редакцию журнала «Наше время» к.и.н. Идрис Алиев.
http: //www. az /nashe-vremya/5/Musavat. htm.
157. Четвертое совещание ЦК РКПС ответственными работниками национальных республик и областей. 8-12 июня 1923 г. Стенографический отчет. М. 1923.
http: //www. Magister msk. ru//Library/stalin 5-35. htm.

downloaded from KitabYurdu.az

## KİTABIN İÇİNDƏKİLƏR

**GİRİŞ**

**I FƏSİL**. AZƏRBAYCANIN BOLŞEVİK

RƏHBƏRLİYİNDƏ İXTİLAF VƏ ZİDDİYYƏTLƏRİ

YARADAN ŞƏRAİT VƏ SƏBƏBLƏR

1.1 Aprel çevrilişindən sonra Azərbaycanda kütləvi zorakılıqlar və ictimai-siyasi həyatın gərginləşməsi
1.2 Milli dövlət mexanizminin dağıdılması, müstəqilliyin və ərazi bütövlüyünün itirilməsi
1.3 Dövlət idarəçiliyində yerli şəraitin və milli xüsusiyyətlərin nəzərə alınmaması

**II FƏSİL**. MİLLİ SİYASƏT ƏTRAFINDA

RƏHBƏR DAİRƏLƏRDƏ İXTİLAFLAR VƏ SİYASİ

ÇƏKİŞMƏLƏR

2.1 Partiya rəhbərliyində ixtilafların parçalanmaya səbəb olması
2.2 Mübarizə aparan tərəflərə münasibətdə mərkəzin anti-azərbaycan mövqeyi, N.Nərimanovun Azərbaycandan uzaqlaşdırılması
2.3 Milli siyasət ətrafında mübarizənin kəskinləşməsi, antiazərbaycan qüvvələrin qələbəsi

**NƏTİCƏ**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**

downloaded from KitabYurdu.az

**Kitab “Zərdabi” LTD nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozonlardan çap olunmuşdur.**

**MÜƏSSİSƏNİN DİREKTORU**: ELMAN QASIMOV

**NƏŞRİYYAT REDAKTORU**: M. POLADOVA

**KORREKTORLAR**: MİNAYƏ, FİDAN

**BURAXILIŞA MƏSUL**: Ə. MƏHƏRRƏMOV

**KOMPÜTER TƏRTİBÇİLƏRİ**: ALİYƏ, KƏBİRƏ

Yığılmağa verilmişdir: 04.04.2007

Çapa imzalanmışdır: 26.06.2007

Kağız formatı: 60×84 1/16

Həcmi: 12,25 ç.v.

Tirajı: 500

downloaded from KitabYurdu.az